Məlumdur ki, müasir dövrdə bütün dünyada miqrasiya prosesinin genişlənməsinin, qaçqınlar və məcburi köçkünlər probleminin genişlənməsinin əsas səbəblərindən biri müharibə və münaqişələrlə bağlıdır ki, bu da ölkənin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ciddi təhdidlərin yaranmasına səbəb olur. Bu prosesin tənzimlənməsi rasional funksiyalaşan vahid miqrasiyaya nəzarət sisteminin yaradılmasını, həmçinin qeyri-qanuni miqrasiyanın qarşısının alınması üçün qanunvericiliyin təkmilləşdirilməsini, həmsərhəd dövlətlərlə razılaşmalar prosesinin fəallaşdırılmasını və bu istiqamətdə qarşılıqlı vəzifə və məsuliyyətləri nəzərə alan uyğun müqavilələrin bağlanmasını, həmçinin regional və beynəlxalq əməkdaşlığın, yəni əlaqəli miqrasiya siyasətinin realllaşdırılmasını, beynəlxalq təşkilatlar, xüsusilə də Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlığın yaradılmasını və s. tələb edir [10].

Müstəqillik əldə etdikdən sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə üzləşən Azərbaycan Respublikası milli maraqların qorunması istiqamətində hərbi təhlükəsizlik siyasəti həyata keçirməyə başladı. Hərbi təhlükəsizlik dövlətin təhlükəsizlik siyasətinin tərkib hissəsi olub, hərbi qüvvələr və dövlətin müvafiq hakimiyyət orqanları tərəfindən həyata keçirilir. Hərbi təhlükəsizlik dövlətin müdafiə qüvvələrini dəstəkləyir və digər dövlətlərlə dostluq münasibətlərinin saxlanmasına, hərbi münaqişələrin qarşısının alınmasına yönəlir. Hərbi təhlükəsizlik siyasəti dövlətin öz maraqlarını və suverenliyini müdafiə etmək, hərbi müdaxilələrə və digər təzyiq formalarına qarşı durmaq, vətəndaş müharibələrinin, etnik münaqişələrin qarşısını almaq hazırlığını və bacarıqlarını ehtiva edir.

Heydər Əliyev elə bir siyasi kursun əsasını qoydu ki, bu kurs Azərbaycan durduqca məmləkətimizin dövlətçilik konsepsiyası kimi yaşayacaq. Ən nəhayət, Heydər Əliyev Azərbaycana elə bir layiqli davamçı bəxş etdi ki, qurduğu dövlət və yaşamaq haqqı verdiyi millət bu gün ona - Prezident İlham Əliyevə alternativsiz inam, etimad ünvanı kimi yanaşır! (5)

İlham Əliyev prezidentliyə başladığı ilk gündən Heydər Əliyevin ənənələrini davam etdirərək, özünün əsas məqsədinə- Azərbaycanı inkişaf etmiş

sabit iqtisadiyyata malik, ictimai münasibətlərdə demokratik prinsiplərin bərqərar olduğu müasir dövlətə çevirmək məqsədinə nail olmuşdur. Öz nəhəng inamlı addımlarıyla Azərbaycan siyasi səhnəsini titrədən İlham Əliyev faktoru Azərbaycanın sağlam qüvvələrini və rasional düşünən insanlarını sevindirdiyi qədər müxalifəti məyus edir. Və bu mövcudluq xalq arasında geniş nüfuza, Yeni Azərbaycan Partiyası kimi monolit siyasi gücə, yüksək intellektuala, kifayət qədər sanballı iqtisadi və siyasi təcrübəyə, qüdrətli və böyük Heydər Əliyev siyasi məktəbinə, şəffaf, sınanmış və şərəfli genetik keyfiyyətlərə söykənir. Bu güc qarşısında duruş gətirmək, bu keyfiyyətlər və onların verdikləri üstünlüklər qarşısında aciz qalmamaq mümkün deyildir. (3 s.200) Prezident İlham Əliyev qeyd edir ki: "Azərbaycanda siyasi islahatlar çox sürətlə aparılır. Bu da bizim prinsipial və düşünülmüş seçimimizdir. İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və bu gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir". Prezidentin yüksək diplomatik fəaliyyəti hərbi əməliyyatlarımızın gerçəkləşməsinə beynəlxalq hüquqi zəmin formalaşdırıb: düzgün iqtisadi siyasət Azərbaycanın bu savaşdan qalib çıxması üçün fövqəladə gücünü yaradıb; uğurlu hərbi islahatlar ordumuzun qüdrətini artıraraq, onu Qarabağı düşməndən tam təmizləyəcək səviyyəyə yüksəldib. Bu istiqamətlər Azərbaycanın iqtisadi-siyasi-hərbi gücünü müəyyənləşdirən əsas amillər, onun qələbəsinin labüdlüyünü şərtləndirən mühüm məqamlardır.(6)

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı iqtisadi islahatların və quruculuq işlərinin ideya-siyasi təməllərinin elmi-fəlsəfi tədqiqinə böyük ehtiyac var. Heç bir uğur təsadüfi qazanılmır. İndiki müvəffəqiyyətlərimiz məhz Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrələridir. Ona görə Azərbaycanda müasir dövlət quruculuğunun fəlsəfi əsaslarının öyrənilməsi vətəndaş cəmiyyətinə keçidin başlıca tendensiyalarını müəyyənləşdirmək üçün çox vacibdir.(8 s.128)

Azərbaycan Respublikasının əsas inkişaf prioritetləri ilk növbədə onun milli təhlükəsizliyinin və milli maraqlarının formalaşması, təmin olunması ilə bağlıdır. Ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini – dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. vəzifələrin həyata keçirilməsini tələb edir. Cəmiyyətdə cərəyan edən sosial proseslər göstərir ki, burada inkişaf ümumsivilizasiya inkişafının məcrası baxımından doğru seçilib istiqamətləndirilir, burada həm də milli maraqlar, dövlətin təhlükəsizliyi üstünlüyü təmin olunur.

**Açar sözlər:** *təhlükəsizlik, milli təhlükəsizlik, beynəlxalq təhlükəsizlik, milli maraqlar, Dağlıq Qarabağ münaqişəsi*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. www.mdi.gov.az/files/.../Milli_tahlukasizlik_konsepsiyasi.do...*

*2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası. Files .preslib.az/projects /azerbaijan /gl8.pdf*

*3. Heydər Əliyev Müasir Azərbaycan Parlamentinin banisidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları və Milli Məclisdə Çıxışları. Azərbaycan Respublikası Milli Məclisin Nəşri, Bakı-2008.*

*4. Həsənov, Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress" nəşriyyat evi, 2011.*

*5. Hüseynli, İ. Azərbaycanın özü qədər əbədi// Azərbaycan qəzeti, 11may2016-cı il*

*6. Hüseynli,İ, İlham Əliyev düşmənin bütün hərbi hədəflərinin məhv olunacağını Lələtəpədən bəyan etdi// Azərbaycan qəzeti 15 noyabr 2016-cı il*

*7. Qasımov, C. ,Nağıyev, N. Milli təhlükəsizliyin əsasları. MTN Maddi texniki Təminat Baş idarəsinin nəşriyyat –poliqrafiya mərkəzi.Bakı-2015, 408 s.*

*8. Mehdiyev, R. Yeni siyasət: İnkişafa doğru. II cild, Bakı: "Oskar" NPM-nin mətbəəsi, 2008*

*9. Müasir Azərbaycan dövrün baxışında: 1-ci cild Bakı,2011,Azərbaycan qəzetinin redaksiyası, buraxılışa məsul Bəxtiyar Sadıqov.*

*10. Фененко Ю.В. Миграция и безопасность в России [Электронный ресурс] // 26.01.2008.*

-:www.c-society.ru; www.viperson.ru.

**Г.Меликли**
**Преподаватель кафедры политологии и социологии,**
**Старший научный сотрудник отдела «Наследие Гейдара Алиева и философия азербайджанства» Института философии НАНА, диссертант по подготовки доктора наук, доктор философии по политологии.**

**РЕЗЮМЕ**

Критерии безопасности каждого государства связан с установлением отношений, которые не будут подрывать его национальные интересы в системе региональных и международных отношений. Если внутренняя безопасность страны во многом зависит от политического компромисса властных отношений с правительством, а также от установления особых властных отношений с различными сегментами и благосостояния населения, то внешняя безопасность напрямую связана с политической и экономической властью страны.

**Ключевые слова:** *безопасность, международная безопасность, региональная безопасность, национальные интересы, Нагорно-Карабахский конфликт*

**G.Melikli**
**Lecturer, Department of Political Science and Sociology,**
**Senior Researcher of the Department of Heritage of Heydar Aliyev and the Philosophy of Azerbaijanism of the Institute of Philosophy of ANAS, Ph.D. candidate for political science**

**SUMMARY**

Criteria of safety of each state it is connected with establishment of the relations which won’t undermine his national interests in the system of the regional and international relations. If internal security of the country in many respects depends on a political compromise of the imperious relations with the government and also on establishment of the special imperious relations with various segments and welfare of the population, then external safety is directly connected with the political and economic authority of the country.

**Keywords:** *security, international security, regional security, national interests, the Nagorno-Karabakh conflict.*

UOT 327 (479.24)

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ İXRACININ ŞAXƏLƏNDİRİLMƏSİ SİYASƏTİ VƏ ONUN REGİONUN ÜMUMİ GEOİQTİSADİ VƏZİYYƏTİNƏ TƏSİRİ

**GÜLŞƏN XALIQOVA**
*Qərbi Kaspi Universitetinin dissertantı, ADPU-nin müəllimi*

*E-mail: xaliqova.gulshen@mail.ru*

XX əsrin ortalarından etibarən Azərbaycanın aqrar ölkədən sənaye ölkəsinə keçidi prosesi daha da sürətləndi. 70-80-ci illərdə bütün respublika boyunca müasir infrastruktur sisteminin qurulması Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı tədbirlərin mühüm hədəfləri idi. Neft təsərrüfatının yenidən qurulması, xüsusilə əsas diqqətin dənizdə neftçıxarmaya yönəldilməsi bu məqsədlə dənizin dərinliklərindəki sahələrdə işləməyə imkan verən qazma qurğularının mürəkkəb tikinti işlərini təmin etməkdən ötrü xüsusi gəmilərin, texniki avadanlıqların alınması nəticəsində Azərbaycanın neft sənayesi yeni inkişaf mərhələsinə daxil oldu.

XX əsrin sonlarına doğru Azərbaycanda neft sənayesi öz dinamik inkişafını qorumaqda idi. “Xəzər”, “Şelf” tipli qurğulardan istifadə ilə dənizin 70, daha sonra 200 metrdən çox dərinliyində kəşfiyyat axtarış işlərinin aparılması mümkün oldu. “Bahar”, “Səngəçal Duvvanı - dəniz”, Bulla - dəniz kimi yataqlar istisimara verildi.

Müasir infrastrukturun yaradılması və ondan məqsədyönlü istifadə qısa müddətdən sonra Xəzərin Azərbaycan sektorunda dənizin 80-350 metr dərinliklərində zəngin karbohidrogen ehtiyyatlarına malik “Günəşli”, “Çıraq”, “Azəri” və “Kəpəz” yataqlarının kəşfi, neft ehtiyyatlarının iki, qaz ehtiyyatlarının isə üç dəfə artması ilə nəticələndi. Neft-qaz hasilatında azalma meyllərinin qarşısı alındı. Bütün bu tədbirlər, eləcə də böyük həcmdə neft və neft məhsullarının gəmilər vasitəsilə daşınmasına imkan verən Dübəndi dəniz terminalının, eləcə də respublikanın digər yerlərində iri tutumlu neft terminallarının tikilib istismara verilməsi, Azərbaycanı keçmiş ittifaqın vahid neft kəmərinə birləşdirən Bakı-Qroznu neft kəmərinin istifadəyə verilməsi ölkəmizdə neft emalı və neft – kimya sənayesinin inkişafına da böyük təkan verdi. Bu sahənin modernləşdirilməsi həyata keçirildi. Azərbaycanın neft sənayesində aparılan bu strateji əhəmiyyətli dəyişikliklər ölkə iqtisadiyyatının inkişafı üçün möhkəm baza yaradaraq elektrik enerjisi sektorunda da yeni inkişaf meyillərinə yol açdı. Qafqazda ən iri istilik elektrik stansiyası olan Azərbaycan (İES) inşa olundu. 2400n MVT gücündə bu elektrik stansiyası indi də milli energetika sisteminin ümumi generasiya gücünün 33 faizindən çoxunu təşkil edir. Ölkəmizdə istehsal edilən elektrik enerjisinin 36%-nin çoxu da məhz bu stansiyanın payına düşür (5).

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan müstəqilliyin ilk illərində bir sıra ağır problemlərlə üz-üzə qaldı. Bu problemlər ölkəmiz neft-qaz sənayesini də əhatə edirdi. Ölkənin iqtisadi müstəqilliyi üçün başlıca ümidlər Azərbaycanın zəngin enerji resursları ilə bağlı olsa da bu resurslardan istifadə perespektivlərinə baxışlar qeyri-müəyyən idi. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, torpaqlarımızın 20%-nin işğal olunması, bir milyondan çox vətəndaşımızın yurd-yuvasından didərgin düşməsi kütləvi işsizlik, yüksək infilyasiya nəticəsində yaranan sosial – iqtisadi böhran, silahlı qarşıdurmalar, xarici təhdidlər əziyyəti daha da ağırlaşdırırdı.

Azərbaycanın müstəqilliyinin təminatçısı ola biləcək əsas vasitə o illərdə məhz neft idi. Amma zəngin neft ehtiyyatlarına malik Azərbaycanın bu sərvətdə marağı olan geosiyasi güclərin mümkün mübarizə meydanına çevrilməməsindən ötrü düzgün strateji qərarlar tələb olunurdu. Ümummili lider Heydər Əliyevin irəli sürdüyü yeni neft strategiyası bu baxımdan bütün amilləri nəzərə alırdı. Bu yeni strategiya ölkəmizin zəngin neft – qaz ehtiyyatlarının qabaqcıl texnologiyaların köməyi ilə hasilat artımına, xarici bazarlara ixracına və əldə olunan gəlirlərin cəmiyyətin iqtisadi tərəqqisinə yönəldilməsinə

imkan yaratdı. Ulu öndərin müəllifi olduğu yeni neft strategiyası Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsaslarını formalaşdırdı (1).

Dünya iqtisadiyyatında enerji ehtiyyatlarının istehsalçısı və təchizatçılarından biri kimi Azərbaycanın yeri və rolu dəqiqləşdirərək onun bu sahədəki statusunun daha da inkişaf etdirilməsi üçün konkret istiqamətlər müəyyənləşdirildi. Ölkəmizin karbohidrogen ehtiyyatlarının mənimsənilməsinə xarici investiyaların cəlbi, enerji ehtiyyatlarının dünya bazarlarına çıxarılması üçün etibarlı enerji nəqli dəhlizlərinin yaradılması qarşıya məqsəd qoyuldu. 1994-cü il sentyabrın 20-də dünyanın qabaqcıl neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən karbohidrogen yataqlarının işlənməsi nəzərdə tutan və tarixdə "Əsrin müqaviləsi" adını almış Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) imzalanması Azərbaycanın neft-qaz sənayesinin inkişafında yeni səhifə açdı. Çox çətin və mürəkkəb şəraitdə imzalanmış bu saziş ölkənin iqtisadi və siyasi təhlükəsizliyinin də mühüm qarantı oldu. Tarixdə ilk dəfə Xəzərdə beynəlxalq əməkdaşlığın əsası qoyuldu. Yeni Texnologiyaların tətbiqi nəticəsində Azərbaycanın neft-qaz hasilatı artdı. Azərbaycanın neft sənayesində başlıca inkişaf əsasən nəhəng Azəri-Çıraq _Günəşli (AÇG) neft-qaz yataqlarının işlənməsi ilə təmin olundu. İşlənmənin əvvəlindən indiyə kimi Azəri-Çıraq –Günəşli –dən (AÇG) təxminən 455 milyon ton neft, 144,5 milyard kub metr qazın hasilatı olan bu yataqlar blokunun əhəmiyyətindən xəbər verir. Regionda qısa bir müdafiədə qlobal enerji və nəqliyyat dəhlizləri yaradıldı. Azərbaycanın sözün əsl mənasında müstəqilliyi , öz milli sərvətlərinin sahibinə çevrilməsi , heç bir dövlətin siyasi-iqtisadi aslılığında qalmaması, kifayət qədər gərgin geopolitik regionda yerləşən ölkəmizin bütün tarixi təhdidlərə rəğmən xalqımızın milli maraqlarına uyğun balanslaşdırılmış xarici siyasət kursunu qoruyub saxlaya bilməsi enerji marşurutlarının şaxələndirilməsindən keçir. Ona görə də marşurutlarının alternativliyinə nail olmaq Heydər Əliyevin irəli sürdüyü neft strategiyasının əsas prioritetləri kimi nəzərə çarpırdı. 1999-cu ildə istismara verilmiş Qərb (Bakı-Supsa) ixrac boru kəməri Azərbaycanı dünya bazarına müstəqil marşurutla çıxaran və enerji təhlükəsizliyinə beynəlxalq dəstəyi təmin edən ilk xətt oldu (8).

Bakı-Supsa kəməri təkcə ideya olaraq yox, möhtəşəm bir tarixi reallıq kimi də,onun ərsəyə gəlməsində böyük qətiyyət göstərmiş Ulu Öndər Heydər Əliyev əsəri idi. Heydər Əliyevin digər bir tarixi əsəri, Azərbaycanı regional inkişafın, enerji təhlükəsizliyinin aparıcı qüvvəsinə çevirən ölkəmizin iqtisadi və siyasi müstəqilliyini daha da möhkəmləndirən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməridir. Bu kəmərin istifadəyə verilməsindən keçən bu illər ərzində qazanılmış nailiyyətlər də bir daha sübut edir ki, Heydər Əliyevin gələcəyə baxış kimi BTC-nin iqtisadi və siyasi dividentləri çox böyükdür.

BTC-nin Azərbaycan və ümumən region üçün kəsb etdiyi mahiyyət təkcə neft nəqli ilə məhdudlaşmır. Bu kəmər Xəzər dənizinin Qara dəniz və Aralıq dənizi ilə birləşdirilməsinin ilk və uğurlu təcrübəsi simvollarıdır. BTC Azərbaycanı regionun lider dövlətinə çevirən, dünyanın bir çox dövlətləri tərəfdaşlıq münasibətlərinin qurulmasına və beynəlxalq enerji təhlükəsizliyi sistemınə xidmət edən qlobal bir layihədir. Bu kəmərin geosiyasi əhəmiyyəti kimi iqtisadi səmərəliyi də böyükdür. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə yalnız "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neft və "Şahdəniz" yatağından çıxarılan kondensat nəql olunmur. Qazaxıstan, Türkmənistan nefti ilə də bu kəmər vasitəsilə nəql edilir. Neft satışından əldə edilən vəsait ölkəmizdə infrastruktur və sosial layihələrə insan kapitalının inkişafına yönəldilib, nəticədə ölkədə iqtisadiyyatın dinamik və dayanıqlı inkişafı təmin edilib (7).

Azərbaycanın Qərblə iqtisadi və strateji əməkdaşlığının möhkəmlənməsində neft-qaz amilinin böyük rolu var. Məhz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında göstərdiyi fəaliyyətə görə ölkəmizin Qərbdə etibarlı müttəfiq imicini yaradıb. Neft respublikamızın ən zəngin təbii sərvətidir və onun ölkə iqtisadiyyatının inkişafında əvəzsiz rolu vardır. Son illər ərzində nəinki ölkəmizdə, regionda, Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük layihələr imzalanmışdır. Burada "Şahdəniz-2", TANAP və TAP layihələrini xüsusi ilə vurğulamaq olar (6).

Ulu Öndərin layiqli davamçısı Cənab Prezident İlham Əliyev çox gözəl şəkildə bildirmişdi: "Şahdəniz-2", TANAP və TAP dünyanın ən iri enerji layihələrindəndir.

Azərbaycanın uzunmüddətli enerji siyasətinə Heydər Əliyevin digər böyük töhfəsi 1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı imzalanmış saziş idi. Bu saziş dünyada qaz yatağına marağın az olduğu və enerji təhlükəsizliyi məsələsinin Avropa üçün xüsusi əhəmiyyət daşımadığı bir vaxtda imzalansa da, illər

sonra aktuallıq qazanan enerji şaxələndirilməsi, enerji təhlükəsizliyi kimi priotitetlərin burada necə uzaqgörənlikə proqramlaşdığını zamanla təsdiqlədi. Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayan həmin saziş sayəsində ölkəmiz qaz ixrac boru kəmərinin çəkilməsinə, yeni marşurutların tikilməsinə imkan yaratdı. Qeyd edək ki, "Şahdəniz" qaz yatağı istismara veriləndən indiyə kimi təxminən 91, 7 milyard kubmetr qaz, 23 milyon ton neft hasil olunub. Bakı - Tblisi – Ərzurum (Cənub-Qafqaz-Boru kəməri) ilə 51 milyard kub metr qaz ixrac olunmuşdur (2).

"Azəri-Çıraq-Günəşli" (AÇG) neft –qaz yataqları blokunun 2050-ci ilədək işlənməsi üzrə müqavilənin, bu yaxınlarda isə 25 illik müddətdə "D230" blokunun birgə kəşfiyyatı və işlənməsi üçün hasilatın pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkənin enerji strategiyasında yeni bir səhifə açdı. Bu nailiyyətlər Azərbaycanın böyük həcmdə karbohidrogen ehtiyyatlarına malik olması ilə bərabər, həm də bütün dünyada qazandığı etibarlı tərəfdaş imicindən, xarici partnyorların ölkəmizlə tarixin sınağından çıxmış əməkdaşlığa yüksək inamından irəli gəlir.

Dünya neft sənayesinin qarşıdakı onilliklərdə böyük həcmlərdə investisiyaya ehtiyac duyduğu halda bir-birinin ardınca belə anlaşmaların əldə olunması ölkənin neft sənayesinin gələcək inkişafı üçün etibarlı zəmanətdir.

Prezident İlham Əliyevin AÇG-də əsasını qoyduğu ikinci mərhələnin gələcək perespektivlərini, hazırda "Şahdəniz"də görülən işlər, yeni boru kəməri layihələri daha artıq hasilat həcmləri, böyük iqtisadi və siyasi dvidentlər təmin edən bugünkü parlaq nəticələr tamamlayır. Əgər XX əsrin müqaviləsi sayılan Cənub Qaz Dəhlizi çərçivəsində bu il də "Şahdəniz Mərhələ 2", "Cənub Qafqaz Boru Kəməri" və "TANAP" kimi ideyalar gerçəkliyə çevrilmişdir. Qlobal İqtisadi Böhran və maliyyə çətinliklərinə baxmayaraq, böyük maliyyə vəsaiti tələb edən və genişmiqyaslı infrastruktur layihəsi olan Cənub Qaz Dəhlizinin uğurla icrası Azərbaycanın irimiqyaslı layihələri həyata keçirmək əzmini bir daha nümayiş etdirir (3).

Təbii qaz ehtiyyatları ilə bu strateji layihənin mənbəyi, həm də öz iradəsi ilə bu ehtiyyatların Avropa bazarlarına nəqlinin müəllifi kimi Azərbaycan bu gün enerji təhlükəsizliyinin etibarlı təminatçısı kimi qəbul edilir. Çünki "Cənub Qaz Dəhlizi" təkcə ölkəmizin ixracatçı, tranzit rolunda uzunmüddətli inkişafını təmin etmir, həm də böyük bir qitədə çox tərəfli əməkdaşlıq modelini formalaşdırır.

Cənub Qaz Dəhlizinin reallaşmasında qabaqcıl layihələrdən biri hesab olunan TANAP Azərbaycanın ən mühüm enerji layihəsi hesab edir. Demək olar ki, TANAP Azərbaycanın Avropanın Enerji bazarlarına inteqrasiyası, eləcə də təhlükəsiz tranzit dövlət kimi öz mövqeyini möhkəmləndirməsi üçün ən böyük imkandır. Uzunmüddətli perspektivdə layihə ölkənin təbii qaz ixracını ildə 8.1 milyard kubmetrdən təqribən 24 milyard kubmetrə kimi artıracaqdır. TANAP layihəsinin köməyi ilə Türkiyə illik 5% istehlak həcminə malik olan zəif qaz ehtiyatı problemini həll etməyə bir addım da yaxınlaşacaq, bu göstərici Avropa ölkələrində 20-30%-ə bərabərdir (6).

İlkin razılığa əsasən, TANAP vasitəsilə Avropaya nəql olunacaq illik 10 milyard kubmetr həcmində qaz tədarükü Avropanın qaz idxalının 3-4%-ni, nəqlin gələcəkdə 20 milyard kubmetrə çatması ilə isə, bu göstəricinin təqribən ikiqatını təşkil edəcək. Avropa Komissiyasının sözlərinə görə, zərurət yaranarsa uzunmüddətli perspektivdə Avropa İttifaqı Cənub Qaz Dəhlizi vasitəsilə həyata keçiriləcək qaz idxalının həcmini 80-100 milyard kubmetrə kimi artıra bilər. Qlobal əməkdaşlıq mühitində reallaşan Cənub qaz dəhlizi geniş coğrafiyada enerji təhlükəsizliyinə birləşdirici kəmərlərlə Balkanların enerji təchizatına töhfə verəcəkdir. Cənub qaz dəhlizi və onun bir hissəsi olan TAP layihəsi bir tərəfdən Avropanın enerjiyə artan tələbatının ödənilməsində yeni mənbə və marşrut təklif edir. TAP layihəsi Yunanıstan və Türkiyə sərhədindən Trans-Anadolu kəmərindən qazı alaraq Cənubi İtaliya bazarına çıxaracaq. Bu zaman həm də TAP-dan Albaniya, Bosniya-Hersoqovina, Monteneqro, Yunanıstan, Xorvatiya, həmçinin daxili şəbəkələr ilə Bolqarıstan "mavi yanacaq" almaq imkanına malik olacaq. Bu baxımdan demək olar ki, Avropa bazarına artıq Azərbaycan qazı daxil olur. TAP layihəsi demək olar ki, enerji diversifikasiya məqsədinə xidmət göstərir, digər tərəfdən isə kömürdən çox istifadə edən ölkələrdə təmiz enerji mənbəyinin tətbiqinə imkan yaradır (4).

Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində elektroenergetika sahəsində də böyük nailiyyətlər əldə edilir. Ölkənin elektrik enerjisi sistemi yenidən qurulur. Elektrik enerjisinin ixracatçısı kimi Azərbaycanın mövqeyini möhkəmləndirən tədbirlər görülür. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması ölkə iqtisadiyyatının inkişafında səmərəli olmaqla əhalinin sosial rifahının və ölkəmizin sosial-iqtisadi inkişafının daha da

yaxşılaşmasında müstəsna əhəmiyyət kəsb edir (5).

Qeyd edək ki, Gürcüstan Azərbaycanın neft və qaz kəmərlərinin Avropa ilə birləşdirilməsində mühüm rola malikdir. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycanla Gürcüstan hazırda müstəqil dövlətlər kimi, bütün sahələrdə fəal əməkdaşlıq edir, ərazi bütövlüyü məsələsində və beynəlxalq tədbirlərdə – BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar daxilində birgə işləyir və hər zaman bir-birinə dəstək verirlər. Qonşu respublikaları Azərbaycan ilə hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib.

Azərbaycanın enerji layihələrinin icrasında ikinci mühüm dövlət Türkiyədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin etməsində Türkiyə tranzit ölkə rolunu oynayan ən etibarlı tərəfdaşdır.

Qarşılıqlı etibar və həmrəylik əsasında formalaşan Azərbaycan-Türkiyə əlaqələri beynəlxalq platformalarda da davam edir. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və İslam Əməkdaşlıq Təşkilatında birgə əməkdaşlıq nümayiş etdirir.

Hazırda öz enerji təhlükəsizliyini tam təmin etmiş Azərbaycanın enerji sisteminin Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan və Türkiyə enerji sistemləri ilə sıx əlaqəsi təmin olunub. Bu həm də qarşı ölkələr arasında qarşılıqlı münasibətlərin daha da inkişafına, regionda silahlı sabitliyin, təhlükəsizliyin qorunub saxlanmasına şərait yaradan ciddi amillərdən biridir.

Neft hasilati Avropa bazarlarına çatdırılması məqsədi ilə reallaşdırılmış iri layihələr Avropanın neft və qazla təminatında Azərbaycanın önəmli yer tutmasına şərait yaratmışdır. Xəzər hövzəsi regionunun dünya üçün mühüm karbohidrogen mənbəyi olması Avropanın diqqətindən yayınmır. Qərb analitikləri qeyd edirlər ki, Xəzər hövzəsində böyük neft şirkətlərilə ən yüksək əməkdaşlıq əlaqələri yaradan ölkə Azərbaycandır və Qərbin enerji daşıyıcılarının istismar edilməsində Azərbaycanla əməkdaşlıq etməsi yüksək qiymətləndirilir.

**Açar sözlər:** *Azərbaycanın neft strategiyası, Xəzər regionu, TANAP, Azəri – Çıraq - Günəşli, Bakı – Tbilisi – Ceyhan*

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan qəzeti. Ümmumilli lider Heydər Əliyevin 95-ci ildönümü. 08 may 2018-ci il.
2. Azərbaycan qəzeti. Bakı, 8 avqust 2009-cu il.
3. Azərbaycan qəzeti, Bakı, Azər TAC, 1999-cu il 20 aprel.
4. Asiya İnfrastruktur İnvestisiyalar Bankı: Trans Anadolu Təbii Qaz Boru Kəməri. https://www.aiib.org/en/projects//2016/download/trans-anatolian
5. İlham Əliyev. Azərbaycanın neft diplomatiyası. Biblioqrafik göstərici Bakı, 2009.
6. Ədalət qəzeti, Bakı, 1995, 12 oktyabr
7. Respublika qəzeti 30 oktyabr 1998-ci il
8. Neft və Azərbaycanın gələcəyi. Gənc alim və tələbələrin elmi-tədqiqat işləri. Bakı, 1998.

**Халигова Г.**
**РЕЗЮМЕ**

Хотя газовое соглашение с Шах-Дениз было подписано в то время, когда в мире было мало интереса к газу, а вопрос энергетической безопасности не имел особого значения для Европы, спустя годы стало очевидным, что срочность, вызванная диверсификацией энергии, такой как энергетическая безопасность, далека от завершения. Благодаря этому соглашению, которое сыграло исключительную роль в обеспечении энергетической безопасности Азербайджана и Европы, наша страна способствовала строительству новых газопроводов и строительству новых маршрутов.

**Ключевые слова:** *Нефтяная стратегия, Азери – Чираг – Гюнешли, ТАНАР, Баку – Тбилиси – Джейхан*

**Khaliqova G.**
**SUMMARY**

Although the Shah Deniz gas agreement was signed at a time when there was little interest in gas in the world and the issue of energy security was not of particular importance to Europe, years later it became apparent that such proactive institutions like energy diversification and energy security have been programmed for foresight. Thanks to this agreement, which has played an exceptional role in ensuring energy security of Azerbaijan and Europe, our country has facilitated the construction of new gas pipelines and the construction of new routes.

**Keywords:** *Azerbaijan's oil strategy, TANAP, Azeri – Chirag – Gunashli, Baku-Tbilisi - Ceyhan*

UOT: 323.22/.28

# PREZİDENT İLHAM ƏLİYEVİN İSLAHATLAR KONSEPSİYASINDA ƏNƏNƏVİLİK, KÖNÜLLÜLÜK VƏ YARADICI GƏNCLƏR

**SƏNAN HƏSƏNOV**
*AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: senanhasanov77@gmail.com*

2 fevral ölkəmizdə möhtəşəm və ənənəvi tarixi günlərdən biri olaraq- "Gənclər günü" kimi qeyd edilir. Dahi siyasi xadim Heydər Əliyevin gənclərə olan etimadından, onlara verdiyi yüksək qiymətdən güc və qüvvət alan bu tarixlə minlərlə gənc öz potensialını ictimaiyyata təqdim edib, bu gün də elmi-ictimai sahədə, idarəcilikdə mühüm nailiyyətləri ilə cəmiyyətimizin fəal qüvvəsinə cevrilməkdədir. Yeni Azərbaycan Partiyasının gənclərimizin uğurlarında rolu isə müstəsnadır. Hətta demək mümkündür ki, dövlət quruculuğu prosesində partiya gənc nəslin potensialının dövlətciliyimiz naminə sərf olunmasının himayədarı rolunda cıxış etmişdir. Cünki Yeni Azərbaycan Partiyasının yaranması tarixindən gənclərlə bağlı ayrıca bir fəaliyyət istiqaməti mövcuddur. Partiyanın qurucusu dahi siyasi xadim Heydər Əliyev hələ 1993-cü ildə ölkə gənclərinin bir qrup nümayəndələri ilə görüşərkən demişdir: **"Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik"(1; s.10).**

Az sonra 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu addım gənclərimizin dövlət quruculuğu prosesindəki iştirakına əsaslı təkan verdi. 1995-ci ilin iyununda YAP Gənclər Birliyinin yaradılması isə partiyanın tarixinə əlamətdar hadisə kimi daxil oldu.1996-cı ilin fevralın 2-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə keçirilən ölkə gənclərinin I Forumu böyük bir tarixin əsasını qoydu. Dahi siyasi xadim 1 fevral 1997- ci ildə isə Respublika Gənclər Forumunun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul etmiş və 2 fevralın "Azərbaycanda Gənclər Günü" olaraq təsis edilməsi haqqında Sərəncam imzalamışdır (1). Bu sərəncamla həmin tarix əlamətdar bir günə cevrilmişdir. Bundan sonra dünyada 1998-ci il avqustun 8-dən -12-dək Lissabonda keçirilən Konfransda BMT-nin qərarı ilə avqustun 12-si gənclər günü elan edildi.

1999-cu il 20-21 dekabr tarixlərində Yeni Azərbaycan Partiyasının I Qurultayının kecirilməsi zamanı qəbul edilmiş 6 ideoloji prinsipdən (1.Müstəqil dövlətçilik prinsipi: 2. qanunçuluq prinsipi: 3.Azərbaycançılıq, vətənçilik prinsipi: 4.varislik, yaradıcı təkamül prinsipi: 5.konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi prinsipi: 6. Sosial ədalət prinsipi). biri məhz varislik, yaradıcı təkamül prinsipi kimi qəbul edilmişdir(3). Mahiyyət etibarı ilə partiya cəmiyyətin gələcəyinin etibarlılığını təmin etmək ücün potensial qüvvənin gənclər olduğunu hesab etmiş və öz fəaliyyətində bu amilə xüsusi önəm vermişdir. Həmin prinsiplərin müstəqil dövlət quruculuğuna tətbiqində səmərəli və uzun tarixi zamana planlaşdırılmış siyasi konsepsiyanın hazırlanması 21 noyabr 2001-ci ildə YAP-ın II Qurultayında İlham Əliyevin partiya sədrinin birinci müavini vəzifəsinə seçilməsi ilə sürətli inkişaf yoluna qədəm qoydu, 2005-ci ilin mart ayında keçirilən 3-cü qurultayda isə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyev partiyanın sədri seçilməsi ilə Azərbaycanda gənclər siyasəti Yeni Azərbaycan Partiyasının avanqard ideoloji istiqamətinə çevrildi. Sistemli, ardıcıl və səmərəli proqramların mərhələlərlə tətbiqi dövlət siyasətinin prioritet istiqaməti olaraq qarşıya qoyuldu. Bu mərhələlərin təhlili göstərir ki, Azərbaycan gənclərinin lideri

Prezident İlham Əliyevin partiya rəhbərliyində təmsilçiliyi ***yeni dövrün yeni lideri anlayışını rellaşdırdı***. Qısa zamanda partiya sıralarına gənclərin axını gücləndi və bütün sahələrdə gənclərimizə olan böyük etimad praktiki baxımdan möhkəm dövlətcilik bazasının yaradılması üçün öz səmərəsini verməyə başladı. Dövlət başçısının sərəncamı ilə 2007-ci il ölkəmizdə "Gənclər ili" elan edildi."Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi isə gənclərin ictimai fəaliyyətinin, yaradıcılığının və təşəbbüslərinin dövlət tərəfindən dəstəklənməsini qarşıya hədəf kimi qoydu. Açıq etiraf edilməlidir ki, bu illərdə Yeni Azərbaycan Partiyası intellektual və yaradıcı gəncləri öz ətrafında birləşdirərək yeni nəslin hərtərəfli inkişafına, vətənpərvərlik ruhunun yüksəldilməsinə, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunmasına dair saysız hesabsız işlər görmüşdür. Yeni Azərbaycan Partiyasının 3-cü qurultayında çıxışı zamanı Prezident İlham Əliyev gənclərin partiya sıralarına qoşulmasını xüsusi vurğulayaraq demişdir: "Gənclərlə bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur, mən özüm şəxsən daim gənclərlə ünsiyyətdə olmuşam, indi də əlaqə saxlayıram. Çox şadam ki, ikinci qurultaydan sonra partiyamızda müşahidə olunan güclü axının böyük əksəriyyəti gənclərin hesabına baş veribdir. Bu da təbiidir. Çünki Azərbaycan gəncləri ölkəmizdə gedən prosesləri çox gözəl bilirlər və ümumiyyətlə, dünyada gedən prosesləri çox gözəl bilirlər. Hazırda gənclər partiyada xüsusi çəkiyə malikdir və Yeni Azərbaycan Partiyasının üzvlərinin 40 faizi gənclərdən ibarətdir. Eyni fikirləri Yeni Azərbaycan Partiyasının sıralarında birləşən qadınlar haqqında da demək mümkündür (4; s.12,13,14) İdarəcilikdə müdriklik, cevik və praqmatik düşüncəni önə çəkən, onu sürətli inkişaf konsepsiyasına cevirən Prezident İlham Əliyev qısa zamanda Azərbaycan dövlətciliyində gənclərin potensialını və bu potensialda könüllülük, mərhəmət, təmənnasız vətən sevgisini vətəndaşlıq amalına çevirdi. Tarixi ənənələri müasirliklə bağladı. Bu uğurlu siyasətə olan milli rəğbət isəYeni Azərbaycan Partiyasının 2013-cü il 7 iyun tarixində keçirilən V Qurultayında Prezident İlham Əliyevin yenidən yekdilliklə partiya sədri seçilməsinin göstəricisi oldu. Sadalanan tarixi ardıcıllıqların mahiyyəti göstərir ki, bu gün gənclərə olan etimadın əsasları uzaqgörən bir siyasətin qarşıya qoyduğu hədəfdir və bu strategiyanın ideoloji bazasını özündə birləşdirən Yeni Azərbaycan Partiyasının himayədarlığı ilə Azərbaycan gəncliyi mütəşəkkil yetkin bir qüvvəyə cevrilib. Azərbaycan dövlətcilik tarixində bu strategiya ona görə xüsusi önəm daşımalıdır ki, XXI əsrin cağırışlarında müasir innovasiyaların və informasiya texnologiyalarının tətbiqində intellektual səviyyəli gənclərə zamanın tələbi yaranarkən ölkəmiz artıq bu prosesə yetkin təfəkkürlü kadrlarla daxil oldu ki, bu da islahatların elmi-innovativ bazasını və səmərəliliyini təmin edə bildi.Tarix sübut edir ki, zaman dəyişdikcə insanların yeni təfəkkürə əsaslanan baxışları və istəkləri, fərqli düşüncələri idarəetmədə və ictimai həyatdakı mövqelərində fərqli istəkləri meydana cıxarır. Bu məqamları vaxtında qiymətləndirən dövlətlər effektli siyasətə və inkişafa nail ola bilirlər. Cünki intellektin, aydın prqamatik düşüncə ilə sintezinin labüdlüyü bir tarixi zərurətdir. Azərbaycanın XXI əsrin ilk onilliyində belə sistemli yanaşma konsepsiyası tarixi nailiyyət hesab olunmalıdır.Məsələyə münasibətdə akademik Ramiz Mehdiyev yazır: "III minillikdə Azərbaycana rəhbərlik edən dövlət başçısı hər bir mərhələ üçün qarşıda duran əsas vəzifələri düzgün müəyyənləşdirmiş, islahatların sistemli və ardıcıl şəkildə, təkamül yolu ilə gerçəkləşdirilməsini istiqamətləndirmişdir.

XXI əsr Azərbaycanında həyata keçirilən islahatlar, köklü dəyişmələr həm də dövlət idarəçiliyinin bütün strukturlarının modernləşdirilməsi, elitaların yeniləşməsi, iqtisadi göstəricilərin şəffaflaşdırılması, müasir dövrün tələblərinə uyğunlaşdırılması tədbirləri ilə müşayiət olunur. Lider rolunun həqiqi miqyası konkret işlərin reallaşmasında üzə çıxır. Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın siyasi, iqtisadi və mədəni landşaftını dəyişib. O, müasir şəraitdə dövlət başçısı üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. İlham Əliyevə Azərbaycan xalqını öz arxasınca aparmaq missiyasını tarix, yeni dövrdə özü həvalə edib (5; səh. 54).

Odur ki, dünyada cərəyan edən müasir tendensiyalardan nəticə çıxarılması, bəşəriyyətin

gələcəyinin zərərli ünsürlərdən qorunması üçün saf təfəkkürlü gənclərin siyasətdə düzgün istiqamətlərə yönəldilməsi yolunda İlham Əliyev müdrikliyi XXI əsrdə bəşəriyyətdə siyasi nəzəriyyəcilər tərəfindən öyrənilməli və təbliğ edilməlidir. Siyasi reallıq budur ki, Azərbaycanda formalaşdırılan intellekt indi öz təfəkkür imkanları ilə dünyaya elmi əsaslanmalar ixrac edir. Bu sahədə onun xaricdən idxala ehtiyacı yox əslində bəşəriyyətin Azərbaycandan öyrənməyə, Azərbaycan yolunun digər ölkələrdə tətbiqinə ehtiyac yaranmaqdadır. Biz ölkəmizdə davamlı, mərhələli islahtların nəticələri ilə tanış olarkən onun milli və bəşəri əhəmiyyətinin, dəqiq hədəflərinin və səmərəli proqnozlaşdırılmasının tətbiqini görürük. 2019-cu ilin də islahatlar ili olması təsadüfi deyildir. İslahatların ideoloji əsasları ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyası avanqard siyasi qüvvə olaraq əldə etdiyi zəngin təcrübələri xalqımızın mənafeyinə üygun balanslaşdıra bilib. Tədqiqatcı məsuliyyəti ilə demək mümkündür ki, Prezident İlham Əliyevin dünyadakı siyasi proseslərin gedişinə yanaşması və nəticələrin cıxarılması prosesində Azərbaycan xalqı böyük uduş əldə edib. Ona görə də Prezident İlham Əliyev bütün siyasi islahatlarında göstərir ki, müasir dünyanın proseslərinə bələd olan innovasiyaları bilən gənclər indi öz potensiallarını səfərbər etməlidirlər. Bu, Azərbaycana daha cox lazımdır. Cünki, Azərbaycan dünyada bir cox ilklərə imza atıb. Multikulturalizm, Qoşulmama Hərəkatında olan mövqe, bəzi güclərin legitim hakimiyyətlərin devrilməsində maraqlı olduqlarının ifşa edilməsi kimi mövqeyini dünyaya bəyan etmiş və qəbul etdirmiş bir ölkədir.

Azərbaycanın gələcək inkişafına dair strategiyanın təhlili zamanı hələ Ulu Öndər Heydər Əliyev bir tarixi məqama nəzər yetirərkən demişdir: "Azərbaycan dövlətinin uğurları artdıqca ona qarşı basqılar da çoxalacaq və buna nail olmaq üçün səriştəsiz və avanturist insanları təsir altına salaraq ondan istifadə etməyə çalışacaqlar"(2; s. 324). Bəli, tarix göstərdi ki, XXI əsrdə Azərbaycanı bu təsirlərdən qorumaq üçün saf, milli düşüncəli, siyasi proseslərdən nəticələr cıxarmağı bacaran gənc nəsil öz sözünü deməlidir. Siyasi varisliyin əsas ideoloji xəttində də milli mənafenin qorunmasının həssas məsələ olduğunu önə cəkən Prezident İlham Əliyev 2019-cu il oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə cavan, müasir təhsilli və dünyagörüşlü, həmçinin, daha çevik kadrlarla işləməyə üstünlük verəcəyini bildirdi. Bu islahatlar cox geniş əhatə dairəsinə malik olmaqla həm də yeni tələblərdən yaranan problemlərə çevik və milli təfəkkürün gücü ilə yanaşmanın vaxtının çatdığını göstərdi. Yeni Azərbaycan Partiyasının və onun ideoloji prinsiplərindən irəli gələn digər bir məsələyə Prezident İlham Əliyevin münasibəti belə olmuşdur ki, Azərbaycanın müasir dövlətçilik təcrübəsi göstərir ki, biz hec vaxt kortəbii şəkildə bayağı, milli ənənələrimizə zidd olan hansısa qeyri sağlam bir düşüncədən irəli gələn vərdişləri öz ənənlərimizə tətbiq etməməliyik. Lakin bəşəriyyətdəki bütün prosesləri və milli xüsusiyyətləri dərindən bilməliyk onlardan sağlam təfəkkürlə nəticələr cıxarıb yaxşılarını öz milli xüsusiyyətlərimizlə müqayisə etməliyik. Deməli ideologiyamiz milli, millilik isə bəşəriliklə bağlı olmalıdır. 26 noyabr 2019-cu ildə BDU-nin 100 illik yubileyi zamanı da bu məsələni mühüm tarixi istiqamət kimi ölkə ziyalılarının və gənclərin qarşısında qoymuş və dərin məzmunlu şərh verərək demişdir. "Məgər bizi bizdən çox sevən, istəyən varmı? Bu gün bəzi hallarda xarici dairələrdən eşidirik ki, biz Azərbaycana kömək etmək istəyirik, biz Azərbaycanı belə inkişaf etmiş ölkə kimi görmək istəyirik. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz. Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Əsas hədəf gənclər olmalıdır. Bəzi qüvvələr gəncləri əsas hədəf

seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib.Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladıq. Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə Görüşünü Bakıda keçirdik. Qoşulmama Hərəkatının sədrliyini öz üzərimizə götürmüşük. İslahatlar bizim şüurlu seçimimizdir. Mən bir neçə dəfə bu məslə ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan verməərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə etməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən “ağsaqqal”, “ağbirçək” sözlər çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, “Stop İslam!” deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir” (7).

Dövlət başçısının bu tarixi nitqi deyərdim ki, Yeni Azərbaycan Partiyasının mütərəqqi ideyalarının Azərbaycanın III minillikdə inkişafına tətbiqi üçün bir yol xəritəsidir. Çünki yeni reallıqlardan cıxış edərək əsasında dünyanın cağırışlarına cavab vermə imkanlarımız bilavasitə siyasi varisliyin mahiyyətinin düzgün dərk edilməsinə söykənən kadrların cevik, intellektin gücünə əsaslanan idarəetmə keyfiyyətlərinin praktikada tətbiqi kimi məsələni önə cıxarır. Bu baxımdan **22 yanvar 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Davos Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında moderatorun suallarına verdiyi cavablar maraq doğurur.**

**Moderator:** Hökuməti yeniləməyinizi müşahidə etmək mənim üçün maraqlı idi. Siz gənc texnokratları sıralarınıza cəlb etmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, tamamilə doğrudur, hökumət dəyişdi. Hökumətə yaxşı təhsil almış, müasir baxışlı yeni insanlar dəvət olunmuşdur. Çünki dəfələrlə ictimaiyyətə açıqlamalarımda dediyim kimi, iyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz. Buna görə də yeni insanlar nəinki təkcə hökumətə, eyni zamanda, çox böyük dəyişikliklərə məruz qalmış Prezident Administrasiyasına da

gətirilmişdir.

**Moderator:** Mən oxumuşam ki, indi Mərkəzi Asiya əhalisinin üçdəbir hissəsinin yaşı 15-dən aşağıdır. Yəni, əhalinin üçdəbir hissəsinin 15 yaşı tamam olmayıb. Dünyanın digər hər bir qitəsində gənclərə nəzər salsaq, biz onları küçələrdə görmüş olarıq, onlar öz səslərinin daha çox eşidilməsini tələb edirlər, onlar daha çox səsə malik olduqlarına öyrəşiblər. Siz də indi qeyd etdiniz ki, ölkənizdə gənclərin sayı çoxdur. Bəs onlar küçəyə çıxsa və daha çox səs tələb etsə, Siz onlara nə deyərdiniz?

**Prezident İlham Əliyev:** Biz onların nə istədiklərini dinləyərdik. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər startup biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük. Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şuarlardan istifadə etmiş, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməmişdir. Əslində onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır”(8). Bu gün həyata kecirilən islahatların tarixi ənənələrimizlə, milli dəyərlərimizlə six şəkildə bağlı olması islahatların səmərəliliyini daha da artırır. Ona görə ki, könülülük, vətənə sevgi, təmənnasızlıq, insanların qayğılarına yanaşma, bəşəri dəyərlərə hörmət islahatların əsasını təşkil edir. 30 dekabr 2019-cu il tarixində 2020-ci ilin Azərbaycan Respublikasında “Könüllülər ili” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi tarixi sərəncam vəzifəsindən, sosial mənsubiyyətindən aslı olmayaraq ölkəmizin bütün sahələrində əldə olunmuş yeniliklərin inkişafına bir stimuldur. Burada ən vacib məqam odur ki, dövlət başçısı Azərbaycan xalqının əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllülük və təmənnasız kömək ənənələri ilə yaşadığını, bu xoş niyyətin əslində xalqımızın mənəviyyatından irəli gələn, daima onu öz əməli ilə təsdiq edən milli özünəməxsusluğa cəmiyyətimizin diqqətini bir daha yönəltmişdir. Prezident İlham Əliyevin qarşıya qoyduğu hədəflərin təhlili acıq-aydın göstərir ki, XXI əsrdə bəşəriyyətin xilası intellektual təfəkkürlə yanaşı könüllülük prinsipini önə cəkmək, onu düzgün dərk etməklə mümkündür. Burada əsas meyar odur ki, milli-mənəvi dəyərlərə düzgün yanaşma, xoşməramlıq, ümumbəşəri hərəkat kimi insanların həyat tərzinə çevrilməlidir. Azərbaycanda son illər bu sahədə dünyada nümunə olacaq bir sistem və hətta deyərdim ki, ictimai şüur formalaşmaqdadır. Bunu ölkəmizdə bir hərəkata cevrilməkdə olan könüllülüyün, innovativ düşüncə tərzindən praktiki həyat tərzinə çevrilməsi prosesindəki nümunəvi yol sübut edir. Azərbaycan xalqının bu prosesdə daha asan və səmərəli fəaliyyətə nail olması bir tərəfdən daxili milli tələbata əsaslanırsa, o biri tərəfdən bu potensialın nümunə olaraq XXI əsrin çağırışlarında dünyada təbliğ edilməsi yolunda Prezident İlham Əliyevin möhkəm iradəsi, milli təəssübkeşliyi və bəşəri dəyərlərə olan münasibəti şərtləndirir. Belə strateji hədəfin dövlət siyasətində qarşıya qoyulması ilə bu gün ölkəmizdə gənclərin böyük bir qismi ASAN “Regional İnkişaf” İctimai Birliyi, “Bir” Tələbə könüllülüləri könüllü hərəkatlarına qoşularaq öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, “Formula 1” yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar. Bu ənənə hətta 5 dekabr Beynəlxalq Könüllülər Günündə də ölkəmizdə həyata kecirilməkdədir. Könüllülük hərəkatının daha mühüm əhəmiyyəti ondadır ki, hazırda bəşəriyyətdə ideoloji böhran

müşahidə olunmaqdadır. Bu da insanların çoxalması ilə deyil idarəetmədəki ideoloji problemlərlə bağlıdır. Təhlil sübut edir ki ideologiya elə bir sahədir ki, o səriştəli müdrik, mərhəmətli, hümanizm prinsiplərinə malik şəxsiyyətlərin nəzarətində həyata kecirilməlidir. Yəni insanlar mütərəqqi ideyaların təsiri ilə fəaliyyət göstərərkən bəşəriyyət fəlakətlərdən xilas ola bilər. Hesab edirəm ki, bu tək dövlət rəhbərinin deyil, cəmiyyətin ziyalılarının sosial qruplarının, ictimai-siyasi institutlarının fəaliyyətindən aslıdır.

**Prezident İlham Əliyevin çağırışları əməli iş prinsipimizə cevrilməlidir.**

Təcrübə göstərir ki, baş qaldıran problemlərin həllinə vaxtında, dəqiq və yuxarıda göstərdiyimiz prinsiplərə əsaslanaraq yanaşılarsa onda təhlükəli tendensiyaların baş qaldırması da mümkün deyil. Belə sistemli yanaşma cəmiyyətdə sabitliyin davamlılığına və ziyalıların ideoloji təbliğat işinə öz səmərəsini verir. Məhz bunun üçün yaradıcı, milli ruhli və enerjili, ruhunda könüllülük prinsipi olan gənclərə dünyanın hər yerində ehtiyac vardır. Yəni hər bir şəxs öz üzərinə düşən məsuliyyəti dərk etməli və əməli iş prinsipinə cevirməlidir. Ona görə də Prezident İlham Əliyev haqlı olaraq dəfələrlə bizdən ictimai nəzarət tələb etməklə hər bir çıxışında, yaxud görüşlərində ziyalılara və vətəndaşlara sanki bir əməli fəaliyyət yolu göstərməkdədir. Çünki yaradıcı gənclərin və könüllülük prinsipində çalışmağı bacaran kadrların əməyinə həmişə böyük ehtiyac vardır. Dövlət başcısının gənclərə böyük etimaq göstərməsinə dair islahatlar proqramı da mahiyyət etibarı ilə idarəçilikdə çevikliyin və operativliyin təmin olunmasını zamanın tələbi kimi qarşımıza qoyur..

Deməli bu gün gənc alimlərin qarşısında dövlətçilik strategiyasının ictimaiyyata düzgün catdırılması, bu sahədə ideoloji bazanın təmin olunması kimi mühüm vəzifəsi dayanır. Gənc alimlərin fəaliyyətində bu məsələnin əhəmiyyəti böyükdür ona görə ki, onlar partiyanın və dövlətin qarşıya qoyduğu strateji əhəmiyyətli məsələləri cəmiyyətimizə elmi əsaslarla catdırmalı, bu sahədə maarifləndirməni dəqiq mühakimələrlə aparmalıdırlar. Bütövlükdə ziyalılar faliyyətini elə qurmalıdırlar ki, gənc alimlərin və o cümlədən orta nəslin mövcud potensialı həm də dövlətçilik şüurunun hazırki tarixi şəraitdə düzgün dərk edilməsində özünü göstərsin. Bu gün bir sıra elmi tədqiqat mərkəzlərinin Prezident İlham Əliyevin yeni islahatlar kursunun mahiyyətini müəyyən qədər ictimaiyyətə çatdırması müsbət haldır. Lakin zənnimcə bu prosesin ölkəmizin bir sıra elmi- ictimai təşkilatları ilə dialoq şəklində qurulması, elmi müstəvidə qarşılıqlı əməkdaşlığın təşkili cox vacibdir. Son ilərdə AMEA Fəlsəfə İnstitutunun təşəbbüskarlığı ilə belə formatda aparılan müzakirələrin xüsusi əhəmiyyəti vardır. Bu günlərdə Bakı Kitab Mərkəzində “Yaradıcı gənclər və könüllülər” mövzusunda kecirilən ümumrespublika tədbiri bir sıra elmi-ictimai təşkilatları bu istiqamətdə bir araya gətirmişdir(9). 2020-ci ilin Azərbaycanda “Könüllülər ili” elan edilməsi ilə bağlı gənc yaradıcılarımızın üzərinə böyük vəzifələrin düşməsinə dair məruzələr dinlənilərkən məlum oldu ki, qarşlıqlı fikir mübadiləsi prosesində problemlərə yanaşma daha əsaslı mahiyyət kəsb edir.Tədbirdə yekdil olaraq bildirildi ki, könüllülük xalqımızın tarixində milli ənənə olması ilə yanaşı onun yaşadılması və gənc nəslin əməli fəaliyyətində bir vətəndaşlıq borcuna çevrilməsi dövlət siyasətimizin prioritet istiqamətidir. Bu sahədə perspektiv imkanılara qarşılıqlı fikir mübadilələrinin aparılması ilə nail olmaq mümkündür. Prezident İlham Əliyevin Sərəncamından irəli gələn vəzifələri gənc alimlər və çoxsaylı gənclər qarşısında şərh edərkən professor İlham Məmmədzadə haqlı olaraq bildirdi ki, “islahatların yeni mərhələsində azərbaycançılıq məhz inkişafın Azərbaycan modeli mərkəzində durmalıdır. Keçmişə ehtiramla yanaşmaq, onu dərindən bilmək və onun ən müsbət nümunələrini gənclərin mənəvi və vətənpərvərlik ruhunda tərbiyə işində istifadə etmək günümüzün ən vacib vəzifələrindən biridir. Gənclər hər bir dövlətin gələcəyini, inkişafını istiqamətləndirən cəmiyyətin aparıcı qüvvəsidir. Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin həyata keçirdiyi gənclər siyasətinin mühüm rolu vardır. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir”. Düşünürəm ki, bu gün Azərbaycanda gəncliyin potensialına böyük önəm verilməsi, onların qayğı və problemlərinin

diqqətdə saxlanılması qüdrətli Azərbaycan naminə uzaq hədəflərə planlaşdırılmış bir strategiyanın əsas hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi altında güclü əsaslara söykənən tarixi ənənlərimiz, milli xarakerimizdən irəli gələn könüllülük və təmənnasız vətən sevgimiz, intellektual gücə malik ziyalı gənclərimiz bu strategiyanın keşiyində bundan sonra da əzmlə dayanacaq, Azərbaycanın yeni-yeni uğurlarının təminatcısı olacaqlar.

**Acar sözlər:** *siyasət, partiya, dövlət, lider, gənclər, ideologiya*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1.Azərbaycanda "Gənclər günü" nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. //Azərbaycan qəzeti//, 3 fevral 1997-ci il, №18).*

*2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Cıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr,müraciətlər, fərmanlar. On beşinci kitab. Mart 1998 - iyun 1998. /Buraxılışa məsul R. Mehdiyev, Bakı, Azərnəşr, 2005. 528 səh.)*

*3.Yeni Azərbaycan Partiyasının proqramı.yap.orq.az.2014-cü il).*

*4.Yeni Azərbaycan Partiyası xalqın istək və arzularının nəticəsi olaraq yaranmış siyasi partiyadır. "Səs" Analitik Qrupu. 2012, 21 noyabr. S.12-13-14)*

*5. Mehdiyev R. Azərbaycanın inkişafını XXI əsrin cağırışlarına üyğunlaşdıran lider Bakı, Elm, 2019-cu il 168 səh. səh. 54 ).*

*6.Müstəqilliyimizin qürur mənbəyi olan gənclik// Xalq qəzeti//2017, 1 noyabr № 240 s.10).*

*7.Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə çıxışı. https://sputnik.az/politics/20191126/422439963/ilham-eliyev-bdu-nun-100-illiyinde-cixish-edib.html).*

*8.Prezident İlham Əliyevin Davos Dünya İqtisadi Formunun "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında iştirak edib. President.az/articles/35647. 22yanvar 2020-ci il).*

*9.Yaradıcı Gənclər və könüllülər mövzusunda ümumrespublıika tədbiri kecirilmişdir. Science.gov.az 04 02 2020ci il).*

**РЕЗЮМЕ**

**Сенан Гасанов**

**Традиционная, добровольная и творческая молодежь в концепции реформ Президента Ильхама Алиева**

Со времени обретения независимости Партия «Новый Азербайджан» объединила интеллектуальную и творческую молодежь в авангарде государственной политики в деле всестороннего развития нового поколения, повышения духа патриотизма и вовлечения молодежи в активную общественную деятельность. Президент Ильхам Алиев, который вложил мудрость, проворное и прагматичное мышление в управление и принял концепцию быстрого развития, на этих основаниях за короткое время проявил приверженность потенциалу молодежи в государственности Азербайджана и потенциалу добровольчества, сострадания и патриотизма. Эта стратегия должна иметь особое значение в истории государственности Азербайджана, когда вызовы XXI века требуют от интеллектуальных молодых людей применения современных инноваций и информационных технологий, наша страна уже вступила в этот процесс со зрелыми мыслителями, которые могут предоставить научные и инновационные знания о реформах.

Следовательно, мудрость Ильхама Алиева в поиске правильного направления политики в 21-м веке должна быть изучена теоретиками-гуманистами в поиске правильного направления в политике человеческой расы, чтобы опираться на современные тенденции в мире и защитить будущее человечества от вредных элементов. Такой системный подход способствует стабильности общества и идеологической пропаганде интеллектуалов. Вот почему молодые люди с творческим, национальным духом и энергией, которые имеют принцип добровольчества, нуждаются в этом во всем мире. Главный вывод статьи заключается в том, что наши исторические традиции, сильная волонтерская и восторженная родина, наша интеллектуальная молодежь под руководством Президента Ильхама Алиева будут отличным

источником поддержки этой стратегии. не создает.

**Ключевые слова:** *политика, партия, государство, лидер, молодежь, идеология*

**SUMMARY**

**Senan Hasanov**

**Traditional, voluntary and creative youth in the concept of reforms of President Ilham Aliyev**

Since independence, the New Azerbaijan Party has united intellectual and creative youth at the forefront of state policy in the full development of the new generation, raising the spirit of patriotism and involving young people in active public activities. President Ilham Aliyev, who put wisdom, agile and pragmatic thinking into management and adopted the concept of rapid development, on these grounds for a short time showed his commitment to the potential of youth in the statehood of Azerbaijan and the potential for volunteering, compassion and patriotism. This strategy should be of particular importance in the history of statehood in Azerbaijan, when the challenges of the 21st century require intelligent young people to apply modern innovations and information technologies, our country has already entered into this process with mature thinkers who can provide scientific and innovative knowledge about reforms.

Consequently, the wisdom of Ilham Aliyev in the search for the right direction of politics in the 21st century should be studied by humanist theorists in the search for the right direction in the politics of the human race in order to rely on modern trends in the world and protect the future of humanity from harmful elements. Such a systematic approach contributes to the stability of society and the ideological propaganda of intellectuals. That is why young people with a creative, national spirit and energy, who have the principle of volunteerism, need it all over the world. The main conclusion of the article is that our historical traditions, a strong volunteer and enthusiastic homeland, our intellectual youth under the leadership of President Ilham Aliyev will be an excellent source of support for this strategy. does not create.

**Keywords:** *politics, party, state, leader, youth, ideology*

UOT 32:008;32:316.7

# “SÜLH ŞƏRAİTİNDƏ BİRGƏ YAŞAMA” ANLAYIŞI VƏ AZƏRBAYCANIN MULTİKULTURALİZM NÜMUNƏSİ

**FİDAN HƏSƏNOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Beynəlxalq münasibətlər və diplomatiya” ixtisası üzrə magistrantı*

*E-mail: fidan.dia@gmail.com*

Müasir beynəlxalq münasibətlərin xarakterik xüsusiyyətlərinə nəzər salsaq, son zamanlar dünyanın əksər ölkələrində milliyətçilik əhval-ruhiyyəsinin artdığını, sağ yönümlü ideologiyaya əsaslanan siyasi qüvvələrin aktivliyini müşahidə edərik. Cəmiyyətlərdə milliyyətçi meyillərin güclənməsi öz növbəsində dövlətlərin daxili və xarici siyasətinin formalaşmasında əhəmiyyətli təsirə malikdir. Bunun yaxın keçmişdə demokratiya, liberal və kosmopolit dəyərlərə sahib olması ilə özünü fərqləndirən “Qərb sivilizasiyasında” açıq-aşkar təzahürü isə bu kimi anlayışların yenidən gündəmə gəlməsinə səbəb olur. Dünyanın müxtəlif yerlərində regional və beynəlxalq əlaqələrə ciddi təsir etmək gücündə olan, qlobal sülh və təhlükəsizliyi təhdid edən etnik, irqi, dini ziddiyyətlərin get-gedə artması, bu zəminli münaqişələrin həll olunmamış qalması dünyanın gələcəyi üçün həyəcan təbilini çalmaqdadır. Bu isə o deməkdir ki, ümumi birlik və bərabərlik ideyalarını özündə ehtiva edən, fərqliliklərin aradan qaldırılmasını nəzərdə tutan qloballaşma məvhumu yerini dərin və sürətli parçalanmaya verir.

Bir zamanlar “American dream”-in yaradıcısı olan ABŞ-ın prezidenti Meksika sərhəddində bir divar tikmək niyyətini açıqladı, Asiya qitəsində Myanmanın silahlı qüvvələri ölkənin müsəlman azlığının repressiyalarını istəyirlər, Afrika əksəriyyəti etnik və dini səbəblərdən qaynaqlanan çoxsaylı qarşıdurmalara məruz qalır, dünyaya inteqrasiya örnəyi olan Avropa Brexit yaşadı, Fransa və s. kimi dövlətlərdə seçkilərdə sağçıların populyarlığı ilə nümayiş olunan millətçilik və anti-immiqrant münasibətlərinin artmasına şahid olduq və daha bunlar kimi xeyli nümunələr göstərmək olar [10].

Mövcud vəziyyətdə belə bir sual yaranır – müxtəlif xüsusiyyətlərin daşıyıcısı olan etnik qrupların, azlıqların, qonşu xalqların sülh şəraitində birgə yaşaması mümkündürmü?

Bu gün çağdaş cəmiyyətlərin üzləşdiyi ən aktual və çətin suallardan biri də sosial birliyi etno-mədəni, irqi və dini müxtəlifliklə necə uzlaşdırmaqdır. İnsanlar öz mədəni kimliklərindən qüvvət alırlar. Sahib olduğumuz etnik mənşə, dinlər, dillər, adət-ənənələr və dəyərlər bizə sabitlik verir və bizi yönləndirir. Bundan əlavə, mədəni müxtəliflik bir cəmiyyət üçün yenilik mənbəyi ola bilər. Çünki fərqli təcrübələrin, perspektivlərin və yanaşmaların daxil edilməsi yeni ideyalar doğurur və iqtisadi tərəqqini təşviq edir. Mədəniyyət insanların həyatında vacib bir dəstək mənbəyidir. Bu, sosial nizamın həlledici əsasını təşkil edir [8].

Bununla yanaşı, mədəni müxtəliflik həyatımızı çətinləşdirir. Digər mədəniyyətlərlə məşğul olmaq bir çox insanı yeni çətinliklərlə üzləşdirir və bəzən hətta münaqişələrə səbəb olur. Beləliklə, qloballaşan dünyada müxtəlifliklə məşğul olmaq vacibdir. Yalnız bu yolla gələcəyə doğru dinc və firavan cəmiyyətdə yaşamağımıza əmin ola bilərik. Ən azı, müxtəlifliklə uğurla məşğul olmaq, zorakılığa müraciət etmədən münaqişələrin idarə olunması deməkdir. İdeal olaraq bu, fərqli mədəni kimliyi olan insanların bərabər səviyyədə cəmiyyətə mənsub olduqlarını, bərabər inkişaf etmək şansına sahib olduqlarını, siyasi sistem içərisində səslərini eşitdirə bildikləri və qarşılıqlı hörmət münasibətlərini inkişaf etdirdikləri mənasını verir. Bu, müxtəlifliyə dözmək və ya passiv qəbul etməkdən daha çox bir məsuliyyət tələb edir; həqiqətən bu cür müxtəliflik etiraf olunmalı və fəal şəkildə formalaşmalıdır. Müxtəlif

mədəniyyətlərin və xalqların bir dövlətdə dinc yanaşı yaşaması konstitusiya təminatları ilə təmin edilən davamlı bir mədəni plüralizm tələb edir [8].

1955-ci ildən 1968-ci ildə öldürülməsinə qədər Amerikada Vətəndaş Hüquqları Hərəkatının lideri olan Martin Lüther King hər zaman insanları, millətləri birgə yaşamaya dəvət edən fikirlərlə çıxış etmişdir [9]. O vurğulayırdı ki, heç bir fərd tək yaşaya bilməz; heç bir millət tək yaşaya bilməz və buna nə qədər çalışsaq, bu dünyada daha çox müharibə aparacağıq. İndi qardaş olaraq birlikdə yaşamağı öyrənməliyik, yoxsa hamımız axmaq kimi birlikdə məhv olmağa məhkumuq. Millətlər və fərdlər olaraq bir-birimizdən asılıyıq [14]. Odur ki, birgə yaşama ənənələrinin cəmiyyətlərdə formalaşması sülh və gələcək üçün mütləq vacib yol hesab oluna bilər.

Birgə sülh içində yaşamaq, fərqləri qəbul etmək və başqalarını dinləmək, tanımaq, hörmət etmək və qiymətləndirmək, eyni zamanda dinc və birlik içində yaşamaq deməkdir. Birləşmiş Millətlər Təşkilatı (bundan sonra BMT) Baş Assambleyası 72/130 saylı qətnaməsində 16 May tarixini "Beynəlxalq Sülhdə Birgə Yaşamaq Günü" (IDLTP - International Day of Livingtogether in peace) elan etdi. Qeyd olunan gün davamlı sülh, həmrəylik və harmoniya dünyasını qurmaq üçün fərqlilik və müxtəliflikdə birləşmiş, birlikdə yaşamaq və hərəkət etmək istəyini dəstəkləmək məqsədi daşıyır [7].

72/130 saylı qətnamə 8 dekabr, 2017-ci ildə BMT Baş Assambleyasının 68-ci plenar iclasının yekununda qəbul olunmuşdur [11]. Qətnamə:

- 16 May tarixini Beynəlxalq Sülhdə Birgə Yaşamaq Günü elan edir;
- Beynəlxalq Sülhdə Birgə Yaşamaq Gününün sülhün, dözümlülüyün, anlaşma və həmrəyliyin təşviq edilməsi üçün beynəlxalq birliyin səylərini mütəmadi olaraq səfərbər etmək və ayrı-ayrılıqda və müxtəlifliklərdə birləşərək birlikdə yaşamaq və hərəkət etmək istəyinə bağlılığını ifadə etmək üçün bir vasitə təşkil etdiyini; davamlı sülh, həmrəylik və harmoniya dünyasını qurmaq məqsədilə təsis olunduğunu vurğulayır;
- Bütün üzv dövlətləri, Birləşmiş Millətlər Təşkilatının sisteminə daxil olan təşkilatları və digər beynəlxalq və regional təşkilatları, habelə vətəndaş cəmiyyətlərini, qeyri-hökumət təşkilatlarını və ayrı-ayrı şəxsləri, Beynəlxalq Sülh içində Birgə Yaşamaq Gününü yerli, milli və regional cəmiyyətlərin mədəniyyəti və ya digər vəziyyət və şərtlərinə uyğun olaraq təhsil və ictimai maarifləndirmə işləri vasitəsilə həyata keçirməyə dəvət edir;
- Bütün üzv dövlətləri sülh və davamlı inkişafı təmin etmək üçün, o cümlədən icmalar, dini liderlər və digər əlaqədar aktorlarla işləməklə, barışıq tədbirləri və xidmət aktları ilə insanlar arasında bağışlanma və şəfqət təbliğ etməklə sülhü təşviq etməyə dəvət edir və s. [11].

Qeyd etmək lazımdır ki, birgə yaşamaq layihəsi hansısa bir milli dövlət və ya beynəlxalq, regional bir təşkilat tərəfindən deyil, XX əsrin əvvəllərində hörmətli şeyx Əhməd Ben Mustafa Əl Ələvinin qurmuş olduğu "Əlaiyyə zəviyyə" adlı bir qardaşlıq tərəfindən hazırlanmışdır. Bu xüsusi zəviyyə, ölkənin qərbində yerləşən Əlcəzairin ikinci böyük şəhəri olan Orana yaxın ərazidə - Mostaganem şəhərində yerləşir. Mövcud ruhani lider Şeyx Xalid Bentounes, Şeyx Əl Ələvinin böyük nəvəsidir və ənənəvi Sufi yolunun (İslam dinində təriqət) sədaqətli vəkilidir [5]. Bu ənənə "sülh İslamı, qardaşlıq mədəniyyətini və ümumbəşəri dəyərlərin paylaşımını" təbliğ edir. Şeyx Bentounes İslam və Qərb mədəniyyəti arasındakı yaxınlaşmanın güclü müdafiəçisidir. Vəqfin dəstəyi və Əlcəzair hökumətinin ardıcıl diplomatik lobbiçiliyi ilə Şeyx Bentounes, 2017-ci ildə BMT tərəfindən 16 May tarixinin "Beynəlxalq Sülhdə Birgə Yaşamaq Günü" elan etməyə müvəffəq oldu. BMT Baş Assambleyasındakı çıxışında, Şeyx Bentounes bəyan etdi ki, sülh yalnız müharibənin və ya qarşıdurmanın olmaması deyil. O qeyd etdi ki, sülh, hər şeydən əvvəl, hər birimiz öz içimizdə hiss etdiyimiz, rəngimizdən, dinimizdən, milliyyətimizdən kənarda bütün yoldaşlarımızla birləşərək bölüşmək istəyi ilə yaşanan bir vəziyyətdir. İnsan əvvəlcə "şüurdur" və bu, etika, ədalət, həmrəylik və sülh dəyərlərinə bağlılığına görə artır və ya azalır [5].

"Beynəlxalq Sülhdə Birgə Yaşamaq Günü" ilk dəfə 16 May 2018-ci ildə beynəlxalq ictimaiyyət tərəfindən qeyd olundu. Tədbirlər Əlcəzairdə, İndoneziyada, Namibiyada və bir sıra digər ölkələrdə təşkil edildi [5]. Tədbirlərdə insanların bacarıq və fikirlərinin mübadiləsini təşviq edərək sosial şəbəkələr vasitəsilə körpülər qurmaq, bütün ölkələrin gənclərinə birgə yaşamağa dair

ümid mesajı təqdim etmək, davamlı inkişafın iqtisadiyyatdakı bütün iştirakçıları ilə dialoqu təşviq etmək, davamlı sülhün inkişafına kömək etmək üçün ortaq maraqlara uyğun olaraq ekologiya mövzusunda bir platforma təşkil etmək, həyatı məna verən canlı bir mənəviyyat anlayışını bəsləyərək, bəşər ailəsinin mədəniyyətləri və ənənələri arasında uzlaşmanı təşviq etmək, bütün dünyadakı musiqiçiləri və sənət adamlarını bu günü qeyd etməyə və yaradıcılığımızın zənginliyi və fərqlərimizin gözəlliyi ilə insanları birləşdirməyə çağırmaq və s. kimi məqsədlər müəyyən olundu.

Gün həmin vaxtdan başlayaraq hər il mütəmadi olaraq qeyd olunur. 16 May 2019-ci il tarixində Parisdə UNESCO (BMT-nin elm, təhsil və mədəniyyət üzrə ixtisaslaşmış qurumu) tərəfindən "Beynəlxalq Sülhdə Birgə Yaşamaq Günü"-nü qeyd edərkən təşkilatın baş direktoru Audrey Azoulay çıxışında günün əhəmiyyəti haqqında qeyd etmişdir ki, müntəzəm olaraq gərginliyin, nifrət aktlarının, başqalarının rədd edilməsinin və ayrıseçkiliyin şahidi olduğumuz bir dünyada barışa və ahəngdar bir yerdə yaşamağa istəyin olması hər zamankından daha vacibdir [13]. Bu beynəlxalq gün, bütövlükdə bəşəriyyətin sülh içində yaşaya bilməsi üçün birlikdə yaşamağın yaxşılaşdırılması yollarını və konkret hərəkətləri birlikdə düşünmək və hər miqyasda əhatəli, dinc və davamlı bir mühit təmin etmək imkanı verir. UNESCO və bütövlükdə BMT gündəlik olaraq insanlara sülh əldə etmək üçün vasitə ilə təmin etmək üçün səy göstərir.

Barışıq içində yaşamağın əsas elementi fərqli mədəniyyətlərin xalqları arasında qarşılıqlı anlaşmadır. Bu gün, bütövlükdə bəşəriyyətin sülh içində yaşaya bilməsi üçün birlikdə yaşamağın yaxşılaşdırılması yollarını və konkret hərəkətləri birlikdə düşünmək və hər miqyasda əhatəli, dinc və davamlı bir mühit təmin etmək imkanı verir. Martin Lüter Kinqin bir dəfə dediyi kimi: "Əgər yer üzündə sülh şəraitində olsaq, sədaqətimiz irqimizdən, tayfamızdan, sinifimizdən və milliyətimizdən üstün olmalıdır; bu da bir dünyagörüşü inkişaf etdirməyimiz deməkdir" [13].

"Birgə yaşamaq" təşəbbüsü, nifrəti, ksenofobiyanı, mədəniyyətlər və sivilizasiyalar-arası toqquşmaları birdəfəlik aradan qaldıra biləcəyini və ya yaxın gələcəkdə dövlətlər arasındakı qarşıdurmalara, vətəndaş müharibələrinə, terrorizmə və ya transmilli cinayətkarlığa son verə biləcəyini iddia etmir [5]. Lakin gələcəklərini bir-birlərinə qarşı deyil, bir-birləri ilə qura biləcəkləri düşüncəsinin qəbul edilməsi üçün bir vasitə olaraq xalqlar və millətlər arasında bir yerdə sülh içində yaşamaq mədəniyyətini tanıtmaq və yaymaq məqsədi daşıyır. Məqsəd dünyaya nümayiş etdirməkdir ki, bəşəriyyətə daha yaxşı necə xidmət etmək olar və dünyanı necə gözəlləşdirmək olar. Proses çox uzun bir müddət tələb edir, amma bunun başlaması belə böyük bir addımdır. Lakin müasir dünyada qarşıya qoyulan bu məqsəd böyük maneələrlə qarşılaşır. İqlim dəyişikliyi, artan iqtisadi bərabərsizlik, dünya iqtisadiyyatının qeyri-stabil vəziyyəti, davam edən münaqişələr, qaçqın və köçkün problemi və s. sosial dəyişikliklərə və texnoloji inqilablara təhdiddir. Bu da öz növbəsində birgə yaşamağı çətinləşdirir.

Xalqların sülh şəraitində birgə yaşamasına təsir edən amillərdən biri də XX əsrin 80-ci illərindən başlayaraq sürətlə yayılan qloballaşma ideyalarıdır. Bir çox müəlliflər qloballaşmanı bir növ müasirləşdirmə prosesinin inkişafı, dünyanın sonrakı inteqrasiya prosesinin müasir mərhələsi, ümumbəşər mədəniyyətinin formalaşması kimi qiymətləndirirlər. Belə yanaşmaya əsasən qloballaşma dünyanın vahid qarşılıqlı əlaqəli iqtisadi, siyasi, mədəni məkan kimi mərhələli təşəkkül prosesidir [ 1, s.20].

Qloballaşan dünyada ən az iqtisadi, siyasi əlaqələr qədər mədəni mübadilə dünya cəmiyyətinin inkişafının ayrılmaz cəhətlərindən biridir. Dünyada iqtisadi cəhətdən nə qədər güclü olsa da, heç bir dövlət öz əhalisinin mədəni tələbatını dünya mədəni tarixi irsinə qoşulmadan təmin edə bilməz. Mədəni mübadilə rəqabət və əməkdaşlıq şəklində özünü göstərir. Mədəni sahədə rəqabət siyasi-iqtisadi rəqabətdən daha kəskin xarakter daşıyır. Dövlət və millətlər mədəni mübadilədə fərdlər kimi eqoistlik sərgiləyir. Onlar ilk öncə öz mədəniyyətlərinin təsirini genişləndirmək üçün can atırlar, digər mədəniyyətləri isə öz məqsədləri üçün istifadə etməyə çalışırlar [1, s. 51-52].

Beləliklə, mədəni mübadilə zamanı əməkdaşlıq deyil, rəqabətin seçilməsi müxtəlif mədəni birliklər arasında əksinə olaraq, ziddiyyətlərin yaranmasına səbəb olur. Bu baxımdan qloballaşma nəticəsində qlobal sivilizasiyanın yaranmasına dair dörd ənənə qeyd olunur: mədəni polyarlaşma, mədəni as-

similyasiya, mədəni hibridləşmə, mədəni təcrid olunma [1, s. 53].

- Mədəni polyarlaşma – iqtisadi və ekoloji bərabərsizlik, dini və bazar fundamentalizmi, bəzi dövlətlərin və hərbi-siyasi blokların nəzarət sahələrini genişləndirməsi, kütləvi qırğın silahlarının artması nəticəsində yaranan qütbləşmədir;

- Mədəni assimilyasiya – "Soyuq müharibə"-dən sonra Qərb liberalizminin qələbəsi nəticəsində universal norma və qaydaların genişlənməsidir. Belə ki, Qərb sivilizasiyası bütün dünyada hakim ola biləcək universal dəyərlər kimi qəbul olunurdu;

- Mədəni hibridləşmə - XX əsrin sonlarına yaxın daha da təkmilləşərək etnik birliklərin yaranmasına gətirib çıxarmış, dünya bir-birinə daxil olan translokal mədəniyyətlər sisteminə çevrilmişdir;

- Mədəni təcrid olunma – mədəni və dini fundamentallıq, ekoloji, milli, rasist hərəkatlar, informasiya və humanitar əlaqələrin məhdudlaşdırılması, senzuranın mövcudluğu və s. kimi səbəblərdən qaynaqlanaraq dövlətlərin, regionların, siyasi, mədəni birliklərin təcrid olunmasıdır [1, s. 53].

Göründüyü kimi dünyada gedən qloballaşma prosesi etnik, dini, mədəni fərqliliklərin qarşılıqlı əlaqələrinə, birgə yaşamaya əsaslanan həyat tərzlərinin formalaşmasına birmənalı şəkildə təsir etmir. Universal kimi qəbul olunan dəyərlərin heç də bütün cəmiyyətlər üçün eyni mahiyyət daşımaması cəmiyyətlərdə və ya qruplar daxilində mühafizəkarlığın artmasına gətirib çıxardı. Samuel Hantinqton 1993-cü ildə irəli sürdüyü "Sivilizasiyaların toqquşması" konsepsiyasında nə üçün yeni münaqişələrin səbəbinin niyə məhz sivilizasiya fərqləri olacağını izah edərkən səbəblərdən biri kimi sivilizasiyalarda özünüdərketmənin artmasını, Qərbin ideal tərənnümü və ikili siyasəti nəticəsində meydana çıxan "kökə qayıtma" prosesini vurğulayır [12, s. 24].

Fransa de College-də Sosiologiya üzrə professor Alain Touraine "Birlikdə yaşaya bilərikmi: bərabərlik və fərqlilik" kitabında qloballaşan dünya cəmiyyətində necə yaşaya biləcəyimizi araşdırır [4]. Qlobal bir ərimə qabının cazibədar metaforasından imtina edərək, A.Touraine, indi eyni sosial və mədəni dəyərləri bölüşərək bərabər yaşadığımız düşüncəsinə tamamilə etiraz edir. O iddia edir ki, cəmiyyətlər qloballaşmanın pozucu qüvvələrinə qarşı öz kimliklərini getdikcə daha çox müəyyən etdikləri üçün fərqlərimiz artır. A.Touraine qloballaşma və spesifikləşmənin əkiz proseslər olduğunu və bizi daha da uzaqlaşdırdığını iddia edir. Bir tərəfdən, ənənəvi dəyərlər və mədəni ifadə formaları homogenləşdirilmiş kütləvi mədəniyyət tərəfindən məhv edilir, digər tərəfdən, cəmiyyətlər özlərini kənar təsirlərdən qorumaq üçün mübarizə apardıqca daha da dəyişkən olurlar.

A.Touraine ilk öncə şəxsiyyətin məhv edilməsinin qarşısını almağın yeganə yolu kimi fərdlərin şəxsi həyatını inkişaf etdirməsinin təmin olunmasını irəli sürür. Daha sonra o, bu qeyri-sosial prinsipin ictimai həyatın yenidən qurulması üçün necə istifadə oluna biləcəyini araşdırır. Müəllifin fikrincə ilk addım başqalarının da subyekt olduğunu etiraf etmək, şəxsi azadlıq hissi üçün səy göstərməkdir. Daha sonra A.Touraine ümumi iradədə iştirakı təmin edə bilmək üçün təyin olunan köhnə demokratiya ideyasının dəyişdirilməsini zəruri sayır. Azadlığı qoruyan və subyektlər arasında əlaqə yaratmağa imkan verən yeni fikirli qurumların təsis olunmasını irəli sürür. Onun fikrincə, bu, bərabər yaşamağa imkan verən yeganə yanaşmadır [4].

Alain Touraine "Birlikdə yaşaya bilərikmi: bərabərlik və fərqlilik" kitabında qeyd edir ki, kiçik cəmiyyətlərimiz tədricən geniş bir qlobal cəmiyyətə birləşmir; bunun əvəzinə bir zamanlar cəmiyyətlər və ya ölkələr adlandırdığımız eyni zamanda siyasi, ərazi və mədəni qurumlar etnik, siyasi və dini qarşıdurmalardan sonra gözlərimiz önündə parçalanır [6]. Nəticə budur ki, gündəlik yaşamımızda eyni cür davranıb, eyni əşyalardan istifadə etdiyimiz dərəcədə birlikdə yaşayırıq, ancaq bir-birimizlə mənalı şəkildə ünsiyyət qurmur və ya özümüzü idarə etmirik.

A.Touraine qarşılıqlı dözümlülüyün və şəxsi azadlığa hörmətin, bəzi ictimai qaydalar ilə razılaşmağımızın və daha dərin bağlar qurmaq cəhdimizin birgə yaşamağı təmin etməyimiz üçün vacib olduğunu qeyd edir. Subyektin şəxsi həyatını inkişaf etdirməsini təmin etmək üçün seçdiyimiz modeli cəmiyyətlər və xalqlar üzərində tətbiq etmək məqsədilə sosial və siyasi qurumlar yaratmaq üçün istifadə edə biləcəyimizi irəli sürür [6]. Beləliklə, qurulan yeni sosial təsisatların sosial münasibətlər, siyasət və təhsil baxımından nə kimi təsirə malik olacağını araşdırır. Deməli, bu şəkildə formalaşan və idarə olunan cəmiyyətlər fərqli

qrupların sülh şəraitində, yanaşı yaşamasını təmin edə bilər ki, buna dair bir neçə uğurlu model də mövcuddur. Belə nümunələrdən biri Azərbaycanın multikulturalizm siyasətidir.

Azərbaycan fərqli mədəniyyətlərin birləşdiyi ərazi olaraq, əsrlər boyu milli-mədəni baxımdan rəngarəng mühitin formalaşdığı, ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin sülh, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən olduğu kimi bu gün də milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır [2].

Multikulturalizmin Azərbaycanın dövlət siyasəti olmasının əsas göstəricilərindən biri burada dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasıdır. Ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olması dörd mühüm məqamda təzahür edir: dini azadlıqların təmin edilməsi, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olması, onların fəaliyyətlərinə dövlət tərəfindən dəstək göstərilməsi və dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulması [3]. Azərbaycan multikulturalizm siyasəti həyata keçirərək ölkə daxilində olan etnik və mədəni müxtəliflikləri tənzimləyir, eyni zamanda bu fərqliliklərin və onların əsasında dayanan dəyərləri qoruyur. Bu, demokratik cəmiyyətə xas olan norma və prinsiplərə uyğun siyasətdir. Çünki xalqların mədəni dəyərlərinin qorunması hamı tərəfindən qəbul olunan insan haqlarının mühüm hissəsidir.

Azərbaycan Respublikasının multikulturalizm siyasətində çox önəmli bir qanunauyğunluq mövcuddur. Belə ki, multikulturalizmin ölkənin daxili siyasətində özünü göstərməsi onun xarici siyasətində də yaranmasına səbəb olur [3]. Bu, təbii olaraq, daxili və xarici siyasət arasında olan qarşılıqlı-asılı münasibətdən və multikulturalizmin dövlətin xarici siyasətində də özünü büruzə verməsindən xəbər verir. Yəni ölkə daxilində həyata keçirilən multikulturalizm siyasəti cəmiyyətdə mövcud olan etnik və mədəni baxımdan fərqli dəyərlərin qorunmasına səbəb olur, beynəlxalq münasibətlərdə isə etnik, dini, irqi və mədəni mənsubiyyətlərindən asılı olmayaraq bütün ölkələrlə hərtərəfli əlaqələrinin inkişafı üçün əlverişli şərait yaradır [3]. Belə siyasət də öz növbəsində dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına, xalqların sülh şəraitində birgə yaşama ənənələrinin formalaşmasına töhfə verir. Multikulturalizmin müxtəlif modelləri vardır: ABŞ, İsveç, Avstraliya, Kanada və s. Azərbaycanın təqdim etdiyi model də bir çox dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir [2].

Bu gün dünyada multikulturalizmin və birgə yaşamaya əsaslanan humanist ideyaların alternativi yoxdur. Odur ki, ziddiyyətlərin qabarıq nəzərə çarpdığı müasir beynəlxalq münasibətlər sistemində münaqişələrə və qarşıdurmalara son qoymaq, müxtəlif xalqlar və dövlətlər arasında uzlaşmanı təmin etmək üçün multikulturalizm və birgə yaşama modellərinin inkişafı olduqca vacibdir.

**Açar sözlər:** *sülh şəraitində birgə yaşama, multikulturalizm, milliyətçilik, beynəlxalq sülh, beynəlxalq təhlükəsizlik.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. A.N.Abbasbəyli "Müasir beynəlxalq münasibətlər və qloballaşma" Bakı 2007;*

*2. Azərbaycan multikulturalizmi – ümumi məlumat;*

*http://multiculturalism.preslib.az/az_a1.html*

*3. Etibar Nəcəfov, "Multikulturalizm Azərbaycan Respublikasının daxili və xarici siyasətinin mühüm istiqamətidir", "Azərbaycan" qəzeti, 16 fevral 2018-ci il; http://www.dqdk.gov.az/az/view/news/4675/multikulturalizm-azerbaycan-respublikasinin-daxili-ve-xarici-siyasetinin-muhum-istiqametidir*

*4. Alain Touraine, "Can We Live Together?: Equality and Difference", March 2000, 336 Pages;*

*https://www.wiley.com/en-az/Can+We+Live+Together%3F:+Equality+and+Difference-p9780745622125*

*5. Belkacem Iratni, Professor, University of Algiers, "Living together in peace: Developing exemplary Euro-African relationships" Posted on 16 Jan. 2019;*

*https://doc-research.org/2019/01/living-togeth-*

*er-in-peace-developing-exemplary-euro-african-relationships/*

*6. Description of book Alain Touraine, "Can We Live Together?: Equality and Difference"; https://www.sup.org/books/title/?id=1278*

*7. International Day of Living Together in Peace, 16 May; https://www.un.org/en/events/livinginpeace/*

*8. "Living together in cultural diversity", Reinhard Mohn Prize 2018; https://www.bertelsmann-stiftung.de/en/our-projects/living-diversity/project-description/*

*9. Martin Luther King Jr. Biographical; https://www.nobelprize.org/prizes/peace/1964/king/biographical/*

*10. Raluca Şancariuc "Cultural Diversity: Same Question, but a Different Answer. The Story of Azerbaijani Multiculturalism" No. 21, Jan.-Feb. 2020; http://www.themarketforideas.com/cultural-diversity-same-question-but-a-different-answerthe-story-of-azerbaijani-multiculturalism-a222/*

*11. Resolution adopted by the General Assembly on 8 December 2017; https://undocs.org/A/RES/72/130*

*12. Samuel P.Hantinqton "The clash of civilazations", Foreign Affairs, summer, 1993; http://www.hks.harvard.edu/fs/pnorris/Acrobat/Huntington_Clash.pdf*

*13. UNESCO marks the International Day of Living Together in Peace, Thu 16-05-2019, 23:03 PM; http://wam.ae/en/details/1395302763129*

*14. "We are Made to Live Together", by UPLIFT on Friday, November 27th, 2015; https://upliftconnect.com/made-to-live-together/*

**Fidan Hasanova**
**Master, The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**The concept of "living together in peace" and the example of multiculturalism in Azerbaijan**

**SUMMARY**

This article explores the concept of "living together in peace", its features and significance. The article describes the origin and purpose of the concept. Moreover, in this article is analyzed the impact of globalization, ethnic and religious discrimination, and nationalism on this theory. The author emphasizes the concept of "living together in peace as a best model to maintain international peace and security in the world. At the end of the article is underlined the multiculturalism in Azerbaijan as a successful example.

**Keywords:** *living together in peace, multiculturalism, nationalism, international peace, international security.*

**Фидан Гасанова**
**Магистр, Академия Государственного Управления при Президенте Азербайджанской Республики**

**Концепция «жить вместе в условиях мира» и пример мультикультурализма в Азербайджане**

**РЕЗЮМЕ**

Данная статья рассматривает понятие «жить вместе в условиях мира», его особенности и значение. В этой статье описывается происхождение и цель концепции. Кроме этого, в статье анализируется влияние глобализации, этнической и религиозной дискриминации, а также национализма на эту теорию. Автор подчеркивает концепцию «жить вместе в условиях мира» как лучшую модель для поддержания международного мира и безопасности во всем мире. В конце статьи мультикультурализм в Азербайджане подчеркивается в качестве успешного примера.

**Ключевые слова:** *жить вместе в условиях мира, мультикультурализм, национализм, международный мир, международная безопасность.*

UOT 340.1; 321.01

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QULLUĞU SİSTEMİNİN İNKİŞAF TARİXİ

**HƏMDULLA MƏMMƏDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

*Email: hamdulla.mammadov@gmail.com*

## Giriş

Dövlət qulluğu ilk növbədə dövlət idarəetmə fəaliyyətinin bir istiqaməti olmaqla, dövlət qulluğu sisteminin uğurlu tətbiqi təsirli mexanizm və vasitələrlə şərtlənir. Azərbaycan Respublikasında dövlətlərin formalaşması tarixi olduqca qədimdir. Çoxəsrlik dövlət idarəçiliyi təcrübəsinə malik olan ölkəmiz dövr keçdikcə dövlət idarəçiliyi və dövlət qulluğu sahələrində peşəkarlığın artmasına şahid olmuşdur. İstər Azərbaycan ərazisində formalaşmış orta əsr feodal dövlətləri, istərsə də Çar Rusiyası dövründə tələb olunan peşəkarlıq səviyyəsinə çata bilməyən dövlət qulluğu sistemi XX əsrin əvvəllərindən dinamik inkişafa başlamış, 1991-ci ildə dövlət müstəqilliyinin yenidən bərpası ilə yeni bir inkişaf yoluna qədəm qoymuşdur. Lakin ölkəmizdə hüquqi aspektdən dövlət qulluğunun əsasları 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın Konstitusiya ilə qoyulmuşdur.

## Azərbaycan ərazisində dövlət qulluğunun formalaşmasının tarixi və xüsusiyyətləri

Azərbaycanda dövlət qulluğu sisteminin formalaşması dövlətçilik sisteminin inkişaf tendensiyalarının dərindən öyrənilməsi baxımından əhəmiyyətlidir. Dövlət qulluğu sisteminin formalaşması tarixi və xüsusiyyətləri dövlətçilik tarixi ilə bilavasitə bağlılıq təşkil edir. Bu baxımdan, dövlət qulluğu dövlət idarəçiliyi aparatının peşəkarlaşmasını təmin edən bir sistemdir. Müxtəlif dövlətlərdə dövlət qulluğu sisteminin tərkib hissələri və funksiyaları fərqlidir. Xalqların malik olduqları dövlətçilik ənənələri ilə yanaşı, milli-mənəvi dəyərlər sistemi, və s. məqamlar dövlət qulluğu sisteminin formalaşması və inkişafı prosesində əhəmiyyətli rol oynayır. Azərbaycan ərazisində qədim dövlət idarəçiliyi təcrübəsi müasir mərhələdə dövlət qulluğu sisteminin formalaşmasına və inkişafına təsir etmişdir.

Ümumilikdə götürsək, Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin inkişafı üçün dövlət idarəçiliyinin yaxşılaşdırılmasına yönəlmiş bir siyasi qurum olaraq dövlət qulluğunun aktuallığını və əhəmiyyətini müəyyənləşdirən mühüm nəzəri və praktik amillər vardır. Baxmayaraq ki, müasir dövrdə dövlət qulluğu hələ də kifayət qədər dəqiqliyə və tamlığa çatmamışdır, Azərbaycan Resublikasında onun inkişaf xüsusiyyətləri müəyyən edilmişdir. Əlbəttə ki, dövlət idarəçiliyi və buna uyğun olaraq dövlət qulluğunda aparılan islahatlar bir qayda olaraq, tarixin müəyyən labüd dövrlərinə təsadüf edir. Digər bir xüsusiyyət isə ondan ibarətdir ki, dövlət qulluğunun xarakteri dövlət orqanlarının quruluşu və iş prinsipləri ilə sıx bağlıdır.

Dövlət qulluğu sistemində inkişaf tendensiyalarını miqyasına, dərinliyinə, xarakterinə və məqsədlərinə görə fərqləndirmək lazımdır. Çünki Azərbaycanda hazırkı mərhələdə fəal vətəndaş cəmiyyəti quruculuğu prosesi davam edir. Vətəndaş cəmiyyətinin inkişafı bütün dövlətlərdə dövlət idarəçiliyi sistemində yeni xüsusiyyətlər meydana gətirir. Öz növbəsində dövlət qulluğu sistemi də vətəndaş cəmiyyətinin yeni reallıqlarına uyğun olaraq yeni xüsusiyyətlər qazanır. Bu məsələni akademik Ramiz Mehdiyev kifayət qədər arqumentləşdirilmiş şəkildə ifadə

etmişdir: "Qlobal demokratik yürüşün" tərkib hissəsi kimi, sosiomədəni fonun dəyişiklikləri postindustrial dəyərlərin institusionallaşmasına, səmərəli idarəetmə amillərinin formalaşmasına və şəffaf ictimai qayda qurulmasına imkan yaradır. Demokratiya, bazar təsərrüfatı və vətəndaş cəmiyyəti idealı tədricən cəmiyyətin inkişaf strategiyasının əsas səmtinə çevrilmiş, beləliklə də müasir milli dövlətin başlıca vəsilələri olmuşdur". [7, s. 180]

Qeyd olunduğu kimi Azərbaycanın qədim dövlətçilik tarixi müasir dövlət qulluğu sisteminin formalaşmasına öz təsirini göstərmişdir. Ancaq dövlət qulluğu anlayışı bütün siyasi və hüquqi komponentləri ilə akademik istifadəyə 1995-ci il 12 noyabrda tarixdə ölkənin ali qanunun – Konstitusiyanın qəbulundan sonra verilməyə başlamışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 55-ci maddəsi birbaşa dövlət qulluğu ilə bağlıdır. Konstitusiyanın bu maddəsində dövlətin idarə olunmasında iştirak etməyin hər vətəndaşın konstitusion hüququ olduğu təsbit edilmişdir. Bundan başqa, ölkə vətəndaşlarının dövlət qulluğu sistemində fəaliyyətlərinin prinsipləri də aydın ifadəsini tapmışdır.

Azərbaycanda dövlət qulluğu sisteminin keçdiyi inkişaf yoluna gəlincə, ölkədə dövlət qulluğunun xarakterinə görə 5 tarixi dövr fərqləndirilir: [7, s. 182]

| DQ tipi | Dövr |
|---|---|
| Saray tipli ənənəvi dövlət qulluğu sistemi dövrü | 1828-ci ilə qədər |
| Yarımsaray, yarı modern dövlət qulluğu dövrü | Çar Rusiyası dövrü |
| Milli-rasional bürokratikləşmə | 1918-1920 |
| Sovet nomenklaturası | 1920-1991 |
| Müasir dövlət qulluğu sisteminin quruculuğu dövrü | 1991-ci ildən bu günə kimi |

Saray tipli ənənəvi dövlət qulluğu sistemi ibtidai xarakterə malik olduğuna görə, bu mərhələdə hansısa peşəkarlıq, hüquqi əsas və bürokratik dəyərlərdən bəhs etmək mümkün deyildir. Orta əsrlər feodal dövrü üçün dövlət qulluğu sisteminin əlamətləri bir sıra tarixi Azərbaycan dövlətlərində oxşarlıq və ya eynilik təşkil edir. Sonrakı dövrlədə isə Azərbaycanda tədricən dövlət qulluğu sistemi və dövlət qulluqçuları peşəkarlaşmağa başladı. Bu Çar Rusiyası dövründən bu günə qədər davam etməkdədir. Çar Rusiyası dövründə də Azərbaycanda 3 idarəetmə modeli tətbiq olunmuşdur: [8, s. 104]

- Komendant üsul idarəsi;
- Quberniyalaşdırma – qəza, naiblik;
- Duma modeli.

Artıq yuxarıda nəzərdən keçirildiyi kimi, idarəçiliyin müxtəlif səviyyələrinin səmərəliliyini şərtləndirən bürokratik sistem özünün bütün elementləri ilə formalaşmışdır və davamlı olaraq təkmilləşməkdədir.

**Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşması və inkişaf xüsusiyyətləri**

1991-ci ildə yenidən dövlət müstəqilliyini qazanan Azərbaycanda dövlət qulluğu sistemi prinsipcə tam yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə tamamilə yeni bir idarəetmə sistemi formalaşmağa başlamışdır. Məhz müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında dövlət qulluğunun həyata keçirilməsi zamanı istinad olunan prinsiplər tam formalaşmışdır.

1991-ci ilin oktyabr ayının 18-də qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında dövlət qulluğunun vacib prinsiplərinin bir qismi öz əksini tapmışdır. Lakin dövlət qulluğunun konstitusional əsaslarının formalaşmasında 1995-ci ilin noyabr ayının 12-də qəbul olunmuş Konstitusiya Aktının danılmaz rolu olmuşdur. Belə ki, bu konstitusiyanın 55-ci maddəsində xüsusi bir maddə müəyyənləşmişdir ki, burada vətəndaşların dövlət qulluğuna qəbulu və dövlət qulluğunda iştirakı ilə bağlı bir sıra məqamlar yer almışdır. Bu Konstitusiya Aktının qəbul olunmasından sonra Azərbaycan Respublikasında dövlət qulluğunun real inkişafının işlək əsaslarının daha dinamik işlənib hazırlanılmasına başlanılmışdır.

Cəmiyyətin gözləntilərinin nəzərə alınması və ictimaiyyətdə dövlət qulluğunun pozitiv imicinin yaradılması məsələlərinə də məhz bundan sonra ciddi diqqət yetirilməyə başlanmışdır. Bunun ilk mühüm əlamətlərindən biri kimi 1996-cı ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı sərancamla Hüquqi islahatlar komissiyasının yaradılmasını

göstərmək olar. Bu, müstəqil Azərbaycan Respublikasında digər sahələrlə yanaşı, həm də dövlət idarəçiliyinin və dövlət qulluğunun normativ-hüquqi bazasının formalaşmasının başlanğıcı idi.

1998-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "AR-nın dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" fərman imzalamışdır. Bu fərmanın imzalanmasında əsas məqsəd ölkənin dinamik inkişafını təmin edəcək dövlət idarəetmə sisteminin formalaşdırılması idi. Ulu Öndər Heydər Əliyev dövlət idarəçiliyi sistemində islahatların həyata keçirilməsi məqsədi ilə xüsusi komissiya da yaratmışdır. Tərkibi 17 nəfərdən ibarət olan komissiyaya sədrliyi Heydər Əliyev öz üzərinə götürmüşdür. Məhz bundan sonra Azərbaycanda dövlət idarəçiliyi və dövlət qulluğu sistemində zəruri islahatların həyata keçirilməsinə praktik olaraq başlanılmışdır.

2000-ci ilin iyul ayının 21-də Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında səmərəli dövlət qulluğu sisteminin formalaşması prosesində xüsusi yerə malikdir. Bu qanunun qəbul olunması ilə həm Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi əsasları müəyyənləşdirilmiş, həm də dövlət qulluqçularının hüquqi vəziyyəti qətiləşdirilmişdir. Bundan iki il sonra 2002-ci ilin mart ayından Avropa İttifaqının Azərbaycanda dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə "TACİS" layihəsi fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 180 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. 31 may 2007-ci ildə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanununun qəbul edilməsi ilə bu sahədə hüquqi mexanizmlər konkretləşdirilmişdir. [2]

2007-ci il mayın 31-də Azərbaycan Respublikasında dövlət qulluğu sistemində xüsusi rola malik olan "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun qəbul olunmuş, ardıyca Nazirlər Kabinetinin 2009-cu il martın 19-da qəbul etdiyi "Dövlət qulluqçularının əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı qaydaları" ilə müəyyən olunmuşdur. Sözü gedən qaydalar 2010-cu il yanvarın 1-dən qüvvəyə minmişdir.

Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədilə 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmiş, bununla əlaqədar olaraq Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın, yeni texnologiyaların tətbiqi əsas prinsiplər kimi təsbit olunmuşdur.

2016-cı ildə isə dövlət orqanlarının mərkəzləşdirilməsi və dövlət idarəçiliyində səmərəliliyin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın hüquq və vəzifələri Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə həvalə olunmuşdur.

Azərbaycan Respublikasında aparılan əhəmiyyətli islahatlar idarəetmənin təkmilləşdirilməsinə, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına xidmət etməkdədir. Dövlət qulluqçularının qiymətləndirilməsinə nəzarət sistemində də müvafiq dəyişikliklər edilməkdə, ictimai rəy, şəffaflıq və xidmətlərin göstərilməsində keyfiyyət ön plana keçirilməkdədir. [6, s. 6]

Azərbaycan Respublikasının Prezidenti son illərdə dövlət qulluğunun səmərəliliyinin arıtırlmasına yönəlmiş yeni tədbirlər mərhələsinə başlamışdır. Bu islahatlar dalğasının ilk öncə hərtərəfli və geniş strategiyası hazırlanmış, daha sonra isə hüquqi, həm də inzibati bazası yaradılmışdır. Bu müstəvidə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiyadan misal göstərilə bilər.

Cəmiyyət həyatının bütün sahələrində, istər sosial-siyasi, istər iqtisadi, istər humantar-mədəni sahələrdə aparılan islahatlar Azərbaycan Respublikasının yeni inkişaf strategiyasının həyata keçirilməsindən xəbər verir. Azərbaycanda dövlət qulluğu sisteminin inkişafı istiqamətində cənab

İlham Əliyev tərəfindən həyata keçirilən innovasiyalar bir sıra kateqoriyalarda tətbiq olunur: [9, s. 64]

| İnovasiyanın adı: | Göstərdiyi xidmət: |
|---|---|
| Məhsul innovasiyası: | yeni və ya təkmilləşdirilmiş xidmətlər |
| Sistem innovasiyası: | mövcud struktur bazasının yenilənməsi, yeni baza əsasların qurulması |
| Proses innovasiyası: | dövlət xidmətinin istehsal üsulunda və ya təqdim olunmasındakı keyfiyyətin inkişaf etdirilməsi |
| Struktur-inzibati innovasiya: | dövlət siyasətində və idarəçiliyində yeniliklər, dəyişikliklər |
| Anlayış innovasiyası: | yeni anlayışlara bağlı olaraq yeni idarəetmə formatlarının tətbiq edilməsi |

**Nəticə**

Ərazisindəki dövlətlərin formalaşması tarixi olduqca qədim olan Azərbaycanın çoxəsrlik dövlət idarəçiliyi təcrübəsinə malik olması səbəbindən Azərbaycan Respublikasının geniş dövlət idarəçiliyi və dövlət qulluğu təcrübəsi mövcuddur. Lakin buna baxmayaraq, həm Azərbaycan ərazisində formalaşmış orta əsr feodal dövlətləri, həm də Çar Rusiyası dövründə dövlət qulluğu sistemi tələb olunan peşəkarlıq səviyyəsinə çata bilməmiş, yalnız XX əsrin əvvəllərindən dinamik inkişafa başlamış və 1991-ci ildə dövlət müstəqilliyinin yenidən bərpası ilə tamamilə yeni bir təkamül yoluna daxil olmuşdur. Azərbaycan Respublikasında son zamanlar bütün dövlət qulluqçularından tələb olunan etik davranış qaydalarına aid standartlar təkmilləşdirilmişdir. Bununla yanaşı, ölkədə dövlət qulluğu sahəsində həyata keçirilən islahatlar zamanı xarici təcrübənin öyrənilməsi və uğurla tətbiq olunması da prioritet məsələ kimi diqqətdə saxlanılmaqdadır.

**Açar sözlər:** *Azərbaycan Respublikası, dövlət qulluğu, dövlət qulluqçusu, innovativ inkişaf, dövlət idarəçiliyində islahatlar.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016. Maddə 55*

*2. Azərbaycan Respublikasının "Dövlət Qulluqçularının Etik Davranış Qaydaları Haqqında" Qanunu. Bakı, 2007. 19 səh.*

*3. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 mart 2002-ci il (http://www.e-qanun.az/framework/1570) 3 səh.*

*4. Chapman, R.A. ve Greenway J.R. The Dynamics of Administrative Reform, London: Croom-Helm, 1984. 450 p.*

*5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001. 74 səh.*

*6. Hüseynova N. İdarəetmədə müasir islahatların əsas istiqamətləri: şəffaflıq, asan xidmət, vətəndaş məmnunluğu. Azərbaycan.-2014. 21 fevral. s.6.*

*7. İsmayılov S. Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri. Bakı, «Oğuz Eli», 2013. 216 səh.*

*8. Rehimli R. Azerbaycan devlet personel yönetimi. Ankara, 2011. 256 səh.*

*9. Rəhimli R. "Dövlət qulluğunda etika və onun əsas komponentləri", Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, Bakı, 2018. s. 64*

*10. Yanq R., Azadov. Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər, Bakı 2004. 326 səh.*

*11. Həbibova Z. Dövlət qulluğu dövlət idarəçiliyinin başlıca komponentlərindəndir. 19.05.2019 (http://www.azerbaijan-news.az/view-167971/D%C3%B6vl%C9%99t-qullu%C4%9Fu-d%C3%B6vl%C9%99t-idar%C9%99%C3%A7iliyinin-ba%C5%9Fl%C4%B1ca-komponentl%C9%99rind%C9%99ndir)*

**Гамдулла Мамедов**
**Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**История развития системы государственной службы в Азербайджанской Республике**
**РЕЗЮМЕ**

В статье, посвященной истории системы государственной службы в Азербайджанской Республике отмечается, что история

формирования государств в Азербайджанской Республике довольно древняя. В статье также отмечается рост профессионализма в области государственного управления и государственной службы в нашей стране, которая обладает многовековым опытом государственного управления. Исследованы причины неспособности достижения востребованного уровня профессионализма средневековыми феодальными государствами, сформировавшимися на территории Азербайджана и в период царской России и было отмечено динамичное развитие системы государственной службы с начала XX века. В статье также затрагивается вопрос перехода государственной службы на новый уровень развития с восстановлением государственной независимости в 1991 году. Анализируя эти причины отмечены заслуги общенационального лидера Гейдара Алиева в данной области, а также показаны, предпринятые Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым последовательные и неотложные реформы за последние 17 лет.

**Ключевые слова:** *Азербайджанская Республика, государственная служба, государственный служащий, развитие, реформы в государственном управлении.*

**Hamdula Mammadov**
**PhD Candidate of The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**History of development of the civil service system in the Republic of Azerbaijan**

**ABSTRACT**

This article on the history of the civil service system in the Republic of Azerbaijan notes that the history of states' formation in the Republic of Azerbaijan is very old. The article also notes the growing professionalism in public administration and civil service of our country based on the centuries of experience in these fields. The reasons why we did not reach the sufficient levels of professionalism during the periods of medieval feudal states on the territory of Azerbaijan and Tsarist Russia, were analysed, and it was observed that the civil service system began to develop dynamically starting from the early twentieth century. The article also touches on the fact that the civil service system entered a new path of development in 1991 with the restoration of state independence. While analysing the reasons, the services of the national leader Heydar Aliyev in this field were described, and the consistent and urgent reforms carried out by the President of the Republic of Azerbaijan Ilham Aliyev over the past 17 years were illustrated.

**Keywords:** *Republic of Azerbaijan, civil service, civil servant, innovative development, reform of the public administration*

UOT 327;339.9

# AZƏRBAYCAN RESPUBLİKASININ SKANDINAVİYA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNİN SİYASİ ƏSASLARI

**LAMİYƏ QASIMOVA**
*Azərbaycan Dillər Universiteti, Beynəlxalq münasibətlər kafedrası, müəllim*

*E-mail: lamiyaqasimova@mail.ru*

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Avropa dövlətləri ilə münasibətlərə üstünlük verməyə başladı. Azərbaycan üçün nüfuzlu Avropa dövlətləri ilə münasibətlər yaratmaq və faydalı əməkdaşlıq əlaqələri qurmaq mühüm əhəmiyyət kəsb edirdi. Özünün regiondakı yeri və rolu, zəngin neft yataqları ilə Avropa siyasətçiləri və iş adamlarını keçən əsrin əvvəlində və sonunda eyni dərəcədə özünə cəlb edən Azərbaycan Qərb ölkələrinin Qafqaz siyasətinin fəal və daha məqsədyönlü mahiyyət kəsb etməsində əsas amil olmuşdur.

Avropa ölkələri içərisində Azərbaycanın Skandinaviya ölkələri ilə münasibətləri xüsusilə fərqlənir.

Skandinaviya ölkələrindən olan Norveç dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindən biridir. Müasir Norveçin iqtisadiyyatında hegemon sahə enerji istehsalına məxsusdur.

1949-cu ildə NATO yaranan zaman müqaviləyə qoşulan ilk ölkələrdən biri də Norveç idi.

Norveç Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1992-ci il yanvarın 2-də tanımış, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci il iyunun 5-də qurulmuşdur. 1998-ci ilin iyul ayının 22-də Norveç Krallığının Azərbaycanda səfirliyi açılmışdır. Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri R.İbrahimov iqamətgahı Stokholmda olmaqla, eyni zamanda ölkəmizin Norveç Krallığındakı səfiri təyin edilmişdir [6].

Azərbaycan müstəqillik qazandıqdan sonra Norveç ilə diplomatik münasibətlər yaransa da, qarşılıqlı əlaqələr çox zəif olub hələ uzun müddət mövcud imkanlardan geri qalırdı. Norveç ilə iqtisadi əməkdaşlığın qurulması iki ölkə arasında siyasi əlaqələrin inkişaf etməsinə zəmin yaradırdı. Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının müştərək istismarına söykənən Azərbaycan – Norveç iqtisadi əməkdaşlığı öz növbəsində getdikcə daha geniş və çoxşaxəli xarakter alırdı. Hələ 1990-cı illərin əvvəlindən Azərbaycan neftinə böyük maraq göstərən Norveçin “Statoyl” Dövlət Neft Şirkətinin 1994-cü ilin sentyabrında imzalanmış “Əsrin müqaviləsi”ndə təmsil olunması qarşılıqlı faydalı əməkdaşlığın möhkəm təməlini qoymuşdur.

1994-cü ilin oktyabrında Azərbaycan parlamenti nümayəndə heyətinin Norveçə, noyabr ayında isə həmin ölkənin sənaye və energetika nazirinin birinci müavini Q. Murvanqın rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfərləri iki ölkə arasında siyasi-iqtisadi, elmi və mədəni əlaqələrin inkişafına böyük təsir göstərdi [14, s. 106-108].

1995-ci il mayın 9-da Moskvada Norveçin baş naziri Harlem Brundtland ilə görüşən zaman Ermənistan – Azərbaycan münaqişəsinin aradan qaldırılmasında Norveçin ATƏT çərçivəsində fəaliyyətinin gücləndirməsini vacibliyini qeyd edən Prezident Heydər Əliyev ATƏT-in sülhü mühafizə qüvvələrinin yaradılmasında bu ölkənin silahlı qüvvələrinin də iştirak etməsini arzu etdiyini bildirmişdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996-cı il aprelin 24-dən 26-dək davam edən Norveç səfəri iki ölkə arasında əlaqələrin inkişafına yeni təkan verdi. Prezident Heydər Əliyev Norveç kral V Herald, Baş Nazir xanım Qru Harlem Brundtland və ölkə parlamenti – Stortinqin sədri ilə görüşərək, ikitərəfli əlaqələrin inkişafına dair məsələləri müzakirə etdi. İki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazasının genişləndirilməsi istiqamətində ciddi addımlar

atıldı. Danışıqların yekununda, aprelin 24-də Azərbaycan ilə Norveç arasında birgə bəyannamə imzalandı. Sənəddə iki ölkə arasında qarşılıqlı münasibətlərin yeni inkişaf səviyyəsinə çıxarmaq niyyətləri ifadə edilmişdi [14, s. 110].

İki ölkə arasında siyasi münasibətlərin inkişafında diplomatik nümayəndəliklər də mühüm rol oynayırdı. 1996-cı ilin noyabr ayında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri Mahmud Məmmədquliyev eyni zamanda Norveç Krallığında səfir təyin edildi. Norveç Krallığının Azərbaycanda səfirliyi isə 1998-ci il iyulun 22-də açıldı.

Bundan sonra münasibətlərdə dinamizm artdı. NATO-nin yaradılmasının 50 illiyi ilə bağlı Vaşinqtonda keçirilən toplantı zamanı 1999-cu il aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Norveç Krallığının Baş Naziri Kelye Maqne Bondevik ilə görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdi [16, s. 140].

2000-ci ilin fevral ayının 2-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol imzalandı. Protokola əsasən, tərəflər siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi, münasibətlərin hüquqi əsaslarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi, Avropada və beynəlxalq aləmdə təhlükəsizliyin inkişaf etdirilməsi və əməkdaşlığın dərinləşdirilməsi məqsədi ilə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı təmaslar, müqavilə və sazişlərin yerinə yetirilməsinin gedişi haqqında informasiya mübadiləsi, üçüncü ölkələrdə diplomatik və konsul nümayəndəlikləri səviyyəsində əməkdaşlıq edəcəkdilər [8].

Qarşılıqlı səfərlər isə diplomatik-siyasi münasibətlərin inkişafına ciddi təkan verirdi. 2000-ci il 22-25 fevralda Xarici İşlər Naziri V.Quliyevin, 2007-ci il 4-7 dekabrında Xarici İşlər Naziri E.Məmmədyarovun rəsmi səfəri, 2004-cü il 12-13 oktyabrda Xarici İşlər Naziri Y.Petersenin, 2008-ci il 28-29 aprelində isə Xarici İşlər Naziri Y.G.Storenin Azərbaycana rəsmi səfərləri bu qəbildəndir [6].

Münasibətlərin inkişafında mühüm yerlərdən birini 2000-ci il fevralın 22-25-də xarici işlər naziri Vilayət Quliyevin başçılıq etdiyi nümayəndə heyətinin Norveçə rəsmi səfəri tutdu. Səfər zamanı, fevralın 23-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalandı [16, s. 141].

2004-cü il oktyabrın 12-13-də Norveçin xarici işlər naziri, Avropa Şurasının Nazirlər Komitəsinin sədri Y.Petersenin başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər etdi. Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirilən görüşdə Azərbaycanda demokratik islahatların uğurla həyata keçirilməsindən, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Avropa strukturlarına inteqrasiya xəttinin xarici siyasətin əsas prioritetlərindən birini təşkil etməsi və Azərbaycan bu xəttə daim sadiqliyi ifadə olundu. İki ölkə arasında əlaqələrin uğurla inkişaf etməsindən məmnunlugunu ifadə edən Yan Petersen Azərbaycan – Avropa Şurası münasibətlərinə toxunaraq bildirdi ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə yalnız öhdəlik kimi yox, ölkənin demokratik inkişafı baxımından yanaşır.

Norveç Krallığının xarici işlər naziri Y.Störun 2008-ci il aprelin 28-29-da Azərbaycan Respublikasında rəsmi səfərdə olması mühüm siyasi əhəmiyyətə malik idi. Prezident İlham Əliyevlə Y.Stör arasında keçirilən görüşdə ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı [5].

Siyasi münasdibətlərdə mühüm məqamlardan biri Norveçin Azərbaycanda diplomatik nümayəndəliyini bağlaması qərarı idi. 2018-ci il noyabrın 9-da Norveç hökuməti Gürcüstanda səfirlik açması ilə bağlı qərarını açıqladı. Eyni zamanda Azərbaycandakı səfirliyinin bağlanmasını elan etdi. Norveç Azərbaycanda fəxri konsulluq səviyyəsində təmsil olunacaqdı. Azərbaycanla bağlı diplomatik və konsulluq işləri isə ölkənin Ankaradakı səfirliyi vasitəsilə aparılacaqdı. Norveçin xarici işlər naziri Eriksen Soreyde bu barədə bildirdi ki, Gürcüstan Cənubi Qafqazda Norveçin əsas tərəfdaşıdır və bu ölkədə həyata keçirilən islahatlar onu "Avropa qurumları və Avroatlantik qurumlarla yaxınlaşdırıb" [10].

2018-ci il noyabrın 12-də Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Finlandiyada, İsveç və Norveç Krallıqlarında fövqəladə və səlahiyyətli səfiri Adış Məmmədov geri çağırıldı [7].

Skandinaviya ölkələri içərisində Azərbaycanın İsveçlə də diplomatik münasibətləri yaranmışdır. Digər Skandinaviya ölkələri kimi İsveç də demokratiyanın inkişaf etdirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sülhsevər və bitərəf xarici siyasət sahəsində uğurlar qazanmışdır. Onun bu istiqamətlərdə əldə etdiyi müsbət təcrübə Azərbaycanın qarşısında duran müvafiq problemlərin həlli baxımından faydalı hesab olunurdu [15, s. 239]. İsveç Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci ilin yanvar ayının 16-da tanımış, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci ilin may ayının 8-də qurulmuşdur. 1998-ci ilin fevral ayında İsveçin Bakıda Fəxri Konsulluğu açılmışdır.

2005-ci il martın 11-də Azərbaycan Respublikasının İsveç Krallığında səfirliyinin təsis edilməsi haqqında qanun imzalanmış, səfirlik 2008-ci ilin yanvarında fəaliyyətə başlamışdır [3]. 2006-ci il avqustun 7-9-da Xarici İşlər Naziri E.Məmmədyarovun İsveçə, 2011-ci il iyunun 12-də isə Norveç Xarici İşlər Naziri K.Bildtin isə Azərbaycana rəsmi səfərləri olmuşdur.

İki ölkə arasında parlamentlərarası münasibətlər də inkişaf etmişdir. Milli Məclisdə Azərbaycan – İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir [4].

Azərbaycanla İsveç arasında siyasi münasibətlərin inkişafının mühüm bir istiqamətini onun ATƏT-dəki fəaliyyəti çərçivəsində Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyünü qorumaqla ədalətli həllinə siyasi dəstəyi təşkil edir. 1996-cı ilin dekabrında Lissabonda ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən zirvə toplantısında 53 dövlət Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmiş, Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində status verilməsinin mümkünlüyü göstərilmişdi.

2000-ci ildə Bakıda İsveç Konsulluğunun açılması iki ölkə arasında siyasi əlaqələrin inkişafına təkan verdi. Bu prosesdə ilk konsul Ərdal Otuzbir xeyli rol oynadı [15, s. 241].

Azərbaycanın xarici siyasətində onun Danimarka ilə münasibətləri mühüm yer tutur. Danimarka Krallığı Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabr ayının 31-də tanımış, diplomatik münasibətlər 1992-ci ilin aprel ayının 2-də qurulmuşdur. Danimarka Krallığının Türkiyə Respublikasındakı səfiri eyni zamanda Azərbaycan Respublikasında, həmçinin Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfiri eyni zamanda Danimarka Krallığında akkreditə edilmişdir [1].

İki ölkə arasında siyasi münasibətlər yüksək səviyyədə olmasa da, Azərbaycan parlamentində parlamentlərarası işçi qrupu fəaliyyət göstərir.

Azərbaycanla Danimarka arasında 2004-cü il dekabrın 8-də imzalanmış BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu mühüm əhəmiyyət daşıyır [11].

Dövlət müstəqilliyinin bərpa olunmasından sonra Azərbaycan Finlandiya ilə də münasibətlər yaratmağa başladı. Finlandiya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 30-da tanımış, iki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il martın 24-də qurulmuşdur. Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri eyni zamanda Finlandiya Respublikasında da akkreditə olunmuş, Finlandiyanın iqamətgahı Helsinkidə olmaqla Azərbaycana səfirii təyin olunmuşdur [2].

Finlandiya 1994-1996-cı illərdə Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyət göstərib. Azərbaycan Prezidenti Heydər Əliyev 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşü zamanı Finlandiya Prezidenti Marti Ahtisaari ilə görüşüb. Görüş zamanı qarşılıqlı münasibətlərin inkişafı üçün fikir mübadiləsi aparıldı [12, s. 244].

Dövlət başçıları xanım T.Halonenin 2005-ci il 29-30 sentyabrda Azərbaycana və Prezident İ.Əliyevin 2008-ci il 29-30 may tarixlərində Finlandiyaya rəsmi səfərləri qarşılıqlı münasibətlərin inkişafında mühüm rol oynadı.

2005-ci il sentyabrın 29-da Finlandiya Prezidenti xanım Tarya Halonen Azərbaycana rəsmi səfərə gəldi. Finlandiya prezidentini qəbul

edən Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında dostluq əlaqələrinin uğurla davam etdiyini, ikitərəfli formatda və beynlxalq təşkilatlar çərçivəsində Azərbaycan – Finlandiya əməkdaşlığının iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu. Geniş tərkibdə keçirilən görüşdə Finlandiya Prezidenti Azərbaycanın Avropa Birliyinə daha da yaxınlaşması, Avropaya inteqrasiya etməsi üçün Finlandiyanın əlindən gələni etməyə hazır olduğunu bildirdi.

Finlandiya Prezidenti bir daha Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn prinsipləri, xüsusilə də dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında, BMT Nizamnaməsinin müddəaları, ATƏT-in Minsk prosesi çərçivəsində həll olunmasını dəstəklədiyi barədə öz ölkəsinin mövqeyini açıqladı.

Səfər zamanı xarici işlər nazirlikləri arasında Anlaşma memorandumu imzalandı [9].

Finlandiya – Azərbaycan münasibətlərinin inkiaşfında Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il mayın 28-də həmin ölkəyə rəsmi səfəri mühüm rol oynadı. İki ölkə prezidenti arasında keçirilən görüşdə qarşılıqlı siyasi münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Tərəflər həmçinin, iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün böyük potensialın olduğunu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla həyata keçirildiyini vurğuladılar [9].

Görüşdə Azərbaycan və Finlandiya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olundu. Prezident İlham Əliyev Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verərək bildirdi ki, Ermənistanın bu işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Finlandiya Prezidenti Tarya Halonen ölkəsinin ATƏT-ə sədrlik etdiyini vurğulayaraq bildirdi ki, Cənubi Qafqazdakı münaqişələrin həlli üçün region ölkələrinin və beynəlxalq təşkilatların dəstəyinə ehtiyac var [13, s. 244-248].

Ümumiyyətlə Azərbaycanın Skandinaviya dövlətləri içərisində Norveçlə əlaqələri xüsusilə seçilir. Son illər digər Skandinaviya ölkələri ilə də qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının yaradılmasına yönəlik uğurlu xarici siyasət həyata keçirilir. Bu ölkələrlə siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni, humanitar, və b. sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq qurularaq inkişaf etdirilir.

**Açar sözlər:** *Azərbaycan, Skandinaviya ölkələri, Norveç Krallığı, İsveç, Danimarka, Finlandiya, siyasi münasibətlər.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan – Danimarka münasibətləri // http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Danimarka.pdf*

*2. Azərbaycan - Finlandiya münasibətləri // http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Finlandiya(1).pdf*

*3. Azərbaycan – İsveç münasibətləri // http://www.mfa.gov.az/files/file/Azerbaycan%20-%20Isvec%20munasibetleri.pdf*

*4. Azərbaycan – İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupu // http://www.meclis.gov.az/?/az/workgroups/32*

*5. Azərbaycan – Norveç münasibətləri // https://lib.aliyevheritage.org/az/8914577.html*

*6. Azərbaycan – Norveç münasibətləri // http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Norve%C3%A7(1).pdf*

*7. A.S.Məmmədovun Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://www.e-qanun.az/framework/40618*

*8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol // http://www.e-qanun.az/framework/691*

*9. "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Finlandiya Respublikasının Prezidenti zati-aliləri xanim Tarya Halonenə məktubu\" (6 dekabr 2000-ci il) sənədinə tarixi arayış // http://lib.aliyev-heritage.org/print.php?lang=az&page=7331360*

*10. Bakıda Norveç səfirliyi niyə bağlanır? // https://www.bbc.com/azeri/azerbaijan-46135352*

*11. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu //http://www.e-qanun.az/framework/7326*

*12. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar: 46 cilddə, VIII c., Bakı: Azərnəşr, 1998, 488 s.*

*13. Əliyev İ. H. İnkişaf - məqsədimizdir: XXX c., aprel 2008 – iyun 2008. Bakı: Azərnəşr, 2016, 408 s.*

*14. Həsənov Ə. M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 315 s.*

*15. İsmayılzadə X. Azərbaycan – İsveç əlaqələri // Tarix və onun problemləri. 2009, № 1-2, s. 239-246.*

*16. Qasımlı M. C. Azərbaycanın xarici siyasəti (1991-2003): 2 cilddə, II c., Bakı: Mütərcim, 2015, 664 s.*

**Политические основы отношений Азербайджанской Республики со скандинавскими странами**

**Ламия Гасымова**

**РЕЗЮМЕ**

В статье подчеркивается, что среди европейских стран Азербайджан уделяет важное значение отношениям со скандинавскими странами. (В статье подчеркивается важность отношений Азербайджана со скандинавскими странами среди европейских стран). Отмечается, что особенно выделяются отношения с Норвегией. Автор показывает, что с этими странами развито и налажено взаимовыгодное сотрудничество в политической, торгово-экономической, научно-технической, культурно-гуманитарной и др. областях. Проведено обобщение по рассматриваемому вопросу и сделаны соответствующие выводы.

**Ключевые слова:** *Азербайджан, Скандинавские страны, Норвегия, Швеция, Дания, Финляндия, политические отношения.*

**Political bases of relations of Republic of Azerbaijan with Scandinavian countries**

**Lamiya Qasimova**

**SUMMARY**

The article emphasizes Azerbaijan's relationship with Scandinavian countries within European countries. It is noted that relations with Norway are especially preferred. The author deals with these countries in political, trade, economic, scientific, technical, cultural, humanitarian fields etc. and shows that mutually beneficial cooperation has been established and developed. Generalization of the issue under consideration is made and corresponding conclusions are drawn.

**Key words:** *Azerbaijan, Scandinavian countries, Norway, Sweden, Denmark, Finland, political relations.*

UOT: 327; 930.22

# XƏZƏRDƏ REGİONAL ƏMƏKDAŞLIĞI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**GÜNAY MƏMMƏDLİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının dissertantı*

*E-mail: gunay_memmedli@mail.ru*

Xəzər regionu dünyanın alternativ enerji mənbəyi hasil olunan məhsulların xarici bazara çıxarılması məsələsində Xəzəryanı ölkələr içərisində önəmli geosiyasi məkanlarından biridir. Burada cəmləşən bir sıra amillər bölgənin əhəmiyyətini şərtləndirməkdədir. İlk öncə, Xəzər regionunun enerji resursları diqqət mərkəzindədir. Artıq iyirmi ildən çoxdur ki, Xəzərin enerji resurslarının istismarı sahəsində beynəlxalq əməkdaşlıq mövcuddur. Azərbaycan Respublikası bu sahədə xüsusi ilə böyük uğurlar əldə etmişdir. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyası ölkəmizin beynəlxalq və regional inteqrasiyasında xüsusi rol oyanmışdır. Bütün bunları əsas alaraq Xəzərdə regional əməkdaşlığı şərtləndirən amillərin öyrənilməsi elmi aktuallıq kəsb edir.

Formalaşmış münasibətlərin müasir mərhələsində, həm regional, həm də beynəlxalq aktorların enerji strategiyasının reallaşdırılmasında Xəzər regionunun əhəmiyyəti şübhə doğurmur. Müxtəlif hesablamalara əsasən, qlobal karbohidrogen ehtiyatlarının 4% -ə qədər ehtiyatına malik olan Xəzər regionu, enerji istehsalı və nəqli sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olan beynəlxalq və regional subyektlərin diqqətini cəlb edir (2, s.805). İnkişaf edən proseslərin bu cür şəkil alması Xəzər regionunun dünya geosiyasətinin obyekti kimi mövqeyini daha da gücləndirir. Enerji resurslarının zənginliyi bölgənin qlobal enerji bazarında çəkisini artırır.

Sovet İttifaqının dağılması və postsovet məkanında yeni müstəqil dövlətlərin formalaşması ilə Xəzər regionu tədricən fəal aktorların fəaliyyətinin reallaşdırıldığı bir geosiyasi məkana çevrildi və bu, bölgədə dünyanın qabaqcıl güclərinin diqqətini mərkəzləşdirdi. Bölgənin inkişafı həmçinin, qlobal siyasətin və iqtisadiyyatın həyata keçirilməsində fundamental dəyişiklərə gətirib çıxardı. Xəzər regionunun əhəmiyyəti və mövqeyi aşağıdakı amillərlə əlaqələndirilir:

1. Xəzər dənizinin böyük karbohidrogen xammal ehtiyatlarına dünyanın inkişaf etmiş ölkələrində, xüsusi ilə Avropa İttifaqında yüksək tələbatın mövcudluğu. Bəzi hesablamalara görə, Xəzər neftinin potensial ehtiyatları 48 milyard barel, təbii qaz isə 8,2 trilyon kubmetr təşkil edir (3, s.31).

2. Xəzər dənizi nadir bioresursların bir anbarıdır. Planetin ən böyük və ən unikal qapalı bioresurs mənbəyi olan Xəzər dənizi müxtəlif canlılarla, o cümlədən balıq növləri ilə zəngindir. Bununla yanaşı, son onilliklərdə Xəzər ekosistemində mənfi antropogen və təbii faktorların səbəb olduğu dəyişikliklər onun flora və faunasına təsir etmişdir. Onların təsiri qiymətli növlərin populyasiyasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Köhnəlmiş texnologiyalardan, suyun çirklənməsindən və karbohidrogenlərin hasilatından təsirlənən bitki və canlı potensialı kifayət qədər ziyan çəkmişdir. Xəzər dənizi açıq dənizdən fərqli olaraq qapalı təbii sistemdir. Bir sahədə nizamın pozulması qlobal ekosistemə də mənfi təsir göstərir. Bu proseslərin qarşısının alınması bütün maraqlı tərəflərin vəzifəsidir. Buna görə də, Xəzər dənizində iqtisadi və təbii fəaliyyətlərdə bütün iştirakçıların səylərinin koordinasiyası və birləşməsi aktual bir məsələdir. Bu, mövcud və gələcək nəsillər üçün ekosistemin qorunmasının yeganə yoludur. Bu baxımdan, Xəzər dənizinin bioresursunun səmərəli istifadəsi sahilyanı dövlətlərin konstruktiv əməkdaşlığının qorunması və inkişafı üçün mühüm stimuldur (4).

3. Nəqliyyat marşrutları şəbəkəsini əhatə edən

Xəzəryanı region Avrasiyanın strateji əhəmiyyətli nəqliyyat və kommunikasiya hissəsi kimi çıxış edir.

Orta Asiya, Qafqaz və Rusiyanın cənubu kimi subregion birləşməsində yerləşən Xəzər dənizi siyasi, iqtisadi və mədəni məkan kimi müxtəlif dövlətlərin, siyasi və işgüzar dairələrin mərkəzidir. Xəzəryanı dövlətlər - Rusiya, İran, Azərbaycan, Qazaxıstan və Türkmənistan üçün bu region təkcə resurs ehtiyatları baxımından deyil, həm də, ilk növbədə, davamlı sosial-iqtisadi inkişaf zonasının yaradılması nöqteyi-nəzərindən vacibdir.

Xəzər dənizi hövzəsində neft hasilatında əhəmiyyətli artım perspektivləri, dünya enerji təchizatında bölgənin rolunun artması Avropanın bu bölgəyə xüsusi maraq göstərməsinə səbəb olmuşdur. Aİ-nin marağı Mərkəzi Asiya və Xəzər dənizinin enerji resurslarını Avropa enerji sisteminə cəlb etməklə neft və qaz idxalını diversifikasiya etməkdir. Avropa Xəzər dənizinin ehtiyatlarına xüsusi maraq göstərir. Avropalı ekspertlərin fikrincə, Xəzər məkanını Avropa qaz sistemi ilə birləşdirmək zəruridir. Avropa İttifaqı öz layihələrini həyata keçirmək üçün bir sıra addımlar atmışdır. 1991-ci ildə Avropa Birliyi, Qafqaz və Orta Asiya ölkələrinə nəqliyyat marşrutlarının yenidən qurulması və yeni nəqliyyat infrastrukturunun qurulması (TACIS) layihələrinə yardım etmək üçün proqramın hazırlanmasına başlamışdır. Bu proqram çərçivəsində 1993-cü ildə Avropa İttifaqının təşəbbüsü ilə Brüsseldə keçirilən “Şərq-Qərb nəqliyyat təhlükəsizliyi” beynəlxalq konfransında irəli sürülmüş, Cənubi Qafqaz və Orta Asiyanı təmsil edən 8 prezidentin iştirak etdiyi zirvə görüşündə müzakirə olunmuş, “Brüssel bəyənnaməsi” imzalanmaqla qəbul olunmuş Avropa-Qafqaz-Asiya (TRACEKA) beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması layihəsi bu proqramın bir hissəsidir. Layihə, Sovet İttifaqının bir sıra keçmiş respublikalarının beynəlxalq nəqliyyat sisteminin, kommunikasiya şəbəkələrinin, infrastrukturunun və maddi-texniki bazasının inteqrasiyasını, qədim Şərq-Qərb “İpək yolu” dəhlizinin yeni şəraitdə bərpası, TRANSAVRASİYA nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsini təmin edirdi. (1; s. 691) 1995-ci ildə Avropa İttifaqı INOGATE proqramını (neft və qaz boru kəmərləri üzrə dövlətlərarası layihə) işə saldı. Bu proqram Avropa İttifaqı, Qara dəniz ətrafı və Xəzər dənizi ətrafı ölkələr, həmçinin onlarla qonşu ölkələr arasında energetika sferası üzrə beynəlxalq əməkdaşlıq layihəsidir. Layihənin məqsədi iştirakçı ölkələrin xüsusiyyətləri nəzərə alınmaqla enerji bazarlarının yaxınlaşdırılması, enerji nəqli şəbəkələrinin təhlükəsizliyinin və etibarlılığının möhkəmləndirilməsi enerjiyə qənaət və bərpa olunan enerji mənbələri, enerji daşıyıcıların hasilatının, nəqlinin və istifadəsinin ekoloji aspektləri məsələlərinin həlli yollari ilə dayanıqlı inkişaf siyasətinin həyata keçirilməsidir. (11) Eyni zamanda MDB ölkələrində neft və qaz boru kəmərlərinin saxlanılmasında və idarə olunmasında texniki yardım, habelə Xəzər neftinin Avropaya nəqli üçün yeni yolların hazırlanmasıdır.

Təbii ki, Avropa İttifaqı ilə bu sahədə əlaqələrin gücləndirilməsində aparıcı regional aktor olaraq Azərbaycan çıxış edir. Dünya iqtisadiyyatında müstəqil rol oynayan Azərbaycanın siyasi və hərbi baxımdan özünü təsdiq etməsi ölkənin Avropa İttifaqı ilə strateji tərəfdaşlığında önəmli amil hesab olunur. Yeni Avropa təhlükəsizlik arxitekturası kontekstində Azərbaycanla Avropa İttifaqı arasındakı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirərək, Avropa ilə qarşılıqlı əlaqələrin perspektivləri milli xarici siyasətimizin prioritetlərindəndir. Azərbaycan xalqının ənənəvi zehniyyətində Avropa demokratik və mülki inkişaf, müasir iqtisadiyyat və həyat keyfiyyəti modeli kimi görünür, buna görə də onunla inteqrasiya ictimai şüurda Azərbaycanın uğurlu inkişafı üçün müsbət amil kimi qəbul edilir (5).

Avropa İttifaqı və Azərbaycan “Enerji sahəsindəki strateji tərəfdaşlıq haqqında memorandum” imzalamışlar ki, Azərbaycan, belə bir sənədin imzalandığı ilk regional ölkədir. 2006-cı ilin əvvəlində Azərbaycan Qazaxıstanla “Strateji tərəfdaşlıq haqqında memorandum” imzalamışdır. Sənəd Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropaya səfəri zamanı Brüsseldə Azərbaycanla imzalanmış Aİ-nin memorandumundan bir qədər fərqlənir. Azərbaycanla Avropa İttifaqı arasında imzalanmış “Enerji sahəsindəki strateji tərəfdaşlıq haqqında memorandum” üç əsas komponentdən ibarətdir. İlk əsas komponent

Azərbaycanın qanunvericiliyinin Avropa İttifaqı ölkələri qanunvericiliyinə uyğunlaşdırılması üzrə strateji proqramın hazırlanmasıdır. İkinci komponent Azərbaycandan enerji daşıyıcılarının nəqlinin strateji təhlükəsizliyinin təmin edilməsidir. Üçüncü komponent Azərbaycanda enerji tələbatının idarə olunması sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bunlara qlobal iqlim dəyişmə prosesi, bərpa olunan enerji mənbələrindən istifadə, Kioto Protokolu və digər məsələlər daxildir. Azərbaycan prezidenti İlham Əliyev vurğulayıb ki, bu gün Avropa İttifaqının sərhədləri regionumuza daha çox yaxınlaşır. Azərbaycan Avropa İttifaqının Yeni Qonşuluq Siyasətinə daxildir. Buna görə bölgəmizdə əsas götürülən meyarlar Avropa İttifaqında tətbiq olunan meyarlara çox yaxın olacaqdır. Azərbaycanla Avropa İttifaqı arasında çox fəal dialoq mövcuddur. Bizim nəqliyyat imkanlarımız, istismara verilən boru kəmərləri bölgədə tamamilə yeni bir vəziyyət yaradır (3).

Bölgədəki geosiyasi üstünlük resursların mövcudluğu və onların nəqli imkanı ilə bağlıdır. Xəzər regionu dünya əhalisinin 5/6 hissəsinin yaşadığı məkanda Rusiyanın, İranın, Hindistanın, Çinin, Orta Şərq ölkələrinin xarici və daxili siyasətlərinə təsir edə bilir. Xəzər bölgəsinin əhəmiyyətini fərqli rakurslardan izah edənlər də az deyildir. Bu bölgənin strateji əhəmiyyəti, karbohidrogen ehtiyatlarının və qlobal nərə balığı ehtiyatlarının mövcudluğundan başlamış, Avropanı Asiya ilə birləşdirən üç dünya dininin (xristianlıq, islam və buddizm) dominant təsirinin qovşağında yerləşməsi kimi bir sıra amillərlə izah edilir. Bütün bunlar bu gün bölgə ölkələrinə dünyanın geosiyasi xəritəsində yalnız regional siyasi aktor kimi fəaliyyət göstərməyə deyil, eyni zamanda XXI əsrin geosiyasətinin "böyük şahmat taxtası" üzərində gedən proseslərdə mühüm rol oynamağa imkan verir (6, s.85).

Bölgədə qarşılıqlı münasibətlərə, eləcə də, əməkdaşlığa təsir edən amillərdən biri də iki qlobal güc Rusiya və ABŞ münasibətlərinin regional proyeksiyasıdır. ABŞ-ın Rusiyanın regionda təsirini azaltma fəaliyyətləri və Xəzər dənizinin resurslarına Amerika biznesinin çıxışını təmin etmək üçün bu regionu ABŞ Mərkəzi Komandanlığının məsuliyyət zonasına daxil etdi, Qazaxıstanda və Azərbaycanda NATO-nun ofislərini açdı.

Bölgədə ABŞ-ın fəaliyyətinin canlanmasına cavab olaraq, Rusiyanın "Xəzər dənizi hövzəsində təhlükəsizliyin təmin edilməsi üçün ani cavab qüvvələri"nin və MDB-nin Terrorizmə Qarşı Mübarizə Mərkəzinin yaradılması təklifi diqqəti cəlb edir.

Xəzər regionunun iqtisadiyyatına və siyasətinə müxtəlif dövlətlərin cəlb olunması dərəcəsi bir neçə "kəmərə" bölünə bilər. Bunlardan birincisi beş sahilyanı dövlətdir: Rusiya, Azərbaycan, İran, Qazaxıstan, Türkmənistan. İkinci "kəmər" neft və qaz boru kəmərləri və digər kommunikasiyaların keçdiyi və ya keçə biləcəyi dövlətləri əhatə edir. Bu ölkələrə Gürcüstan, Türkiyə və Bolqarıstan daxildir.

Onların təsiri enerji resurslarının tranziti ilə bağlı davam edən siyasətdir və bu regionda istehsalın mümkünlüyünə təsir göstərir. Üçüncü "kəmər" regiondan bu və ya digər şəkildə təsirlənən dövlətlərdir. Bunlara Ukrayna, Tacikistan, Yunanıstan, Ermənistan, Özbəkistan və s. daxildir.

Qlobal səviyyədə təsir imkanlarına malik olan dövlətlərin dördüncü "kəməri" regionda Avropa İttifaqı və Çin kimi iqtisadi, siyasi və strateji maraqları olan, maraqları yalnız iqtisadi komponentlərlə məhdudlaşan dövlətlər təşkil edir. Hindistan və Pakistan da öz enerji mənbələrini diversifikasiya etməkdə maraqlı olduqlarından, Xəzər bölgəsində daha aktiv fəaliyyət göstərməyə başlayıblar.

Çinin strateji yanaşması neft və qaz sahəsində ölkənin təhlükəsizliyi və geosiyasət problemidir. Bu baxımdan, Çin bölgədə Rusiyanın ən güclü potensial rəqiblərindən biridir. Digər tərəfdən, Rusiyanın enerji resurslarının böyük istehlakçısıdır.

Dünyanın ən böyük enerji istehlakçılarından biri olan Hindistan, özünün enerji təchizatı mənbələrini diversifikasiya etməyə çalışır. Bununla yanaşı, karbohidrogenlərin nəqlinin müntəzəm təmin edilməsini təmin etmək üçün, öz istiqamətində boru kəməri sistemini yaratmaq fikrindədir. Belə perspektivli layihələrdən biri də Türkmənistan-Əfqanıstan-Pakistan boru xəttidir.

Pakistan, Xəzər regionu ölkələrini Pakistanla birləşdirəcək vahid nəqliyyat və kommunikasiya şəbəkəsinin tikintisində əməkdaşlıq etmək istəyi ilə yanaşı, region ölkələri ilə uzunmüddətli siya-

si əlaqələr qurmağa çalışır. Pakistan Xəzərdə iştirakını artırmaq və regiondakı əsas rəqibinin - Hindistanın maraqlarını özündə birləşdirmək istəyir (9, s.431). Pakistanın regionda ən önəmli tərəfdaşı Azərbaycandır. Azərbaycanla Pakistan arasında diplomatik əlaqələrin uzun tarixi var. Hər iki dövlət bir-birinə mədəni, siyasi, iqtisadi və humanitar inkişafın mühüm aspektlərində dəstək verir. Bakı ilə İslamabad arasındakı ikitərəfli münasibətlər və strateji tərəfdaşlıq yüksələn xətt boyunca inkişaf edir və regionda sülhə öz töhfəsini verir. Pakistan və Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Pakistan yüksək səviyyədə inkişaf etmiş tekstil sənayesinə malikdir və yüksək keyfiyyətli idman malları istehsal edir. Pakistan Azərbaycana pambıq, tərəvəz və dərman ixrac edir, Azərbaycan isə alüminium, telekommunikasiya avadanlıqları və plastik məhsulları Pakistana ixrac edir (10).

Xəzər bölgəsində əməkdaşlığa bu və ya digər şəkildə təsir edən amillərdən biri də bölgədə Türkiyənin iştirakıdır. Xəzər regionunda zəngin neft ehtiyatlarına malik yeni yaranmış müstəqil dövlətlərin əhalisinin əksəriyyəti türk mənşəli xalqlar olduğundan, Türkiyə, həm Türk dünyasının lideri, həm də enerji daşıyıcılarının nəql edilməsi üçün tranzit "körpü" rolunu oynamaq iddiasındadır.

Türkiyənin NATO-nun üzvü olması və bəzi digər problemlər bu məsələlərin həllini çətinləşdirir. Birincisi, SSRİ dağıldıqdan sonra Türkiyə qərb dünyasının SSRİ-yə qarşı yönəlmiş hərbi-siyasi və iqtisadi mübarizəsinin forpostu kimi əhəmiyyətini bir qədər itirsə də, Xəzər regionunda beynəlxalq neft və qaz layihələrinin getdikcə reallaşması bu dövləti ABŞ və Avropa üçün cazibəli tranzit dövləti edir.

İkincisi, türk dünyasında liderlik etmək üçün Türkiyənin ərazisi əlverişli olsa da, rəqib dövlətlərlə müqayisədə siyasi-iqtisadi imkanları məhduddur. Üçüncüsü, Xəzər ətrafında yerləşən türkdilli dövlətlərin uzun müddət Rusiyanın nüfuz dairəsində olması nəticəsində Türkiyə ilə iqtisadi, siyasi, tarixi, mədəni, sosial əlaqələrinin zəifləməsi burada liderliyi ələ keçirmək məsələsini mühüm dərəcədə çətinləşdirir.

Dördüncüsü, Xəzərin enerji daşıyıcılarının tranzit marşrutlarının Türkiyə ərazisindən keçməsinin əleyhinə, ilk növbədə Rusiya çıxış edir, çünki belə olduğu halda o, Avropanı neft və qazla təmin edən monopolist mövqelərini itirir. Bunun müqabilində Türkiyə Qara dəniz boğazlarından Rusiya tankerlərinin keçməsini məhdudlaşdırmağa çalışsa da, Montre konfransının qərarlarına görə bunun tam qarşısını ala bilmir, baxmayaraq ki, Beynəlxalq Dəniz Təşkilatı boğazların təhlükəsizlik məsələsində Türkiyəni dəstəkləyir. Bu gün Türkiyənin Xəzərlə bağlı ən böyük və həlledici nailiyyəti onun ərazisindən keçən "Bakı-Tbilisi-Ceyhan" boru kəməridir.

Bununla belə son dövrlər Rusiya ilə Türkiyə arasında müəyyən yaxınlaşmanın başlaması Xəzər bölgəsində Türkiyənin imkanlarının genişlənməsinə müsbət təsir edə bilər.

Xəzər regionunun dəyəri gündən-günə artmaqdadır ki, bu da, Rusiya və Qərb arasında, xüsusilə də ABŞ ilə artan rəqabət ilə bağlıdır. Rəqabətin səbəbləri neft və qaz hasilatı, eləcə də nəqli üçün boru kəmərlərinin tikintisi ilə bağlıdır. Rusiyanın ərazisindən keçən boru kəmərlərinə əlavə olaraq bir sıra neft və qaz kəmərləri tikilmişdir. Bunlar Bakı-Tiflis-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərləridir. Hazırda bu boru kəmərləri regiondan karbohidrogenlərin daşınması üzrə inhisarını itirməsi ilə bağlı Rusiyanın maraqlarında deyildir (8, s.77).

Beləliklə, yekunda onu söyləmək olar ki, bölgədəki geosiyasi vəziyyət, ilk növbədə, Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan və İran arasındakı əlaqələrlə müəyyən edilir. Buna görə də, beynəlxalq hüquq normaları və qarşılıqlı iqtisadi-siyasi mənfəətlərin təmin edilməsi əsasında əlaqələrin inkişafı üçün bölgə ölkələrinin fəaliyyətlərinin gücləndirilməsi zəruridir.

**Açar sözlər:** *Xəzər, region, resurs, enerji*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Həsənov Ə.M. " Azərbaycanın geosiyasəti", dərslik. – Bakı, "Zədabi LTD" MMC, 2015. Səh. 691.*

*2. Пархомчик Л. Интеграционные инициативы в Каспийском регионе: тенденции и перспективы. // Internatıonal Conference on Eurasıan economıes 2015, с.805-811*

*3. Михеев С.А., Чеботарев А.Е., Ковалев Г.С.*

*Проблемы региона накануне IV Каспийского саммита. // file:///C:/Users/OMAR/Downloads/11-10-1-PB%20(1).pdf*

*4. Использование Каспийского потенциала биоресурсов. http://casp-geo.ru/ispolzovanie-kaspi-jskogo-potentsial/*

*5. Ахмедов Ф. «Каспийский регион – безальтернативный гарант энергетической безопасности Европейского Союза». // Семинар Социфально-экономические аспекты энергетического коридора, соединящего Каспийский регион с Европейским Союзом. 11-12 Февраля 2007 г. Баку, Азербайджан, с. 3*

*6. Ланда К. Каспийский регион: модель сотрудничества или раздора? «Власть», 2008, с. 85-89*

*7. Гусейнова С. «Проблемы сотрудничества Европейского Союза и Азербайджанской Республики в формировании новой архитектуры Европейской безопасности». // «Право и политология».–№28-2014.-С.-52-57.*

*8. Бурцев С.Н. «Роль Каспийского региона в мировой политике». 2014*

*9. Бурцев С.Н. «Каспийский регион как точка столкновения интересов ведущих мировых держав». // Политика и общество 426 4 (112) • 2014, с.426-434*

*10. Азербайджан и Пакистан: «Развитие отношений перед лицом общих вызовов». http://zovzemli.ru/2019/03/07*

*11. Avropa İttifaqının "İNOGATE proqramı" http//minenergy.gov.az/docs/bte/İNOGATE.pdf.*

## ФАКТОРЫ РЕГИОНАЛЬНОГО СОТРУДНИЧЕСТВА В КАСПИЙСКОМ МОРЕ

**Резюме**

Каспийский регион является одним из важнейших геополитических пространств в мире. В первую очередь энергетические ресурсы Каспийского региона находятся в центре внимания. Международное сотрудничество продолжается уже более 20 лет в области освоения каспийских энергоресурсов. Азербайджанская Республика достигла больших успехов в этой области. Нефтяная стратегия, утвержденная Общенациональным лидером Азербайджана Гейдаром Алиевым, сыграла особую роль в международной и региональной интеграции нашей страны. Исходя из всего этого, изучение факторов, обуславливающих региональное сотрудничество в Каспийском регионе, имеет научную актуальность.

**Ключевые слова:** *Каспий, регион, ресурс, энергия.*

## FACTORS OF REGIONAL COOPERATION IN THE CASPIAN SEA

**Summary**

The Caspian region is one of the most important geopolitical spaces in the world. First of all, the energy resources of the Caspian region are in the center of attention. International cooperation has been going on for over 20 years in the development of Caspian energy resources. The Republic of Azerbaijan has achieved great success in this area. The oil strategy, approved by the National Leader of Azerbaijan Heydar Aliyev, played a special role in the international and regional integration of our country. Proceeding from all this, the study of the factors causing regional cooperation in the Caspian region is of scientific relevance.

**Key words:** *Caspian, region, resource, energy.*

UOT: 32:316.62

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ: AZƏRBAYCAN DİASPORUNUN TƏŞKİLATLANMASI VƏ İNKİŞAFI

**PƏRVİN İBRAHİMOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsi, Dünya siyasi prosesləri ixtisası, II kurs magistrant*

*E-mail: pervin.dia@gmail.com*

## Giriş

**Mövzunun aktuallığı.** Tarixən ağır sınaqlardan çıxmış Azərbaycan xalqı ən çətin zamanlarda birlik, həmrəylik nümayiş etdirmişlər. Azərbaycan xalqının ana yurdu əlverişli geostrateji mövqedə yerləşdiyindən daim güclü dövlətlərinin maraqlarının kəsişmə nöqtəsinə çevrilmişdir. Təbii ki, xalqımızın birliyi onun mövcudluğunu davam etdirməsinin əsas şərti vəziyyətinə gəlib. Müasir dövrdə, dünyanın qloballaşdığı bir zamanda hər bir xalqın nümayəndələri xarici dövlətlərə miqrasiya edir. Bu miqrasiya axını nəticəsində Azərbaycan xalqı da dünyanın çox sayda ölkəsində təmsil olunur. Müasir dövrdə geosiyasi əhəmiyyətini nəinki itirməyən, möqveyinə və sərvətlərinə görə daha da çox dəyər qazanan gənc müstəqil dövlətimiz dünyanın hər bir qitəsində təmsil olunan Azərbaycan xalqının həmrəyliyi ilə daha da güclənəcək. Müasir beynəlxalq münasibətlər sistemində diasporlar özünəməxsus yer tutur. Dövlətin diasporla əlaqəsinin düzgün qurulması və diasporların səmərəli fəaliyyəti dövlətin xarici siyasət məqsədlərinin həyata keçirilməsində mühüm rol oynayır. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra diasporun təşkilatlanması xarici siyasətin əsas prioritetləri sırasında yer tuturdu. Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarını vahid amal ərtafında birləşdirdi, diaspor quruculuğu prosesini başlatdı və azərbaycanlıların doğma vətəni ilə əlaqələrinin güclənməsi üçün hüquqi və siyasi əsaslar yaratdı. Məqalədə işıqlandırılan mövzunun aktuallığı ondan ibarətdir ki, dünya azərbaycanlılarının həmrəyliyinin diaspor səviyyəsində özünü əks etdirməsi, Azərbaycan diasporunun fəaliyyət istiqamətlərinin artması, Azərbaycan Respublikasının xaricdə mövqelərinin güclənməsi və söz sahibinə çevrilməsi dövlət siyasəti çərçivəsində getdikcə daha mühüm önəm kəsb edir.

## Dünya azərbaycanlılarının təşkilatlanmasında Ümummilli lider Heydər Əliyevin rolu

Hazırda dünyanın müxtəlif ölkələrində 50 milyondan çox azərbaycanlının yaşadığı bildirilir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1989-cu il dekabrın sonlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) açılması zamanı qoyulub. O hadisələrin şahidlərinin sözlərinə görə, “Berlin divarı”nın sökülməsindən sonra parçalanmış xalqların birləşməsi ideyası Azərbaycanda da möhkəm kök salmışdı.
Həmin vaxt həm Azərbaycan Sovet Sosialist Respublikasında, həm də İranda yaşayan eyni xalqa mənsub insanlar tikanlı sərhəd məftillərini söküb bir-birlərinə sevgilərini bildiriblər. İki yüz il davam edən əsarət qorxusuna sinə gərən azərbaycanlılar həftələrlə sərhəd zolağında toplaşaraq, birlik şüarları səsləndirdilər. Arazı keçərək əl-ələ tutdular, milli həmrəylik nümayiş etdirdilər.

SSRİ-nin iflası və Azərbaycanda müstəqil dövlət quruculuğu dövrü miqrasiya kütləvilik və könüllülük xarakteri qazandı. Azərbaycanlıların xarici ölkələrdə məskunlaşması faktı azərbaycanlıların həmrəyliyi hərəkatını mümkün və tələb edən əsas amilə çevrildi. [9, s. 20]

Həmrəylik günü ideyasının müəllifi ümummilli lider Heydər Əliyevdir. Məhz onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi “Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü” haqqında 1991-ci ilin 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan etmişdir. Heydər Əliyevin

təşəbbüsü ilə milli-mənəvi birliyə çağırış günü ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın Azərbaycançılıq ideyası əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoymuşdur [5].

Həmrəylik günü dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tərəfindən qeyd edilir, Azərbaycan Respublikasında isə dövlət bayramıdır. Görülmüş məqsədyönlü işlərin nəticəsində Dünya Azərbaycanlılarının Həmrəylik Gününü 70-dən çox ölkədə 50 milyonluq dünya azərbaycanlılarının və beynəlxalq aləmdəki dostlarımızın-tərəfdarlarımızın bayram etməsi artıq bir ənənə halını almışdır. Müxtəlif mənbələrin məlumatlarına görə, İranda 30-35 milyon azərbaycanlı var. O cümlədən, Rusiya, Türkiyə, Almaniya, Fransa, Böyük Britaniya, Skandinaviya ölkələrində, ABŞ-da, Yaxın Şərq ölkələrində böyük azərbaycanlı icmaları fəaliyyət göstərir [16].

Azərbaycan müstəqillik qazandıqdan sonra dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsi məsələsi ən aktual vəzifələrdən biri kimi qarşıda dururdu. Əlbəttə, bunun kifayət qədər ciddi səbəbləri mövcud idi. Birincisi, dünya azərbaycanlılarının təşkilatlanması müstəqil Azərbaycan dövlətinin sosial və siyasi əsaslarının möhkəmləndirilməsi baxımından vacib idi. İkincisi, bu, müxtəlif yerlərdə məskunlaşmış soydaşlarımızın Azərbaycanla əlaqələrinin möhkəmlənməsinə imkan yaradan amil kimi qiymətləndirilirdi. Nəhayət, Azərbaycandan kənarda yaşayan həmvətənlərimizin vahid bir güc mərkəzi kimi özünütəsdiqinə və dünyada cərəyan edən ictimai-siyasi proseslərə təsir imkanlarının artırılmasına əsas yaradırdı. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq və mütəşəkkil qüvvə təşkil etmək səylərinə ciddi fikir verir.

Azərbaycan naminə həmvətənlərimizin birləşib güclənmə zərurəti, həm də müstəqil dövlətimizin qarşılaşdığı ən böyük problemdən – Ermənistanın torpaqlarımızın bir hissəsini işğal etməsi və bununla da beynəlxalq hüququn müvafiq normalarını cinayətkarcasına pozması faktından qaynaqlanır. Məhz bu məsələdə dünya azərbaycanlılarının maraqları mütləq şəkildə birləşir və burada heç bir fikir ayrılığı yoxdur. Həmin maraqların təmin olunmasına yönəlmiş təşəbbüslərin vahid bir məqsəd ətrafında səfərbər edilməsi bu gün dünya azərbaycanlılarının fəaliyyətinin məğzini təşkil edir [5, s. 8].

Dünya Azərbaycanlılarının birliyini və həmrəyliyini Azərbaycançılıq kontekstindən kənarda düşünmək olmazdı. Milli birliyin ideoloji əsası olan Azərbaycançılıq ideologiyası məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılıb. Heydər Əliyev "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına Müraciəti"ndə öz konseptual ifadəsini tapmışdı [2, s. 30-31].

Azərbaycançılıq milli çərçivələrdən kənara çıxan, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurədir. Onun məzmunu Heydər Əliyev tərəfindən belə açıqlanmışdır:

"... Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (Heydər Əliyev).

Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini milli ideologiyamızın strukturuna daxil etməklə mənəviyyat və dövlətçiliyin sintezindən çıxış edirdi [10, s. 26; 126].

Hər bir ideologiyanın gücü cəmiyyətin strukturunu və dövlətin quruluşunu təşkil etmək imkanı ilə müəyyən olunur. Ən parlaq ideyaların məcmusundan ibarət mükəmməl bir nəzəriyyə belə cəmiyyətin həyatına tətbiq olunmazsa, sadəcə eklektik səciyyə daşıyar, beləliklə də, öz tarixi missiyasını yerinə yetirə bilməz [14, s. 179 ].

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Heydər Əliyevin Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay soydaşlarımızın milli ideologiya olan azərbaycançılıq ideyası ətrafında birləşməsini və həmrəyliyini nümayiş etdirdi. Qurultayda xaricdə yaşayan həmvətənlərimizlə səmərəli iş aparmaq, onlar arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. 2001-ci il 9-10 noyabr tarixlərində Bakıda Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor təşkilatlarının fəaliyyətində canlanma yaratdı, soydaşlarımızın birləşdiyi cəmiyyətlər dünyanın hər yerində daha geniş fəaliyyət göstərməyə başladılar [1].

Dövlət başçısının imzaladığı sərəncamlarla Bakı şəhərində 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Bu qurultaylar dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Eyni zamanda qurultaylar bir daha dünya azərbaycanlılarının Prezident İlham Əliyevin, deməli, Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini təsdiqlədi [17].

**Müasir mərhələdə Azərbaycan diasporunun inkişafı və perspektivləri.**

Diaspor termini yunan dilində "diasperia" sözündən götürülüb, - səpələnmə, dağılma, yayılma, parçalanma mənalarını ifadə edir. Heredot və Sofoklun əsəsrlərində rast gəlinən bu termin dağıtmaq (pulu), səpələmək (ordunu) mənasını versə də, sonradan daha geniş mənalarda işlədilib. Müasir dövrdə diaspor dedikdə "xalqın və ya etnik birliyin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşayan müəyyən hissəsi" başa düşülür [7, s.67].

Xalqların tarixi inkişafının səviyyəsi və istiqamətləri ilə sıx bağlı olan mühacirət prosesi, təbii ki, azərbaycanlılardan da yan keçməyib. Bu proses azərbaycanlıların timsalında XX əsrin əvvəllərindən bu günə qədər xüsusi ilə intensiv şəkildə davam etməkdədir. Heç də təsadüfi deyil ki, Azərbaycan xalqı özünün say-demoqrafik göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik xalq hesab edilə bilər [6, s. 36].

Azərbaycanlıların mühacirəti uzun dövr ərzində (ADR-in süqutundan sonra, repressiyalar zamanı) məcburi xarakter daşısa da, XX əsrin sonlarında artıq könüllülük xarakteri qazanmışdı. Azərbaycan müstəqilliyini bərpa edən dövrə qədər diasporumuzun təşkilatlanmış olduğunu demək çox çətindir. Bunun əsas obyektiv səbəbi kimi birləşdirici ideyanın mövcud olmamasını göstərmək olar.

Azərbaycan diasporu Heydər Əliyevin prezidentliyi dövründə inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev xarici ölkələrə səfər edən zaman həmin dövlətlərin rəsmiləri ilə yanaşı, soydaşlarımızla da görüşür, onların qarşısında təşkilatlanma ilə bağlı aktual problemləri qaldırırdı [8, s. 11].

Kütləvi informasiya vasitələri son dövrlərdə aktiv geosiyasi aktora çevrilib. Azərbaycan diasporunun fəaliyyəti araşdırılarkən diasporların KİV-lərdən istifadəsinə də diqqət yetirmək məqsədəuyğun olardı:

- "Azərbaycan" radiosu – Almaniyada yaşayan azərbaycanlıların əsas informasiya vasitələrindən sayılır. Əsası 2002-ci ildə qoyulan bu radio Azərbaycan Akademik Birliyi tərəfindən yaradılıb. Adət-ənənələrimiz, mədəniyyətimiz, müstəqil respublikamızın beynəlxalq münasibətlər sistemində qazandığı uğurlar barədə dinləyicilərə ətraflı məlumat verir. Proqramlar Azərbaycan və alman dillərində yayımlanır;
- Danimarkada yaşayan həmvətənlərimiz "Azərbaycan" radiosu yaratmağa nail olublar. Radio 2009-cu ildən başlayaraq, hər çərşənbə 22.00-dan 24.00-a kimi Arhus FM, Kanal2, Frekans 98,7 MHz tezlikdə yayımlanır. Radionun "AzərDiaspora", "AzərXəbər", "AzərRadio" və "AzərDərs" adlı xüsusi proqramları vardır. Bundan əlavə, "Azərbaycan" radiosunun internet saytı (www.azeri.dk) və soydaşlarımızla müntəzəm əlaqə saxlamaq üçün e-mail (post@azeri.dk) ünvanı fəaliyyət göstərir;
- 2004-cü ildən başlayaraq Fransada "Azərbaycan səsi" radiosu işə başlayıb. Radio Azərbaycan haqqında operativ məlumatlar ötürməklə diaspor nümayəndələrimizin zəruri informasiyalarla tanış olmasında mühüm rol oynayır;
- Daha bir radiomuz İsveçrədə fəaliyyət göstərir. 2004-cü ildən başlayaraq dinləyiciləri salamlayan "Azərbaycan səsi" radiosu istər Azərbaycanda, istərsə də İsveçrədə yaşanan ən son ictimai-siyasi, sosial-iqtisadi hadisələr barədə informasiyanı operativ olaraq çatdırmağa çalışırlar;
- Eyni adlı radiomuzdan daha biri Norveçdə yaradılıb. 2006-cı ildə əsası qoyulan "Azərbaycan səsi" radiosu daha çox mədəniyyət və tarix mövzusunda hazırladığı verilişlərlə diqqəti cəlb edir;
- ABŞ-ın Çikaqo şəhərində fəaliyyət göstərən televiziya - "Günaz TV" 2005-ci ilin aprel ayından yayıma başlayıb. "Günaz TV"nin 24 saatlıq proqramları Hotbird peyki vasitəsilə yayımlanır. Televiziyanın əsas məqsədi Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması, İran şovinizmindən əziyyət çəkən həmvətənlərimizin istiqlaliyyət uğrunda mübarizəsinin təbliğidir;
- 20 noyabr 2011-ci ildə fəaliyyətə başlayan "Heydərbaba" televiziya kanalı Kanadada yayımlanır. Telekanal həftədə üç dəfə - cümə

axşamı, cümə və şənbə günlərində tamaşaçıların görüşünə gəlir. Verilişlər Azərbaycan, türk və ingilis dilində hazırlanır. Qarşıya qoyulan əsas məqsəd isə Azərbaycanın tarixini, musiqisini, zəngin mədəniyyətini yerli və dünya ictimaiyyətinə çatdırmaqdır;

- "AzCAN" TV kanalı da 2007-ci ilin 15 sentyabrından etibarən Kanadada yayıma başlayıb. Kanal hələ ki, müstəqil yayım tezliyi əldə etməsə də, yerli "Rogers" TV-nin imkanlarından istifadə etməklə 10-cu kanaldan yayımlanır. Televiziyanın təsisçisi "Kanada Azərbaycan Dərnəkləri Federasiyası" nın prezidenti Əkbər Məcidovdur. "AzCAN" TV-nin qarşıya qoyduğu məqsəd Azərbaycanın coğrafiyası, təbiəti, mədəniyyəti, xalqımızın adət-ənənələri, Kanadada Azərbaycan diasporunun fəaliyyəti, əldə olunan uğurlar barədə məlumat verməkdir [12, s. 225-229].

Hazırda Avropada Azərbaycanlıların Koordinasiya şuralarında birləşməsi diaspor hərəkatında ciddi dönüş yaradıb. 2018-ci ilin oktyabr ayında Diasporla İş üzrə Dövlət Komitəsinin Sədrinin rəhbərliyi ilə nümayəndə heyəti Almaniya, Fransa və İsveçrəyə səfər edərək oradakı soydaşlarımızla bir sıra görüşlər keçirdilər. Azərbaycanlıların birləşərək yeni mərkəzdə cəmlənməsi diasporda yeni və böyük bir hərəkatın başlanğıcıdır. Onun çərçivəsində dil kurslarının, Azərbaycan məktəblərinin açılması da əsas tədbirlərdəndir. Həmvətənlərimiz artıq pərakəndə deyil, vahid qüvvə ilə - Koordinasiya Şurası olaraq fəaliyyət göstərəcək ki, bu da Avropada azərbaycanlıların istənilən proseslərdə iri güc olmasından xəbər verəcək. Artıq Almaniya, Fransa və İsveçrəyə azərbaycanlıların Koordinasiya Şuraları yaradılıb, fəaliyyət planları tərtib edilib [11, s. 5].

Azərbaycan xalqı milli mənafelərimizin qorunması, müstəqil dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə sıx birləşərək daha səmərəli fəaliyyət göstərməlidir. Bu sahədə Azərbaycan diasporunun işi əhəmiyyətlidir. Azərbaycan dövləti dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin möhkəmləndirilməsini, onların mütəşəkkil, çevik və təsirli qüvvəyə çevrilməsini vacib vəzifə olaraq daim diqqətdə saxlayır, bu mühüm prosesə hərtərəfli dəstək verir. Diaspor quruculuğu sahəsində aparılan işlər artıq öz müsbət nəticələrini verməkdədir.

Bu gün soydaşlarımız yaşadıqları dövlətlərin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına hərtərəfli inteqrasiya olunur, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə fəal yardım göstərirlər. Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasında, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğində, erməni millətçilərinin qərəzli ideoloji fəaliyyətinin qarşısının alınmasında diaspor təşkilatlarımızın rolu danılmazdır. Azərbaycan diasporu yenicə təşkilatlanmağa başladığı dövrdən etibarən onun qarşısına qoyduğu əsas məqsədlərdən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini, Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmaqdan ibarət olub. Rusiyada, Yaxın Şərq bölgəsində, Türkiyədə xüsusi fəallıq göstərilmişdir.

**Azərbaycan diasporunun fəaliyyət istiqamətləri**

Diaspor sahəsində ən vacib və strateji məsələlərdən biri müxtəlif ölkələrin siyasi dairələri ilə əlaqələrin qurulmasıdır. Bu amil həm xalqlararası, həm də dövlətlərarası münasibətlərin inkişafında mühüm əhəmiyyətə malikdir.
Dünya azərbaycanlılarının əsas sosial-siyasi və milli-mənəvi vəzifələrindən biri Azərbaycan dövlətçiliyini hər hansı halda müdafiə edib qorumaqdan, onun lideri ətrafında birləşməkdən ibarətdir.

Yaxın Şərq regionunda Azərbaycan diasporunun ən fəal olduğu ölkələrdən biri İsraildir. 2007-ci ilin aprelin 12-də İsraildə əsası qoyulmuş Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyası (Azİz) iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində böyük rol oynamışdı. Təşkilatın bu ölkədə 50 mindən çox üzvü vardır. İsraildə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından olan və 2017-ci ilin aprelində Tel-Əviv şəhərində təsis olunmuş İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası yarandığı gündən Azəbaycan haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində davamlı olaraq çalışır.

Azərbaycanlıların milli həmrəyliyinin həm miqyasca, həm keyfiyyətcə əsasını Azərbaycanın şimal və cənubu arasındakı əlaqə təşkil edir. Bu, olduqca mürəkkəb etnososial, etnosiyasi hadisədir [4, s. 4].

Ən çox azərbaycanlı Cənubi Azərbaycan ərazisində yaşayır. Onların hüquqlarının bir çox sahədə sıxışdırılmasına baxmayaraq soydaşlarımız

çoxsaylı qüvvə kimi İran siyasətində mühüm rol oynayırlar.

Bu gün Azərbaycan hökumətinin diaspor siyasətinin prioritetlərindən biri vətənimizin hüdudlarından kənarda məskunlaşmış milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşdirilməsi və Azərbaycan həqiqətlərinin təbliğ olunmasıdır. Prezident İlham Əliyev hər zaman bildirib ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edirlər. Diaspor quruculuğunu xarici siyasətin prioritet istiqamətlərindən biri kimi qiymətlən-dirən və bu fəaliyyətin getdikcə daha da gücləndirilməsini vacib sayan Prezident İlham Əliyev milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından hər zaman xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edir. Bütün bunlar son nəticədə Azərbaycanın tanıdılmasına xidmət edir.

Artıq diasporumuz təşkilatlanma prosesini arxada qoyub və praktik mərhələdə məqsəd Azərbaycan həqiqətlərini təbliğ etməkdir. Diaspor təşkilatlarımız dünya azərbaycanlılarının həmrəyliyinin informasiya təminatı istiqamətində ana dilində və ya yaşadıqları ölkələrin dövlət dilində KİV təsis etmək, milli icma üzvləri və yerli əhali arasında təbliğat və maarifçilik işi aparmaq hüququna malikdirlər. Hazırda xarici ölkələrdə 462 diaspor təşkilatı fəaliyyət göstərir. Bu isə o deməkdir ki, azərbaycanlıların yaşadığı hər bir ölkədə bir neçə təşkilat yaradılmışdır [15, s. 4-5].

Xaricdə təhsil alan tələbələrin hesabına gənclərin disapor fəaliyyətində rolu gün-gündən artmaqdadır. Azərbaycan icmaları fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatında da fəal iştirak edir, başqa xalqların diaspor təşkilatları ilə əlaqələrini gücləndirirlər.

Bu gün soydaşlarımızın geniş yayıldığı Avropa ölkələri sırasına Almaniya, Niderland, Belçika, İngiltərə, İtaliya və s. dövlətlər daxildir. Azərbaycan Respublikası, Diasporlarla İş üzrə Dövlət Komitəsi və qeyri-hökumət təşkilatları səviyyəsində görülən işlər əksər inkişaf etmiş ölkələrdə yeni icmalar, cəmiyyət və ictimai birliklərin yaranmasına səbəb olub. Onlardan bəzilərini sadalamaq yerinə düşərdi:

Təsir dairəsinin genişliyi, ictimai-siyasi hadisələrdə fəal rolu ilə seçilən həmin təşkilatlardan İsveçrədə "İsveçrə-Azərbaycan Dostluq cəmiyyəti", İsveçdə "Azərbaycan naminə" dərnəyi, "İsveç-Azərbaycan Gənclər Federasiyası", "Azərbaycan-İsveç Kültür və Humanitar dərnəyi", Niderlandın Roterdam şəhərində "AzeriUnited" cəmiyyəti", İngiltərədə "Azərbaycan Gənclər Klubu", London İqtisad və Siyasi Elmlər Məktəbinin nəzdində "Azərbaycan cəmiyyəti", Almaniyanın Berlin şəhərində "Azərbaycan evi", Maqdeburq şəhərində "Azərbaycan Dostları cəmiyyəti", Fransada "Azərbaycan evi", Estoniyada "İrs" gənclər təşkilatı, Çexiyada "Azərbaycanlı Tələbələrin Assambleyası", Belarusda "Azərbaycan İcmaları Konqresinin Moqilyov Regional Təşkilatı", Ukrayna Azərbaycanlıları Konqresinin nəzdində Gənclər Komitəsi və s. göstərmək olar.

Həmin cəmiyyətlərin başlıca məqsədi Azərbaycan xalqının mədəniyyətini, tarixini, adət-ənənələrini yaşadaraq geniş təbliğ etmək, Azərbaycanın bu günkü durumunu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin reallıqlarını yaşadıqları ölkənin ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Hətta Cənubi azərbaycanlılar da bəzi Avropa dövlətlərində təşkilatlar yaratmışlar. Onlardan biri 1988-ci ildə təsis edilmiş "Berlin Azərbaycan Kültür Ocağı"dır. Cəmiyyət üzvləri Azərbaycan Respublikasında baş verən prosesləri izləyir və hər bir hadisə ilə bağlı öz mövqeyini nümayiş etdirirlər. Təşkilatın əsas məqsədlərindən biri də Azərbaycan mədəniyyətinin geniş təbliğinə nail olmaqdır. Cəmiyyətin nəzdində Azərbaycan yazıçılarının əsərlərindən ibarət böyük kitabxana vardır. Bu təşkilatda təmsil olunan həmvətənlərimizin böyük əksəriyyəti ziyalılardır və İran hakimiyyətinə münasibətdə müxtəlif mövqedə dayanırlar [13, s. 44; 49]

Azərbaycan dövlətinin diaspor vasitəsilə yüksək əlaqələr qurduğu ölkələr sırasında Ukrayna xüsusi yer tutur. Diasporumuzun Azərbaycan-Ukrayna əlaqələrinin mühüm tarixi əhəmiyyəti vardır. Diasporun dövlətlərarası münasibətlərin inkişafında rolunu Azərbaycan-Ukrayna nümunəsində görmək olar. Ukraynada Azərbaycan diasporu XX əsrin əvvəllərində təşəkkül tapmışdır. O zamanlar Azərbaycanlı tələbələrin (Şəfi bəy Rüstəmbəyli,

Mir Əbülfət bəy Talışlı, Xəliyulla Yenikeyu) təşkilatçılığı ilə "Azərbaycan Həmyerlilər Cəmiyyəti" (Землячество) fəaliyyət göstərirdi. Buna baxmayaraq, əsrin sonuna doğru bu sahədə işlər daha intensiv xarakter almışdır. Xatırlatmaq yerinə düşər ki, ilk Azərbaycanlılar Konqresi 1999-cu ildə məhz Ukraynada yaradılmışdır. Ukraynanın hər bir vilayətində ayrı-ayrılıqda Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərirdi. Bunun əsas səbəbi Azərbaycanla Ukrayna arasında əvvəllər də münasibətlərin zəngirı tarixi keçmişə malik olması idi. Donetsk şəhərində təsis edilmiş Donetsk Vilayəti Azərbaycanlıları Konqresinin fəaliyyətini də xüsusi qeyd etmək olar.

2005-ci il dekabr ayının 2-də yaradılmış Konqresin fəaliyyətində əsas proqram Ukrayna və Azərbaycan xalqlarının humanist ənənələrini təbliğ etmək idi. 2008-ci ildə fəaliyyətini daha da genişləndirən Donetsk Vilayəti Azərbaycanlıları Konqresi nəzdində burada, ümumilikdə Ukraynada yaşayan azərbaycanlı gəncləri bir araya gətirərək, onların milli həmrəyliyinə və birliyinə nail olmaq, etnik kimliklərini qorumaq, yaşadıqları cəmiyyətə inteqrasiya etmələrinə dəstək vermək, milli dəyərlərini təbliğ etmək və ictimaiyyətə çatdırmaq məqsədilə "Gənclər Parlamenti" yaradılmış və "Konqres Azərbaycan" adlı qəzet nəşrinə başlanılmışdı. Bunun fonunda 2011-ci il dekabrın 9-da Kiyevdə keçirilən Ukrayna Azərbaycanlı Gənclər Birliyinin 2-ci forumunda Ukraynanın müxtəlif vilayət və şəhərlərindən 500 nəfər gənc iştirak etmişdir [3, s. 140-143].

Azərbaycan-Fransa dövlətlərarası sosial-mədəni,siyasi və iqtisadi münasibətlərin güclənməsində də diasporun xüsusi yeri vardır. Azərbaycanlıların Fransaya mühacirət tarixi XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edir. ADR süqut etdikdən sonra azərbaycanlıların mühacirət etdikləri ölkələr sırasında Fransa xüsusi yer tuturdu. Məhz mövcud rejimin mühacirətə məcbur etdiyi Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli. Ümmül Banu, Yusif Vəzir Çəmənzəminli bu ölkədə sığınacaq tapmışdılar. Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixli aktla müstəqilliyi bərpa edildikdən sonra Fransa ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yaranması bu ölkədə diaspor fəaliyyətimizi gücləndirmişdir. Hazırda Fransanın Paris, Strasburq, Qrenobl şəhərlərində "Azərbaycan evi", "Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti" (1990), "Azərbaycan Kültür Mərkəzi", "Fransada Azərbaycan Tələbələr Assosiasiyası" (1999), "Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyası", "Təhsil və Tədqiqatların inkişafı üzrə Fransa-Azərbaycan Tələbə Assosiasiyası" (2001), "Azəri-Fransız Gənclik Assosiasiyası" (2003) və s. kimi təşkilat və mərkəzlər fəaliyyət göstərməkdədir [3, s. 145-146].

**Açar sözlər:** *həmrəylik, azərbaycançılıq, diaspor quruculuğu, xarici siyasət, diaspor siyasəti, təşkilatlanma.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Sərəncamı, Bakı şəhəri, 23 may 2001-ci il.*

*2. Azərbaycan diasporu: böyük yolun başlanğıcı. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin nəşri / Buraxılışa məsul: İbrahimov N. Bakı, 2006, 208 s.*

*3. Babanlı Y. Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti: 1991-2011. Bakı, 2016.- 328 s.*

*4. Cəfərov N. Dövlətçilik məfkurəsi və dünya azərbaycanlılarının həmrəyliyi // Xalq qəzeti, 6 yanvar 2017-ci il, s. 4.*

*5. Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik günü haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı. Naxçıvan şəhəri. 16 dekabr 1991-ci il.*

*6. Əliyev Z. B. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı, 2001.- 150 s.*

*7. Əliyev Z. B. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı, 2007. - 435 s.*

*8. Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı, 2001.- 358 s.*

*9. Həziyeva S. A. Dünya azərbaycanlılarının həmrəyliyi (XX əsrin sonu, XXI əsrin əvvəlləri). Tarix elm.fəls.dokt..disser. Bakı, 2010.- 168 s.*

*10. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002 – 232 s.*

*11. Qədimov C. Avropada Azərbaycanlıların Koordinasiya şuraları yaradılır // Azad Azərbaycan qəzeti, 12 oktyabr 2018-ci il, № 145 (3346), s. 5.*

*12. Məmmədov R. R. Avropada Azərbaycan diasporu. Bakı, 2013.- 312 s.*

*13. Məmmədov R. R. Azərbaycan diasporu. Bakı,*

*2019. – 312 s.*
*14. Şəmsizadə N.Ş. Azərbaycançılıq (Azərbaycan xalqının milli ideologiyası) Bakı, 2006. – 192 s.*
*15. Мехтиев Р. Азербайджанская диаспора: современные вызовы и организация системной деятельности // Бакинский рабочий, 9 июля 2016 года, ст. 4-5.*
*Elektron mənbələr*
*16. http://elibrary.bsu.az/books_460/N_35.pdf*
*17. https://mod.gov.az/az/pre/21204.html*

**Солидарность азербайджанцев мира: Организация и развитие Азербайджанской диаспоры**

**РЕЗЮМЕ**

Статья посвящена солидарности азербайджанцев, Азербайджанской диаспоре, организованной в мире с момента восстановления независимости. Диаспоры, превращенные в акторы, активно принимающие участие в политических процессах современного мира, выступают в качестве защитника интересов какой-то нации, имеет большое значение во внешней политике государства. После восстановления независимости Азербайджана, как и во всех сферах, в диаспоре открылся новый путь. Цель данной статьи состоит в изучении с разных аспектов проявлений солидарности азербайджанцев мира, организационного движения диаспоры, инициированного Гейдаром Алиевым. В статье также освещается проведенная государством политика в этой сфере, представление азербайджанских общин, проживающих за рубежом в иностранных СМИ. Актуальность статьи основана на том, что организация азербайджанцев мира важна с точки зрения укрепления социально-политических основ независимого азербайджанского государства. В статье рассматривается строительство диаспоры в качестве одного из приоритетов внешней политики и делается акцент на международных усилиях по защите национальных интересов.

**Ключевые слова:** *солидарность, азербайджанство, строительство диаспоры, внешняя политика, диаспорская политика, организация.*

**World Azerbaijanis Solidarity: Organization and development of the Azerbaijani Diaspora**

**SUMMARY**

The Article deals with the World Azerbaijanis Solidarity and the Azerbaijani Diaspora which has been organized worldwide since the restoration of independence. The Diasporas that become actor attending actively in political processes in the modern world act as advocates of the interests of any nation and are of great importance in the foreign policy of the state. After the restoration of Azerbaijan's independence, a new path was opened in the Diaspora establishment as in all spheres. The aim of the article is to study the manifestations of the World Azerbaijanis Solidarity and the Diaspora organization movement initiated by Heydar Aliyev from various aspects. Public policy pursuing in this area, as well as the representation of the Azerbaijani communities abroad in foreign mass media are also included in the article. The urgency of the article is based on the fact that the organization of the World Azerbaijanis is important in terms of strengthening the social and political foundations of the independent state of Azerbaijan. The article considers the Diaspora establishment as one of the directions of the foreign policy priorities, and focuses on efforts to protect national advantages and interests in the international world.

**Key words:** *solidarity, Azerbaijaniism, Diaspora establishment, foreign policy, Diaspora policy, organization.*

UOT: 327; 930.22

# TACİKİSTAN-İRAN MÜNASİBƏTLƏRİ (1991-2020): ZİDİYYƏT NÖQTƏLƏRİNİN MEYDANA GƏLMƏSINDƏ DİN AMİLİNİN ROLU

**ELDAR ƏMİROV**
*ADU-nun Rusiyaşünaslıq ETL-in baş elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: eldar.ado.85@inbox.ru*

SSRİ-nin süqutundan sonra Mərkəzi Asiya bölgəsi istər tutduğu əlverişli geosiyasi mövqe, istərsə də zəngin təbii ehtiyatlar səbəbindən çox qısa zamanda qlobal və regional güc mərkəzlərinin qızğın rəqabət məkanlarından birinə çevrildi. Təbii ki, bu rəqabətin hər bir iştirakçısının davranışı və tətbiq etdiyi strategiya ilk növbədə onun maraqlarının müvafiq xüsusiyyətlərilə diqtə olunurdu. Məsələn, əgər Rusiyanın başlıca məqsədləri postsovet məkanının bu mühüm hissəsində öz hərbi və siyasi iştirakını qoruyub saxlamaqdan, bölgədəki mühüm ixrac bazarlarını əldə saxlamaqdan ibarət idisə, Qərbin əsas niyyəti enerji resursları ilə zəngin olan, eləcədə mühüm ticarət yollarının kəsişdiyi, Çinlə həmsərhəd olan regiona mümkün qədər daha dərindən nüfuz etmək idi. Çin üçün isə Mərkəzi Asiya regionu coğrafi baxımdan yaxın, kapital qoyuluşu, ixrac potensialının artırılması və yeni tranzit imkanlarının əldə edilməsi nöqteyi-nəzərindən olduqca böyük dəyər qazanırdı.

Lakin bu üç qlobal güclə yanaşı, Mərkəzi Asiyanın ciddi iqtisadi və geosiyasi imkanlarından bəhrələnmək niyyətində olan regional güc mərkəzləri maraqlı görünürdülər. Həmin güc mərkəzləri sırasında İran xüsusi fəallığı ilə seçilirdi. Doğrudur, İran ötən əsrin 90-cı illərindən etibarən sözügedən bölgədə nüfuz dairələri uğrunda qızışan mübarizədə Rusiya, Çin və ABŞ kimi güc mərkəzlərinin sahib olduğu geniş təsir imkanlarına malik deyildi, ancaq bu amil ona bölgə dövlətlərilə ikitərəfli münasibətlər qurmağa əsla mane olmadı.

Heç şübhəsiz ki, İranın Mərkəzi Asiya siyasətində Tacikistan bölgənin digər dövlətlərilə müqayisədə daha mühüm rola və çəkiyə malik idi. İran üçün Tacikistanı prioritetə və xüsusi maraq obyektinə çevirən bir çox səbəblər var, ancaq onların ən mühümü heç şübhəsiz ki, taciklərlə farslar arasında olan etnik qohumluq, ortaq dil və mədəniyyət, həmçinin qırılmaz tarixi əlaqələrdir. Məlum olduğu kimi tacik dili, İran dil ailəsinə daxildir və taciklər Mərkəzi Asiya regionunda qədim və orta əsrlərdə farsdilli ədəbiyyatın və mədəniyyətin yaradıcıları hesab olunurlar. Ortaq dil və mənəvi miras İrana regionun digər ölkələrilə müqayisədə Tacikistanla daha intensiv və hərtərəfli münasibətlər qurmağa şərait yaradırdı. Regionun digər 4 ölkəsinin (Özbəkistan, Qazaxstan, Tacikistan və Qırğızıstan) türkdilli olduğunu nəzərə alsaq, Tacikistanın öz müstəqilliyinin ilk illərində etnik ortaqlıq zəminində İranla sıx münasibətlərə meyl etməsi də tam təbii idi. Məlum olduğu kimi İran 1991-ci ilin 9 sentyabrında öz dövlət müstəqilliyini elan edən Tacikistanın istiqlalını ilk tanıyan ölkələr sırasında idi. Müstəqil Tacikistanın paytaxtı Düşənbədə diplomatik nümayəndəliyini açan ilk ölkə də məhz İran oldu. Hətta minnətdarlıq əlaməti olaraq Tacikistan rəhbərliyi İran səfirliyinin yerləşdiyi küçənin adını dəyişərək onu Tehran adlandırmışdılar. [1, стр. 156].

Növbəti illərdə müəyyən çətinliklərə baxmayaraq, bu münasibətlər daim yüksələn xətt üzrə inkişaf etdi. Bunu həm İran və Tacikistan arasında davamlı olaraq artan ticarət dövriyyəsindən, həm də tərəflər arasında imzalanan strateji xarakterli sazişlərdən anlamaq mümkündür. Statistikaya əsasən 1999-cu ildə cəmi 23,9 milyon dollar təşkil edən İran- Tacikistan ticarət dövriyyəsi 2008-ci ilədək təxminən on dəfə artaraq 220 milyon dollara çatmışdır. 2010-cu ilin məlumatlarına əsasən Tacikistan ərazisində fəaliyyət göstərən İran şirkətlərinin sayı isə 150

– ni ötmüşdü. [1,163]. Müstəqil dövründə Tacikistanda İran investisiyası ilə həyata keçirilən ən mühüm layihə isə Vəxş çayı üzərində inşa edilən Səngtudə-2 hidroelektrik stansiyası hesab olunur. Tikintisi 2006-cı ildə başlayan və 2014-cü ildə istifadəyə verilən stansiyanın inşası ümumilikdə 220 milyon dollara başa gəlmişdir ki, onun da 180 milyon dolları İran, 40 milyon dolları isə Tacikistan tərəfindən ödənilmişdir. Tərəflər arasında əldə edilmiş razılığa əsasən stansiyanın gəlirləri işə düşdüyü andan etibarən 12,5 il ərzində İrana məxsus olacaq. Sonra isə obyekt tamamilə Tacikistanın mülkiyyətinə keçəcək. [5]. Həmçinin Tacikistan İranla hərbi əməkdaşlıq haqqında saziş imzalamış yeganə Mərkəzi Asiya dövləti olmuşdur. 2002-ci ildə imzalanmış həmin saziş bu gün də qüvvədədir. [1,стр.46]. Tacikistanda əhalinin ümumi gəlirlərinin xeyli aşağı olması, ucuz işçi qüvvəsi, infrastrukturun zəifliyi, həmçinin xarici investisiyalara duyulan böyük ehtiyac İran şirkətləri üçün olduqca geniş fəaliyyət məkanı yaradırdı.

Lakin 2013-cü ildə iranlı iş adamı Babək Zəncaninin həbsilə İran və Tacikistan münasibətlərində başlayan gərginlik tədricən ölkələr arasında ciddi siyasi böhranın meydana gəlməsilə nəticələndi. Məsələ burasındadır ki, B. Zəncanilə bağlı aparılmış istintaq nəticəsində İran rəsmiləri 2,7 milyard dollarlıq vəsaitin iş adamı tərəfindən məhz Tacikistanın bank sisteni vasitəsilə xaricə çıxarıldığını bəyan etsələr də, rəsmi Düşənbə bu fikirləri qərəzli adlandıraraq rədd etdi. Bu isə tərəflər arasındakı münasibətlərdə ilk soyuqluğun yaranmasına gətirib çıxardı. Gərginliyin pik həddinə çatması isə 2015-2016-cı illərə təsadüf etdi. Belə ki, 2015-ci ildə Tehranda keçirilən nüfuzlu beynəlxalq konfransa Tacikistanda qadağan edilmiş “Tacikistanın İslam Dirçəlişi Partiyasının” rəhbəri, mühacirətdə yaşayan M.Kəbirinin dəvət edilməsi ölkələr arasında onsuz da soyuqlaşan münasibətləri böhran həddinə gətirib çıxardı. Cavab olaraq Tacikistan nümayəndə heyəti tədbiri tərk etdi. Bir müddət sonra isə Tacikistan müxtəlif səviyyəli rəsmi şəxslərin və nüfuzlu din xadimlərinin dili ilə İranı aktiv fazası 1991-1994-cü illərdə cərəyan etmiş vətəndaş müharibəsinin gedişində radikal islamçıları maliyyələşdirməkdə və silahlandırmaqda ittiham etməyə başladı. Həmçinin tacik rəsmiləri İranı Tacikistandakı islamçı qrupları məqsədli şəkildə şiələşdirməyə cəhdə də ittiham etməkdən çəkinmirdilər. Yaranmış gərginlik ölkələrin beynəlxalq təşkilatlar çərçivəsindəki əlaqələrinə də mənfi təsir göstərdi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, 2017-ci ilin iyununda Şanxay Əməkdaşlıq təşkilatının növbəti görüşündə Tacikistan bu quruma daxil olmaq üçün müraciət edən İranın təşkilata daxil olmasına açıq şəkildə etiraz bildirməkdən çəkinməmişdir. [3].

2017-ci ilin 8 avqust axşamında, Tacikistan televiziyasında efirə verilən “İran: 1991-1997-ci illər vətəndaş müharibəsinə dəstək” sənədli filmi isə odun üstünə bir qədər də benzin tökmüş oldu. Tacikistan Daxili İşlər Nazirliyi tərəfindən hazırlanan sənədli filmdə həbs edilmiş bir çox islamçı vaxtilə İranda təlim keçdiyini və onların İran pasportları ilə təmin olunduqlarını etiraf edir. Həmçinin filmdə istintaq materialları əsasında İran xüsusi xidmət orqanlarının vətəndaş müharibəsi dövründə açıq şəkildə islamçıları silahlandırdıqları və onların vasitəsilə Tacikistanda hakimiyyəti ələ keçirməyə cəhd etdiyi açıq şəkildə ifadə olunmuşdur. Həmçinin filmin müəllifləri İran hakim dairələrini vətəndaş müharibəsi illərində Tacikistanda səs-küylü siyasi qətllər törətməkdə günahlandırmaqdan belə çəkinməmişdilər. Tacik dilində efirə verilən bu sənədli film qısa zamanda özbək, ingilis və ərəb dillərinə tərcümə edilərək internet məkanında geniş yayıldı. [4]. Efirə gedən film İran tərəfindən olduqca sərt qarşılandı. Bu ölkənin Düşənbədəki səfirliyi filmi saxtakarlıq və uydurma adlandıraraq, orada səslənən ittihamları rədd etdi. Bir sıra iranlı ekspertlər isə filmi Tacikistan rəhbərliyi tərəfindən Zəncaninin çıxardığı pulları geri qaytarmamaq məqsədilə hazırladıqları təxribat kimi səciyyələndirdi. Lakin məsələ hər nə olursa olsun, M.Kəbirinin 2015-ci ildə Tehranda beynəlxalq konfransda iştirak etməsi, onun İran rəsmiləri tərəfindən səmimi qəbul edilməsi İslam respublikasının bu və ya digər şəkildə Tacikistan siyasətində dini qruplardan yararlanmağa çalışdığını açıq-aşkar göstərir. Doğrudur, farslar və taciklər qohum xalqlar hesab olunsalar da, məzhəb məsələsində onlar fərqli təsəvvürlərin daşıyıcılarıdır. İranlılar əsasən şiə məzhəbinə mənsub olduqları təqdirdə, taciklər sünni məzhəbinə aiddirlər. Bu mənada taciklər Mərkəzi Asiya xalqlarına daha yaxındırlar.

Qeyd olunan təbii ki, İranın Tacikistandakı dini təbliğatına və ideoloji təsirinə əhəmiyyətli

dərəcədə əngəl törədir. Həmçinin onu da nəzərdən qaçırmaq lazım deyil ki, "İslam inqilabının ixracı" İran tərəfindən rəsmən bəyan edilmiş, qanuni fəaliyyət hesab edilməkdədir. Tehran 1979-cu ildən bu yana İslam inqilabının ideoloqları tərəfindən ölkənin xarici siyasətinin ayrılmaz komponenti elan edilmiş həmin prinsipə hər zaman həssaslıqla yanaşmış, onun icrası üçün bütün mümkün vasitələrdən istifadə etmişdir. İranın Yəmənə, Livana, Bəhreynə münasibətdə yeritdiyi ənənəvi ideoloji xətt, yəni məzhəb zəminində dini qruplara dəstək verməsi deyilənlərin ən bariz sübutudur. Göz qarşısında olan təcrübənin Tacikistan rəhbərliyi tərəfindən narhatlıqla qarşılanması başadüşüləndir. Tacikistan dövlət müstəqilliyi qazandıqdan sonra olduqca ağrılı və qanlı bir sınaqdan – vətəndaş müharibəsinin alovundan keçmiş bir ölkədir. Fransız iranşünası Jan Pol Ru qeyd edir ki, 1991-1994-cü illər arasında davam etmiş qanlı toqquşmalarda 30.000 dən – 50.000 dək insanın öldürüldüyü, 600.000 dən çox şəxsin isə qaçqın həyatı yaşamağa məhkum edildiyi ehtimal olunur. [2, стр.346]. Vətəndaş müharibəsinin alovlanmasına səbəb olan amillər arasında isə din və məzhəb amilinin rolu olduqca böyük idi. Sünni-şiə qrupları arasındakı toqquşmalar, həmçinin dini qruplarla dünyəvi hakimiyyətin tərəfdarları arasındakı münaqişələr Tacikistanda baş vermiş vətəndaş müharibəsinin ən qanlı epizodlarını təşkil edir. Digər tərəfdən 2005-ci ildə qonşu Özbəkistanın Əndincan vilayətində baş verən qanlı hadisələr radikal islamçıların bölgədə hələ də əhali arasında ciddi təsir gücünün olduğunu göstərdi. Tacikistan rəhbərliyinin sözügedən məsələlərə həssaslığını artıran başqa bir səbəb də ölkənin Əfqanıstanla həmsərhəd olmasından qaynaqlanır. 2001-ci ildə ABŞ –ın bu ölkəyə müdaxiləsindən və Taliban hərəkatının dağlıq bölgələrə sıxışdırılmasından sonra Əfqanıstanda vəziyyətin qismən stabilləşəcəyinə ümid yaranmışdı. Lakin zaman keçdikcə bu ümidlər özünü doğrultmadı və Taliban hərəkatının tarixin yaddaşına qovuşacağına dair proqnozlar tamamilə puça çıxdı. Əksinə, son illərdə öz dayaqlarını daha da möhkəmləndirən hərəkat əvvəlkitək Tacikistan və Türkmənistan sərhədlərində ciddi şəkildə təhlükəsizliyi təhdid etməyə davam edir. Keçmişin təcrübəsi, həmçinin mövcud geosiyasi reallıqlar Tacikistanı ehtiyatlı olmağa və məzhəbçiliyin, dini radikallığın artırılmasına yönələn istənilən təbliğata münasibətdə qətiyyətli olmağa vadar edir. Bu da öz növbəsində İran və Tacikistan münasibətlərinin əhəmiyyətli ziddiyyət düyünlərindən birinə çevrilir.

Doğrudur, 2016-cı ildə baş verən gərginlikdən sonra zamanla İran Tacikistan münasibətlərində nisbi normallaşma əlamətləri özünü göstərir. Xüsusilə də bu əlamətlər iqtisadi əməkdaşlıq sahəsində hiss edilir. Ölkələr 2016-2019-cu illər arasında hiss ediləcək səviyyədə azalan ticarət dövriyyəsini artırmaq və birgə investisiya layihələrini davam etdirmək haqqında razılığa gəliblər. Çünki, son illərdə tərəfləri yaranan soyuqluğu müvəqqəti olaraq bir kənara qoymağa vadar edən olduqca ciddi səbəblər meydana çıxmışdır. Əgər İran nüvə danışıqlarının iflasa uğramasından və ağır iqtisadi sanksiyaların bərpasından sonra Tacikistan bazarını qorumaqda maraqlı görünürsə, Tacikistan da maliyyə çətinlikləri ucbatından təxirə düşən mühüm iqtisadi layihələrin bərpasında bir o qədər istəklidir. Bütün bunlar son nəticədə münasibətlərdə iqtisadi amilin siyasətin önünə keçməsinə rəvac vermişdir. Lakin bütün bunlar əsla ölkələr arasında meydana gəlmiş etimazdsızlıq mühitinin bu qədər qısa zamanda aradan qalxacağını deməyə əsas vermir. Bunun üçün ilk növbədə İranın ənənəvi Tacikistan siyasətində ciddi korrektələr etməsi zəruridir. Şərait İrandan "İslam inqilabının ixracı" prinsipini kənara qoymağı tələb edir. Heç şübhəsiz ki, Tehranda Mərkəzi Asiya bölgəsinin İranın əsas iqtisadi tərəfdaşı Cinlə apardığı ticarətin sabitliyinin qorunmasındakı əhəmiyyətini yaxşı başa düşürlər. Düşənbədə də İranla uzun müddətli qarşıdurmanın hər hansı fayda verməyəcəyini anlayırlar. Doğrudur, son dövrdə İran ətrafında baş verən sürətli proseslər yaxın gələcəyə dair qəti proqnozlar verməyi çətinləşdirir. Ancaq siyasi praqmatizm İranın Tacikistan siyasətində bir müddət ideoloji məqamları kənara qoyacağına və sırf iqtisadi layihələrə köklənəcəyinə dair ümidləri artırır. Hər halda Tehranda bilməmiş deyillər ki, Mərkəzi Asiyada olduca ciddi iqtisadi layihələr həyata keçirən Çinin və Rusiyanın mövcudluğu, həmçinin Özbəkistanla son illərdə normallaşan münasibətlər Tacikistana olduqca ciddi manevr imkanları yaradır. Bu isə onsuz da iqtisadi və siyasi təcridlə üzləşən İran üçün daha bir tərəfdaşın itirilməsi təhlükəsi deməkdir.

**Açar sözlər:** *İran, Tacikistan, dini radikalizm, iqtisadi əməkdaşlıq, böhran.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Месамед В.И. Иран в Центральной Азии: два десятилетия диалога. Москва, 2010.*

*2. Ру Жан – Поль. История Ирана и иранцев. От истоков до наших дней. Перевод с французского: М.Ю.Некрасов. Москва, 2012.*

*3. И.а. «Спутник-Таджикистан» - 24.05.2018.*

*4. Радио Озоди, 17.08.2017.*

*5. И.а. "Regnum" – 01.04.2014*

## РЕЗЮМЕ

В статье рассмотрены основные точки противоречия в политических отношениях между Ираном и Таджикистаном, главным образом связанные с религиозным фактором. Указывая на исторические родственные узы, а также общность языка и культуры иранцев и таджиков, автор указывает на серьезные противоречия между странами, начавшиеся с 2013 года, и в целом связанные с попытками иранских властей насадить религиозные взгляды в таджикском обществе. Власти Таджикистана очень сильно опасаются попыток Ирана с помощью религиозный групп свергнуть в стране светский режим и в целом дестабилизировать ситуацию в стране. Именно этими опасениями и обвинениями в адрес Ирана, - отмечает автор и был вызван политический кризис между странами в 2015-2016 годах. Однако, несмотря на эти противоречия в статье высказан прогноз относительно дальнейшего спада в политических отношениях двух стран, который прежде всего продиктован экономическими реалиями. Как известно, Ирану вокруг которого постоянно сужается кольцо политической и экономической изоляции, никак не заинтересован в разрыве отношений с Таджикистаном, расположенном в среднеазиатском регионе, связывающим Тегеран с его основным торговым партнером – Китаем. Также не заинтересованы в окончательном разрыве и таджикские власти, которые остро нуждаются в иностранных инвестициях для завершения и реализации стратегических проектов различного характера. Поэтому, уверен, автор рано или поздно религиозный фактор в отношениях двух государств обязательно отойдет на второй план, уступив свое место реальным экономическим выгодам и политическому прагматизму.

**Ключевые слова:** *Иран, Таджикистан, религиозный радикализм, экономическое сотрудничество, кризис.*

## SUMMARY

The article considers the main points of controversy in the political relations between Iran and Tajikistan, mainly related to the religious factor. Pointing out the historical ties of kinship, as well as the common language and culture of Iranians and Tajiks, the author points out serious contradictions between the countries that began in 2013 and, in general, are related to attempts by the Iranian authorities to impose religious views in Tajik society. The Tajik authorities are very afraid of Iran's attempts with the help of religious groups to overthrow the secular regime in the country and generally destabilize the situation in the country. It is with these fears and accusations against Iran, the author notes and the political crisis between the countries in 2015-2016 was caused. However, despite these contradictions, the article makes a forecast regarding a further decline in the political relations of the two countries, which is primarily dictated by economic realities. As you know, Iran, around which the ring of political and economic isolation is constantly narrowing, has no interest in breaking off relations with Tajikistan, located in the Central Asian region, linking Tehran with its main trading partner - China. The Tajik authorities, who are in dire need of foreign investment to complete and implement strategic projects of various kinds, are also not interested in a final break. Therefore, I'm sure that eventually, the author of the religious factor in relations between the two states will surely fade into the background, giving way to real economic benefits and political pragmatism.

**Keywords:** *İran, Tajikistan, religious radicalism, economic cooperation, crisis.*

UOT: 32, 323

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İDARƏÇİLİK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ VƏ TARİXİ ASPEKTLƏRİ

**RASİM QULUZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dissertantı*

*E-mail: rasim004@gmail.com*

Müasir Azərbaycan Respublikası dövlət müstəqilliyinin yenidən bərpasından ötən dövr ərzində mürəkkəb və eyni zamanda şərəfli bir yol keçmişdir. XX əsr Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni inkişafı tarixində mühüm mərhələ olmuşdur. Bu əsrdə çar mütləqiyyət quruluşu, 1918-ci il 28 may tarixində Azərbaycan Demokratik Respublikası yaradılması ilə Şərqdə ilk demokratik idarəetmə formasının əsasının qoyulması, habelə sovet kommunist rejimi kimi üç ictimai-siyasi quruluşdan keçmiş Azərbaycan, nəhayət ki, XX əsrin sonunda yenidən öz müstəqilliyini bərpa etdi. Bu baxımdan, yeni bir tarixi şans kimi 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini rəsmiləşdirən Konstitusıya Aktının qəbulu Azərbaycan Respublikasında dövlət quruluşunun, milli siyasət və innovativ idarəetmənin, iqtisadi inkişafın əsaslarını müəyyən etdi. Azərbaycanın müasir siyasi sisteminin Prezident İlham Əliyev tərəfindən iqtisadi və sosial tərəqqiyə, demokratiyaya və insan kapitalının hərtərəfli inkişafına istiqamətləndirilən yeni dizaynı siyasi sistemin bütün arxitekturasına xüsusi innovasiya təkanı verən sabitliyə və perspektivli, dinamik transformasiyaya dəlalət edir [4] .

Keçid dövrü Azərbaycanda yeni tipli dövlət hakimiyyətinin formalaşması, həm ölkəmizin tarixi təcrübəsinə, həm də demokratik dövlətçiliyin təşəkkülü və inkişafı sahəsində dünya təcrübəsinə əsaslanan dövlət qurulması məsələsini bütün kəskinliyi və zəruriliyi ilə qarşıya qoymuşdur.Müasir şəraitdə əsrlər boyu qazanılmış təcrübəni sadəcə bərpa etmək kifayət deyil, bu təcrübəni qarşılıqlı surətdə əlaqəli və asılı olan dünyanın reallıqlarına uyğunlaşdırmaq lazımdır. Həyata keçirilən yenilikçi dövlət siyasətinin səmərəliliyi Prezident İlham Əliyevin siyasi liderliyinin səciyyəvi əlamətinə çevrilmişdir. Prezident İlham Əliyev müasir siyasi və iqtisadi dəyişikliklərin paralel şəkildə həyata keçirilməsinin əhəmiyyətini ön plana çəkməklə dəfələrlə vurğulamışdır ki, hər sahədə islahatlar bir-birini tamamlamalı və siyasi sistemə yeni impulslar verməklə dövlətin və cəmiyyətin daha da inkişaf etməsinə şərait yaratmalıdır. Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması əsasən 1995-ci il noyabrın 12-də ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə başa çatdı. Konstitusiya ilə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasında siyasi sistemində innovativ prosedur kimi 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda qüvvədə olan Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur. Dəyişiklər prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə qədər uzadılması, həmçinin prezidentə növbədənkənar dövlət başçısı seçkisini elan etmək səlahiyyətinin verilməsini və prezident vəzifəsinə namizədin hazırda 35 yaş olan minimal yaş həddinin aradan qaldırılmasını nəzərdə tutur. [1] Sənəddə prezidentin birinci vitse-prezidenti və vitse-prezidentləri vəzifələrinin yaradılması nəzərdə tutulur. Təklifə əsasən onların vəzifəyə təyinatı və azad edilməsi səlahiyyəti prezidentə məxsusdur və dövlət başçısı təyinatı razılışdırmalı deyil.

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan Respublikası dövlət hakimiyyətinin həyata keçirilməsi formasına görə prezident üsul-idarəsinə əsaslanan respublika parametrlərinə uyğundur [1] .

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Milli Məclis, icra hakimiyyətini həyata keçirən prezident və məhkəmə hakimiyyəti. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər. Azərbaycan Respublikasının Konstitusiya ilə müəyyən edilmiş unitarçılığı spesifikliyə malikdir. Bu da onun tərkibində Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti statusuna malik olmasıdır. Konstitusiyaya görə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir. Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir. Naxçıvan Muxtar Respublikasının qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir. Naxçıvan Muxtar Respublikasında ali vəzifəli şəxs Ali Məclisin sədridir [1] . Azərbaycanın siyasi sistemində yerli özünü idarətmə orqanları olan bələdiyyələr də mühüm yer tutur. Bu institut yeni yaranmasına baxmayaraq böyük perspektivə malikdir. Dövlətin təşkilati-hakimiyyət praktikasında vəzifə borcunun hamı üçün məcburiliyi ideyasını demokratik hüquqi dövlətin təşəkkülü və inkişafı şəraitində vətəndaş cəmiyyətinin subyektlərinin geniş ictimai-hüquqi kommunikasiyaları ilə əlaqədə irəli sürür. Hüquqi dövlətin iqtisadi və sosial əsası humanizm və ədalət, bərabərlik və şəxsiyyətin azadlığı kimi ümumbəşəri prinsipləri qəbul edən mədəniyyətin və mənəviyyatın müəyyən tipini formalaşdırır. Bu, konkret olaraq, yeni dövlət idarəçiliyinin demokratik metodlarında, ədalətlilik və ədalət mühakiməsində, dövlət ilə qarşılıqlı münasibətlərdə şəxsiyyətin hüquq və azadlıqlarının prioritetində ifadə olunur. İnnovativ dövlət idarəetməsi dövlətin sosial-siyasi funksiyası olub, ictimai həyatın bütün sferalarının tənzimlənməsində, davamlı inkişafın, rifah və məmnunluq səviyyəsinin təmin olunmasında, peşəkar və səmərəli dövlət qulluğunun formalaşdırılmasında əhəmiyyətli olmaqla, insan hüquqlarına verilən mühüm töhfələrdəndir [2, s.34].

Müasir dövrümüzdə dövlətlərin idarəetmə sisteminə də təzahür edən modernləşmə yeni idarəetmə modellərinin, müasir, vətəndaşyönümlü, onu məmnun edən idarəetmənin qurulmasının zəruriliyini üzə çıxarmışdır. Subyektivliyin aradan qaldırılması üçün sərt reqlamentlərə əsaslanan ənənəvi modellərdən fərqli olaraq, yeni idarəetmə modelləri bunun üçün şəffaflığın artırılmasını ön plana çəkir. Sərt qaydaların deyil, optimal menecment metodlarının tətbiqi, insan kapitalı, ictimai rəy, hər bir kəs üçün əlçatan və səmərəli xidmətlə vətəndaş məmnunluğu arasındakı zəruri əlaqə müasir islahatların əsas qayəsi kimi çıxış edir. Müvafiq olaraq, respublikamızda aparılan ardıcıl islahatlar da idarəetmənin təkmilləşdirilməsinə, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, məsuliyyətli, kreativ, dövlətinə və xalqına sadiq kadr potensialının formalaşdırılmasına xidmət edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış 1998-ci il 29 dekabr tarixli 53 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində innovativ islahatlar aparılması üzrə Dövlət Komissiyasının fəaliyyəti nəticəsində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və 2001-ci il 1 sentyabr tarixində qüvvəyə minmişdir, nəticədə Azərbaycanda dövlət qulluğu islahatlarının təməli qoyulmuşdur. Dövlət qulluğu aparatında təkmilləşdirmənin təmin oluması üçün aparılan islahatları miqyasına, dərinliyinə, xarakterinə və məqsədlərinə görə fərqləndirmək lazımdır. Bu fərqliliyin nəticələri də çox vaxt tarixi şəraitdən, iqtisadi və sosial amillərdən, hökumətin innovativ strategiyasından və fəaliyyət metodlarından asılı olur. Müasir dövrdə həyata keçirilən dövlət idarəçiliyi islahatlarını iki formada təsnifləşdirmək mümkündür.

1. Siyasi sistemin yenilikçilik sferasından dəyişdirilməsi ilə birlikdə aparılan islahatlar;

2. Sabit siyasi sistem çərçivəsində həyata keçirilən islahatlar. Birinci tip islahatlar ictimai quruluşun dəyişdirilməsi ilə nəticələnir, bununla bərabər yeni dövlət idarəetməsinin sisteminin yaradılmasını tələb edir. İkinci tip islahatların

həyata keçirilməsi zamanı dövlət idarəetməsində əsaslı dəyişikliklər baş vermir və birbaşa sistemin modernləşdirilməsinə xidmət edir. Dövlət aparatının həm içərisində, həm də xarici institutlarla münasibətdə inteqrasiya, nəzarət və koordinasiyanın səviyyəsi hələ xeyli aşağıdır ki, bu da bir çox sahələrdə qeyri-rasional xərclərə və dövlət siyasətinin kifayət qədər reallaşdırılmamasına səbəb olur. Ümumilikdə dövlət aparatının idarəolunmasına nəzər saldıqda fəaliyyətin bütün sahəhərini səmərəli hesab etmək olmaz. Azərbaycanda dövlət qulluqçularının işinin səmərəliliyinin yüksəldilməsi ilə bağlı iki əsas tələb qeyd edilə bilir:

1. Dövlət hakimiyyət, həmçinin idarəetmə institutlarının boşluqlarının aradan qalxması; 2. Dövlət qulluqçularının hazırlıq və təlim səviyyəsinin müasir tələblərə çatdırılması. Müasir dövlət aparatının fəaliyyətinin gücləndirilməsini tələb edən istiqamətlər aşağıdakı kimi müəyyənləşir:

• Yüksək sürətlə dəyişən ətraf aləmə və cəmiyyətin tələbatlarına operativ uyğunlaşmaq;

• Qərar qəbulu mexanizmlərinin mükəmməl olması və peşəkar dövlət menecerlərinin yetişdirilməsi ilə bağlıdır [3, səh. 45] .

Beləliklə, dövlət idarəetməsi innovativ prosedurlar ilə mükəmməl silahlanmalıdır. Həmçinin, bu sahədə çalışan dövlət qulluqçuları dövlətin müasir cəmiyyətdəki, idarəetmə sistemindəki yerini düzgün qiymətləndirməli,cəmiyyətin xüsusiyyətlərini bilməli, onun yeni təşkilolunma metodlarını mənimsəməlidir. İnnovasiya siyasəti ilə bağlı bu faktorları nəzərə alsaq dövlət idarəçiliyinin təşkilində səmərəliliyə nail olmaq mümkündür.

**Açar sözlər:** *Azərbaycan Respublikası, dövlət hakimiyyəti, innovativ idarəetmə sistemi, dövlət idarəçiliyi, milli innovasiya sistemləri*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı Qanun, 2016.*

*2. Allahyarova T. «Müasir Azərbaycanda Siyasi Sistemin Transformasiyası», SAM, Bakı-2013.*

*3. Qasımov F.H. "Azərbaycanda innovasiyanın vəziyyəti və onun inkişaf perspektivləri", Bakı, 2009.*

*4. http://www.xalqqazeti.com/az/news/politics/45825 33. www.president.az*

## РЕЗЮМЕ

В статье автор, прежде всего, обращает внимание на процесс восстановления независимости Азербайджанской Республики и краткую историю развития государственности, широко анализируются важные шаги, предпринимаемые государством в этом направлении. В статье автор также обратил внимание на некоторые аспекты принципа разделения властей в Азербайджане, а именно на особый статус Нахчыванской Автономной Республики в соответствии с законодательством страны, и проанализировал некоторые теоретические вопросы в этой связи. Особое место в статье было уделено модернизации в развитии государственности в Азербайджанской Республике, инновационным технологиям, вытекающим из западного опыта.

**Ключевые слова:** *Азербайджанская Республика, государственная власть, инновационная система управления, государственное управление, национальные инновационные системы.*

## SUMMARY

In the article, the author, first of all, draws attention to the process of restoration of independence of the Republic of Azerbaijan and a brief history of the development of statehood, widely analyzes the important steps taken by the state in this direction. It also analyzes the essence of successful reforms carried out by President Ilham Aliyev to develop Azerbaijani statehood, inherited from national leader Heydar Aliyev. In the article, the author also drew attention to some aspects of the principle of separation of powers in Azerbaijan, namely, the special status of the Nakhchivan Autonomous Republic in accordance with the legislation of the country, and analyzed some theoretical issues in this regard. A special place in the article was given to modernization in the development of statehood in the Azerbaijan Republic, innovative technologies arising from Western experience.

**Keywords:** *Republic of Azerbaijan, state power, innovative management system, public administration, national innovation systems.*

UOT: 342.5

# PREZİDENTLİK İNSTİTUTU HAQQINDA BƏZİ NƏZƏRİ MÜDDƏALARIN SİYASİ-HÜQUQİ TƏHLİLİ

**SALMAN UMUDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti"kafedrasının dissertantı*

*E-mail: salmanumudov@gmail.com*

Məlum olduğu kimi, respublika forması olan dövlətlərdə ən yüksək vəzifəli şəxs, bir qayda olaraq, prezident hesab olunur. Əsasən səlahiyyətləri daxilində ifadə olunan hüquqi vəziyyəti və həyata keçirilmə prosesi bu tip dövlətlərdə mövcud respublika növü ilə müəyyən edilir.

Prezidentli respublikalarda prezidentin səlahiyyətləri geniş olmaqla bir sıra məsələləri əhatə edir. ABŞ Konstitusiyasının II hissəsində (prezident respublikasının klassik nümunəsi olan bir dövlət olmaqla) ifadə edildiyi kimi, "İcra hakimiyyəti ABŞ prezidentinə məxsusdur" (6;s.47).

Yuxarıda göstərilən konstitusiya normasına əsasən, prezident dövlət başçısının vəzifəsini icra edir. Bu norma müccərəd şəkildə formalaşdırılmışdır və prezident səlahiyyətlərinin tərkibinə dair əlavə dəqiqləşdirmələr aparılmamışdır. Bununla belə, prezidentin səlahiyyətləri qanunvericilik və məhkəmə orqanlarının səlahiyyətinə daxil olmayan bütün idarəetmə səlahiyyətlərini əhatə edə bilər. Eyni zamanda, ABŞ prezidenti dövlət başçısının statusundan irəli gələn hüquq və vəzifələrə malikdir (baxmayaraq ki, ABŞ Konstitusiyası formal olaraq onu bu statusda nəzərdə tutmur). Belə ki, Prezident ABŞ ordusunun və dəniz qüvvələrinin ali baş komandanıdır. Amerika Birləşmiş Ştatlarının prezidenti bundan başqa aşağıdakı səlahiyyətlərə də malikdir:

-Hər bir icra orqanında ən yüksək vəzifə tutan şəxsdən onun həyata keçirdiyi vəzifəyə aid olan hər hansı bir məsələ üzrə yazılı şəkildə rəy verməsini tələb edə bilər;

-İmpiçment halları (özünə və digər rəsmi şəxslərə münasibətdə) istisna olmaqla, Amerika Birləşmiş Ştatlarına qarşı törədilmiş cinayətə görə verilmiş cəzanın həyata keçirilməsində möhlət və əfv etmək;

- Senatının məsləhət və razılığı ilə, sonrakı mərhələdə Senatorların üçdə iki səs çoxluğu ilə beynəlxalq müqavilələr bağlamaq (bu ratifikasiya prosedurundan irəli gəlir);

-Senatın iclasları arasında yaranan fasilə dövründə bütün vakant vəzifələri tamamlamaq və həmin vəzifəli şəxslərə növbəti sessiyanın sonuna qədər məhdudlaşdırılmış etibarlılıq sertifikatı vermək;

-Fövqəladə hallarda, Konqresin istənilən palatalarından birini çağırmaq; -İclasın keçirilmə vaxtının müəyyən edilməsi məsələsində Konqresin hər iki palatasının vahid rəyə gələ bilməməsi təqdirində özü qərar qəbul etmək.

Prezident qanunla müəyyən edilmiş qaydada senatın məsləhət və razılığı ilə səfirləri, Amerika Birləşmiş Ştatlarının digər rəsmi şəxslərini, nazirlər və konsullarını, Ali Məhkəmə üzvlərini təyin edə bilər. Belə ki, zərurət yaranırsa, konqres prezidentin və departament rəhbərliyinin aşağı səviyyəli vəzifəli şəxsləri müstəqil olaraq təyin etmək hüququ verilməsi haqqında qanun qəbul edə bilər. Prezident vaxtaşırı (ənənə ilə - hər il) ölkədəki vəziyyətlə bağlı zəruri və müvafiq hesab edilən tədbirlər planı haqqında informasiyanı Konqresə məktub şəklində təqdim etməlidir.

ABŞ Konstitusiyasının 1-ci maddəsinin 7-ci bəndinə əsasən Prezidentə Konqres tərəfindən qəbul edilən qanunlara veto qoymaq hüququna malikdir. ABŞ-da inkişaf edən və fəaliyyət göstərən prezident respublikasının hüquqi modeli Latın Amerikası dövlətlərinin əksəriyyəti tərəfindən böyük ölçüdə qəbul olunmuşdur. Bu ölkələrdə əsasən kontinental roman-german hüquq ənənələrinin daşıyıcısı olan İspaniya və Portuqaliya hüquqi ənənələrinin

davamçısı kimi çıxış edirlər, lakin, digər tərəfdən bu ölkələrdə qəbul edilmiş konstitusiya ABŞ konstitusiyasından daha sonra qəbul edildiyinə görə, müasir hüquqi təcrübə və standartlara uyğun təşkil edilmişdir və burada prezidentin səlahiyyətləri daha ətraflı göstərilmişdir. Bu baxımdan biz misal üçün Braziliyada mövcud olan prezident institutu modelinə istinad edə bilərik.

**Braziliya Federativ Respublikasının** 1988-ci ildə qəbul edilmiş Konstitusiyasının 76-cı maddəsində göstərildiyi kimi, icra hakimiyyəti dövlət nazirlərinin yardımı ilə respublikanın prezidenti tərəfindən həyata keçirilir. Bu qayda yuxarıda göstərilmiş ABŞ Konstitusiyasının II maddəsinin müddəalarına oxşarlıq təşkil edir. Bununla yanaşı, Braziliya Konstitusiyasında, Prezidentin hüquq və vəzifələrini təşkil edən geniş səlahiyyətlər göstərilmişdir və həmin konstitusiyanın 84-cü maddəsinə uyğun olaraq, ona müstəsna səlahiyyətlərdə verilmişdir. Bura aiddir:

- Dövlət nazirlərinin təyin və vəzifədən azad edilməsi;
- Dövlət nazirlərinin yardımı ilə federal ərazilərdə yüksək rəhbərliyin həyata keçirilməsi;
- Konstitusiyada nəzərdə tutulmuş hallarda və formalarda qanunvericilik prosesinin həyata keçirilməsi;
- Qanunların dərc edilməsini, yayımlanmasını həyata keçirilməsi, həmçinin vicdanlı icra edilməsi üçün fərman və qərarların verilməsi;
- Qanun layihələrinə tam və ya qismən vetonun qoyulması;
- Federal idarənin təşkili və fəaliyyətinin qanunun tələblərinə uyğun olaraq həyata keçirilməsi;
- Xarici dövlətlərlə münasibətlərin qurulması və onların diplomatik nümayəndəliklərinin akkreditə edilməsi;
- Milli Konqresə təsdiq edilmək üçün təqdim edilən müqavilələr, konvensiyalar və beynəlxalq aktların bağlanması;
- Müdafiə və fövqəladə vəziyyətin tətbiqi barədə qərarın verilməsi;
- Federal müdaxiləyə dair müddəanın tətbiqi barədə qərarın verilməsi və həyata keçirilməsi;
- Parlament sessiyasının açılışı münasibətilə ölkədəki vəziyyətlə əlaqədar görülməsi zəruri hesab edilən tədbirlərin həyata keçirilməsi üçün Milli Konqresə müraciət və hökumət planının göndərilməsi;
- Zəruri hallarda, qanunla müəyyən edilmiş orqanların fikrini eşitdikdən sonra əfv etmək və cəzanın azaldılması;
- Silahlı qüvvələrin yüksək komandanlığını həyata keçirmək, general rütbələrinin verilməsi və bu vəzifələrə müvafiq olan şəxslərin təyin edilməsi;
- Bu qanunda nəzərdə tutulubsa, Federal Senatının təsdiqindən sonra Federal Məhkəmə Hakimləri, ali məhkəmələr, ərazi üzrə qubernatorları, Respublika Baş prokuroru, Mərkəzi Bankın sədri və direktorları və digər səlahiyyətli şəxslərin təyin edilməsi;
- Birliyin Hesablama Tribunalının hakimlərinin təyin edilməsi;
- Konstitusiyada nəzərdə tutulmuş hallarda İttifaqın Ali Müvəkkilinin və magistrantlarının təyin edilməsi;
- Respublika Şurasının üzvlərini təyin edilməsi;
- Respublika Şurasını və Milli Müdafiə Şurasını çağırmaq və onlara sədrlik etmək;
- Milli Konqresin razılığı əsasında xarici təcavüz vəziyyətində müharibə elan etmək;
- Eyni şərtlərə əsasən də, qismən və ya ümumi səfərbərliyin elan olunması;
- Milli Konqresin razılığı ilə sülh bağlamaq;
- Mükafat və təltiflərin həyata keçirilməsi;
- Qanunla nəzərdə tutulmuş hallarda, xarici ölkələrin silahlı qüvvələrinin milli ərazidən keçməsi və ya orada müvəqqəti olaraq qalmasına razılıq verilməsi;
- Konstitusiyanın müddəalarına uyğun olaraq, Milli Konqresə büdcə qaydaları və büdcə təklifləri haqqında qanun layihəsinin uzunmüddətli planını göndərilməsi;
- Hər il qanunvericilik sessiyasının başlamasından altmış gün sonra əvvəlki maliyyə ili üzrə Milli Konqresə hesabatın təqdim edilməsi;
- Qanunun tələblərinə uyğun olaraq dövlət orqanlarında vəzifələrin təqdim və ləğv edilməsi;
- Qanuni qüvvəsi olan müvəqqəti tədbirlərə dair aktlar verilməsi(13;s.34 ).

Bir çox prezidentli respublikaların konstitusiyalarında icra hakimiyyəti iyerarxiyasında ikinci şəxs olan **vitse-prezident** vəzifəsi nəzərdə tutulmuşdur. O, bir qayda olaraq, prezidentlə birlikdə seçilmiş olur.

Bu siyasi təsisatın irəli sürülməsi əsasən müxtəlif siyasi qüvvələr arasında kompromisin yaradılması zərurətindən və dövlət sistemində onların ədalətli təmsil olunması ehtiyacından irəli gəlmişdir. Müa-

sir dövrdə vitse-prezident vəzifəsinin istisna hallarda bəzi prezident respublikalarında (o cümlədən Azərbaycan Respublikasında) konstitusiyaya əsasən ölkə başçısının öz vəzifələrini yerinə bilməməsi, və yaxud vaxtından əvvəl onun hakimiyyətdən uzaqlaşdırılması kimi hallar baş verərsə, vitse-prezidenti yeni prezidentin seçilməsinə qədər dövr üçün Prezident vəzifəsini icra edir. Bu baxımdan Azərbaycan Respublikası Konstitusiyasının 105-ci maddəsinə əsasən:

I. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə 60 gün müddətində növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti icra edir.

II. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edir (1).

ABŞ Konstitusiyasına əsasən isə, (XXV dəyişiklik, 10 fevral 1964-cü il) prezidentin vəzifəsindən kənarlaşdırılması, ölməsi və ya istefası halında, vitse-prezident prezident vəzifəsini həyata keçirir. Hər dəfə vitse-prezident postu vakant olduqda, Prezidentin vitse-prezidentliyə təyin etdiyi şəxs, konqresin hər iki palatasının səs çoxluğu ilə təsdiqləndikdən sonra vəzifəsinin icrasına başlayır.

Hər dəfə Prezident, Senatın pro tempore sədrinə və nümayəndələr palatasının spikerinə prezidentlik səlahiyyət və vəzifələrini icra etməyə qadir olmadığını yazılı şəkildə bəyan edərsə, bunun əksini yazılı olaraq onlara bəyan etməyincəyə qədər bu səlahiyyət və vəzifələri Prezident sifətilə hərəkət edən vitse-prezident həyata keçirir.

Əgər vitse-prezident və icra departamentlərinin əksər yüksək vəzifəli şəxsləri və yaxud konqresin qanunla müəyyən edəcəyi digər bir orqanın əksəriyyəti Senatın pro tempore sədrinə və Nümayəndələr palatasının spikerinə Prezidentin vəzifə və səlahiyyətlərini icra etməyə qadir olmadığını yazılı şəkildə bəyan edərlərsə, vitse-prezident, Prezident vəzifələrinin icraçısı sifətilə dərhal həmin vəzifə və səlahiyyətləri öz üzərinə götürür.

Prezident, senatın pro tempore sədrinə və nümayəndələr palatasının spikerinə iqtidarsızlığın artıq mövcud olmadığını yazılı şəkildə bəyan etməsindən sonrakı dörd gün ərzində, vitse-prezident və icra departamentlərinin əksər yüksək vəzifəli şəxsləri yaxud konqresin qanunla müəyyən edəcəyi digər bir orqanın əksəriyyəti senatın pro tempore sədrinə və nümayəndələr Palatasının spikerinə Prezidentin öz vəzifə və səlahiyyətlərini icra etmək iqtidarında olmadığını yazılı şəkildə bəyan etmədiyi təqdirdə, Prezident, vəzifəsinin səlahiyyət və məsuliyyətini yenidən bərpa edir. Bu halda konqres, əgər toplantı halında deyilsə, həmin məsələ üzrə qərar vermək məqsədilə 48 saat ərzində toplanır. Əgər konqres, ərizəni aldıqdan sonra 21 gün ərzində və ya əgər toplantı halında deyilsə, toplanmaq üçün çağırıldığından sonrakı 21 gün ərzində, hər iki palatanın üçdə iki səs çoxluğu ilə Prezidentin prezidentlik səlahiyyət və vəzifələrini icra etmək iqtidarında olmadığına qərar verirsə, vitse-prezident, Prezident sifətilə bu vəzifə və səlahiyyətlərin icrasına davam edir; əks halda isə Prezident, prezidentlik vəzifə və səlahiyyətlərini yenidən bərpa edir( 4; s.29).

Prezidentliyin müvafiq konstitusiya modelinə malik bir parlament respublikasının klassik nümunələri kimi, Almaniya və İtaliyanı nəzərdən keçirmək olar.

**Almaniyanın** Əsas Qanununun 54-cü maddəsinə əsasən respublika Prezidenti Federal Məclis tərəfindən müzakirə edilmədən seçilir. Bundestaqa seçmək hüququ olan və qırx yaşına çatmış hər alman Respublika Prezidenti seçilə bilər. Federal Məclis üzvlərinin və əksər səsini alan namizəd seçilmiş sayılır. İlk iki turunda heç bir namizəd bu əksəriyyəti toplaya bilməmişsə, növbəti üçüncü turda daha çox səs alan şəxs seçilmiş olur(15;s.26).

Federal Prezidentin səlahiyyət müddəti beş ildir. Birbaşa yenidən seçilməyə yalnız bir dəfə icazə verilir.

1947-ci ildə **İtaliya Respublikasının** Konstitusiyası respublikanın prezidentinin seçilməsi üçün bənzər bir prosedur nəzərdə tutur, lakin parlament seçkiləri üçün zəruri olan məclis deputatlarının səs çoxluğu tələb olunur. Respub-

lika Prezidenti gizli səslə Parlamentin üçdə iki əksəriyyəti tərəfindən seçilir. Əgər ki, səsvermənin iki raundunun nəticələrinə görə prezident seçilmirsə, üçüncü səsvermədə 50 faizdən çox səs çoxluğu kifayətdir. İtaliya Respublikası Prezidentinin səlahiyyət müddəti yeddi ildir. Bu müddətin tamamından otuz gün əvvəl, deputatlar Palatasının sədri, yeni Respublika Prezidentini seçmək üçün Parlamenti və vilayət nümayəndələrini birgə iclasa çağırır.

İtaliya Respublikasının prezidentinin səlahiyyətləri Konstitusiyanın 87-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətlər siyahısında müəyyən edilir. Dövlət başçısı və milli birliyin təminçisi olan Prezident:

- Parlament Məclisinə müraciətnamələr göndərə bilər;
- O, yeni palataların seçkilərini təyin edir və onların ilk iclas gününü təyin edir;
- Hökumətin hazırladığı qanun layihələrinin Palatalara təqdim edilməsinə icazə verir;
- Qanunları imzalayır və elan edir, qərarlar və qanun qüvvəli qərarnamələr verir;
- Konstitusiyada nəzərdə tutulan hallarda referendum təyin edir;
- Qanunda müəyyən edilmiş hallarda dövlətin vəzifəli şəxslərini təyin edir;
-Diplomatik nümayəndələri təyin və qəbul edir, Palataların icazəsi tələb olunan hallarda onların icazəsi ilə beynəlxalq müqavilələri ratifikasiya edir;
- Respublika Prezidenti Silahlı qüvvələrin komandanıdır, qanun əsasında yaradılan Ali Müdafiə Şurasına sədrlik edir;
- Palataların qərarı ilə müharibə vəziyyətini elan edir;
- Ali Magistratura (hakimlər) Şurasına rəhbərlik edir;
- Əfv edə və cəzaları yüngülləşdirə bilir;
- Respublika fərqlənmə nişanları ilə təltif edir(4;s.35).

Konstitusiyanın 90-cı maddəsinə görə, Respublika Prezidenti öz funksiyalarını yerinə yetirərkən etdiyi hərəkətlərə görə məsuliyyət daşımır; Vətənə xəyanət və ya Konstitusiyanı pozma halları bu müddəaya daxil deyildir. Belə hallarda, Respublika Prezidenti, Parlamentdə birgə iclasda üzvlərinin mütləq səs çoxluğu ilə ittiham edilir.

Qabaqcıl dövlətlərin konstitusiyasından fərqli münasibəti biz postsovet ölkələrinin konstitusiyasında görə bilərik. Onları ümumiləşdirsək bəzi məqamları aşağıdakı kimi xarakterizə edə bilərik.

İlk növbədə qeyd etməliyik ki, postsovet məkanında mövcud olan konstitusiyalar mahiyyət etibarilə ABŞ konstitusiyasına istinad etsələr də, əksər məsələlərdə öz özəlliyini saxlamışlar. Belə ki, bu ölkələrdəki dövlət başçıları (prezidentlər) qanun layihələrinə veto qoymaq və parlamenti buraxmaq hüququna malikdirlərsə, bunun əksinə olaraq parlamentin prezidentin qərarlarını ləğv etmək səlahiyyətinə malik deyildirlər. Bu ölkələrdə hökumətin başçısı kimi qanuna əsasən prezidentə deyil, baş nazirə məxsusdur.

Bu ölkələrdə prezidentin qərarlarının qanuna zidd olması təqdirində onun qanunsuz hesab olunması məsələsində çox mürəkkəb bir mexanizm mövcuddur. Qanun parlamentə bu məsələdə konstitusiya məhkəməsinə müraciət etmək səlahiyyəti versə də, bu ölkələrdə çox zaman konstitusiya məhkəməsinin elə də siyasi iradəsi və müstəqilliyi olmur ki, prezidentin qərarlarının konstitusiyaya zidd olması ilə əlaqədar parlamentin lehinə qərar versinlər.

Bu baxımdan postsovet məkanı dövlətlərinin konstitusiyaları daha çox Fransa konstitusiyasına (yarımprezidenli, yarım parlamenli respublika nümunəsi olaraq) bənzərliyi var. Lakin burada da ciddi fərqlərə rast gəlirik. Belə ki, məsələn, Fransa prezidenti öz təşəbbüsü ilə Baş naziri təyin və ya azad etmək səlahiyyətinə malik deyildir. Postsovet məkanında isə əksinə, bu səlahiyyət prezidentə məxsusdur.

Postsovet sistemində "iki hakimiyyət"lilik ola bilməz (yəni Baş nazir və Prezident). Burada gerçəklik belə formalaşmışdır ki, hətta prezidentə müxallif olan siyasi qüvvələr parlamentdə yer üstünlüyünə malik olsalar belə, prezident çox rahat şəkildə parlamenti buraxmaq və ya dövlət orqanlarına həyata keçirilən seçkiləri tənzimləmək və istədiyi istiqamətə yönəltmək imkanına malikdirlər. Bu baxımdan postsovet konstitusiyalarının mövcud vəziyyətini konkret olaraq müəyyənləşdirsək, onların əksəriyyətində super prezidentli idarəçilik sisteminin qurulduğunu qeyd edə bilərik.

Bu ölkələrdə mövcud olan yeni konstitusiyalar monofunksional sistemin möhkəmlənməsinə və ölkə qarşısında yarana biləcək kəskin iqtisadi, sosial

və siyasi problemlərin həllinə yönəlmişdir.

Super prezidentli dövlətlərin yaranmasının əsas səbəblərindən biri odur ki, postsovet dövlətlərində parlamentlər əhali arasında prezidentə münasibətdə zəif nüfuza malikdirlər. Bu respublikalarda partiya sisteminin zəifliyi (kəmiyyət göstəricilərinin keyfiyyət göstəricilərini üstələdiyi üçün) yaxın gələcək üçün ona gətirib çıxara bilər ki, parlament daha mütəşəkkil siyasi iradə göstərməkdə çətinlik çəkə bilərlər. Bunu nəzərə alan rus tədqiqatçısı L.A.Okunkov qeyd edir ki, "Rusiya Federasiyasının Konstitusiyası "fövqəl prezidentli" hakimiyyəti formalaşdırmışdır və hakimiyyət bölgüsü prinsipindən uzaqlaşmışdır. Və buradan da müəllif belə qənaətə gəlir ki, ölkə konstitusiyasında əlavə dəyişikliklər edilərək mövcud olan qeyri-bərabərliyi həll etmək zərurəti vardır" (20;s.45).

Azərbaycan Respublikası postsovet məkanın üzvü olsa da, yuxarıda qeyd etdiyimiz siyasi reallıqdan kənarlaşa bilmişdir. Ölkəmizdə daim demokratik və bəşəri dəyərlərə istinad etdiyi üçün hakimiyyət bölgüsü prinsipinə ciddi riayyət olunur. Bunu son illərdə ölkə başçısının həyata keçirdiyi siyasətdə, eləcə də, ölkə qanunvericiliyində, xüsusən də ölkə konstitusiyasında edilmiş çox mühüm əlavə dəyişikliklərində də biz bariz şahidi ola bilərik. Bu baxımdan həqiqətən də ölkəmiz bir sıra dövlətlərə uğurlu nümunə olmaqda davam edir.

**Açar sözlər:** *Prezident respublikası, Konstitusiya, vitse-prezident, postsovet konstitusiyası*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasını Konstitusiyası (əlavə və dəyişikliklərlə birlikdə). Bakı, 2016www/ Respublikasının%20Konstitusiyası_files/f_897.ht*

*2. Ə.Həsənov, A.Vəliyev. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, 2013*

*3. İbadov Nazim. Müqayisəli politologiya. Bakı, 2010*

*4. Xarici dövlətlərin Konstitusiyası. "Qanun" jurnalı, № 2-3,1994*

*5. Politologiya: Ensiklopedik lüğət. Bakı,2008*

*6. Алебастрова И.А. Конституционное право зарубежных стран. - М., 2001*

*7. Бабаев В.К. Теория государства и права. - М., 1999*

*8. Баглай М.В. Конституционное право Российской Федерации. - М., 2003*

*9. Большой юридический словарь <http: //yas. yuna.ru/ ?1879053312 @ 0814816512> / Под ред. А.Я. Сухарева, В.Е. Крутских. - М., 2002.*

*10. Катков Д.Б., Корчиго Е.В. Конституционное право России. / Отв. ред. Ю.А. Веденеев. - М., 1999.*

*11. Козлов А.И. Конституционное право. - М., 1997 г.*

*12. Комментарий к Конституции РФ / под ред. Б.Н. Топорнина. - М., 1994г.*

*13. Конституции зарубежных государств. - М., 1997*

*14. Конституции государств европейского союза. - М., 1999*

*15. Конституции государств Центральной и Восточной Европы/Отв. ред. Н.В. Варламова. - М., 1997*

*16. Конституционное право зарубежных стран. Т. 1-2.Страны Европы. - М., 1997*

*17. Конституционное право зарубежных стран. Хрестоматия. / Под ред. А.И. Бушуева. - М., 2009*

*18. Конституция Грузии. Издатель - аппарат Парламента Грузии. Тбилиси.1995.*

*19. Конституция Российской Федерации. М., 1998*

*20. Окуньков Л.А. Президент Российской Федерации. М. ИНФРА М – НОРМА. 1996.*

*21. Лапшин И.Е. Конституционное право зарубежных стран. - М., 2005*

*22. Лукашук И.И. «Конституции государств и международное право». - М., 1998*

*23. Политология: Краткий энциклопедический словарь-справочник. - Ростов н/Д., 1997.*

*24. Решетников Ф.М. Правовые системы стран мира. Справочник. - М., 2003*

*25. Современные зарубежные конституции. / Сост. В.В. Маклаков. - М, 2002*

*26. Хаманева Н.Ю. Конституционное право государств Европы. - М., 2003*

*27. Хропанюк В.Н. Теория государства и права: Учебное пособие для высших учебных заведений. Москва, 1997*

*28. Чиркин В.Е. Конституционное право зарубежных стран. - М., 1999*

**РЕЗЮМЕ**

В статье автор обосновал, в первую очередь, сравнительным образом, научными доказательствами, как основные полномочия и обязанности президента-носителя исполнительной власти, закреплены в законодательстве ведущих государствах мира, особенно в США и Федеративной Республике Бразилии. В то же время в этих странах, а также в Конституции Азербайджанской Республики были широко изучены основные аспекты, относящиеся к должности вице-президента, являющегося вторым лицом в исполнительной иерархии. Автор также обратил внимание на то, что в какой форме реализуется в Конституции США (пока что новая для нашей страны), должность вице-президентства. В статье также было уделено большое внимание анализу специфической модели президентского института-Германии и Италии. С этой целью был проведен сравнительный анализ отдельных статей Конституции, являющихся высшим законодательным документом этих стран. Особое место в статье занимают вопросы о том, в чем заключаются схожие и разные особенности должности президента, носителя исполнительной власти в Конституции отдельных стран СНГ, как ведущих европейских, так и других западных стран. В статье также приведен анализ понятия “суперпрезидентская” республика, только вошедшего в политическую терминологию, некоторые ее позитивные и негативные аспекты показаны в теоретическом плане.

**Ключевые слова:** *Президентская республика, конституция, вице-президент, постсоветская конституция.*

**SUMMARY**

In the article, the author justified, first of all, by comparative scientific evidence, how the main powers and duties of the President-the bearer of Executive power, are enshrined in the legislation of the leading countries of the world, especially in the United States and the Federal Republic of Brazil. At the same time, in these countries, as well as in the Constitution of the Republic of Azerbaijan, the main aspects related to the position of the Vice-President, who is the second person in the Executive hierarchy, have been widely studied.

The author also drew attention to the form in which the Vice-presidency is implemented in the us Constitution (which is still new for our country). The article also paid great attention to the analysis of the specific model of the presidential Institute-Germany and Italy. For this purpose, a comparative analysis of individual articles of the Constitution, which are the highest legislative document of these countries, was carried out. A special place in the article is occupied by questions about what are the similar and different features of the office of the President, the bearer of Executive power in the Constitution of individual CIS countries, both leading European and other Western countries. The article also analyzes the concept of a “super-presidential” Republic, which has just entered the political terminology. some of its positive and negative aspects are shown in theoretical terms.

**Keywords:** *Presidential Republic, Constitution, Vice-President, Post-Sovet Constitution.*

UOT: 378

# POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ SOSİAL TƏHSİLİN ROLU

**MÜSLÜM NƏZƏROV**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*E-mail: uslimnazarov@mail.ru*

Müasir şəraitdə pedaqoji elm "yeni bir dominant şüur, mədəniyyət, yeni dəyər sistemləri və sosial təşkili formalarına doğru irəliləyərək" cəmiyyətin postindustrial tipində insan cəmiyyətinin təmin edilməsinin yollarını tapmaq problemi ilə qarşı-qarşıyadır. Fəlsəfi və antropoloji biliklərin insan sosial münasibətlərinin müxtəlifliyinə əsaslanan sosial varlıq kimi formalaşması probleminin mövcudluğunun sosial yolu ideyasında diqqəti dəyişir, bu təkcə kənardan qurulmur, əksinə insanın özünə və qəbul edilən dünyaya münasibətində köklənir. Eyni zamanda, bu "cəmiyyətə xidmətə hazırlıqdan" "gənc nəsillər arasında cəmiyyətin taleyi üçün məsuliyyətin formalaşmasından" əməkdaşlıq etmək qabiliyyətinə keçir. Bu, istər-istəməz şəxsiyyətin öz dəyərinin tanınması, özünüdərkinin formalaşması, öz müqəddəratını təyin etməsi və həyata keçirməsi üçün şəraitin yaradılması ilə əlaqələndirilir. Bu baxımdan tərbiyənin sosial missiyası yenilənir, şəxsin ailə ilə birlikdə mövcud olan sosial tərbiyənin mahiyyəti olan pedaqoji üsullarla sosiallaşması vəzifələrinin həlli imkanları axtarılır.

Sosial təhsilin nəzəriyyəsinin mövcud vəziyyəti 1990-cı illərdə sosial pedaqogikanın institutlaşması ilə əlaqələndirilir və pedaqoji biliklərin ən vacib prioriteti kimi xarakterizə olunurdu. Ümumiləşdirilmiş formada sosial təhsilin məzmunu aşağıdakı kimi ifadə etmək olar:

- sosial inkişaf, sosial formalaşma, sosial bacarıq, sosial həyata daxil olmaq üzrə tədris fəaliyyətinin gedişatı və nəticəsi;
- sivilizasiya, ətraf mühit kimliyini əks etdirən mədəniyyət komponenti;
- sosiallaşmanın pedaqoji mexanizmi;
- siyasi, sosial qoruyucu, tərbiyə xarakterli problemləri həll edən sosial bir qurum və ya cəmiyyətin ictimai həyat sferası;
- müəyyən çətinliklər, pozuntular halında insana ictimai və dövlət yardımı sistemi;
- insan və cəmiyyət arasında qarşılıqlı təsir problemləri barədə elmi nəzəriyyə metodu.

Sosial tərbiyənin mənalı şərhlərinin müxtəlifliyi müasir pedaqogikanın əsas pedaqoji termin və kateqoriyaları aydınlaşdırmaq, anlamaq və ya yenidən düşünmək problemi ilə xarakterizə olunur. Tarixi və metodoloji təhlil inandırıcı şəkildə göstərdi ki, sosial təhsil nəzəriyyəsi ənənəvi, sənaye və post-sənaye tipli cəmiyyətlərdə sosiallaşma prosesində insanın sosial norma və dəyərlərə cəlb edilməsinin obyektiv və subyektiv qanunları ilə bağlı fəlsəfi və pedaqoji fikirlərin əlaqəsini əks etdirir.

Postindustrial cəmiyyətinin qurulması kontekstində aparıcı rol istehsalın maddi- mənəvi elementlərindən mənəvi-ideal olanlara, maddi əməkdən yaşayışa keçir. İstehsalın və sosial varlığın vahidliyi, standartlaşdırılması və birləşməsindən ictimai həyatın bütün formalarının müxtəlifliyinə qədər inkişafı hərəkət etdirir. Bu sosial bütövlüyün istehsalı və bərpası üçün əsas şərt olan "bütün sosial şeylərin ölçüsü" insan zəkasının, yaradıcı enerjinin, maddi və mənəvi qüvvələrin inkişafı və zənginləşməsidir. Fərdi insan həyatının sosial-rol metodu (sənaye cəmiyyəti üçün ənənəvi olan və şəxsiyyəti sosial strukturların funksional imperatorlarına tabe edən) insan təbiətinin özünə və öz mahiyyəti daha uyğun olan yenisi ilə əvəz olunur.

Bu prosesdə insanın sosiomədəni kontekstində şəxsiyyətin geniş fəaliyyət seçmək imkanı ilə tamamlanan şəxsi azadlıq hissində fərdin sosial-mədəni mühitindən asılılığı nəinki zəifləyir, əksinə meyl əldə edir - sosial strukturlar getdikcə fərdin

mənəvi dünyasının vəziyyətindən, onun beynində baş verən proseslərdən asılı olur. Burada insan həqiqətən bir sosial dəyərə çevrilir və cəmiyyətin əsas funksiyası açıq bir şəxsiyyətə sahib olan müstəqil yaradıcı şəxsin sərbəst inkişafı üçün şərait yaratmaq və mənalı, xoşbəxt bir həyat sürməkdən ibarətdir.

XX əsrin 60-cı illərindən başlayaraq cəmiyyətin postindustrial növü, əsl zid-diyyətləri və təhsil praktikasının ehtiyaclarını əks etdirən kütləvi pedaqoji şüurda yeni problemlərin yaranmasına şərait yaratdı. Postindustrial cəmiyyət şəraitində -pedaqoji idealın istəyi sosial yönümlüdən (cəmiyyətin özünəməxsus maraqları ilə müəyyən edilmiş parametrləri olan bir insanın formalaşmasından) tərbiyə və təhsili fərdi istiqamətə yönəltməyə (şəxsin özü üçün və cəmiyyət üçün yalnız dolayı yolla) çevrilir. Eyni zamanda cəmiyyətə xidmət etməyə hazırlıqdan - gənc nəsillər arasında cəmiyyətin taleyi ilə bağlı məsuliyyətin formalaşmasına hazır olmağa, əməkdaşlıq etmək bacarığına keçir. Bu dövrdə Qərb elmi ənənəsində sosial təhsil problemləri sosial və humanitar biliklərdə geniş müzakirə olunur, bunun nəticəsində sosial təhsil problemləri sosiallaşma anlayışları ilə əlaqələndirilir. Bu dövrdə geniş yayılmış sosiallaşma anlayışları həm "nisbətən idarə olunan" (dövlət siyasəti və dövlət təhsil sistemi) çərçivəsində, həm də "nisbətən sosial nəzarətdə olan" (tərbiyə) ictimailəşmə çərçivəsində sosial dəyərlər və normaların insan inkişafı prosesləri kifayət qədər ətraflı təhlil edilmişdir.

Bunlarla yanaşı "postindustrial cəmiyyət" konsepsiyasının iki metodoloji üstünlüyünü də qeyd etmək istərdik. Bir tərəfdən, o, yeni cəmiyyətin onun əvvəlki formalarından tamamilə fərqləndiyini nəzəri səviyyədə əks etdirir, digər tərəfdən də yeni dövrü bütün bəşər tarixinə yox, onun yalnız ayrıca bir mərhələsinə qarşı qoymaq və sənayeyəqədərki, sənaye və postsənaye cəmiyyətlərin və ya birinci, ikinci və üçüncü sivilizasiya dalğalarının (O.Toffler) mövcud olduğunu qeyd etmək imkanı verir.

Postindustrial cəmiyyətdə sənaye sferası, deməli, maddi istehsal, maddi aktivlər öz üstünlüyünü itirir, onları biliklər və informasiya əvəz edir. İnformasiyanın, yeni biliklərin postindustrial cəmiyyətin əsas resursuna çevrilməsi bütövlükdə cəmiyyətin sosial və siyasi strukturunun, habelə beynəlxalq və dövlətlərarası qarşılıqlı təsirlərin dəyişməsinə səbəb olur.

Beləliklə Postindustrial cəmiyyətdə:

- informasiya və bilik resursa çevrilir;
- elmi işləmələr iqtisadiyyatın hərəkətverici qüvvəsi olur;
- daha çox işçinin təhsilinin keyfiyyət səviyyəsi, peşəkarlığı və kreativliyi

Qərb dünyasının sosial-iqtisadi inkişaf tendensiyalarını təhlil edən "postin-dustrializm", "informasiya cəmiyyəti", "texnotron cəmiyyət" və s. kimi nəzəriyyələrin müəlliflərinin ümumi rəyi bundan ibarətdir ki, postindustrial cəmiyyətdə sənaye sferası, deməli, maddi istehsal, maddi aktivlər öz üstünlüyünü itirir, onları biliklər və informasiya əvəz edir. İnformasiyanın, yeni biliklərin postindustrial cəmiyyətin əsas resursuna çevrilməsi bütövlükdə cəmiyyətin sosial və siyasi strukturunun, habelə beynəlxalq və dövlətlərarası qarşılıqlı təsirlərin dəyişməsinə səbəb olur( 6,s. 125).

A.V.Mudrikin əsərlərində inandırıcı və hərtərəfli hazırlanmış pedaqoji müstəvidə sosiallaşmanın səciyyələndirilməsi və onun təfsiri barədə ətraflı danışmadan, müəyyənləşdirəcəyik və vurğulayacağıq ki, əslində sosial təhsil mövcud idi. Sosiallaşma anlayışlarının müxtəlif məzmunu sosial təhsilin məzmununun inkişafı üçün təkcə metodik deyil, həm də evristik potensiala malikdir. Bu sosial təhsil nəzəriyyəsi üçün "təməl nəzəriyyəsi" rolunu oynayan ictimailəşmə nəzəriyyəsidir. Nəticə etibarı ilə bu və ya digər şəkildə başa düşülən sosiallaşma sosial təhsil anlayışı, onun məqsədləri, funksiyaları, vasitələri barədə müəyyən bir perspektiv müəyyənləşdirir. Şimali Amerika qitəsində və Almaniyada sosial iş nəzəriyyəsinin inkişafı ilə əlaqədar olaraq, mütəşəkkil yardım prosesi kimi sosial təhsilin nəzəri konsepsiyaları ortaya çıxır. "Yüksək müasirlik" şəraitində tələbələrin ideal və davranışlarının böhranı "risk fenomeni"ni gücləndirir ki, bu da təkcə risk amillərinin artmadığı və güclənməməsi, lakin qavrayışlarının daha kəskinləşməsini təmin edir: risklərin qloballaşması və (hamı üçün qlobal fəlakətlərin baş vermə ehtimalı), riskin institutlaşması (öz fəaliyyətləri kimi risk götürən təşkilatların meydana çıxması). Yan təsirlərin artması riski zamanı subyektiv risk hissi ağırlaşır, bütün bunlar "qeyri-şəffaflığa", ictimai həyatın qeyri-sabitliyinə səbəb olur(7).

Beləliklə, bəşəriyyət tarixinin gözlənilən gələcək

mərhələsini təkcə informasiyalı cəmiyyət deyil, həmçinin postindustrial və ya biliklər iqtisadiyyatı cəmiyyəti adlandırırlar. Bu cəmiyyətdə insan nə qədər savadlı olsa, özünü daha geniş və məqsədyönlü informasiya ilə təmin etsə, onda o, özünün maddi və mənəvi potensialını daha tez və səmərəli şəkildə həyata keçirmək imkanı əldə edəcəkdir.

İnsan problemlərini "inkişaf vəzifələri" prizmasından qiymətləndirərək, pedaqoji yardım uşaqları və yeniyetmələri mövcud riskləri tanıma qabiliyyətlərini inkişaf etdirmək, riskli həyat ehtimalları əhatəsində müşayiət etmək şəklində verilir. Bu vəziyyətdə müəllimlərin vəzifəsi uşaqlara davranışlarını düzgün qəbul etməyi, hissləri ilə əlaqə qurmağı öyrətməkdir, hətta xoşagəlməz olsa da, digər insanlarla təmasda yaranan zehni streslə əlaqəli problemləri tanımağa, yəni onlara psixososial bacarıqların inkişafında kömək etməkdir.

Müəyyən bir problem ya insanın öz müqəddəratını təyin etməsində və özünü həyata keçirməsində daxili çətinliklərlə qarşılaşdığı bir vəziyyət və ya müxtəlif sosial yayınmalarda özünü göstərən şəxs və cəmiyyət arasındakı xarici qarşıdurma vəziyyəti kimi xarakterizə olunur. Müvafiq olaraq, kömək problemin həlli üçün insanın özünü stimullaşdırması (diqqətin cəmiyyətin subyektiv tərəfinə yönəldilməsi) və ya xarici sosial vəziyyətin xarici vasitələrdən (sosiallaşmanın obyektiv aspekti) istifadə edilməsi kimi dəyişdirilməsi olaraq görülür. Bu problem insanın hərəkətləri ilə bir tərəfdən həyat tərzi ilə digər tərəfdən mümkün olan formada mübarizə apardığı yollar arasındakı (ətraf mühitin sosial tələbləri ilə) uyğunsuzluğu azaltmağa yönəlmiş bir vasitədir.

Yuxarıda göstərilən anlayışlar sosial vəziyyətin özündə olan anlayışın seçilməsi ilə əlaqəli fərdi insan inkişafı göstəricilərinin psixoloji və pedaqoji dəstəyinə yönəlmişdir. Başqa sözlə, sosial prosesin bir hissəsi olaraq kömək kontekstində özünü və "digərini" şərh etmək və anlamaq cəhdləri üçün əsas olan insanın "kommunikativ həssaslığı"nı inkişaf etdirməyə qadir olan bütün vasitələr yenilənir.

Bununla yanaşı, sosial mədəni davranışın formalaşmasına, uyğunlaşma strategiyalarının çeşidini genişləndirməyə və s. səbəb olan sosial mexanizmlərin təkmilləşdirilməsinə ehtiyac olan münasibətlər geniş yayılmışdır. Bütün cəmiyyətlər – dolayı və ya birbaşa problemlərin kifayət qədər geniş sinfinin (yetimlik, evsizlik və s.) həlli rifahdan asılıdır. Sosial planlaşdırma, sosial rifah, kommunal siyasət ideyaları sosial ədalətin, sosial sülhün qorunmasına kömək edir. Bu pedaqoji münasibətlərin yaxşılaşdırılması sayəsində sosial təhsildə fərdi yardımın funksiyası şəxs və ya başqaları üçün təhlükə yaradan problemi həll etmək üçün qabiliyyətləri yetərincə inkişaf etmədiyi təqdirdə sosiallaşma vəziyyətində insana dəstək olmaqdır.

Postindustrial cəmiyyətdə infotmasiyanın və biliyin xüsusi əhəmiyyətini hiss etmək təhsilin sosial təhsil prosesinin vacib bir hissəsinə çevrilməsinə, təhsilin sosial funksiyasının güclənməsi, xüsusən də sosial hərəkətlilik amili kimi qəbul edilir.

İnsanın həm cəmiyyətin şərtlərinə uyğunlaşmasını, həm də subyektivliyinin inkişafını təmin edən mədəniyyət ötürmə vasitəsi olmaqla cəmiyyətin sosial sabitləşmə institutu və s. bu funksiyaların həyata keçirilməsi, insanın sosiallaşmasına təkan verən pedaqoji prosesin məzmununa daxil olması ilə əlaqədardır və buna görə də sosial-tərbiyə xarakteri daşıyır.

"Elm yönümlü"pedaqoji konsepsiyalarda təhsil xarici davranış təzahürlərini sosial standartlara uyğun qeyd etmək üçün hazırlanmışdır. Tərbiyəçi "insan kapitalı"nın xarici şəraitə uyğunlaşma prosesini təşviq və cəzalandırmaqla, davranış repertuarının hüdudlarını düzgün istiqamətdə genişləndirməklə tənzimləyən nəzarətçi, "operator" funksiyasını verir.

Tərbiyəni cəmiyyətdə gözlənilən nəticələrə nail olmağa kömək edən insanın uyğunlaşma mexanizmlərinin inkişafına verdiyi töhfə ilə qiymətləndirirlər. Bu insanın daxili dünyasına diqqət, ictimai təsdiq edilmiş fəaliyyət modelinin inkişafı və insanın daxili aləminə daxil olması ilə müəyyən edilir.

Lakin postindustrial cəmiyyətdə təhsilin hədəfləri, ətrafındakı ardıcıl bir dünya qurma prosesində bir insanın sosial kimliyini aydınlaşdırması ehtiyacı ilə çox xüsusi "bilik - bacarıq –vərdişin" formalaşması ilə çox əlaqələndirilir. Bununla əlaqədar, insanın özünün müəyyənləşdirdiyi şərtlərdə özünütəyin etmə və özünüdərk etməsini öyrətmək problemi ön plana çıxır.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, tələbəyə təklif olunan hər şey mümkün əksedici mövqe, tələbənin semantik kontekstini göstərən məzmunu mənimsəmə üsulu nəzərə alınmaqla hazırlanmalıdır. Sosial maarifləndirmə ilə əlaqəli təhsil məzmununun bu aspektinin həyata keçirilməsi pedaqogikada "fenomenoloji istiqamət"in inkişafı, fenomenologiya, ekzistensializm, qarşılıqlı əlaqə, humanist ideyalarını təhsil problemlərinin təhlilinə aktiv şəkildə uyğunlaşdırılma sayəsində mümkün olmuşdur. Bunu etmək üçün, təlim prosesində obyektiv vəziyyətlərin subyektiv təcrübəsini aktuallaşdırmağa imkan verən emosional və şəxsi tərəfə yönəlməlidir.

Bu baxımdan sosial təhsilin məzmunu, insanın cəmiyyətdə yaşaması, təcrübə qazanması üçün zəruri olan sosial səlahiyyətlərin inkişafı ilə əlaqələndirilir.

Müəyyən biliklərə, bacarıqlara, ünsiyyət, düşüncə və fəaliyyət üsullarına, davranış stereotiplərinə, duyğu və hisslərə sahib olan insanın dəyər yönümlərinə və sosial münasibətlərinə imkan verən sosial qarşılıqlı əlaqədə olaraq, "insan - cəmiyyət", "insan - dünya", "insan- insan" sistemdəki münasibətlərin müxtəlifliyi sosiallaşma ilə əlaqələrdə öz əksini tapır.

Post-sənaye tipli cəmiyyətlərin ya maddi təməllərə, elmi və texnoloji tərəqqiyə əsaslanan super sənaye, ya da sosial baxımdan sosial təhsil məqsədlərinin "makroorientasiya"ya əsaslandırılmasına təsir göstərməsi cəmiyyətin problemlərinin adekvat texnologiyanın optimal seçimi ilə əlaqələndirilir. Bu zaman "qeyri-texnokratik" və "ekoloji-texnokrat" təhsil insan tərbiyəsinin yetərli səviyyəsi effektiv və rasional sosial varlığın əsas vasitəsi olur, hər hansı bir münaqişənin həlli, demokratiyanın formalaşması, dözümlülük və s. anlayışlarda öz əksini tapır(6,s.129) .

Əxlaq sosial təhsil vəzifələrinin istiqamətləndirilməsinin "makroorientasiyası" olaraq, həm də postindustrial cəmiyyətdə kifayət qədər möhkəm elmi biliklə möhkəmləndirilən bəşəriyyətin taleyi üçün yüksək məsuliyyət hissi yaratmaq vəzifə-sinin hər bir şəxsdə aktuallaşması ilə ifadə olunur.

Humanist fikirlərin təsiri sosial təhsilin məqsədyönlülüyünün subyektiv səviyyəsinə təsir göstərir. Bundan əlavə, maddi ehtiyaclara (əksiklik, sabitlik, təhlükəsizlik, karyera, istehlak), "post-materialist" adlandırıla bilən dəyərlərə, normalara və mənaya olan ehtiyacın inkişaf etdirilməsi zəruriliyi qəbul edilir. Çalışqanlıq, nizam sevgisi, möhkəmlik, dəqiqlik kimi fəzilətlərin əvvəlki üstünlüklərinin yerində insanlıq, təxəyyül, kobudluq, emosionallıq və zəriflik ehtiyacı əhəmiyyətli dərəcədə artır. Söhbət nəticə etibarı ilə təklifetmə və müstəqillik tədbirlərinin tərbiyəsindən gedir, nəticədə passivliyi və ya əksinə insanın qətiyyətliliyini təyin edirlər. Sosial təhsilin vəzifələrinin formalaşdırılmasına bənzər bir yanaşma təhsilin inkişaf edən missiyasını təmin edən ekzistensial-fenomenoloji fikir kimi təqdim olunur.

Beləliklə, sosial siyasət, sosial iş, sosial reabilitasiya və düzəliş vasitəsi ilə yardım, qayğı funksiyası sosial təhsilin məzmununda birinci yerdədir. Bənzər bir diqqət mərkəzində olan sosial təhsil missiyası cəmiyyətin sabitliyinə təhdid yaradan sosial yanılmaların, anomiyaların böyüməsinə cavab vermək və ya "mədəni estafet yarışları"nın qorunması ehtiyacı ilə əlaqədar olaraq formalaşır.

Sosial tərbiyə fenomeninin şərhləri ilə anlaşma xüsusiyyətləri insanın öz müqəddəratını təyin etməsində subyektivliyini dünyaya tanıtmaq ideyaları ilə əlaqələndirilir. Sosial təhsilin missiyası, insanın sosial, iqtisadi, siyasi tanınmaya məhəl qoymayan ehtiyacı ilə müəyyən edilir.

Nəticə olaraq, post-sənaye cəmiyyətində sosial təhsilin vəzifələri haqqında fikirlər yalnız cəmiyyətin "makro səviyyəsi"nin əldə edilməsini xarakterizə edir, insanın cəmiyyətin (sosial qrupun və s.) üzvü olma qabiliyyətini təmin etməklə yanaşı, həm də cəmiyyətin "mikro səviyyəsi"nin özünəməxsusluğunu ifadə etmə, reallaşdırma, təcridetmə, ekzistensial real sosial-mədəni şəraitdə varlıqlar olmaqla üstəlik, bu cür ikitərəfli vəzifə insan həyatının "çox səviyyəli olmasını" təmin edir.

Ümumiyyətlə, post-sənaye cəmiyyətində sosial tərbiyənin nəzəri istiqamətləri ümumi həyat məkanında insan şəxsiyyətinin formalaşması prosesini əks etdirən fundamental müxtəlif anlayışlar və təsvirlər kimi mümkündür. Bu mövqenin müsbət mənası, müzakirəyə daha çox sayda fərqli nöqtəni cəlb etmək üçün bir tələbin olmasıdır, bunun sayəsində sosial təhsil müxtəlif davranış xətlərinin mövcud olma ehtimalını tanıyır.

**Açar sözlər:** *sosial təhsil, ictimailəşmə, sosial səriştə, post-sənaye cəmiyyəti, sosial pedaqogika.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasının Təhsil haqqında qanunu. Bakı, "Bakı Çap Evi" 2012, 64 s..*

*2.Abbasov Ə. F. Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə. B., 1998,- 56 s.*

*3.Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, "Şərq-Qərb", 2008.-216 s.*

*4. Məmmədəliyev Z. Postindustrial erada mütəxəssis-peşəkar Yeni Dövrün hakimi-mütləq şəxsiyyətinin varisidir. Bakı, 29 avqust 2013 – New-times.az*

*5.Nəzərov M.H, Postindustrial cəmiyyətdə təhsilin sosiomədəni problemləri// Sivilizasiya jurnalı. BAU.Bakı 2015 № 7 s.9-14*

*6.Nəzərov M.H,Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı. "Elm və təhsil"–2017. 215 s.*

*7. Мудрик А. В. Социальная педагогика: учеб. для студ. пед. вузов / под ред. В. А. Сластенина. - М.: Изд. центр «Академия», 2000.*

*8. Никитина Л. Е. Социальная педагогика: учеб. пособие для вузов. - М.: Академический Проект, 2003.*

*9. Тоффлер, Э. Революционное богатство . АСТ Москва, 2008. – 569 с.*

**Роль социального образования в постиндустриальном обществе**
**РЕЗЮМЕ**

В статье исследуются цели образования в постиндустриальном обществе, социальная идентичность личности в процессе построения целостного мира вокруг них. Обсуждаются проблемы, связанные с определением целей и задач социального образования в постиндустриальном обществе. В контексте социального образования социальное обеспечение, социальная работа, улуч-шение и реабилитация в первую очередь связаны с социальным обеспечением. Автор выделяет два уровня общества: на «макроуровне» (который позволяет человеку быть частью общества) и «микроуровне» (самовыражение и умение представить себя). Анализ представлений о социальном образовании, его содержании и возможностях в постиндустриальных обществах исследует междисциплинарные исследовательские параметры в понятиях социального положения, личности и образования, которые, в той или иной степени, склонны к двум основным научным подходам.

**Ключевые слова:** *социальное образование, социализация, социальная компетентность, постиндустриальное общество, социальная педагогика.*

**The role of social education in postIndustry society**
**SUMMARY**

The article explores the goals of education in postIndustry society, the social identity of a person in the process of building a coherent world around them. Problems related to defining the goals and objectives of social education in the postIndustry society are discussed. In the context of social education, social welfare, social work, improvement, and rehabilitation, is primarily concerned with social welfare. The author distinguishes two levels of society:"macro-level" (allowing a person to be part of society) and "micro-level" (don't express yourself and the opportunity to express oneself). An analysis of perceptions about social education, its content and capabilities in the post-modern society, examines multidisciplinary research parameters in the notion of social, personality and education that, to a degree or another, tend to two mainstream scientific approaches.

**Keywords:** *social education, socialization, social competence, post-industrial society, social pedagogy.*

UOT 94(479.24)

# Tarix

## AZƏRBAYCAN RESPUBLİKASINDA YOXSULLUQ VƏ İŞSİZLİYİN LƏĞVİ İSTİQAMƏTİNDƏ QEYRİ-NEFT SEKTORUNUN ROLU (2004-2014-cü illər)

**GÜNEL ADIGÖZƏLOVA**
*SDU-nun baş müəllimi, doktorant*

*E-mail: adigozelli.87@mail.ru*

**Giriş:** Yoxsulluq və işsizlik problemi qlobal dünyanın ən vacib məsələlərindən hesab olunur. İllər boyu bu problemin inkişafı yolunda müəyyən addımlar atılmış, konsepsiyalar işlənib hazırlanmış, beynəlxalq səviyyədə proqramlar qurulmuşdur. Bununla belə, bu problem hələ də qalmaqda davam edir. Ölkəmizdə də bu problemlərin gələcəkdə daha da böyük miqyasda genişlənməməsi üçün müəyyən tədbirlər görülmüş və hələ də görülməkdədir. Müasir dövrdə Azərbaycan Respublikasında aparılan sosial-iqtisadi tədbirlər davamlı xarakter almağa başlamışdır. Ən diqqətəlayiq məqamlardan biri də odur ki, dövlət daima bu məsələlərə diqqət yetirir, yeni mexanizmlərin işlənib hazırlanmasına şərait yaradır, qanunvericilik bazasını formalaşdırır.

Yoxsulluğun azaldılması, işsizliyin ləğv olunması kimi problemlərin həllində bizim üçün ən önəmli məqamlar neftdən gələn gəlirlərin düzgün istifadə olunması, sosial yönümlü xərclərə yer ayrılması, təhsilin səviyyəsinin qaldırılması, düzgün kadr islahatının keçirilməsi ölkəyə xarici investisiyaların cəlb olunması, investisiya fəaliyyətinin tənzimlənməsi, qoyulmuş investisiyaların qorunmasına təminat verilməsi, investisiya mühitinin formalaşdırılması üçün kompleks tədbirlər, sistem-mexanizmlər işlənib hazırlanması sahibkarlığın və biznes mühitinin inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır.

Yoxsulluq və işsizlik probleminin həllində ən vacib amillərdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu sahədə dövlətin tənzimləyici funksiyasının gücləndirilməsidir. Qeyri-neft sektoru sahəsində həyata keçirilən qanunvericilik tədbirlərindən biri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 08 fevral tarixli sərəncamı ilə təsdiq olunmuş "2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planı"na əsasən, xarici ticarət fəaliyyəti sahəsində dövlət tənzimlənməsi mexanizminin yaradılması, gömrük sahəsində müəyyən islahatların aparılması, müvafiq normativ-hüquqi aktların hazırlanması, yaxud əlavə və dəyişikliklərin hazırlanması,"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun" təkmilləşdirilməsində beynəlxalq təcrübədən faydalanması, məhsul və xidmət ixracının sığortalanması mexanizminin yaradılması, müəyyən ixrac potensiallı ölkələrdə Azərbaycan ticarət evlərinin yaradılması kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur[9, 34]. Nəticədə, ölkəyə sərmayələr yatırılmış, investorların hüquqları qorunmuş, investisiyaların cəlb edilməsi sahəsində milli subyektlərlə bağlanmış kontraktların şərtlərinin icra olunmasına dövlət nəzarəti gücləndirilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra öz iqtisadiyyatını yeni prinsiplər əsasında qurmağa və dünya ölkələri ilə açıq bazar münasibətlərinə girməyə çalışmışdır. Bunun üçün iqtisadiyyatın liberallaşdırılmasından başlamaq lazım idi. Təbii ki, ilkin dövrlərdə güclü, siyasi və hərbi problemləri olan bir ölkə üçün bu çox ciddi addım idi. Liberallaşma siyasətinin həyata keçirilməsi isə, maliyyə vəsaitlərinin qıtlığı, hökümətin xarici mənbələrə müraciət etdiyi bir vaxta düşdü və bu zaman respublikada işsizlik və yoxsulluq ən yüksək səviyyədə idi.

Azərbaycanın beynəlxalq münasibətlərə

tam və bərabərhüquqlu üzv kimi daxil olması "Əsrin müqaviləsi" ilə mümkün olmuşdur. Azərbaycan kimi bir ölkənin iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsini şərtləndirən amillər və səbəblər əsasən uzun müddət mövcud olmuş durğunluq, böhran vəziyyəti, maliyyə qıtlığına əsaslanırdı. Bununla belə, ölkə iqtisadiyyatı böhran vəziyyətindən çıxdıqdan sonra belə, ölkədə geniş maliyyə sistemi və institutları yaransa da, yenə də xarici investisiyalara ehtiyac var idı. Nəzərə almaq lazımdır ki, banklardan alınan vəsait bahalı hesab olunurdu və sahibkarlar bank kreditlərindən daha çox xarici investorlara üstünlük verirdilər. Eləcə də dünya kapital bazarında investisiyalara olan tələb təklifdən üstün olduğundan xarici investisiya sferasında öz fəaliyyətlərini artırmağa məcbur olurdular. Beləliklə, müasir dünyanın geoiqtisadi sistemini xarakterizə edən meyllərdən biri də qloballaşmanın vüsət almasıdır. Azərbaycan Respublikasının dövlət büdcəsinin 2012-2013-cü illər hesabatında göstəricilərinə baxsaq, qarşıda duran illərdə də qeyri neft sektorundan daxilolmalarının sayının artacağını təxmin etmək olar. [1, 12]

| | 2012 | 2012 | 2013 | 2013 |
|---|---|---|---|---|
| | mln.manat | ÜDM-də xüsusi çəkisi | mln.manat | ÜDM-də xüsusi çəkisi |
| Gəlirlər | 17038,0 | 33,2 | 19154,0 | 34,2 |
| Xərclər | 17672,0 | 34,4 | 19810,0 | 35,2 |
| Büdcə kəsiri | -634,0 | 1,2 | -656,0 | 1,1 |

Ölkədə xarici investisiyaların həcmi investisiyanı qəbul edən ölkənin iqtisadiyyatı ilə tərs mütənasib olmamalıdır. Beynəlxalq investisiya rəqabətində investorlara daha çox liberal investisiya təklif edən qalib olur. Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına marağının artmasının əsas səbəbi bu sahədə olan maneələrin aradan qaldırılmasıdır. Maneələr dedikdə, mənfəətin başqa valyutalara maneəsiz çevrilməsi, əldə edilmiş gəlir və mənfəətin digər valyutalarla ölçülməsi kimi məsələlər nəzərdə tutulurdu.

Formalaşmış investisiya mühitinin bir tərəfi hüquqi bazadırsa, digər bir əsas tərəfi də iqtisadi tendensiyalardır. Xarici investisiyaların ölkəyə cəlb edilməsində əsas meyarlardan biri də onların qazanclarının reinvestisiya olunması və bunu təmin edən vergi sisteminin formalaşdırılmasıdır. Xarici investorlar ölkəyə investisiya yatıranda ölkədəki vergi sisteminə və onun dərəcələrinin səviyyəsinə diqqət yetirirlər. Misal üçün qeyd edək ki, Avropa ölkələri cəlb olunan xarici investorların həcminə görə dünyada birinci yerdədir, amma, bununla belə, onların vergi dərəcələrinin səviyyəsi nisbətən yüksəkdir. Məsələn, Avstriya, Yunanıstan, Almaniya, İrlandiyada tutulan gəlir vergisinin dərəcəsi 34-36% təşkil edir. Ancaq onların iqtisadiyyatları, vergi sistemləri investisiya qoyuluşları üçün çox əlverişlidir. Bu da əsasən vergi sisteminin şəffaflığı, çoxqat vergitutmalarının olmaması ilə bağlıdır. 2001-ci il yanvarın 1-dən, yeni variantda hazırlanmış "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" nin qüvvəyə minməsi vergi sistemində şəffaflığı daha da artırmış oldu [8,12].

Sahibkarlara daha sadə vergi xidməti göstərmək məqsədilə, sadələşdirilmiş vergi sistemi - "vahid pəncərə" yaradılmışdır. Beləliklə, həm vergi ödəyicilərinin qeydiyyatı, həm də vergi ödəmə mexanizmi xeyli sadələşdirilmişdir. Vergi ödəmələrdə vergi ödəyicilərinin müvafiq orqanlar tətəfindən yoxlanılması hallarının sayı azaldılmış, sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısı alınmışdır. Təbii ki, bu da xarici investorların kiçik və orta sahibkarlıq obyektlərinə investisiya yatırmaq imkanlarını artırmış oldu.

Bu baxımdan dövlətin investisiya siyasətinin formalaşmasını əlverişli investisiya mühitinin yaradılması, dövlət investisiya proqramlarının hazırlanması, reallaşdırılması, milli investisiya qanunvericiliyinin hazırlanması, investisiya bazar infrastrukturunun inkişaf etdirilməsi istiqamətləri üzrə şərh etmək olar.

Ölkə iqtisadiyyatına xarici investisiyanın qoyuluşu xalq istehlakı mallarının və xidmətlərinin genişlənməsinə, yeni texnologiyalara, idarəetmənin qabaqcıl üsullarına sahib olmasına, real bazar iqtisadiyyatına uyğun infrastruktur yaradılmasına səbəb olur. Xarici investisiyanı əcnəbi ölkələrdən alınan borclardan və kreditlərdən fərqləndirən digər mühüm cəhət bundan ibarətdir ki, xarici investisiya xarici borca ağırlıq gətirmir. Respublikanın

zəngin xammal resurslarına malik olması, yüksək ixtisaslı kadr potensialının, ucuz işçi qüvvəsinin mövcudluğu, xarici investisiyanın qorunmasına dövlət tərəfindən təminat verilməsi, bu sahədə hüquqi-normativ bazanın və qanunvericilik aktlarının mövcudluğu və onların daim yenilənməsi əcnəbi investorları Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa vadar edən səbəblər sırasına aiddir.

İqtisadi sistemlər açıq sistemlər olduğu üçün onların nəticələri fəaliyyət göstərdiyi mühitdən asılı olaraq, kiçik və orta sahibkarlığın inkişaf diaqnostikası üçün mühüm əhəmiyyət kəsb edir. Xarici mühitlə sahibkarlığı uyğunlaşdıran bir sıra amillər vardır. Bura sosial-iqtisadi, siyasi-hüquqi, sosial-mədəni, texnoloji, coğrafi mühit, infrastruktur, istehsal amilləri, həmkarlar ittifaqları, rəqabət və.s aiddir. Daxili mühitin sahibkarlıqla əlaqəli amilləri dedikdə isə, sahibkarın məqsədi, məqsədə nail olmaq üçün seçiləcək texnologiya, seçilmiş texnologiyaya uyğun təşkilati struktur, struktur bölmələrinin vəzifə və məqsədləri, vəzifələrin icraçıları nəzərdə tutulur. Beynəlxalq təcrübədə də, Azərbaycan Respublikasının Mülki və Vergi Məcəllələrində də sahibkarlıq fəaliyyəti şəxsin həyata keçirdiyi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürən fəaliyyət kimi başa düşülür. Bu səbəblərdən dolayı, kiçik və orta biznesin səmərəli fəaliyyətinin təmin edildiyi şəraitdə məhsul və xidmətlərin yarıdan çoxu, elmi texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin 80%-i, hər yeni açılan 3 iş yerindən 2-si həmin sahənin payına düşür[6,54].

Kiçik və orta biznes subyektləri əhalinin tələbatına qarşı daha tələbkar olduğuna görə, bazar iqtisadiyyatına daha çevik və dinmaik reaksiya verir, istehsal və istehlak sferalarındakı boşluqları daha mükəmməl şəkildə doldura bilir. Bütün bunlar onu göstərir ki, səmərəli və güclü fəaliyyətə sahib olan sahibkarlıq institunun formalaşması və inkişafı dövlət tərəfindən müəyyən edilən siyasi, hüquqi və iqtisadi cəhətdən əlverişli mühitdən, dövlətin biznes və cəmiyyətlə səmərəli əməkdaşlığından asılıdır. Azərbaycan hökümətinin bu sahədə atdığı ən vacib amillərdən biri, 1999-cu ildə “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Rsepublikasının qanununun qəbulu olmuşdur. Bu qanuna əsasən, kiçik sahibkarlıq subyektlərinə dövlət dəstəyinin ilkin şərtləri müəyyənləşdirilmişdir. Təbii ki, ölkədə gedən iqtisadi inkişaf bu qanuna yenidən baxmağı tələb etmişdir[7,83].

Bununla əlaqədar olaraq, 2009-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi fəaliyyət növləri üzrə, kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarını yenidən müəyyənləşdirmişdir. Burada real dövlət dəstəyi ön plana çıxmışdır. “İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 20 aprel tarixli 57 nömrəli qərarında dəyişilik edilməsi barədə 18 dekabr 2009-cu il tarixli qərarı ilə sənaye və ticarət, tikinti, kənd təsərüffatı, topdansatış ticarət, pərakəndə satış, nəqliyyat, xidmət sahələrində bir sıra meyarlar yenidən işlənib hazırlanmışdır. Dövlət xərclərinin idarə olunmasında əsas amil Dövlət Xəzinədarlığının yaradılması, hökumətin bütün əməliyyatlarının bir xəzinədar hesabında cəmləşdirilməsi və büdcə təşkilatlarının bank hesablarının bağlanması olmuşdur. Bu tədbirlər xərclər üzərində nəzarəti yaxşılaşdırmaqla yanaşı vəsaitin səmərəsiz idarə olunması riskinin azalmasına imkan vermişdir .

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2002-ci ildə yaradılmış Sahibkarlığa Kömək Milli Fondu 2004-2014-cü illərdə sahibkarlara 1 milyard 211 milyon manat məbləğində vəsait ayırmışdır. Təkcə bu faktı demək kifayətdir ki, 2013-cü ildə sahibkarların təqdim etdikləri 4468 layihəyə 275 milyon manat kredit verilmişdir ki, bu da nəticədə 12 min 45 yeni iş yerinin açılmasına səbəb olmuşdur. “Ölkənin ərzaq təhlükəsizliyi, o cümlədən vətəndaşların lazımi səviyyədə qidalanmasının təmin edilməsi təkcə daxili strateji vəzifə deyil, həm də beynəlxalq hüquqi tələbdir[4,43]

2004-2014-cü illərdə kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsində ardıcıl

12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 120 min manat və ondan az olan sahibkarlara sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ verilir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korparasiyası tərəfindən hazırlanmış "Doing Business" adlı hesabatında Azərbaycan 189 ölkə arasında 70-ci yerdə qərarlaşmışdır. Azərbaycanda sahibkarlığın inkişafı, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. Ümumdünya İqtisadi Forumun 2013-2014-cü illər iqtisadiyyatın rəqabətədavamlılıq reytinqində ölkəmiz 148 ölkə arasında 39-cu yeri tutmuşdur[5,21].

Azərbaycanda qeyri-neft sektorunun inkişafı kontekstində iqtisadiyyatın şaxələndirilməsi əsas prioritet istiqamətlərdən biri olmuşdur. Bu zaman əsas vəzifə iqtisdiyyatın aparıcı sektorlarının müəyyən edilməsindən ibarətdir. Bu baxımdan, Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərə biləcəyi əsas sahələr kənd təsərüffatı, tikinti və turizm sektorları hesab olunur.Müasir mərhələdə Azərbaycan iqtisadiyyatının qarşısında duran ən başlıca vəzifə də qeyri-neft sektorunun mükəmməl sürətdə inkişaf etdirilməsidir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2006-cı il tarixli "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" sərəncamı qarşıda duran məsələlərin həllinə böyük təkan vermiş oldu [2,56].

Qeyri-neft sektorunda sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi istiqamətində atılan ən böyük addımlardan biri də "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin yaradılması olmuşdur. Bu, ölkənin investisiya sektorunda keyfiyyətcə yeni mərhələnin balanğıcını qoymaqla, həm də yeni islahatların başlanğıcını qoymuşdur.

Respublikada əlverişli investisiya mühitinin yaranması nəticəsində xarici və birgə müəssisələrin fəaliyyəti artmışdır. Bu da ölkədə yaranan siyasi sabitlik nəticəsində mümkün olmuşdur. Ulu öndərin dediyi kimi, "Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır" [6,32].

Azərbaycanın müasir beynəlxalq vəziyyəti xarici siyasət sahəsində onun hər hansı bir qütbə və yaxud istiqamətə açıq üstünlük verilməsini mümkünsüz edir, balanslaşdırılmış və tarazlı siyasi kurs seçilməsini şərtləndirir, çünki XX əsrin sonunda beynəlxalq aləmdə aparıcı güclərin geosiyasi və geostrateji maraqlarının kəskin rəqabəti və toqquşması fonunda dünyadakı iqtisadi və hərbi-siyasi durum yenicə suverenlik əldə etmiş, nisbətən zəif olan ölkələrin yürütdüyü müstəqil xarici siyasət yolunda çoxsaylı problemlər ortaya çıxarır. Dünyada öz ənənəvi təsir dairələri olan fövqəldövlətlər və müxtəlif dövlət qrupları yeni müstəqillik əldə etmiş ölkələrin inkişaf modelli seçməsi, beynəlxalq aləmdə siyasi istiqamətinin müəyyənləşdirlməsi məsələsində yüksək həssaslıq nümayiş etdirirlər.

Bu gün dünyanın sosial-iqtisadi durumuna nəzər yetirsək, görərik ki, ləğvi yolları axtarılan və bu istiqamətdə daima işlər görülən yoxsulluq, işsizlik kimi məsələlər nəinki, kasıb, inkişaf etməkdə olan , hətta yüksək inkişaf etmiş ölkələrdə də öz aktuallığını itirməyib. Bizim üçün müsbət məqam ondan ibarətdir ki, onların illərlə apardığı işi inkişafın yeni mərhələsində olan Azərbaycan kimi gənc dövlət qısa müddət ərzində ləğv etməyə çalışır. Düzdür, bu sahədə hələ müəyyən mənada görülməli işlər olsa da, ancaq cənab prezidentin rəhbərliyi, birbaşa nəzarəti altında həyata keçirilən siyasət öz müsbət nəticələrini verməkdədir. Bu da dövlətimizin zor gücünə deyil, humanizm, iqtidar-vətəndaş həmrəyliyi prinsiplərinə söykənən idarəetmə ənənəsinə malik olduğunu göstərir. Azərbaycan öz müstəqil siyasəti və inkişaf etmiş iqtisadiyyatı ilə nəinki Qafqaz regionunda, hətta dünya dövlətləri arasında da tanınır. Azərbaycan bugün güclü dövlətdir, güclü orduya malikdir və vətəndaşları yüksək səviyyədə yaşayırlar. Bu isə Azərbaycanda işsizlik və yoxsulluğun minimum həddə olduğunu göstərir. Yaxın gələcəkdə bu aradan qaldırılacaq. Çünki bunun üçün Azərbaycanda hər şərait var.

**Açar sözlər:** *yoxsulluq, investisiya, biznes, sahibkarlıq, təminat, dövlət siyasəti*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikası Əmək və Əhalinin*

*Sosial Müdafiəsi Nazirliyi. Əmək və sosial problemlər. Toplu Hesabat № 1 (14) 2014. Bakı: Arxidey MMC, 2014, 164 s.*

*2. Əliyev İlham. İnkişaf məqsədimizdir. Beşinci kitab.Bakı:Azərnəşr, 2010. 392 s.*

*3. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu (7 fevral 2006-cı il, N-55-IIIQ), Qanunvericilik toplusu, maddə 76, Azərbaycan, 241-247 s.*

*4. Süleymanov E., Zeynalov A. Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsiri // Journal of Qafqaz University, 2009, № 28, s. 110-120*

*5. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, 2009, 415 s.*

*6. Naxçıvanlı A, Şəxsiyyətin qüdrəti. Bakı: Yazıçı, 2012, 304 s.*

*7. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı: Avropa, 2013, 418 s.*

*8. Mehdiyev Ə.R. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2005, 464 s.*

*9. Mehdiyev Ə.R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.*

## SUMMARY

**G. R. Adigozalova-teacher**
**Sumgait State University**

**Investment Policy and Entrepreneurship of the Republic of Azerbaijan (2004-2014)**

Due to the creation of profitable investment environment sphere in our republic the activity of the foreign and cooperative enterprises has increased. It has been possible in the result of the political peace in the country. As our respectable leader said the government independence of Azerbaijan will be eternal stable and durable. Azerbaijan cooperates with regional and international societies new modern projects are being prepared staff system is being formed in order to reach the dynamic state of the social-economic situation.

**Keywords:** *investment, investment, business, entrepreneurship, security, state policy*

## РЕЗЮМЕ

**Г. Р. Адигозалова-преподаватель**
**Сумгаитский государственный университет**

**Инвестиционная политика и предпринимательство Азербайджанской Республики (2004-2014)**

Благодаря созданию в нашей республике сферы доходной инвестиционной среды возросла активность иностранных и кооперативных предприятий. Это стало возможным в результате политического мира в стране. Как сказал наш уважаемый лидер, государственная независимость Азербайджана будет вечно стабильной и долговечной. Азербайджан сотрудничает с региональными и международными обществами, готовятся новые современные проекты, формируется кадровая система для достижения динамичного состояния социально-экономической ситуации.

**Ключевые слова:** *инвестиции, инвестиции, бизнес, предпринимательство, безопасность, государственная политика.*

UOT 94 (479. 24)

# ƏRƏB XİLAFƏTİ - XƏZƏR XAQANLIĞI MÜNASİBƏTLƏRİ (VIII ƏSRİN İKİNCİ YARISI – X ƏSRİN SONLARI)

**MƏHƏRRƏM ƏHMƏDOV**
*Azərbaycan Milli Elmlər Akademiyasının dissertantı*

*E-mail: maqerram@lenta.ru*

Ərəb-Xəzər münasibətləri dünya tarixinin mühüm mərhələlərindən biridir. 300 illik münasibətlər tarixi özünün hərbi-siyasi, iqtisadi-ticari, dini-ideoloji xüsusiyyətlərilə xarakterizə oluna bilər. Ərəb-Xəzər münasibətlər mərhələsi Azərbaycan üçündə böyük əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan ərazisi, xüsusən Albaniya dövləti bü münasibətlər silsiləsinin əsas mərkəzi olmuşdur. Qeyd olunan münasibətlər mərhələsi müsbət-mənfi yönlərilə xalqımızın həyatında mühüm izlər qoymuşdur.

Biz, nisbi olaraq Ərəb-Xəzər münasibətlərini üç mərhələyə bölə bilərik. Bu mərhələlər Raşidilər xilafəti (632-661), Əməvi xilafəti (661-750), Abbasi xilafətidir (750-1258). İlk iki mərhələ özünün hərbi- siyasi xüsusiyyətlərilə xarakterizə olunur. Abbasi xilafəti zamanında tərəflər arsında müharibələr minumuma enmiş, onu iqtisadi-ticari və dini-ideolji münasibətlər əvəzləməyə başlamışdır.

Bəzi tədqiqatçıların rəyinə görə, Xəzər xaqanlığı 651-ci ildə, Qərbi Türk xaqanlığının süqutundan sonra yaranmışdır. Xəzər xaqanlığını onun hüquqi varisi hesab etmək olar [8, 189] . Müstəqil Xəzər xaqanlığını yaradan Aşina sülaləsi Türk xaqanlığını yaradan sülalədir. Qərbi Türk xaqanlığı süqut etdikdən sonra, həmin sülalə Xəzər xaqanlığınə yaratdı [10, s. 22]. Düzdür ki, Qırbi Türk xaqanlığından sonra Bulqar xanlığıda yaranmışdı. Lakin onu yaradan Kubarat xanın ölümündən sonra, xanlıq onun oğulları arasında bölündü. Sonralar Xəzər xaqanlığının hücumları nəticəsində istiqlaliyyətlərini itirdilər. Oların bir hissəsi Asparuxa xanın başçılığı altında azadlıqlarını qorunaq üçün Dunay çayı sahillərində mövcud Bolqarıstanı qurdular [9, s. 48-49]. Verilən məlumatlardan çıxış edərsək, Xəzər xaqanlığının Qərbi Türk xaqanlığının hüquqi varisi olduğunu görə bilərik.

İlk Ərəb hücumları Xəzər dövlətinin təşəkkülünün əvvələrinə təsadüf edir. Əməvi xilafəti və Abbasi xilafətinin ilk 60 ilini Xəzər xaqanlığının qüdrət baxımından çiçəklənmə tarixi kimi, xarakterizə edə bilərik. Abbasi xəlifəsi Harun ər-Rəşiddən (786-809) sonra xilafətdə tənəzzül başladığı kimi, həmin illərdə Xəzər xaqanlığında baş verən dini ideoloji dəyişklik dövlətin idari sitemiminin dəyişməsinə səbəb oldu. Bu isə dövlətin tədricən zəifləməsinə və məhvinə zəmin yaratdı.

Abbasi xilafəti- Xəzər xaqanlığı münasibətlərinə keçmədən, ilk iki mərhələ haqqında qıssa məlumat vermək, mövzu baxımından maraq doğurur. Bilindiyi kimi, ilk Ərəb-Xəzər münasibətləri ikinci Raşidi xəlifəsi Ömər b. Xəttab (634-644) hakimiyyətinin sonlarında olmuşdu. O zaman, xəzərlər de-yure olsada, Qərbi Türk xaqanlığına tabe idi. Ərəblər, Azərbaycanın ən şimal bölgəsi Dərbəndi işğal etdikdən sonra, xəzərlərlə həmsərhəd oldular. Xəlifə Osman b. Əffvan (644-656) zamanında onlar arasında hərbi təmaslar başladı. Dərbəndi ələ keçirən Ərəb orduları Xəzər dövlətinin dərinliklərinə nüfuz etmək istədilər. Xəzər xaqanığı haqqında kifayət qədər məlumatlı olan Dərbənd hakimi Şəhribaraz onları bu niyyətdən çəkindirməyə çalışsada, onu dinləmədilər. Azərbaycanın işğalında yaxından iştirak etmiş komandanlarından Abdurrəhman əl Bəhili Bələncər üzərinə hücum etdi. Onların hücumu məğlubiyyətlə nəticələndi. Abdurrəhman bu döyüşdə öldürüldü

[13, s. 159]. O, xəzərlərlə döyüşdə öldürülən ilk komandan idi. Osman b. Əffanın hakimiyyətinin sonlarında xilafət daxilində baş verən üsyan onun qətlilə nəticələndi. Xəlifə Əli b. Əbu Talibin (656-661) xəlifəliyi dövrü vətəndaş müharibəsilə tarixdə qalmışdır. Xilafət daxilindəki bu qarışıqlıq fəth hərəkatının qarşısını aldı.

İlk Əməvi xəlifəsi Müaviyyə b. Əbu Sufyan (661-680) zamanından başlayaraq, xəzərlərin Albaniya ərazisinə hücumu ilə münasibətlər gərginləşdi. Abdulməlik b. Mərvan (685-705), Velid b. Abdülməlik (705-715), Sleyman b. Abdülmelik (715-717), Ömər b. Abdüləziz (717-720), Hişam b. Abdülməlk (724-743) zamanlarında Ərəb- Xəzər müharibələri davamlı şəkildə baş vermişdir. O döyüşlərdə, məşhur ərəb sərkədələri və valiləri Məhəmməd b. Mərvan, Məsləmə b. Abdülməlik, əl-Cərrah əl- Hakem, Mərvan b. Məhəmməd iştirak etmişdir. Əl-Cərrah bu döyüşlərdə qətl edilən ilk vali idi [1, s. 108]. Ərəb – Xəzər müharibələri müntəzəm baş versədə, onlar arasındakı sərhəd eyni olaraq qalırdı. Tərəflər arasındakı qalibiyyət tez-tez dəyişirdi. Bu müharibələr arasında ən yadda qalan və əhəmiyyətlisi, Azərbaycan və Ərməniyyə valisi Mərvan b. Məhəmmədin başçılığı altındakı 737- ci il hərbi yürüşü idi. O, xəzərlər üzərində tam qələbənin böyük əhəmiyyətini xəlifə Hişama inandırmış və ondan 120 minlik ordu alaraq, iki istiqamətdən, Dərbənd və Dəryal keçidindən keçməklə, Xəzər xaqanlığının paytaxtı Beyda şəhərinin yaxınlığına qədər Xaqanın ordusunu təqib edib, tam qələbə əldə etmişdir. Xəzər xaqanı 40 minlik ordusunu itirərək, məcburiyyət qarşısında Mərvan b. Məhəmmədən aman istəmişdir. Mərvan b. Məhəmməd onu müsəlman olmaq şərtilə qəbul etmişdir [4, s. 52]. O, Xəzər xaqanlığında İslam dinini yaymaq üçün xaqana iki din alimi vermişdir. Bu din faqihi Nuh b. əs-Saib əl-Əsədi və Əbdürrəhman b. əl-Fulan əl-Həylani idi [3, s. 49]. Lakin Əməvi xilafətində başlayan ixtilaf və üsyanlar Mərvana bu qələbəni sonuclandırmağa imkan vermədi. Bu hadisə, Xəzər xaqanlığını məhv olmaqdan xilas etdi. Bu qələbə, Xəzər xaqanlığını hərbi müttəfiqi Bizans imperiyasında aralı saldı. Ərəb-Xəzər cəbhəsində nisbi sakitlik yarandı.

Bununla belə, xəzərlərin ərblərə qarşı apardığı bu müharibələr, Şərqi Avropanı ərəb fəthlərindən sığortaladı. Ərəblər, xəzər maneəsini keçə bilsə idi, onların qarşısını alacaq digər güvvə yox idi. Bu, baş versə idi, Şərqi Avropanın tarixi inkişaf daha fərqli ola bilərdi [10, s. 42].

Əməvi sülaləsi və müttəfiqləri arasındakı ixtilaflar, abbasi, şiə, xəvaric üsyanları 750-ci ildə sonuncu xəlifə Mərvan b.Abdullahın qətli və Əməvi xanədanın məhv olmasılə sonuclandı [ 7, s. 222].

Ərəb-Xəzər münasibətləri mərhələsində Abbasi xilafətinin özünə məxsus xüsusiyyətləri və onu doğuran səbəblər vardır. Onuda qeyd etməliyik ki, Azərbaycan əhalisi gizli şəkildə Əməvilərə qarşı Abbasilərə dəstək verirdi. Sonralar Şam valisi olan Abdullah b. Əli Abbasi üsyanlarına ən cox kömək edəcək və güvəniləcək bölgənin Azərbaycan bölgəsini olduğunu bildirir. Əbu Abbas (750-754) başçılığında xilafəti ələ keçirən Abbasi sülaləsi əməvilərdən haşimilərin qisasını almağa başladı. Abbasilərdə əməvilərə qarşı o qədər kin varidi ki, ərəb tarixçisi ibn əl-Əsirin yazdığına görə, Əbu Abbasın əmisi, Şam valisi Abdullah b. Əli Şamdakı ümeyyə oğullarının qəbirlərini açdırıb, bəzilərini qamçılatdırdı, bəzilərinin isə sümüklərini yandırtdırdı.

Onlara qarşı əməvi üsyanları baş verdi. Həbib b. Mürrə Harran tərəflərdə, Əbu əl- Vərdə Kinnisərdə üsyan qaldırdı. Lakin üsyanlar Əbu Abbasın qardaşı Əbu Cəfər Mənsur və əmisi Abdullah b. Əli tərəfindən amansızlıqla yatırıldı [7, s. 233-235]. Əbu Abbas Şam valiliyinə Abdullah b. Əlini və Azərbaycan valiliyinə Əbu Cəfər Mənsuru təyin etdi. Buradan Şam vilayətinin və Azərbaycanın Abbasi xəlifəsi üçün necə əhəmiyyətli olduğunu təhmin etmək olar. Beləki, Şam vilayəti öncələrdən Haşimi oğulları üçün təhlükə mənbəyi idi. Ümeyyə oğulları orada dərin kök salmış və nüfuz qazanmışdılar. Digər tərəfdən, Şam vilayəti Ərəb xilafətinin ən güclü rəqibi Bizans imperiyasilə həmsərhəd idi. Azərbaycana gəlincə, o, Ümeyyə oğullarından Osman b. Affvanın dövründə istila olunmuş, Abdülməlik b. Mərvanın dövründə öz istiqlaliyyətini itirmişdir. 100 ilə yaxın Azərbaycan Əməvi valiləri tərəfindən idarə olunduğuna görə, onların Albaniya ərazisində güclü dayaqları formalaşmışdır. “Arranda məskunlaşmış şimal tayfaları yeni hakimiyyətə

gəlmiş sülalə nümayəndələrini düşmən kimi qarşılayırdılar. Köçürülənlərin əksəriyyət əməvi təraftarları idi" [1, s. 112]. Digər tərəfdən Cənubi Qafqaz Bizansın diqqətindən kənar deyildi. Bizans və Cənubi Qafqaz bölgəsini dini əlaqələr bir-birinə bağlayırdı. Bizansın hərbi müttəfiqi Xəzər Xaqanlığıda Cənubu Qafqaza olan marağını gizlətmirdi. Əbu Abbas bir siyasətçi və dövlət adamı kimi bunları gözardı edə bilməzdi. Bunu nəzərə alıb hər iki təhlükəli bölgəyə öz doğmalarını təyin etmişdi. Hər iki vali, Əbu Abbasdan sonra xəlifəliyə potensial namizəd idilər. Təsadüfü deyildir ki, xəlifənin ölümündən sonra onların arasında xilafət uğrunda döyüş baş verdi və ikinci, xilafətə yiyələndi. Əbu Abbas qorxurdu ki, Əli b. Əbu Talib zamanında Müaviyə Bizansla separat danəşəqlara getdiyi kimi, yenə o təcrübədən bəhrələnərlər. Abbasi zülümündən canlarını qurtarmaq istəyən əməvilərin bir qismi Xəzər xaqanlığına sığınmaq istəyirdi. Bizans və Xəzər gücləri abbasilərə qarşı əməvilərlə birləşsələrdi, bu Abbasi xilafətinin sonunu gətirərdi.

Əbu Cəfər Mənsur 754- cü ildə hakimiyyətə gəldikdən sonra, ona üsyan edən əmisi, Şam valisi Abdullah b. Əliyə döyüşdə qalib gəlib onu zərərsizləşdirdi. Abbasi xilafətinə təhlükə hesab etdiyi Xorasan valisi Əbu Müslümü qətl elətdirdi [7, s. 237]. Daxili müxalifəti zərərsizləşdirdikdən sonra, Xəzər xaqanlığı ilə siya münasibətlərin yaxşılaşdırmaq zərurəti hiss etdi. O, Azərbaycan və Ərməniyyə bölgəsinə Yəzid b. Usaid əs-Suləmiyi təyin etdi. Vali Bab əl-Alan keçidini ələ keçirərək, orada özünə sadiq xüsusi qoşun dəstəsi yerləşdirdi. Bununla ehtimal olunan xəzər hücumlarının qarşısını almağı hədəfləyirdi. Xilafətin şimal sərhədindən narahat olan Əbu Cəfər Mənsur Azərbaycan və Ərməniyyə valisi Yəzid b.Usaid əs- Süləmiyə Xəzər xaqanının qızıilə nigaha girmək üçün təlimat verdi. "Xəzərlərlə qohum olmasan, Arran ölkəsində heç vaxt əmin-amanlıq olmayacaq. Mən bele hesab edirəm ki, sən onunla qohum olmalısan. Əks təqdirdə mən sənin və vergi yığanlarının həyatından qorxuram. Xəzərlər onları rahat buraxmayacaq" [3, s. 58]. Məqsəd şimal sərhədinin təhlükəsizliyini təmin etmək idi. Təqribən 759-cu ildə Azərbaycan valisi və Xəzər xaqanın qızı ailə qurmuşdur. Əl-Kufi yazır ki, "Ona dörd min əla madyan, min qatır, min qul, on min xəzər cinsindən olan alçaq dəvə, min baş ikihügüclü dəvə, iyirmi min baş qoyun, üstü qızıl və gümüşdən hazırlanmış lövhələr, icərisinə samur xəzi döşənmiş ipək paraça cəkilmiş on furqon, qızıl-gümüş əşyalar və qab-qacaqlar olan iyirmi araba göndərdi" [ 3, s. 58-59]. Bu məlumatlardan aydın olur ki, Xaqanda bu izdivacda maraqlı olmuşdu. Xaqanın qızı İslam dinini qəbul etmiş və Quranı oxumağı öyrənmişdi.

Bu nigah, iki il dörd ay çəkmişdir. Onların iki övladı olmuşdur. Lakin bilinməyən səbəblərdən Xatun və övladları ölür. Xəzər xaqanı bunu sui-qəsd olaraq dəyərləndirir və qisas almaq üçün müharibəyə başlayır. Xəzər orduları Tarxanın başçılığı altında Dərbəndi keçərək, Azərbaycana daxil olur. Yəzid b.Usaid əs- Süləmini 7 minlik ordu ilə onların qarşısını ala bilmir. Xəilifə əl – Mənsurdan əlavə qüvvə istəyir. Xəlifənin əmrilə Şamdan 10 min əsgər köməyə gəlir. Əl-Kufinin məlumatına görə, 35 min əsgər İraqdan və 10 min əl-Cəzirədən Yəzidə köməyə gəlmişdilər [3, s. 59]. Xəzərlər valini tuta bilməsələrdə, Albaniya və Gürcüstan ərazisində böyük dağıntılar törədib, çoxlu qənimətlərlə geri qayıtdılar. Ət-Təbərinin məlumatəna görə, xəzərlərin Cənubi Qafqaza hücumu h. 147-ci ildə baş vermişdir. Xəzərlər VIII əsrin sonunadək Cənubi Qafqaza hücum etmədilər. Abbasi xilafəti zamanı bəzən komandanlar və valilər arasında baş verən ixtilaf onların hər hansı birinin xəzərlərdən yardım istəməsinə səbəb olmuşdur. Bu hadisələrdəndən biri Harun ər-Rəşidin zamanında baş vermişdi. Azərbaycan və Ərməniyyə valisi Səid b. Kuteybə əl-Bəhilinin Dərbənd şəhərinin komendantı ən-Nəcim b. Haşimlə arasındakı ixtilaf sonuncunun qətlilə sonuclandı. Bunun əsas səbəbi valinin özbaşınalığı idi. Beləki, hələ Ömər b. Xəttab zamanından Dərbənd əhalisindən vergi alımırdı. Bunun əsas səbəbi Dərbəndin Xəzər xaqanlığına həmsərhəd olması idi. Valinin nümayəndəsi Nəsr b. Ənan onlardan zorla xərac yığmaq istəyirdi. Ən-Nəcimin oğlu Həyyan b. ən-Nəcim valinin Dərbənddəki nümayəndəsi əl-Münacim əs-Süləmini qətl etdi, özünü valinin qəzəbindən qorumaq üçün xaqanla əlaqəyə girdi. Xəzər xaqanı kömək çağrışına müsbət cavab verdi. O, böyük bir

ordu ilə müsəlmanların üzərinə hücum edib, onları qılıncdan keçirdi. Hücum nəticəsində xəzərlər çox sayda əsir və qənimət ələ keçirdilər. Onlar Albaniyada 70 gün qaldılar. Harun ər-Rəşidin əmrilə vali işindən kənarlaşdırılır. Yerinə Əli b. İsa b. Mahan təyin olunur. Lakin o, qarşıya qoyulmuş vəzifəni icra edə bilmir. Xəlifə onu vəzifədən azad edib yerinə Yəzid b. Məzyəd əş-Şeybanini təyin edir [3, s. 65]. Bütün bu hadisələr Abbasi xəlifələrinin xilafətin şimal sərhədilə bağlı narahatlığının əsaslı olduğunu sübut edir. Şimal sərhədlərində istiqrar yaratmaq üçün Harun ər-Rəşidin istəyilə süd qardaşı və Azərbaycan valisi əl-Fadl b. Yəhya b. Xalid əl-Bərməki 798-ci ildə Xəzər xaqanın qızılə evləndi. Lakin bu nigahda uğursuz oldu. Xaqanın qızı vəfat etdi. Xəzər orduları yenədə qisas almaq üçün 100 minlik qoşunla Arrana hücum etdilər [4, s. 60-61]. Harun ər-Rəşid onlara qarşı əks hücuma kecənədək, onlar əldə etdikləri qənimətləri və əsirləri özlərilə apardılar. Bu hücum, xəzərlərin ərəblərə qarşı son böyük miqyaslı hücumu idi. Bu hücumdan sonra xəzərlərlə sülh ittifaqı bağlandı. Dövlətlər zəiflədikcə daxili ixtilaflar baş qaldırır, mərkəzdən qaçma halları sürətlənir. Yerli feodallar yaranan inzbati boşluqdan istifadə edərək, müstəqilliyə can atırlar və bunun üçün düşmən ölkələrdən kömək almağa cəhd edirlər. Xəzər xaqanlığının zəifləməsindən istifadə edən Bulqar xanı Almuş İslam dinini qəbul etdi. O, h.308 (m. 920) Abdullah b. Baştu əl- Hazarini Bağdada, xəlifə Müqtədir bilahın yanına elçi göndərdi. O, xəlifədən hökmüdarlığının hüquqiliyini tanımasını, İslam dinini öyətmək üçün müəllm və fəqihlər, xəzərlərdən qorunmaq üçün tikiləcək qalanın maddi ehtiyaclarını qarşılamağı xahiş edirdi. Xəlifə Sevsen ər-Rasi başçılığında heyyəti Almuşun yanına göndərdi [6, s. 12]. Düzdür ki, Bulqarların bu addımı onlara uğur gətirmədi. Bulqarların bir qolu sivazlar (çuvaşlar) yeni dini qəbul etməkdən imtina etdilər. Bele bir hal Oğuzların başçısı ilə də baş verdi. O, İslam dinini qəbul etsə də, ona ya qədim dininə qayitmağı, və ya başçılıqdan imtina etməyi tələb etdilər, məcburiyyət qarşısında o, yeni dinindən imtina etdi [ 6 ]. Yuxarıdakı məlumatlardan göründüyü kimi, Abbasi xilafəti zamanında Ərəb-Xəzər münasibətləri Raşidi və Əməvi xilafətləri zamanındakı müharibələrdən mahiyət və məqsədinə görə fərqlənmişdi. Belə ki, hər iki mərhələdə başlıca hədəf yeni ərazilər ələ keçirmək və orada möhkəmlənmək üçün İslam dinini həmin ərazilərdə yaymaq üçün ərəblərin ora köcürülməsi nəzərdə tutulurdusa, Abbasi xilafəti dövründə əsas məqsəd mövcud vəziyyəti qoruyub saxlamaq idi. Onların dövründəki lokal müharibələrin baş verməsinin əsas səbəbi anlaşılmazlıq olmuşdur.

Qeyd edək ki, Harun ər-Rəşid dövründə Xəzər xaqanlığında dini-ideoloji sahədə köklü bir dəyişiklik baş verdi. Xəzər xaqanlığının hakimiyyətdəki sülaləsi Yəhudi dinini qəbul etdi. Digər hallarda olduğundan fərqli olaraq, yeni din qəbul etmiş hakim sülalə, Xəzər xalqının Yəhudi dinini qəbul etməsinə cəhd bele etmədi. Xəzər xaqanlığında ticarətin, əsasən yəhudilərin əlində olması, onların hakimiyyətə təsir imkanlarını genişləndirirdi. Ərəb tarixşisi ibn Xordadbeh bildirir ki, “fars, ərəb, fransız, ispan, slavyan dillərində danışan yəhudi tacirlər qərbdən şərqə, şərqdən qərbədəniz və quru ilə səyahət edirlər” [12, s. 48]. Xəzər xaqanlığı artıq hərbi dövlətdən ticarətə əsaslanan dövlətə çevrilmişdi. Abbasi xilafətidə Əməvi xilafəti qədər şovnist deyildir. Abbasi xilafətində yəhudilərin mövqeyi kifayət qədər güclü idi. Yuxarıda qeyd olunan şərtlər, Abbasi-Xəzər münasibətlərində yeni bir mərhələnin, iqtisad-ticari mərhələnin yaranmasına zəmin yaradırdı.

Bu mərhələ, Abbasi-Xəzər münasibətlərini digərlərinədn fərqləndirən əsas xüsusiyyətlərdəndir. Abbasi xilafəti Xəzər xaqanlığılə müqayisədə iqtisadi baxımdan çox öndə idi. Beytul-malın başlıca gəlirləri xərac, cizyə, zəkat, fey, qənimət, öşür və gömrük vergilərdir. Onlardakı dövlət sistemi daha mükəmməl idi. Təsadüfü deyildir ki, xəlifə Harun ər-Rəşid Əbu Yusifə xəracla bağlı “Kitabu əl-Xərac” adlı əsər yazdırmışdır. Harun-ər-Rəşidin xəzinəsinə girən gəlirin miqdarı təqribən 500 milyon dirhəm gümüş, 10 milyon dinar qızıla çatırdı [7, s. 295]. Abbasi xilafəti ərazisində dəyərli sənaye malları və kənd təsərüfatı məhsulları istehsal olunurdu. İraq ərazisində Sevad , Misirdə Nil sahilləri, Xorasan, Məvaraunnəhr, Sistan, Suğd, Dəməşq əraziləri xilafəti ərzaqala təmin etməyə yetirdi.

Xəzər xaqanlığında yuxarda qeyd olunan zənginliklər olmasada, bir cox xalqlar onlara vergi

verirdi [ 5, s. 232]. Volqa-Xəzər ticarət yolu Ərəb xilafətinin Şərqi Avropa ilə ticarət əlaqələrini inkişafina kömək edirdi. Bilindiyi kimi, bu ticarət yoluna nəzarət Xəzər xaqanlığının nəzarətində idi [2, s. 125-126]. Xəzər xaqanlığı bu yoldan istifadə edən ticarət karvanlarından gömrük vergisi alırdı. Verginin miqdarı malın onda bir idi. Xəzər xəzinəsi də əsasən gömrük vergiləri əsasında formalaşırdı. Xəzər ərazisndən balıq, balıq yapışqanı, bal, xəz dəri və qul ixrac edilirdi. Ərəb tarixçisi ibn Hövqal bildirir ki, "Xəzər ərazisində yaxın və uzaq yürərə ixrac olanacaq balıq yapışqanıdır. Qul, bal, xəzə gəlincə, onlar xaricdən gəlir" [hövqal]/ Xəz dərilərə Ərəb aristokratiyasında tələb həddindən çox idi. Zənginliyin və lükusun artdığı yerdə kölə və cariyələrin ayrı bir yeri vardır. Xəlifə sarayında kölələrin və cariyələrin sayı on minlər olduğu rəvayət olunur. Abbasi xilafətində ticarət mərkəzi kimi şöhrət tapmış şəhərlər kifayət qədər çox olsa da, Xəzər xaqanlığında onları saymaq olar. Onlardan Bələncər, Səməndər, İtil şəhərini qeyd etmək olar. Bəzi tədqiqatçilar qeyd edir ki, xəzərlər özləri ticarətlə məşğul olmurdular. İtil şəhərində əsasən, ərəb, yəhudi, rus, slavyan tacirlərinin ədları qeyd olunur. Xəzərlərə gəlincə, onlar ticarət rüsumları toplayır, tacirlərə qulluq edir, karvansarayları idarə edir və onların mühafizəsini təşkil edirdilər [9, s. 231]. Xəzər xaqanlığında pul zərb olunduğu haqqında məlumatlar yoxdur. Arxeoloji qazıntılar zamanı tapılan pullar Xəzər xaqanlığında pul tədavülündə Xilafət dinar və dirhəminin işləndiyini sübut edir. Mütəxəssislər hesab edir ki, xəzərlər pulun incəliyini mənimsəyə bilmədiklərinə görə, öz pullarını ərəblərin puluna oxşar şəkildə çıxardılar [9, s. 236]. Buradan anlaşılır ki, Xəzər xaqanlığının özünə məxsus pulu olmuşdur. Dünya bazarında ərəb pulları hakim olduğu üçün daha çox həmin pullardan istifadə etmişlər.

Abbasilər zamanında Xəzər-Ərəb dini əlaqələrdə kifayət qədər güclü olub. Xəzər əraziləri Azərbaycan və bu bölgədə mövcud olan dövlətlər tərəfindən dini təsirlərə məruz qalmışlar. Qeyd olunmalıdır ki, xəzər türkləri arsında İslam dinin yaylılması Orta Asiya türklərindən daha əvvəl olmuşdur [2, s. 77]. Ticarət münasibətləri bu sahənin genişlənməsinə imkan yaradırdı. Xəzər xaqanlığındakı böyük şəhərlərdə məscid və mədrəsələrin mövcudluğu bubu sübut edir. Bəzi məlumatlara görə, Xəzər xaqanlığının süqutuna yaxın xaqan, bu fəlakətin qarını almaq üçün İslam dinini qəbul etmişdir. Təbiidir ki, xəzərlər təkcə İslam dinin təsirinə məruz qalmamışlar, həmçinin xristian və yəhudi təsirinə də məruz qalmışlar. Təsadüfü deyil ki, bir çox tədqiqatçəlar Xəzər xaqanlığının süqutunə səbəb olan amilin Yəhudi dinini qəbul etdikləri qənaətindədirlər.

**Nəticə**

Ümumiyyətlə, VIII-X əsrlərdə Abbasi –Xəzər münasibətləri hərbi- siyasi, iqtisadi-ticari, dini-idoloji amillərin təsiri altında formalaşmışdır. Qeyd olunmalıdır ki, həmin münasibətlər hər iki imperiyanın zəifləməyə başladığı dövrə təsadüf edir. Buna baxmayaraq, bu, iqtisadi ticari münasibətlərin inkişafına mane ola bilməmişdir. Xəzər hakimiyyəti Yəhudi dinini qəbul etdikdən sonra zaman –zaman xaqanlıq ərazisində dini yönümlü qarşıdurmalar olmuş. Buda xəzərlərin Bizans və Xilafətlə qarşıqarşıya gətirmişdir. Ərəb və xəzərlər arasındakı hərbi-siyasi, iqtisadi və dini münasibətlərdə Azərbaycan ərazisinin və xalqının mühüm rolu olmuşdur. Azərbaycan şəhərlərindən Bərdənin və Dərbəndin bu münasibətlərdə mühüm yeri vardı. Dərbənd şəhərinin İslam dinin Xəzər xaqnlığı ərazisində yayılmasındakı əhəmiyyətli rolu unudulmamalıdır.

**Açar sözlər:** *Ərəb xilafəti, Abbasilər sülaləsi, Xəzər xaqanlığı, münasibətlər*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1.Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336s*

*2. Əsədov. Fərda. Xəzərlər və Azərbaycan. Bakı: Elm və Təhsil, 2018, 240s*

*3.Əl-Kufi Əhməd ibn Əsəm. Fəthlər Kitabı, Bakı: Azərnəşr, 1995, 79s*

*4.Vəlixanlı N.M. AzərbaycanVII-XII əsrlərdə: Tarix, mənbələr,şərhlər. Bakı: Elm və Təhsil, 2016, 480s.*

*5. Brok K.A. Bir Türk imperatorluğu: Hazar Yahudileri. İstanbul: Bilge Karınca Yayınları, 2005, 455s*

*6. İbn Fadlan. Sayahatname. İstanbul: Bedr*

*Yayın Evi,1995, 84s*

*7. Ünlü Nuri. İslam Tarihi.İstanbul: Kilim Ofset, 1992, 572 s.*

*8. Артамонов М.И. История Хазар. СПб: Лань, 2001, 688с*

*9. Ивик Олег, Ключников Владимр. Хазары. Москва: Ломоносов, 2015, 336с*

*10. Плетнёва С.А. Хазары. Москва: Наука, 1986, 96с*

*11.İbn Hövqal Əbu əl-Qasim. Kitəbu Suratu əl-Ard. Beyrut: Dəru Məktıbətu əl-Hayət, 1992, 432 c.*

*12. İbn Xordadbeh əl-Qasim Ubeydullah. Kitəb əl-Məsəlik va əl-Məməlik. Leyden: əl-Cuz əs-Sədis.*

*13. Ət-Təbəri ibn Cərir. Tərix ər-Rusul va əl-Muluk. əl –Qahirə: Dəru əl-Marif, əl-Cuzu əl-Xəmisu. 1977, 635c.*

**Магеррам Ахмедов**

**Отношения Арабский Халифата и Хазарский Каганатов ( Вторая половина VIII – X конец веков)**

Вторая половина VIII – X конец веков является конечным этапом отношений между Хазарами и Халифатом. Данный этап отличается от других всесторонностью отношений. Этот этап характеризуется развитием военно-политических, торговля-экономических и религиозно- идеологических отношений.

В статье обращается особое внимание на ранние средневековые источники и исследовательские работы. Этот этап сравнивается с другими этапами на этой основе. Также отмечается, что этот этап играет важную роль в развитии экономических, торговых и религиозно-идеологических отношений Азербайджана.

**Ключевые слова:** *Династия Аббасидов, Арабский Халифат, Хазарский Хаганат, отношения*

**Maharram Ahmedov**

**Relations of the Caliphate and the Khazars (Second half of the VIII - end of the X centuries)**

The second half of the 8th and end of 10th centuries is the final stage of relations between the Khazars and the Caliphate. This stage differs from others with the many-branched relations. This stage is characterized by the development of military-political, trade-economic and religious-ideological relations.

The article draws particular attention to early medieval sources and research. This stage is compared with other stages on this basis. It is also noted that this stage plays an important role in the development of economic, trade and religious-ideological relations of Azerbaijan.

**Keywords:** *The Abbasids dynasty, The Arab Caliphate, Khazar Khakanate, relations*

UOT: 658.7 : 658.785



# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNİN SƏMƏRƏLİLİK MƏSƏLƏLƏRİ

**MƏLAHƏT HÜSEYNOVA**
*Sumqayıt Dövlət Universitetinin "Biznesin təşkili və menecment" kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru.*

*E-mail: malahat.huseynova.sdu@gmail.com*

İqtisadi inkişaf proseslərinin səmərəliliyinin artırılması və iqtisadi islahatların sürətləndirilməsi bir çox amillərin ciddi şəkildə dəyərləndirilməsini və nəzərə alınmasını şərtləndirir. Bunlardan biri də nəqliyyat sisteminin işləkliyi və optimal olması problemi ilə bağlıdır və təsadüfi deyildir ki, nəqliyyat sistemini çox vaxt iqtisadiyyatın şah damarı kimi xarakterizə edirlər. Dünyanın inkişaf etmiş ölkələrində nəqliyyat-logistika sisteminə və onun əhəmiyyətinə yanaşmalarda bazar iqtisadiyyatı münasibətləri və mexanizmləri əsas meyarlar və prinsiplər kimi baxılmaqdadır. Məhz bu səbəbdən nəqliyyat-logistika sistemi yüksək gəlir gətirən və əlavə dəyər yaradan sahibkarlıq fəaliyyəti və biznes sahələrindən biri kimi qiymətləndirilir [1]. Bundan əlavə, nəqliyyat-logistika sisteminin üstün amillərindən məhsuldar istifadə olunması iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq əhəmiyyətli nəqliyyat qovşaqlarının kəsişmə nöqtələrinin - marşrutlarının potensialından səmərəli formada yararlanmaq, dəniz, dəmir yolu və digər nəqliyyat növlərindən eyni vaxtda məhsuldar sitifadə olunması yükdaşımaların dinamikliyinə əlverişli şərait yaradır və bu sahədə xidmətin dəyərinin həcminin əhəmiyyətli səviyyədə artırır. Digər mühüm bir amil isə dünya təcrübəsində müxtəlif növ nəqliyyat vasitələri və növləri ilə daşımalarda logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaratmaqdan ibarətdir [2]. Bu halda təchizat zənciri daha çevik şəkildə işləyir, təsərrüfat və biznes subyektlrəinin müxtəlif xammal və materiallara olan tələbatının səmərəli şəkildə ödənilməsi təmin olunur, ticarət və yükdaşımaların dövriyyəsi artır. Eyni zamanda, logistika mərkəzləri vasitəsilə iqtisadiyyatın prioritet sahələrinin inkişaf etdirilməsi və iqtisadi islahatların sürətləndirilməsi məqsədilə xammal və resursların təminatı problemlərin həllinə əlverişli şərait yaranır [3]. Ümumilikdə nəqliyyat-logistika sistemi iqtisadi islahatlar proseslərində qarşıda duran strateji məqsədlərə çatmaqda önəmli funksiyaları yerinə yetirir [4]. Nəqliyyat-logistika sisteminin səmərəli təşkili xeyli sayda xidmətlərin göstərilməsinə imkan verir və bunların sırasında əsas etibarı ilə logistik fəaliyyətlə bağlı olan bir çox xidmət növlərini qeyd etmək mümkündür: 1) müştəri xidmətləri; 2) yüklərin saxlanılması və qablaşdırılması ilə bağlı xidmətlər; 3) yüklərin planlı şəkildə və uzunmüddətli dövrə hesablanmış qrafik əsasında tədarükü, daşınması və bölüşdürülməsi xidmətləri; 4) tələb olunan xammal və materialların sifarişi ilə bağlı proseslərin tənzimlənməsi və idarə olunması xidmətləri; 5) bağlanmış müqavilələr və kontraktlar üzrə yüklərin son ünvanlara çatdırılması xidmətləri; 6) yüklərin müxtəlif nəqliyyat vasitələrindən istifadə edilməklə daha optimal və sərfəli şərtlərlə daşınmasının təşkili üzrə xidmətlər; 7) xammal və hazır məhsul axınlarının idarəedilməsi, nəzarət olunması və səmərəli istifadə edilməsi xidmətləri; 8) sığortalama və gömrük prosedurlarının həyata keçirilməsi proseslərinə nəzarətin təşkili xidmətləri; 9) dünyanın istənilən nöqtəsindən və ya ölkəsindən bir neçə ölkələri keçməklə daşınan yüklərin vahid mərkəzdən idarəetmə xidməti və s. Logistika xidmətlərinin səmərəliliyi sayəsində iqtisadi fəaliyyət sahələrinin qarşısında duran strateji vəzifələrin yerinə yetirilməsi və iqtisadi islahatların intensivləşdirilməsi mümkün olur [5].

Qeyd edək ki, Azərbaycanda da nəqliyyat-logistika sisteminin strateji əhəmiyyəti və üstün cəhədləri diqqət çəkir. Belə ki, ölkəmizdə nəqliyyat sektorunun əksər növlərinin səmərəli təşkili

və logistika mərkəzlərinin yaradılması üçün əlverişli şərait vardır. Məlumdur ki, strateji yol xəritələri çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişaf modelinin təkmilləşdirilməsi və perspektiv milli iqtisadiyyat sektorları üzrə strateji hədəflər müəyyənləşdirilmişdir. Bu baxımdan, Azərbaycanın iqtisadi inkişaf modelinin qlobal iqtisadi çağırışlara uyğunlaşdırılması, bununla bağlı mühüm xüsusiyyətlərin nəzərə alınması sırasında ölkəmizin nəqliyyat tranzitivliyi və bir çox beynəlxalq nəqliyyat marşrutlarının kəsişmə nöqtəsi olması ciddi nəzərə alınmalıdır. Təsadüfi deyildir ki, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”ndə logistika sahəsinin təhlili və qiymətləndirilməsi ilə bağlı qeyd olunmuşdur ki, ölkədə yeni liman kompleksinin tikintisi, qonşu ölkələrlə yeni dəmir yolu əlaqələrinin qurulması, Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı ərazisində azad iqtisadi zonanın yaradılması, həmçinin Heydər Əliyev Beynəlxalq Aeroportunda logistika qovşağının yaradılması hesabına tranzit yüklər üzrə əlavə dəyərin formalaşdırılması imkanlarının olması ölkəmizdə logistika sisteminin inkişafı üçün önəmli amillərdən hesab olunur [6].

Qeyd edək ki, ildən-ilə nəqliyyat sektoru ölkəmizin kifayət qədər prioritetlik təşkil edən iqtisadiyyat sahəsinə çevrilməkdədir və bu sahənin potensialı yüksək qiymətləndirilməlidir. Xüsusilə, onun tranzitivlik potensialı bu sektoru xeyli cəlbedici etmişdir və maraqlıdır ki, dünyada məlum olan nəqliyyat növlərinin hamısının inkişaf etdirilməsi üçün imkanlar genişdir. Belə ki, Xəzər dənizi vasitəsilə dəniz nəqliyyatının inkişafı üçün böyük potensial mövcuddur. Regionun və dünyanın ən iri dəmir yolu layihələrindən biri olan – Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu artıq istismara verilmişdir. Ölkəmizdə xeyli sayda beynəlxalq hava limanları – aeroportlar fəaliyyət göstərirlər, əvvəldə qeyd etdiyimiz kimi, Heydər Əliyev adına Beynəlxalq hava limanı isə müasirliyinə və texniki imkanlarına görə regionun ən etibarlı və güclü infrastrukturuna malik hava nəqliyyatı mərkəzinə, ümumilikdə isə nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Bundan əlavə, qeyri-neft sektorunun böyük və intensiv xammal axını olan sahələrində, o cümlədən güclü ixrac potensialına malik kimya və neftkimya kompleksində milyonlarla ton xammalın və hazır məhsulun hərəkəti üzrə çevik və səmərəli logistika infrastrukturu tələb olunur [7]. Həmçinin, ümumilikdə təkcə Sumqayıt sənaye mərkəzində iri texnoloji qurğuların potensialından səmərəli istifadə olunması prioritetləri sırasında mühüm məsələlərdən biri məhz xammal təminatının uzunmüddətli dövr üçün etibarlı şəkildə həll edilməsidir. Dünya təcrübəsində bu kimi məsələlərin həllində, xüsusilə sənaye mərkəzlərində logistik mərkəzlərin yaradılması məsələsi diqqət çəkir [8]. Bu cür yanaşma ölkə Prezidentinin 21 dekabr 2011-ci il tarixli Fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı üçün də xarakterikdir [9]. Belə ki, bu parkda rezidetlərin istehsal infrastrukturunun genişləndirilməsi və imkanlarının artırılması məqsədilə xammal axınlarının daha səmərəli idarə olunması və tranzit yükdaşıma manevrliyi hesabına müxtəlif xammallara, həmçinin materiallara olan tələbatın ödənilməsi məqsədilə logistika qovşağının yaradılması nəzərdə tutulmuşdur. Hazırda bu istiqamətdə işlər intensivləşməkdədir [10]. Ölkə iqtisadiyyatının digər sahələrində də, o cümlədən metallurgiya, eyni zamanda bir sıra digər ənənəvi iqtisadiyyat sahələrində, xüsusilə pambıqçılıq və üzümçülükdə, taxıl məhsullarının daşınmasında çevik və etibarlı logistika infrastrukturuna və potensialına zərurət vardır [11]. İqtisadiyyatın modernləşdirilməsi, islahatların aparılması, müasir texnologiyalar əsasında inkişaf etdirilməsi, bunlarla əlaqədar oalraq informasiya iqtisadiyyatı sektorlarının və innovativ strukturların inkişafına dördüncü sənaye inqilabının təsirinin obyektiv qiymətləndirilməsi, hər bir ölkənin iqtisadi inkişaf prioritetlərinə uyğun mexanizmlərin işlənib hazırlanması vacib şərtlərdəndir. Belə şəraitdə yüksək texnologiyalar əsasında logistika mərkəzlərinin formalaşdırılması böyük səmərə verə bilər. İqtisadiyyatın strateji inkişaf hədəflərinin reallaşdırılması üçün tələb olunan innovativ strukturların inkişaf etdirilməsi gecikdirilməməli və bunlara konseptual yanaşmalar təmin olunmalıdır [12]. Bu amillər baxımından ölkəmiz nəqliyyat-logistika sisteminin inkişafına ciddi önəm verməkdədir və qeyd etdiyimiz kimi bir çox strateji layihələr həyata keçirilmişdir. Ölkəmizin əlverişli coğrafi mövqeyi, müxtəlif nəqliyyat növlərinin inkişafı üçün əlverişli şəraitin olması və səmərəli logistika qovşaqlarının yaradılması

imkanlarının mövcudluğu burada regionun ən cəlbedici logistika mərkəzlərinin yaradılmasını şərtləndirir və investorların maraqlarına uyğun gəlir. Bütün bunların nəticəsində Azərbaycan regional logistika lideri statusunu qazanmışdır və bu statusu möhkəmləndirməkdədir [13]. Artıq bildirdiyimiz kimi ölkəmizin liman və mərkəzi aeroportunda logistik mərkəzlərin və terminalların yaradılması prosesləri sürətlənməkdədir [14]. Beynəlxalq təşkilatlar və ixtisaslaşdırılmış qurumlar ölkəmizdə logistikanın inkişafı layihələrinə maraq göstərməkdədirlər. Məsələn, Dünya Bankının missiyası Azərbaycan Texniki Universiteti ilə "Azərbaycanda dəmir yolu və logistikanın inkişafı" layihəsi çərçivəsində əməkdaşlıqda maraqlı olduqlarını bildirmişlər [15]. Bu əməkdaşlıqda əsas üstünlüyün nəqliyyat infrastrukturunun qlobal çağırışlarının qurulmasına, nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsinə, kadr hazırlığının müasir dövrün tələblərinə uyğunlaşdırılmasına verilməsinin vacibliyi ön plana çəkilmişdir.

Ölkəmizdə son illərdə nəqliyayt sektorunun rolu və önəmi artmaqdadır və şəkil 1-də bir sıra göstəricilər üzrə ölkə iqtisadiyyatında nəqliyyatın xüsusi çəkisi verilmişdir və 2018-ci ilin yekununda əsas kapitala investisiyalarda bu göstərici 11,2 %, əsas fondların dəyərində 6,7 %, xalis mənfəətdə 5,6 % və əlavə dəyərdə isə 6,3 % təşkil etmişdir.




**Şəkil 1. Azərbaycan iqtisadiyyatında bir sıra göstəricilər üzrə nəqliyyatın xüsusi çəkisi, %-lə, 2014-2018-ci illər (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/).**

Cədvəl 1-də Azərbaycanda 2014-2018-ci illərdə nəqliyyat sektoru üzrə əsas makro göstəricilər verilmişdir və təhlil olunan dövrdə bu sektorda əlavə dəyərin həcmi 2014-cü ildə 2,7 mlrd. manata yaxından 2018-ci ildən 5 mlrd. manatdan bir qədərə çox təşkil etmişdir.

**Cədvəl 1.**

**Azərbaycanda 2014-2018-ci illərdə nəqliyyat sektoru üzrə əsas makro göstəricilər**

| Makro göstəricilər: | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Əlavə dəyərin həcmi, mln. manat | 2656 | 3242 | 4076 | 4719 | 5033 |
| Ümumi mənfəətin həcmi, mln. manat | 1963 | 2523 | 3281 | 3860 | 4078 |
| Xalis mənfəətin həcmi, mln. manat | 1386 | 1860 | 2162 | 2935 | 3071 |
| Muzdlu işçilərin orta illik sayı, min nəfər | 120,2 | 127,3 | 123,8 | 126,1 | 126,8 |
| Əsas fondlar (ilin sonuna) mln. manat | 9224 | 10301 | 11582 | 12404 | 12944 |
| Əsas kapitala investisiyalar, mln. manat | 2432 | 2195 | 1393 | 1774 | 1923 |

*Mənbə: Azərbaycanda nəqliyyat. Statistik məcmuə. Bakı, 2019. – S.9.*

Cədvəl 2-də 2014-2018-ci illərdə Azərbaycanda nəqliyyat və qeyri-nəqliyyat sektoru üzrə ayrı-ayrı nəqliyyat növləri tərəindən yük daşınmasının həcminin dinamikası əks olunmuşdur və təhlil əsasında qeyd etmək mümkündür ki, bu dövr ərzində yaradılmış nəqliyyat-logistika infrastrukturunun imkanları ilə yanaşdıqda, nəqliyayt sektorunda yükdaşımaların həcmi o qədər də yüksək olmamışdır, belə ki, 2014-cü ildə bu göstərici 222 mln. tona yaxın olduğu halda, 2018-ci ildə 230 mln. ton təşkil etmişdir, qeyri-nəqliyyat sektorunda isə ümumiyyətlə artım qeydə alınmamışdır.

**Cədvəl 2.**

**Azərbaycanda nəqliyyat və qeyri-nəqliyyat sektoru üzrə ayrı-ayrı nəqliyyat növləri tərəindən yük daşınmasının həcminin dinamikası, 2014-2018-ci illər, min ton**

| | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|
| **Cəmi yük daşımaları** | 244837 | 245369 | 245402 | 249204 | 252875 |
| **I. Nəqliyyat sektoru üzrə:** o cümlədən | 221991 | 222373 | 222461 | 226419 | 230144 |
| 01. Dəmir yolu | 21795 | 17090 | 15479 | 14558 | 13954 |
| 02. Dəniz | 9934 | 6626 | 5807 | 8344 | 8236 |
| 03. Hava | 125 | 129 | 160 | 173 | 208 |
| 04. Boru kəməri ( o cümlədən) | 61534 | 60923 | 59556 | 58490 | 58402 |
| 4.1. Neft kəməri | 45784 | 45672 | 44129 | 42559 | 41491 |
| 4.2. Qaz kəməri | 15750 | 15251 | 15427 | 15931 | 16911 |
| 05. Avtomobil | 128603 | 137605 | 141459 | 144854 | 149344 |
| **II. Qeyri-nəqliyyat sektoru** | 22846 | 22996 | 22941 | 22785 | 22731 |
| 01. Dəmir yolu | 4867 | 4148 | 3792 | 3644 | 3232 |
| 02. Neft kəməri | 4298 | 4223 | 4129 | 3791 | 3750 |
| 03. Avtomobil | 13681 | 14625 | 15020 | 15350 | 15749 |

*Mənbə: Azərbaycanda nəqliyyat. Statistik məcmuə. Bakı, 2019. – S.10.*

Şəkil 2-də 2014-2018-ci illərdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinın Azərbaycan hissəsində tranzit yük daşımalarının ümumi həcminin dinamikası əks olunmuşdur.




**Şəkil 2. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinın Azərbaycan hissəsində tranzit yük daşımalarının ümumi həcminin dinamikası, min. ton, 2014-2018-ci illər (ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/).**

Buradan da məlum olur ki, ümumi dinamikada azalma vardır, belə ki, 2014-cü ildə bu göstərici 12,8 mln. tona yaxın olmuşdursa, 2017-ci ildə 10,2 mln. tona yaxın təşkil etmiş, 2018-ci ildə isə azalaraq 9,35 mln. tona yaxın səviyyədə qeydə alınmışdır.

## NƏTİCƏ

Beləliklə, hazırda ölkəmizdə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi prioritetləri əsasən müəyyənləşdirilmişdir, bunların reallaşdırılması üçün Bakının regional nəqliyyat-logistika sisteminin mərkəzi kimi gücləndirilməsi işləri intensivləşdirilməkdədir, bunlarla belə yaxın perspektivdə bu istiqamətdə bir sıra mühüm tədbirlərin nəzərə alınması vacibdir:

- nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübənin daha dərindən mənimsənilməsi və bunlarla əlaqədar yeni layihələrin hazırlanaraq həyata keçirilməsi üçün nəhəng nəqliyyat-logistika şirkətləri ilə əlaqələrin daha intensiv şəkildə gücləndirilməsi tələb olunur;

- ölkənin iqtisadi rayonlarının inkişaf potensialının reallaşdırılmasında nəqliyyat-logistika sisteminin əhəmiyyəti və Sumqayıt sənaye mərkəzinin nəqliyyat-logistika sisteminin formalaşdırılması və inkişaf etdirilməsi üzrə görülən tədbirlərin sürətləndirilməsi vacibdir və s.

**Açar sözlər:** *iqtisadi islahatlar şəraiti, nəqliyyat-logistika sistemi, nəqliyyat sektoru, logistika sahəsi, logistika qovşağı, nəqliyyat-logistika sisteminin səmərəlilik məsələləri, nəqliyyat-logistika sisteminin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Lynch, Daniel F., Scott B. Keller and John Ozment. The Effects of Logistics Capabilities and Strategy on Firm Performance // Journal of Business Logistics, 2000, Vol. 21, No. 2, pp. 47-68.*

*2. Парфенов А.В. Методология развития логистических межсистемных образований в реформируемой экономики. Дисс. д-ра экон. наук. Санкт-Петербург, 2001.- 307 с.*

*3. Левкин Г.Г. Логистика: теория и практика. Ростов-на-Дону: Феникс, 2009. - 221 с.*

*4. Сергеев В.И. Управление цепями поставок. Москва, издательство Юрайт, 2014.- 479 с.*

*5. Аникин Б. и другие. Логистика. Москва, изд-во Проспект, 2010.- 406 с.*

*6. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*7. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya komleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, "Elm və Təhsil", 2012. -156 s.*

*8. Əliyev Ş.T. Sumqayıt sənaye mərkəzi: mövcud potensialdan istifadə, modernləşdirmə və müasirləşdirmə prioritetləri. Bakı, "Elm və Təhsil", 2012. –196 s.*

*9. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 21 dekabr 2011-ci il, № 548.*

*10. Sumqayıt Kimya Sənaye Parkı. https://scip.az/index.php?option=com_content&view=article&id=52&Itemid=396&lang=az.*

*11. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018. –376 s.*

*12. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İnformasiya iqtisadiyyatı sektorlarının və innovativ strukturlarının inkişafına dördüncü sənaye inqilabının təsirinin analizi // İnformasiya cəmiyyəti problemləri, 2018, №2, 52–64.*

*13. Azərbaycan regional logistika liderinə çevrilir. http://xalqqazeti.com/az/news/1338.*

*14. Logistik mərkəzlər və terminallar. https://www.kdylogistics.com/az/terminal-az/.*
*15. Dünya Bankının missiyası AZTU-da logistika layihəsi üzrə əməkdaşlığı müzakirə edib. 30 Oktyabr, 2019. https://report.az/elm-ve-tehsil/dunya-bankinin-missiyasi-aztu-da-logistika-layihesi-uzre-emekdasligi/.*

**Резюме**

**ВОПРОСЫ ЭФФЕКТИВНОСТИ ТРАНСПОРТНО-ЛОГИСТИЧЕСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА В УСЛОВИЯХ ЭКОНОМИЧЕСКИХ РЕФОРМ**

В статье исследованы вопросы эффективности транспортно-логистической системы Азербайджана в условиях экономических реформ. С этой целью рассмотрена и анализирована сущность и роль транспортно-логистической системы в экономике страны. Анализированы основные показатели в транспортном секторе и, в том числе, динамика перевозок грузов. Даны основные показатели азербайджанской части транспортного коридора Европа - Кавказ – Азия. Обоснована необходимость расширения потока грузов и обеспечения продуктивности создаваемой транспортно-логистической инфраструктуры. Рассмотрены показатели основных фондов в транспортном секторе страны и динамика объема вложенных инвестиций. Отмечена важность совершенствования действующих механизмов и подходов к повышению объема перевозки грузов с учетом использования потенциала всех видов транспорта и создания новых логистических центров. Даны рекомендации и предложения по вопросам эффективности транспортно-логистической системы Азербайджана в условиях экономических реформ в современных условиях.

**Ключевые слова:** *условия экономических реформ, транспортно-логистическая система, транспортный сектор, сфера логистики, логистический узел, вопросы эффективности транспортно-логистической системы, перспективы развития транспортно-логистической системы.*

**Summary**

**ISSUES OF TRANSPORT AND LOGISTICS SYSTEM EFFICIENCY OF AZERBAIJAN IN CONDITIONS OF ECONOMIC REFORMS**

The issues of the efficiency of the transport and logistics system of Azerbaijan in the context of economic reforms are investigated in the article. The essence and role of the transport and logistics system in the economy of the country is analyzed for this purpose. The main indicators in the transport sector, including the movement of goods are analyzed. The main indicators of the Azerbaijani part of the transport corridor Europe - Caucasus - Asia are given too. The need to expand the flow of cargo and ensure the productivity of the transport and logistics infrastructure being created is investigated. The indicators of fixed assets in the transport sector of the country and the dynamics of the volume of investments invested are considered. The importance of improving existing mechanisms and approaches to increasing the volume of cargo transport, taking into account the potential of all modes of transport and the establishment of new logistics centers is analyzed. Recommendations and proposals on issues of efficiency of transport and logistics system of Azerbaijan in conditions of economic reforms in modern conditions are given in the end of the article.

**Key words:** *conditions of economic reforms, transport and logistics system, transport sector, logistics sphere, logistics node, issues of transport and logistics system efficiency, prospects of transport and logistics system development.*

UOT 005;007;35;658;338
UOT 338.2

# MÜASİR DÖVRDƏ TULLANTILARIN TƏSNİFLƏŞDİRİLMƏSİ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRİ

**SƏBUHİ MEHDİZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilikAkademiyasının dissertantı*

*Email: sabuhibmw@yahoo.co.uk*

Kəskinləşən "tullantı böhranı"ndan bu və ya digər formada bütün ölkələr əziyyət çəkir. Daha az inkişaf etmiş ölkələrdə bu xroniki xarakter daşıyır [15, s. 20-21]. Funksiyasını itirmiş və yararsız hala gəlmiş hər cür material zibil adlandılır. Zibillərin ətrafa zərər verməməsi üçün düzgün çeşidlənməsi və emalı lazımdır.

Qablaşdırma maddələri və yemək artıqları xaricində batareyalar, boya artıqları, işıqlandırmada istifadə edilən müxtəlif lampalar, təbii və ya sintetik hazır şablon məhsulları, kağız və müxtəlif törəmələri, elektron əşyalar və s. evlərdə istifadə edilən hər şey zaman keçdikcə tullantı halına gəlir. Məişət tullantılarının təkrar emala yararlı ola bilməsi üçün zibillərin çeşidlənməsi şərtdir.[5]

Məişət tullantıları əmələ gəldiyi mənbəyə görə belə təsnif olunur:

-bərk məişət tullantıları;
-maye məişət tullantıları;
-təhlükəli məişət tullantıları;
-məişət xarakterli sənaye tullantıları (divar boyası və s.) ;
-evdə istifadə olunan tibbi tullantılar;
-ictimai iaşə müəssisələrinin tullantıları;
-ticarət və müəssisələrin tullantıları və s.

Məişət tullantılarının çeşidlənməsi dünyada, xüsusilə də Azərbaycanda (tullantılar qarışıq şəkildə evlərdə toplanır) mühüm sosial-iqtisadi və ekoloji problemlərdən biridir. Ümumiyyətlə, tullantılar dedikdə məhsulların istehsalı və istehlakı prosesində yaranmış zibillər, qalıqlar, eləcə də istifadəyə yararsız maddələr başa düşülür. Məişət tullantılarına məhz məişətdə yaranan təhlükəli/ təhlükəsiz tullantılar aiddir.

Tullantılar əgər düzgün sortlaşdırılarsa paradoksal əhəmiyyətə malikdir. Belə ki, bir tərəfdən tullantılar ətraf mühitə və sağlamlığa zərərdirsə, digər tərəfdən enerji mənbəyi və yeni xammal olaraq çox sərfəlidir.

Effektiv emal prosesinin əsasında effektiv çeşidlənmə, təsnifat dayanır. Ekoloji bazarda çox müxtəlif çeşidləmə texnikaları var və burada beş ən məşhur olanı göstərəciyik.[13]

Tullantıların sortlaşdırılması ilə maraqlanan şirkətlər əsasən beş üsuldan birini istifadə edirlər:

Trommel ekranlar və ya tamburlu ekranlar: Bu maşınlar, tullantıları ölçülərinə görə ayırır. Azərbaycanda Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu tullantıların çeşidlənmə prosesində ilkin çeşidləmə, əl ilə çeşidlənmədən öncə məhz bu Trommel ekrandan istifadə edir.

İnduksiya çeşidləmə: tullantı müəyyən olunmuş və aşağı hissəsi sensorla örtülmüş kəmər ilə gəlir və sensorların sayəsində çeşidlənir.

Burulğan çeşidləmə: bu üsul metal növlərinin ayrılması üçün istifadə edilir. Bir keçirici, dəyişən bir maqnetik sahəyə məruz qaldığında "burulğan axını" meydana gəlir. Təməl olaraq, dəmirli və dəmirsiz metalların maqnetik olaraq bölünməsidir.

Yaxın infraqırmızı sensorlar: Tullantılar çeşdilənərkən, əksəriyyəti yaxın infraqırmızı dalğa boyu spektrindəki işığı əks etdirir və buna uyğun olaraq çeşidlənirlər.

X-şualanma texnologiyası: X-şüaları sıxlığına bağlı olaraq fərqli tullantı növlərini ayırd etmək üçün istifadə edilir.

Əllə ayırma: keçmişdən bu günə kimi tətbiq olunan metod.

Çeşidlənmiş tullantının təkrar emala yararlı olması, iqtisadi dəyərinin qiymətləndirilməsi həmin tullantının tərkibinin təmiz və qatqısız olmasından çox asılıdır. Belə ki, tullantının xammal kimi dəyərləndirilməsi üçün mütləqdir ki, təkrar emala yararlı olmaq şərtlərini yerinə yetirsin. Adətən xarici

təcrübələrə nəzər yetirsək, görərik ki, tullantıların çeşidlənməsi onların toplandığı yerdə aparılır, yəni mənbədə çeşidlənir və bu prosesi istehlakçılar, insanlar özləri həyata keçirir [6-10].

Tullantıların kompleks emalının ilkin mərhələsi çeşidlənmə metodunun düzgün təşkilidir ki, bu da yüksək dərəcəli idarəetmə sisteminin əsasında baş verə bilər. Hər bir tullantının özünün çeşidlənmə metodu vardır ki, məişət tullantıları üçün aşağıdakı üsullar daha uyğundur:

- bərk məişət tullantılarının məişətdə insanlar tərəfindən yarandığı yerdə tullantı kodu üzrə ayrıca yığılması və daşınması. Ümumiyyətlə, məişət tullantılarının tərkibi təhlükəli olmadığı üçün, çeşidlənmə əl ilə aparılır, lakin metal hissəcikləri maqnit seperatorun köməkliyi ilə digər tullantılardan çeşidləyirlər.
- Məişətdən kənarda əmələ gələn məişət tullantıları (restoran, idarə, universitet, məktəb, marketlər və s.) fraksiyalı yığım ilə çeşidlənir.
- Məişət tullantılarının yuxarıda qeyd olunan inteqrasiya olunmuş emalı üçün təsis edilən zavodlarda çeşidlənməyi də ümumi çeşidlənmə metoduna aiddir. Burada həm əl ilə çeşidlənmə, həm də qurğular vasitəsi ilə çeşidlənmə həyata keçirilir.

Tullantıların çeşidlənməsi tullantıların ümumi həcminin azaldılması, təkrar emala yararlı məhsullar əldə etmək və ən əsası xammal kimi istifadə olunması üçün tətbiq olunur. Çünki tullantı zibil deyil, gələcəkdir.

Məişət tullantılarının çeşidlənməsi ekoloji mədəniyyətin göstəricilərindən biridir və hər kəs bunu etməlidir. Belə olan halda ölkənin iqtisadiyyatı və ətraf mühitinin sağlamlaşdırılması paralel şəkildə tərəqqi edər. Ekoloji fondlar çeşidlənmə prosesinin düzgün getməsi üçün müəyyən pul ayırmaları da edir.

Tullantıların çeşidlənməsi ekoloji bazarın formalaşmasında mühüm rol oynayaraq, təkrar istehsal biznesinin inkişafına səbəb olur. Çeşidlənən zibillər (şüşə, plastik və s.) təkrar emala yararlı olduğundan, ətraf təbii mühitə tullantıların təsiri nisbətən ləngiyir.

Tullantıların sortlaşdırılmasının asan başa gəlməsi və iqtisadi səmərəliliyi olması üçün tullantılar xüsusi kodlarla ştrixlənmiş, xüsusi rənglərlə ayrılmış zibil qutularına atılmalıdır. Belə zibil konteynerlərinin rəngi tullantıların idarə olunması sistemi tərəfindən təyin olunmuşdur və bu rənglər onun təşkil olunduğu ölkəyə görə dəyişir (yəni konkret rəng və ona atılacaq tullantı təsnifatı yoxdur). Çeşidlənmənin düzgün getməsi üçün müəyyən qaydalar vardır:

• Təkrar emala yararsız tullantılar çeşidləndikdən sonra xüsusi qablarda toplanmalıdır.

• Təhlükəli tullantılar (tibbi, elektron tullantı, batareya, akkumulyatorlar və s.) ayrıca yığılmalıdır.

• Üzvi tullantılar bir konteynerə atılmalıdır.

• Şüşə və güzgü bir qabda saxlanılmalıdır.

• Kağız, karton mütləq yağ və ya sulu tullantılardan ayrı yığılmalıdır.

• Təkrar emala yararlı olanlar da ayrı toplanmalıdır.

İstehlak tullantılarının emalı, qlobal ekoloji problemlərdən biri olan tullantıların idarə edilməsimin kompleks şəkildə həllinə yönəlmiş metoddur və daim inkişafdadır. Hələ təkcə Azərbaycanda son on ildə prioritet istiqamət kimi təkrar emal sahəsinə qeyri-neft sektorunun bir hissəsi kimi baxılır və bu sahədə müəyyən tədbirlər görülür.

Tullantı kimi baxdığımız kanalizasiya sularının emalının gələcək istiqamətlərindən biri olan onun tərkibindəki üzvi maddələr, mikroelementlərdən gübrə kimi istifadə edilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" və davamlı inkişaf konsepsiyası təkrar emala yararlı olan tullantıların təkrar emal olunmasının əsasında qeyri-neft sahələrinin iqtisadi inkişafda rolunun artırılması məqsədilə tullantıların texnoloji, ekoloji qiymətləndirilməsi baxımından onun emalının prioritet istiqamətləri aşağıdakılardır:[16]

- təkrar emal edən müəssisə və zavodların sayının artırılması;
- yalnız paytaxt Bakıda deyil, əvvəlcə iri şəhərlər sonra bölgələrdə tullantıların düzgün idarə edilməsinin tətbiqi;
- tullantıları inteqrasiya olunmuş metodlarla tətbiqinin Azərbaycana gətirilməsi;
- bioloji tullantıların basdırılma deyil, kompostlama metodu ilə zərərsizləşdirilməsi;
- mövcud emal texnologiyalarının inkişaf etmiş texnoloji proseslərlə əvəz olunması;
- təkrar emal olunan xam maddələri istsimar edən sənaye sahələrinin yaranması, mövcud olanların təkmilləşdirilməsi;
- çeşidlənmə mədəniyyətinin ictimai mühitdə aşılanması;

- bağça və məktəblərdə təkrar emal metodlarının öyrədilməsi və bu sahədə müvafiq tədbirlərin keçirilməsi və s.

Sevindirici haldır ki, son illər Azərbaycanda məişət tullantılarına yeni bir iş yeri, yeni biznes növü, ekoloji biznes, ekoloji bazar üçün xam maddə istehsal edən sahə kimi baxılır. Bu səbəbdən onun emalı prosesinin ən optimal şəkildə təşkil olunmasının tətbiqinə çalışılır.

Azərbaycanda təkrar istehsal biznesi sahəsində yeni zavodların yaranmasına şərait yaratmaq, onların inkişafını stimullaşdırmaq, tullantıların həcminin maksimum şəkildə azaldılmasını təşkil etmək, istər təbii sərvətlərin, istərsə də enerjiyə qənaət baxımından istehlak, həmçinin istehsal tullantılarının texnoloji, ekoloji-iqtisadi qiymətləndirilərək, xam maddə kimi başqa sənayenin məhsulu kimi dəyərləndirilməsi əsas hədəflər olmalıdır.

Avropa birliyi Ətraf Qanunvericiliyi ekoloji risklərin qarşısını almaq və davamlı inkişafın təmin olunması məqsədilə 8 alt kateqoriya ayırmışdır:[12]

- hava keyfiyyəti
- tullantıların idarə edilməsi
- su keyfiyyəti
- sənaye çirklənməsi və risklərin idarə edilməsi
- kimyəvi çirklənmə
- fiziki çirklənmə
- təbiəti qorumaq
- səs çirklənməsi

Bəzi ölkələr tullantıların idarə edilməsində yüksək nailiyyətlər əldə etmələrinə baxmayaraq, bəzi ölkələr təkrar emal prosesini tətbiq etməkdə çətinlik çəkirlər. Aydındır ki, yeni-yeni sənaye sahələri inkişaf edtikcə problemlər də artır, bu səbəbdən tullantıların emalı prosesləri optimallaşdırılmalıdır və prioritet istiqamətləri müəyyənləşməlidir:

- Plastik üzərində qadağalar:

Plastik tullantıların fotodeqradasiyası yüz illərlə başa gəldiyi lokal ekosistemlər və canlı təbiət üçün dəhşətli dərəcədə təhlükəlidir. Birdəfəlik köpük qablar, plastik torba və plastik şüşələr üzərində müəyyən qadağaların qoyulması tullantıların idarə edilməsində mühüm addımdır.

- Kağızdan rəqəmsala keçid:

Məsələn, Estoniya bunu tətbiq edərək, tullantıların daha az əmələ gəldiyini bildirir.

- Bioloji olaraq parçalana bilən plastiklərdən istifadə:

Bioloji olaraq parçalana bilən qətrən üçün ekoloji bazar payı artmaqdadır.

- Məcburi kompostlaşdırma:

Bu o deməkdir ki, içi bizim ölkə qarışıq bəzi ölkələr var ki, torpaq üçün zəngin ehtiyat olan qida tullantıları və ya yaşıl tullantıları kompostlama edərək dəyərləndirmir, poliqonda basdırır. Halbuki, iqtisadi, ekoloji qiymətləndirildikdə, həm litosfer üçün zəngin sərvətlər olduğu aydınlaşır, həm də iqtisadi səmərəliliyi sübut olunur.

- Davamlı innovasiya:

İnnovasiyanın, texnologiyanın inkişafı təqdirə layiqdir, lakin bu inkişaf əgər ətraf mühit nəzərə alınmadan gedərsə, o zaman frontal inkişafa gətirib çıxarır. Lakin inkişafı, innovasiyanı elə tətbiq etmək lazımdır ki, hər iki ünsür (iqtisadi artım və ətraf mühit) nəzərə alınsın.

- 3D Print [23]:

3D çap, daha əvvəl heç düşünülməmiş olan müəssisələrdən və istehsal proseslərindən, hətta evdə şəxsi istifadəyə qədər, istehsal üçün qapıları açdı. 3 Ölçülü çap texnologiyası, hətta bir gün içində bir ev inşa edə bilər. Əlbəttə bu texnologiya ilə plastik üzərindəki asılılığın daha da artırması riski var.

- Orqanik tullantılardan bioqazın alınmasının inkişafı [14]:

Anaerob fermentasiya ilə bioqazın alınması, tullantıların emalında prioritet istiqamətlərdən biridir. Çünki bioqaz tutularaq həm atmosfer çirklənməsi azalır, həm də enerji əldə olunur.

- Siqaretlərin təkrar emalı:

Bu emal prosesi ingilis dilində “TerraCycle” adlanır və ən sərfəli metodlardan biridir. Belə ki, işlənmiş siqaretin külü yığılaraq gübrə halına salınır, özündən isə müxtəlif maddələr hazırlanır.[28]

- Artan korporativ məsuliyyət:

Nəinki məişətdə, işlədiyimiz müəssisələrdə, restoranlarda və s. məkanlarda təkcə pul qazanmağı deyil, eyni zamanda ətraf təbii mühiti də düşünmək məcburiyyətimiz prioritetlərdən biri olmalıdır.

- 0 tullantı prinsipi [26]:

“Sıfır Tullantı”, bir prosesdən və ya texnologiyadan çox bir fəlsəfədir, və mütləq bir yenilik olaraq düşünülməlidir. Bu prinsipə görə tullantı deyə bir maddə yoxdur, yəni enerji kimi “tullantı yaranmır, itmir, bir haldan digər hala keçir”.

Sıfır Tullantı prinsipi, tullantıların və materialların həcm və sistematik olaraq qarşısını almaq və aradan qaldırmaq, bütün qaynaqları qorumaq və

xilas etmək və onları yandırmamaq və ya basdırmaq üçün məhsul və prosesləri hazırlamaq və idarə etmək mənasını verir. Şotlandiyada 2008-ci ildən Sıfır tullantı prinsipi üçün işlər planlaşdırılır və hədəfə çatma müddəti 2025-ci ildir. Sıfır Tullantılar həmçinin şirkətlər və təşkilatlar tərəfindən də tətbiq edilir. Sıfır tullantı prinsipi ilə fəaliyyət göstərmək istəyən müəssisələr: Kseroks (Roçester, Nyu York), Hyulett Pakard (Kaliforniya), Fitzir üzüm bağları (Kaliforniya) və s.

- Tullantıdan yanacağın alınması [27]:

Tullantıdan yanacağın alınması son zamanlar daha çox tətbiq olunan istiqamətlərdən biridir.

Qida tullantıları, onu istehsal edən hər hansı bir müəssisə, ev, hotel və s. üçün böyük bir problemdir. Digər məişət tullantı növləri qida tullantılarına görə nisbətən emal olunması asandır. Şüşə, plastik, alüminium və hətta metallar faydalı ikinci məhsullar halına çevrilə bilir. Lakin qida tullantıları haqqında bunu demək olmur.

Yuxarıda qeyd olunan problemləri qismən də olsa həll etmək üçün, təklif olunur ki, həm iqtisadi səmərəli olan, həm də qida tullantılarını israf etməyən, digər ölkələrdə uğurlu şəkildə istifadə olunan, qida tullantılarının idarə edilməsində innovativ metod olan "Imperial Machine Company"-ə məxsus olan Waste Pro II IMC qurğusudur [19].

Əgər təklif olunan, Waste Pro II IMC qida tullantıları əmələ gələn yerlərdə istifadə olunarsa, bu və ya digər problemlərin bir çoxu aradan qaldırılar və ya azaldılar, beləliklə, bir çox sahədə böyük qənaət təmin edilər.

Qida tullantıları tipik olaraq ümumi məişət tullantılarının təxminən% 40-nı təmsil edir. Bu 40 %-dən təxminən 77% i maye halındadır [17].

Waste Pro II IMC, qida tullantılarını incə hissəciklər halında üyüdür, bu hissəciklər birbaşa mövcud olan susuzlaşdırma sisteminə girir. Sentrifuqa hərəkəti ilə yumşalan tullantıdan artıq suyun çıxmasınının qarşısısını alaraq tullantıların həcmini 80%-ə qədər azaldır. Quru qalıqdan əlavə əmələ gələn "boz su" (texniki su) isə, asan idarə olunan, qapaqlı bidonlarda toplanılır və təkrar emala hazır hala gəlir.

Quru qalıq isə kompostlama ilə gübrəyə asan şəkildə çevrilərək, faydalı məhsul halını alır və poliqona basdırılmadan ümumi tullantı həcmini azaldır

Məişət tullantılarının təsnifatına nəzər yetirdikdə, məişətdə, restoranlarda, iş yerlərində, bir sözlə insan yaşayışı olan hər yerdə əmələ gələn və təkrar emala yararlı tullantı kimi qiymətləndirilən plastik tullantıları görə bilərik. Plastik tullantıların həcminin əsas hissəsini gündəlik istifadə etdiyimiz pet butulkalar təşkil edir. Su, süd, hər cür içki maddəsi, benzin kimi gündəlik həyatda tez-tez istifadə edilən maddələr şüşədən əlavə pet butulkalar içində mühafizə edildiyindən, kommunal-məişətdə demək olar ki, hər gün istehlak edilir və ətraf mühitə atılır. Lakin düzgün ekoloji qiymətləndirilərsə, həm iqtisadi, həm ekoloji baxımdan dəyərləndirilərək, təkrar emal oluna bilər [11, 18, 20, 21, 22].

Ətraf mühit və insan sağlamlığına təsir edən proseslərdən biri tullantıların düzgün idarə edilməməsidir ki, bu vəziyyətin yaxşılaşdırılması məqsədi ilə inteqrasiya edilmiş tullantı idarəetmə sistemi bütün müəssisələrdə, ölkələrdə tətbiq olunmalıdır.

Düzgün qiymətləndirilməmiş suyun hamamda, kənd təsərrüfatında , içməli su kimi məişətdə istifadə olunması orqanizmləri və insanı xəstəliyə yoluxdurur. Amerikanın İctimai Sağlamlıq Xidmətinin verdiyi məlumata görə insan xəstəliklərinin əksəriyyəti tullantıların düzgün idarə edilməməsindən əmələ gəlmişdir. [24]

İnkişaf etməkdə olan ölkələrdəki zibilyığan işçilər (toplayıcılar), birbaşa təmas və yaralanmaya qarşı nadir hallarda qorunur və təhlükəli və tibbi tullantıların təsirlərindən əziyyət çəkir. Bu kimi hallar yaşanmasın deyə, tullantının təhlükəlilik dərəcəsinə əsasən tullantı yığan insanlar xüsusi geyimlərlə təchiz olunmalıdır. Tullantıların toplanması vasitələrindən gələn tüstülər, toz və tullantıların açıq yandırılması da ümumi sağlamlıq problemlərinə təsir edir.

Dünyamız, üzərində yaşayan milyardlarla canlıya ev sahibliyi etdiyi kimi, eyni zamanda, insanların çıxardıqları milyonlarla əşyaya (tullantıya) da ev sahibliyi etməkdədir. Bu əşyaların, müəyyən bir istifadə müddəti var. Təbiətə atılan bəzi əşyalar, dünya üzərində aylarla, illərlə qalır və yox olmur. Bu da həm ətraf mühitin çirklənməsinə gətirib çıxardığı kimi, dünyaya da zərər verməkdədir. Hansı tullantı, təbiətdə nə qədər müddətdə itir, hansının nə qədər zərəri var, bunları bilmək lazımdır.

Son illərdə ölkəmizdə edilən təkrar emal işləri sayəsində, şüşə, kağız kimi tullantılar, həm iqtisadiyyata qatqı təmin etmək, həm də dünyanın

bu tullantılardan zərər görməsini maneə törətmək üçün müxtəlif yerlərdə geri çevrilmə işləri aparılır. Tullantılar, təbiətə və suya zərər verir. Suya atılan tullantılar balıqlar tərəfindən udulur və ya saçdığı mikroblar səbəbi ilə suyu çirklədərək, canlıların yaşamasına əlverişsiz bir mühit yaradır. Eyni şəkildə, təbiətə atılan tullantılar da torpağı çirklədərək məhsuldarlığı azaldır [1-4].

Dünyada bərk məişət tullantılarının ətraf mühitə təsirinin optimallaşdırılmasının üç təməl prinsipi vardır. Bunlar az tullantı çıxarılması, tullantıların geri qazanılması və tullantıların ətraf mühitə zərər vermədən yox edilməsidir. Zibillərin toplanması, saxlanılması və ya yox edilməsinə qədər bütün xidmətlərin bir plan çərçivəsində ələ alınması və əvvəlcə bu tullantıların qiymətləndirilməsi və ya geri qazanılmasına, onun təsirlərinin optimallaşdırılması deyilir.

Uyğun şəkildə depolanmamış tullantılar yer altı və səthi su çirkliliyinə, həşəratların törəməsinə, ətraf mühitə pis qoxuların yayılmasına, görünüş (estetik) çirkliliyinə və müxtəlif heyvanlar vasitəsi ilə daşıyıcı mikrobların yayılmasına səbəb olmaqdadır.

Bu maddələr içində xüsusilə tullantıların batareyaların ətraf mühitə və insan sağlamlığına olan zərəri çox böyükdür. Batareyaların tərkibində olan civə, kadmium, qurğuşun, sink, litium və nikel kimi kimyəvi maddələr, batareyaların zibilləri təsadüfi atılması nəticəsində torpağa və yer altı sularına qarışır. Bunun nəticəsində torpaq zəhərlənir və istifadə olunmaz hala gəlir. Tullantı batareyaların səbəb olduğu başlıca xəstəliklər sinir sistemi xəstəlikləri, xərçəng, böyrək və qaraciyər xəstəlikləridir.

Bərk məişət tullantıları kimi, maye tullantılar da ətraf mühitə təsirlər göstərir. Maye tullantıların böyük hissəsinin tullantı suları təşkil edir. Bu sular; məişət, sənaye, kənd təsərrüfatı və digər məqsədlər nəticəsində çirklənmiş sular, mədən ocaqları və cövhər hazırlama təsislərindən qaynaqlanan sular ilə şəhər bölgələrindən gələn kanalizasiya sularıdır.

Maye tullantıların sularda meydana gətirdiyi çirklilik və təsirləri fiziki, kimyəvi və bioloji olmaq üzrə üç qrupa bölünür:

- Fiziki təsirlər: suyun istilik, dad, qoxu xüsusiyyətlərinin dəyişməsi.
- Kimyəvi təsir: müxtəlif ağır metalların (güllə, civə və s.), orqanik və qeyri-üzvi maddələrin suda yığılması.
- Bioloji təsir: orqanik tullantıların təsiri ilə suda, oksigeni istehlak edən yosun, bakteriyalar və kif meydana gəlməsi.

Sulara qarışan civənin insan və ətraf sağlamlığına olan təsirləri olduqca çoxdur. Suya bağlı qida zəhərlənmələrinin əhəmiyyətli hissəsi civədən qaynaqlanan zəhərlənmələrdir.

Məsələn, 1951-ci ildə Yaponiyadakı Minamata Körfəzi yaxınlarında qurulan plastik zavodunun tullantı sularının körfəzə qarışmasından bir müddət sonra yüzlərlə insan ciddi xəstəliklərə tutulmuşdur. [29] Tullantılardan sulara qarışan civə döşəməyə çökür və burada bakteriyalar tərəfindən həll edilir. Daha sonra sudakı planktonlar civəni tərkibinə alır. Planktonlarla bəslənən balıqlara, oradan da bu balıqlarla qidalanan insanlara keçir.

Yağışlardan sonra zibil sahələrindən sızan suların torpağa keçərək bu yolla yeraltı sularının çirklənməsinə səbəb olur. Zibil tökülən sahənin ətraf mühitə olan təsirlərindən biri də, parçalanma nəticəsində ortaya çıxan və qoxu problemi olan qazların, ətraf mühitə pis qoxularının yayılmasına səbəb olmasıdır.

Texnikasına görə zərərsizləşdirilməyən və depolanamayan məişət tullantıları orta əhəmiyyətli dərəcədə ətraf çirklənməsinə səbəb olmaqla, əhali sağlamlığına mənfi təsir edir.

İnkişaf edən texnologiya ilə birlikdə artıq, təmizlik edilərkən bir çox sahədə kimyəvi maddədən istifadə edilir. Bu kimyəvi maddələr, təmizlik mövzusunda yaxşı bir nəticə verə bilər, ancaq bunların tullantıları təbiət üçün nə kimi mənfiliklər meydana gətirir bunu da bilmək lazımdır. İstifadə edilən kimyəvi maddələr, istifadədən sonra tullantı olaraq təbiətə atılır. Bunun içərisindəki xarici maddələr torpağa çatdığında, torpağa zəhər təsiri yaradır və torpağın bitkilərə həyat verəbilmə qabiliyyətini məhdudlaşdırır.

Saxsıda olan bir çiçəyin torpağına davamlı olaraq bu kimyəvi maddənin tökülməsi, bir zaman sonra onun məhvinə gətirib çıxarır. Bu səbəbdən ötəri təmizlik işlərində mümkün olduğu qədər az, hətta heç kimyəvi maddə istifadə etməmək lazımdır. Ərəb sabunu təmizlik mövzusunda digər alternativlərini görə təbiətə ən az zərəri verən variantdır. Bununla birlikdə mətbəxdə istifadə olunan yağlar da, çox böyük miqdarda su kütlələrinin çirklənməsinə səbəb olur. 1 lt tullantı yağ töküldüyü zaman, minlərlə litr suyun çirklənməsinə səbəb olmaqdadır. Bu

səbəbdən ötəri lazımlı araşdırmaların edilib, bu cür tullantıların şüurlu bir şəkildə məhv edilməsi lazımdır.

Məişət tullantılarının miqdarı və xüsusiyyətləri, insanların sosial-iqtisadi quruluşu ilə yaxın əlaqəlidir və ən çox, gəlir səviyyəsi, istehlak və istifadə vərdişləri ilə dəyişilə bilər.

"Tullantıların təsirinin optimallaşdırılması" olaraq da adlandırılan tullantıların mənbəsində azaldılması EPA (United States Environmental Protection Agency) tərəfindən, tullantının miqdarının və ətraf mühit üzərində meydana gətirəcəyi mənfi təsirlərin azaldılması üçün material və məhsulların dizayn, istehsal və istehlak mərhələlərindəki dəyişmə olaraq təsvir edilir. Tullantıların optimallaşdırılması tullantının təkrar istifadəsini da nəzərdə tutur. Məhsulun yaxşı hazırlanması tullantıların miqdarını, yaxşı qablaşdırılması isə, tökülməsi və s. vəziyyətlərdə meydana gələ biləcək zərəri azaldır. Orqanik maddələrin, yemək tullantılarının kompostlaştırılması tullantıların miqdarını azaltmaq, əldə edilən məhsul da torpaq islahedici maddə olaraq qiymətləndirilə bilər. [25]

Tullantıların meydana gəlməsinə səbəb ola biləcək fəaliyyətlərdə ediləcək modifikasiyalarla tullantıların əmələ gəlməsinə maneə törədilə bilər. Məsələn, inkişaf edən texnologiya ilə birlikdə elektron poçtların istifadə edilməsi, kağız tullantıların əmələ gəlməsinə şərait yaradır. Uzun müddətli istifadəyə uyğun olan materialların dəyişdirmə kampaniyalarıyla qiymətləndirilməsi tullantıların optimallaşdırılmasında əhəmiyyətli rol oynayır.

Təkrar istifadəyə yararlı maddələrin orijinal halları ilə və ya fərqli formalarda istifadəsi də tullantını azaldar. Məsələn, içki şüşələri toplandıqdan sonra yuyularaq təkrar istifadə ediləcək hala gətirilir.

Tullantıların anlayışı hər nə qədər "işə yaramayan, istifadə oluna bilməyən maddə/maddələr" olaraq düşünülsə də, istifadə edilən tullantıların qiymətləndirilməsi həm böyük bir iqtisadi qaynağın yox olmasına maneə törədir, həm də xammalla təmin edərək təbii qaynaq istifadəsini azaldır.

Tullantıların ətraf mühitə təsirinin optimallaşdırılması nəticəsində təbii qaynaqlar qorunur, enerji qənaəti təmin edilir, iqtisadiyyata qatqı təmin edilir, zibilliyə gedən tullantı miqdarı azalır və gələcəyə sərmayə edilir.

**Açar sözlər:** *tullantı, tullantıların növləri, bərk tullantılar, məişət tullantıları, insan sağlamlığı, təkrar emal*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu Ekoloji məlumat kitabı. Bakı, 2013*

*2. Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi - Azərbaycanın statistik göstəricisi. Bakı, 2003. – 140 səh.*

*3. Azərbaycan Respublikasının Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli proqramı. Bakı , Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2002*

*4. Azərbaycan Respublikasının ətraf mühitə dair qanunvericilik toplusu. Bakı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2002*

*5. Bakı Məişət tullantılarının yandırılma ilə emalı zavodunun tikintisi və istismarı dövründə ətraf mühitə təsirin qiymətləndirilməsi. Bakı, 2009. – 250 səh.*

*6. Bayramov K.B. Təbiətdən istifadənin iqtisadi və ekoloji problemləri. Bakı, 2011. – 108 səh.*

*7. Babayev Ə.İ., Səlimova N.Ə., Şahpələngova B.Ş. Mühəndis ekologiyası. Bakı, 2012. – 639 səh.*

*8. Əliyev A., Əliyev T. Bərk məişət tullantılarının idarə olunmasına dair terminlərin və anlayışların izahlı lüğəti. Bakı, Sosial iqtisadi araşdırmalar İctimai Birliyi, 2012*

*9. Ətraf mühitin mühafizəsi üzrə milli fəaliyyət planı. Bakı, Dövlət Ekologiya və təbiətdən istifadəyə nəzarət komitəsi, 1998*

*10. Göyçaylı Ş.Y., İsmayılov T.Ə. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı, 2009. – 232 səh.*

*11. Chilton M., "WTE Worldwide", Waste Management World, Nov-Dec 2008, pp. 47-49*

*12. Environmental Risk Assessment: Approaches, Experiences and Information Sources. https://www.eea.europa.eu/publications/GH-07-97-595-EN-C2/riskindex.html (20.04.2016)*

*13. Golomeova S., Srebrenkoska V., KrstevaS., Spasova S. Solid waste treatment technologies. https://core.ac.uk/download/pdf/35332149.pdf (21.02.2020)*

*14. Nagy V., Szabó E. Biogas from organic wastes. Studia Universitatis "Vasile Goldiş", Seria Ştiinţele Vieţii Vol. 21, issue 4, 2011, pp. 887-891*

*15. Solid waste management in the world's cities.*

*Water and sanitation in the world's cities // United Nations Human Settlements Programme. – L.; Wash., DC, 2010. – P. XX–XXI*

*16. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. https://president.az/files/future_az.pdf (23.12.2019)*

*17. http://www.calrecvcle.ca.gov/Publications/Documents/LocalAsst/31002001.pdf (23.12.2019)*

*18. http : //edugreen.teri .res.in/explore/solwaste/types.btm (08.01.2020)*

*19. http : //imco.co.uk/product/wastepro-ii (02.03.2020)*

*20. http://tamizshahar.az (17.01.2020)*

*21. http://www.imu.edu/stories/student-life/festival-trash-cans.shtml (21.12.2019)*

*22. http://www.iswa.az (02.03.2020)*

*23. https://all3dp.com/2/3d-printer-recycled-plastic-tips-for-your-waste-plastic (11.01.2020)*

*24. https://usphs.gov (04.12.2019)*

*25. https://www.epa.gov/superfund/superfund-waste-management (22.12.2019)*

*26. https://www.goingzerowaste.com (22.12.2019)*

*27. https://www.researchgate.net/publication/330194022_SYNTHESIS_OF_FUEL_FROM_WASTE_PLASTIC_A_PROJECT_REPORT (21.12.2019)*

*28. https://www.terracycle.com/en-US (22.12.2019)*

*29. Minamata disease: methylmercury poisoning in Japan caused by environmental pollution. https://www.ncbi.nlm.nih.gov/pubmed/7734058 (04.12.2019)*

**Sebuhi Mehdizade**
**PhD Candidate of The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

## CLASSIFICATION OF WASTE IN MODERN TIMES AND ITS IMPACT ON HUMAN HEALTH

### SUMMARY

The article deals with the problem of waste classification in the modern world. It also explains the dangers posed to the human health by volumes of waste increasing proportionally with the growing rates of consumption. The article emphasizes the importance of improving waste management processes through application of modern scientific approaches with the view of minimizing or eliminating the impact of damage on human health.

**Keywords:** *waste, types of waste, solid waste, household waste, human health, recycling*

**Сабухи Мехтизаде**
**Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

## КЛАССИФИКАЦИЯ ОТХОДОВ В СОВРЕМЕННЫЙ ПЕРИОД И ИХ ВЛИЯНИЕ НА ЧЕЛОВЕЧЕСКОЕ ЗДОРОВЬЕ

### РЕЗЮМЕ

В статье затрагивается проблема классификации отходов в современной мировой практике. Также раскрыта сущность опасности для здоровья человека, связанной с продолжающимся ростом отходов в соответствии с темпами потребления. В статье также доводится до внимания важность усовершенствования процессов управления отходами путем современных научных подходов, с целью доведения до минимума масштаба вреда, наносимого отходами человеческому здоровью или их полного устранения.

**Ключевые слова:** *отходы, виды отходов, твердые отходы, бытовые отходы, человеческое здоровье, переработка*

UOT: 33

# AZƏRBAYCANDA İNNOVATİV BİZNES VƏ ONUN İNKİŞAF PRESPEKTİVLƏRİ

**MİKAYIL NƏBİYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti "Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi"nin magistrantı*

*E-mail: mikayilnebiyev7@gmail.com*

## Giriş

Müasir bazar iqtisadi sisteminə malik olan hər bir ölkənin sosial-iqtisadi tərəqqisi elmin, insan kapitalının və innovasiya amillərinin inkişafından asılıdır. İnnovativ milli biznesin formalaşması ölkənin milli iqtisadi gücünün və mənafelərinin səmərəli formada reallaşması istiqamətlərini müəyyən edir. Bu baxımdan, məqalənin mövzusu aktuallıq kəsb edir. Digər tərəfdən mövzunun aktuallığını səciyyələndirən arqumentlər aşağıdakılardan ibarətdir:

- Ölkənin sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulmuş vəzifələrin reallaşdırılması;
- Ölkənin texniki-iqtisadi rəqabət gücünün formalaşdırılması;
- Milli məhsulların keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılması;
- Müqayisəli üstünlüyə malik olan istehsal sahələrinin innovativ inkişafına dövlət dəstəyinin artırılması;
- İnnovativyönümlü məhsulların beynəlxalq bazarlara çıxışının təmin olunması;
- Regionlarda innovativyönümlü sahələrin inkişafının dövlət tərəfindən həvəsləndirilməsi və s.

Dünya ölkələrində müasir bazar münasibətləri sisteminin formalaşması və inkişafında innovativ milli biznes fəaliyyətinin daha da genişlənməsi mühüm əhəmiyyət kəsb edir. Tarixi baxımdan hər bir ölkədə innovativ milli biznesin meydana gəlməsi hər şeydən əvvəl onların iqtisadi inkişaf səviyyəsindən asılıdır. Özlüyündə biznes fəaliyyətinin sərhədi yoxdur. Bütün ölkələrin milli biznesi xalqın milli iqtisadi mənafelərinə (maraqlarına) uyğun olaraq inkişaf edir və son nəticədə beynəlmiləlləşir, dünya iqtisadiyyatının inkişafının "məhək" daşına çevrilir. Dünya ölkələri beynəlxalq və milli biznes əlaqələrinin inteqrasiyası əsasında öz məqsədlərinə nail olurlar. Biznes fəaliyyəti müasir innovasiyaların formalaşmasına imkan verir, onun nəticələri (məhsulları) dünya bazarında öz təcəssümünü tapır və onlar arasında rəqabət baş verir. Beynəlxalq və milli səviyyədə biznesin inkişafı ilə innovativ inkişaf arasında səbəb-nəticə əlaqələri baş verir. Konkret formada yanaşıldıqda insan kapitalı, innovativ inkişaf, biznes fəaliyyəti və rəqabət arasında fasiləsiz olaraq tsiklik əlaqə vardır. Rəqabət isə bu tsiklik əlaqənin baş verməsində lokomotiv rola malikdir. İnnovativ milli biznesin formalaşması və inkişafı dünya ölkələri arasında rəqabətqabliyyətli iqtisadiyyatın meydana gəlməsi və onun səmərəliliyinin artması əsasında özünü daha çox büruzə verir. Məntiqi baxımdan yanaşdıqda innovasiyaların yaranmasını həm də rəqabətin nəticəsi kimi dəyərləndirmək olar. Belə ki, müasir innovasiyalardan səmərəli istifadə olunması iqtisadiyyatın rəqabətqabliyyətliliyinin yüksəlməsinə gətirib çıxarır. Ölkədə Milli İnnovasiya Sisteminin (MİS) yaradılması innovativ milli iqtisadiyyatın yeni strateji istiqamətlərini müəyyən edir. Onu da qeyd etmək lazımdır ki, innovativ iqtisadiyyatın strateji istiqamətlərinin şəffaf surətdə reallaşmasında inhisarçılıq meyillərinin aradan qaldırılması olduqca zəruridir. İnhisarçılıq innovasiya bazarında ona olan tələb və təklifin nisbətinin pozulmasına birbaşa təsir göstərir. Belə ki, innovasiya bazarında iştirak edən subyektlərin sayının artması, tələb və təklifin

həcminin yüksəlməsi, bu bazara daxil olmada heç bir süni maneənin olmaması sağlam rəqabət mühitinin yaxşılaşmasına gətirib çıxanır. Odur ki, innovativ inkişafin təmin olunması üçün innovasiya bazarında sağlam rəqabətin mövcudluğu da əsas şərtlərdən biridir.

Dünyada innovativ biznes daim yeniləşir, təkmilləşir və beynəlmiləşmiş bir prosesə çevrilir. İnnovativ milli biznesin beynəlmiləlləşməsinin maddi əsasını beynəlxalq əmək bölgüsü, ölkələr arasında istehsalın ixtisaslaşması və kooperativləşməsi təşkil edir. Bunlarla yanaşı, innovativ milli biznes innovativ sahibkarlığın mühüm tərkib hissəsidir. Milli biznesin inkişafı müxtəlif inkişaf səviyyəsində yaşayan ölkələrin milli iqtisadi mənafelərinə və sövqedici motivlərinə əsaslanır.

Yeni biliklər, texnologiyalar və onların sosial-iqtisadi inkişafa səmərəli tətbiqi ölkənin dünya birliyində yerini və milli təhlükəsizliyinin təminatını müəyyən edir [6].Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, innovativ resursların məhdudluğunu nəzərə alaraq, bütün iqtisadi sistemlərdə onlardan istifadənin səmərəli davranış normalarına əməl olunmalıdır.

Azərbaycanda innovativ milli biznesin formalaşması vəziyyətinin təhlili.

Dünya ölkələrində maddi-iqtisadi resursların qeyri-bərabər inkişafı ölkələr arasında milli biznesin formalaşması və tərəqqisinə birbaşa təsir göstərir. Lakin dünya ölkələrində milli biznesin inkişafında qarşıda duran qlobal səbəb (vəzifə) həmin məhdud resurslardan necə və nəyin vasitəsi ilə istifadə etməklə ölkələrin milli təsərrüfatlarını inkişaf etdirmək və insanların sonsuz tələbatlarını hərtərəfli ödəməkdir. Bu məqsədə nail olmaq üçün müasir tələblərə cavab verən innovativ texnologiyalar yaradılmalı və onlardan səmərəli istifadə təmin edilməlidir. Dünya ölkələrində məhsuldar qüvvələrin inkişaf səviyyəsi və qanunauyğunluqları baxımından yanaşdıqda innovativ texnologiyaların yaradılması və onların dünya bazarında biznes obyektinə çevrilməsi qlobal bir iqtisadi prosesdir. Hazırda müasir innovativ texnologiyaların istehsalında və dünya bazarına çıxarılmasında ÇXR, ABŞ, Almaniya, İtaliya, Yaponiya, Cənubi Koreya Respublikası, Malayziya, Sinqapur, Tayvan və digər ölkələri misal gətirmək olar. Azərbaycan əlverişli biznes mühitini təmin edərək 2016-cı ildə Dünya Bankının hazırladığı "R Business" hesabatında 189 ölkə arasında 63-ci yeri tutmuşdu. Eyni zamanda Dünya Bankında əks olunan 10 göstəricidən 5-i üzrə Azərbaycan dünya ölkələri arasında ilk 40-cı yerdə qərarlaşmışdır. Bunlarla yanaşı, özəl sektorun qeyri-neft iqtisadiyyatına investisiya qoyuluşunu stimullaşdırmaq məqsədilə əlverişli biznes mühitinin daha da təkmilləşdirilməsi və onun institusional əsaslarının gücləndirilməsi irəli sürülür. Azərbaycanda innovativ milli biznesin inkişaf strategiyasında xarici bazarlara çıxış məqsədilə azad ticari sazişlərinin bağlanılması və müasir innovativ texnologiyaların yaradılması və reallaşdırılması mühüm vəzifələrdən biridir. Azərbaycan iqtisadiyyatı və milli biznesi dünya iqtisadiyyatını tərkib hissəsidir. XX əsrin 90-cı illərində Yaponiya alimi K.Ohtac "Sərhədsiz dünya" kitabında göstərmişdir ki, ayrı-ayrı dövlətlərin milli iqtisadiyyatı haqqında danışmaq artıq mənasızdır və dünya iqtisadiyyatı bundan sonrakı üç mərkəzin, yəni ABŞ, Avropa İttifaqı və Yaponiyanın qarşılıqlı əlaqəsi ilə müəyyən edilir.O, iddia edirdi ki, artıq milli dövlətlər deyil, "qlobal firmalar" iqtisadi arenadə əsas oyunçulardır [3].

Qloballaşan dünyada irəli sürülən, yaranan bütün axtarışların, ideyaların, yeniliklərin və innovasiyaların heç bir "sərhəd"i yoxdur və onlar beynəlxalq ixtisaslaşma və əmək bölgüsü əsasında özünü büruzə verir. Hər bir ölkənin innovativ yenilikləri onun milli rəqabət gücünün möhkəmlənməsinə, inteqrasiya əlaqələrinin genişlənməsinə və iqtisadiyyatın hərtərəfli inkişafına təsir göstərir. Hansı ölkə beynəlxalq əmək bölgüsü sistemində fəal iştirak edirsə, xarici kapitalın və meyillərin üstünlüklərindən istifadə edirsə, onun iqtisadi gücü də artmış olur. Dünya ölkələrində innovasiya texnologiyalarının inkişafında xarici iqtisadi əlaqələrin mühüm rolu vardır. Xarici iqtisadi əlaqələr ölkələr arasında elmi-texniki və innovativ texnologiyaların mübadiləsinin intensiv xarakter almasına təsir göstərir. Xarici iqtisadi fəaliyyətdə investisiya resurslarının, informasiya vasitələrinin, elmi-texniki ideyaların xarici kapitalın mübadiləsinə

üstünlük verilir. Bununla yanaşı, xarici iqtisadi əlaqələrin formalaşması və inkişafında innovativ sənaye biznesinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Belə ki, inkişaf etmiş sənaye ölkələri sənaye sferasında innovativ texnologiyaların dünya bazarlarına çıxarılması və onların rəqabətqabliyyətliliyinin artırılmasına daha çox diqqət yetirirlər. Hazırda sənaye klasterlərinin yaradılmasında innovasiya biznesinin fəallaşmasına daha çox üstünlük verilir. Belə yönümlü innovasiyalar qara və əlvan metallurgiya, yanacaq sənayesi, maşınqayırma, neft-kimya, elektrotexnika və digər sahələrdə özünü təzahür etdirir. Bunlarla yanaşı, innovasiya istiqamətli sahələrə dəmir yolunu, nəqliyyat infrastrukturu sistemini, regional sənaye zonalarını, avtomobil nəqliyyat vasitələrini aid etmək olar. Hazırda dünya ölkələrində istehsal və sosial infrastruktur sistemlərinin formalaşması və idarə olunmasında innovasiya metodlarından və yeniliklərindən daha çox istifadə olunur. O cümlədən belə sahələrə "Asan xidmət" sistemini, rabitə və kommunikasiya vasitələrini, elektron dövlət, elektron ticarət, elektron xidmət və digərlərini göstərmək olar. Ümumiyyətlə, dünya ölkələrində innovativ milli biznesin inkişafinın müxtəlif modelləri mövcuddur. İnkişaf etmiş bazar sistemli ölkələrdə innovativ milli biznesin formalaşması və inkişaf modelinin maddi əsasını xarici və daxili investisiya qoyuluşları hesabına yeni sənaye inqilabı dövrünün yaranması prosesi təşkil edir. Bu proses isə XX əsrin 50-60-cı illərindən başlayaraq, həmin ölkələrdə özünü daha çox təzahür etdirmişdir. Müasir sənaye cəmiyyətlərinin, elmi-texniki komplekslərin, yaradıcılıq cəmiyyətlərinin, avtomatik idarəetmə sistemlərinin və s. formalaşması neoindustrial dövrün innovativ xarakterini özündə əks etdirir.

Ölkəmizdə də bu sahədə əhəmiyyətli tədbirlər görülür. Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafi, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələnir. XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir. 2013-cü il ölkəmizdə "İnformasiya kommunikasiya texnologiyaları ili" elan edilmiş və fevral ayının 8-də ölkəmizin ilk telekommunikasiya peyki orbitə çıxarılmışdır [2].

Dünyanın bir çox ölkələrində innovativ biznesin inkişafında kiçik və orta sahibkarlığın dövlət tərəfindən stimullaşdırılması modeli tətbiq edilmişdir. Bu modeldə insan kapitalının rolundan və imkanlarından daha çox istifadə olunmuşdur. Həmin ölkələrə Çin Xalq Respublikasını, Almaniya Federativ Respublikasını, Yaponiyanı, İtaliyanı, Fransanı və digər müasir sənaye ölkələrini misal göstərmək olar.

Azərbaycanda innovativ biznesin formalaşması və inkişafında dövlət tərəfindən innovasiyaların təşviqini stimullaşdıran fəaliyyət proqramları hazırlanır, elmi araşdırmalar aparılır, geniş diapazonlu bilik şəbəkəsi yaradılır və onun yaradıcı imkanlarından istifadə olunur. İnsan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi innovativ yeniliklərin əldə olunmasına təkan verir.

İnsan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi təhsil və elm sahələrində infrastruktur sisteminin təkmilləşdirilməsi əsasında həll oluna bilər. İnsan kapitalının innovativ milli biznesin inkişafına təsirini həyata keçirmək məqsədi ilə "təhsil-elm-istehsal" tsiklinin kompleks surətdə idarə edilməsinə nail olunmalıdır. Məhz buna görə hazırda Azərbaycanda insan kapitalının inkişaf etdirilməsi, qeyri-neft sektorunun inkişafi, biznes mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində islahatlar aparılır. Bu islahatların davam etdirilməsi orta və uzunmuddətli dövrdə təhsilin (xüsusilə təhsilin ixtisaslı kadr hazırlığı pillələrində) keyfiyyətinin yüksəldilməsi, infrastrukturun və "elm-təhsil-istehsal" əlaqələrinin çevik idarəetmə mexanizminin qurulması, eləcə də şirkətlərin qlobal dəyər zəncirinə qoşulmaqla dünya bazarlarına inteqrasiyası üçün əhəmiyyətli hesab edilir.

Bunun üçün İKT sistemi təkmilləşdirilməli, cihaz və avadanlıqlar, laboratoriyalar, təcrübə-sınaq stansiyaları (mərkəzləri), fondlar, innovasiya

müəssisələri, konsaltinq və mühəndislik xidmətləri sahəsində mühüm işlər aparılmalıdır.

Bunlarla yanaşı, bir məsələni qeyd etmək olar ki, ölkənin bir sıra regionlarında hələ də innovativ geriliklər nəzərə çarpır. Belə bir şəraitdə İKT bilik sistemi müasir insan kapitalının formalaşmasında öz rolunu göstərə bilməz. Odur ki, regional innovasiya siyasətinin konseptual müddəalarının və təcrübədə uğurlu realizə edilməsinin vacibliyi əsaslandırılır.Regional innovasiya siyasətinin gücləndirilməsi 2000-ci ildə Avropa Şurasının Lissabon sammitində də vurğulanmışdır [4].

Sosial innovasiya sisteminin bazasını möhkəmləndirmək məqsədi ilə təhsil sistemində elektron məktəb idarəetmə formasından, elektron kitabxanaların imkanlarından, təhsilin bütün səviyyələrində kurikulumların rəqəmsal tədris materiallarından (məsələn: elektron kitablar, elektron seminarlar, açıq tədris materialları və s.) daha geniş istifadə olunmalıdır. "Təhsil-elm-istehsal tsiklinin optimallaşdırılması və onların maddi-texniki bazasının müasir tələblər səviyyəsinə uyğunlaşdırılması sosial innovasiyaların ümumi məzmununu daha geniş formada əks etdirir.

Dövlətin innovasiya siyasətinin reallaşmasında elmin, elmi-tədqiqat və layihə-konstruktor işləmələrinin inkişafının stimullaşdırılması bir sıra yollarla həyata keçirilə bilər. Belə ki, Azərbaycanda elmin milli strategiyasına uyğun olaraq, elmi işçilərin maliyyə dəstəyi gücləndirilməli və onun maliyyələşdirilməsi sisteminə daha çox üstünlük verilməlidir. Elmi tədqiqatlarda güzəştli vergi dərəcələri tətbiq olunmalıdır.

Qeyd etmək lazımdır ki, dünyanın bir sıra ölkələrində olduğu kimi, Azərbaycan müstəqillik əldə etdikdən sonra durğunluq vəziyyəti (böhran) elm və təhsil sisteminə də öz təsirini göstərmişdir. Ölkədə sosial-iqtisadi çətinliklər nəticəsində elm və təhsilin mövcud potensial imkanlarından lazımi səviyyədə istifadə olunmaması çoxsaylı aparıcı alimlərin və bacarıqlı mütəxəssislərin xarici ölkələrə getmələrinə səbəb olmuşdur. Bu proses həmin dövrdə Azərbaycan elminə sarsıdıcı təsir göstərmişdir. Həmin dövrdə ölkədə innovativ irəliləyişlərdən söhbət gedə bilməzdi. Yəni Azərbaycanda keçid dövrünün doğurduğu çətinliklər və ziddiyyətlər innovativ böhran vəziyyətinə öz ciddi təsirini göstərdi. Lakin 1994-cü ildə "Əsrin müqaviləsi" neft strategiyasından sonra birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunması bir neçə ildən sonra sosial-iqtisadi inkişafda öz müsbət bəhrəsini verməyə başladı. Ölkədə bir sıra zəruri dövlət proqramlarının qəbul olunması kiçik və orta sahibkarlığın (biznesin) inkişafına hüquqi-iqtisadi baza yaratdı. Sahibkarlıq (biznes) fəaliyyəti genişləndikcə müasir dövrün tələblərinə cavab verən insan kapitalının formalaşması prosesinə şərait yarandı. Özlüyündə yaradıcı insan kapitalının yaranması innovativ yeniliklərin meydana gəlməsinə birbaşa təsir göstərdi. Beləliklə, tədricən innovativ böhran vəziyyətindən çıxış imkanları özünü büruzə verməyə başladı və iqtisadiyyatın bir sıra sahələrində innovativ yeniliklər nəzərə çarpmağa başladı. Son 15 il ərzində Cənubi Qafqaz regionunda Azərbaycan bütün sahələrdə mütləq üstünlüyə malik olaraq iqtisadi inkişaf potensialının 70 faizini özündə cəmləşdirir. Bu baxımdan, Azərbaycan iqtisadiyyatı innovasiyayönümlüdür və bir çox geniş sahələri əhatə edir. Həmin sahələrə neft sənayesini, emal sənaye sahələrini, tikinti sahəsini, xidmət sferasını, İKT və s. aid etmək olar.

**Nəticə**

Gələcəkdə Azərbaycanın iqtisadi inkişaf strategiyasının tələblərinə uyğun olaraq, iqtisadiyyatın bütün sahələrində innovativ milli biznesin inkişafı proporsional (mütənasib) formada təmin edilməlidir. Ölkədə innovativ milli biznesin inkişafı milli iqtisadi mənafelərin reallaşmasına xidmət etməlidir. Azərbaycanın sosial-iqtisadi inkişafında mütərəqqi irəliləyişlər baş verdikcə bir sıra sahələrdə innovativ məhsulların xarici ölkələrə ixracında mühüm addımlar atılmışdır. Onlara əsasən emal sənayesi məhsullarını, neft-kimya sənaye məhsullarını, tikinti, pambıq, tütün və digər məhsulları aid etmək olar. Lakin innovativ milli biznesin inkişafında idxalı əvəz edən məhsulların inkişafına daha çox diqqət yetirilməsi məqsədəuyğundur. Belə məhsullara emaledici və neft sənayesi üçün maşın, dəzgah və avadanlıqları, qənaətcil əvəzedici resursları və s. aid etmək olar. Xüsusilə qeyri-neft sektorunun inkişafında

və iqtisadiyyatın şaxələndirilməsində innovasiyayönümlü məhsulların istehsalına daha çox investisiya qoyuluşları nəzərdə tutulur. Bununla yanaşı, aqrar bölmədə də istehsal olunan kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması və dünya bazarına çıxarılması məqsədilə innovasiya resurslarından daha geniş formada istifadə olunmalıdır. Göstərilən innovativ tədbirlərin reallaşmasında güclü maliyyə mənbəyi kimi xarici və daxili investisiyaların imkanlarından səmərəli istifadə olunmalıdır. Azərbaycanda innovasiya aktivlərini yüksəltmək məqsədilə investisiya qoyuluşlarının effektivlik (səmərəlilik) dərəcəsi nəzərə alınmalıdır. Ölkədə innovasiya fəallığını artırmaq məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsinə üstünlük verilməlidir:

- Xarici və daxili investisiyaların qeyri-neft sektorunun inkişafına yönəldilməsi stimullaşdırılmalıdır;
- İnnovativyönümlü firmaların və şirkətlərin fəaliyyətinə əlverişli rəqabət və biznes mühiti yaradılmalıdır;
- ölkədə fiziki və mənəvi cəhətdən aşınmış (köhnəlmiş) əsas fondların yenisi ilə əvəz olunmasına investisiya qoyuluşlarının həcmi artırılmalıdır;
- milli istehsal sahələrində innovativ texnologivaların tətbiqi istiqamətində investisiya qoyuluşları təşviq edilməlidir;
- xarici ölkələrə kapital axınının məhdudlaşdırılması və onun innovasiyayönümlü sahələrə yönəldilməsi imkanları genişləndirilməlidir;
- ölkədə müqayisəli üstünlüklər nəzərə alınmaqla innovasiyayönümlü prioritet sahələrin inkişafına diqqət yetirilməlidir;
- Azərbaycanın regional inteqrasiya bloklarında fəal iştirakını təmin etmək məqsədi ilə beynəlxalq bazarda innovasiyayönümlü məhsulların istehsalı stimullaşdırılmalıdır;

**Açar sözlər:** *milli biznes, innovasiya potensialı, innovasiya iqtisadiyyatı, innovativ inkişaf, innovasiya strategiyası.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.*

*2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlat Proqramı" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral 2014-cü 11.*

*3. Azərbaycanın xarici iqtisadi əlaqələri: nailiyyətlər və perspektivlər. AMEA nin İqtisadiyyat İnstitutu. Bakı: "Avropa" nəşriyyatı, 2015.*

*4. A.Musayev. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması.*

*5. Z.M.Nəcəfov. Milli innovasiya sistemlərinin əsasları. Bakı: "Elm", 2006.*

*6. A.D.Hüseynova. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: "Elm və təhsil", 2013.*

## РЕЗЮМЕ

Целью написания данной статьи является определение направлений развития, характеристик и форм проявления инновационного национального бизнеса на международном уровне в соответствии со стратегией экономического развития страны.

В статье рассматриваются общие основы формирования инновационного национального предпринимательства, материальные предпосылки, роль национального и международного разделения труда. Суть статьи, которую можно рассматривать как научную инновацию, заключается в том, что на основе причинно-следственной связи науки, инноваций и развития человеческого капитала определен механизм его действия как закона «человеческого капитала». Роль развития также упоминается в вопросах и аргументах, подтверждающих эту роль.

Затем комментируются различные модели и направления развития национального бизнеса в мире, здесь приводится ряд эффективных предложений и рекомендаций о перспективах инновационного развития в Азербайджане, которые могут быть использованы для повышения эффективности хозяйствующих субъектов и стратегии социально-экономического развития страны.

**Ключевые слова:** *национальный бизнес,*

*инновационный потенциал, инновационная экономика, инновационное развитие, инновационная стратегия.*

**SUMMARY**

The purpose of writing the article is to determine the development directions, features and forms of manifestation of innovative national business at the international level in accordance with the economic development strategy of the country.

The article considers the general basis of the formation of innovative national business, the material prerequisites, the role of the national and international division of labor. The main point of the article, which can be considered as a scientific innovation, is that based on the cause-and-effect relationship between science, innovation and human capital development, the mechanism of its action as the law of "human capital" is defined. The role of development is also mentioned in the issues and arguments confirming this role.

Then, various models and directions of national business development in the world are commented. Here are a number of effective proposals and recommendations on the prospects of innovation development in Azerbaijan. These proposals can be used to increase the efficiency of economic entities and the country's socio-economic development strategy.

**Keywords:** *national business, innovation potential, innovation economy, innovative development, innovation strategy.*

UOT: 33

# XİDMƏTLƏR SAHƏSİ MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ TƏHLİLİ VƏ NƏZARƏTİ

**ZƏHRA ABİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Magistr*

*E-mail: zehra_abiyeva@mail.ru*

## Giriş

İqtisadi təhlil – kommersiya təşkilatının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə onun fəaliyyətinin dərin, elmi cəhətdən əsaslanmış tədqiqatıdır.

Müasir dövrdə iqtisadiyyatın, eləcə də onun ayrı-ayrı sahələrinin, təsərrüfat subyektlərinin idarə edilməsinin təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi ön plana çəkilmişdir. İdarəetmənin elmi nəzəriyyəsi onun funksiyaları və elementlərinin mürəkkəbliyi ilə səciyyələnir. İdarəetmə idarə edən orqanın (şəxsin) idarə edilən obyektin səmərəli fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə onun inkişafına fəal təsir etməsi prosesidir. İdarəetmənin mahiyyəti onun funksiyaları ilə xarakterizə olunur. İdarəetmənin ayrı-ayrı funksiyaları idarəçilik əməyinin bölünməsi və ixtisaslaşması prosesində ayrılıb. Onların əsasını planlaşdırma, uçot, təhlil və tənzimləmə təşkil edir. Funksiyalardan hər biri daha kiçik elementlərə və ya alt funksiyalara bölünə bilər. Məsələn, planlaşdırma funksiyasında proqnozlaşdırmanı, proqramlaşdırmanı, tənzimləməni və s. ayırmaq olar.

İdarəetmə uçotu İdarəetmə prosesini uçot prosesi ilə əlaqələndirir. İdarəetmə uçotu istehsalat-kommersiya fəaliyyətinin planlaşdırılması və nəzarətin aparılması üçün menecerə lazım olan informasiyanın hazırlanması prosesini özündə birləşdirir. İdarəetmə uçotu - hər hansı bir obyektin idarə olunması üçün lazım olan məlumatların eyniləşdirilməsi, ölçülməsi, yığılması, sistemləşdirilməsi, təhlili, ayrılması, izahı və ötürülməsi deməkdir. İdarəetmə uçotuna başqa adla daxili uçot deyə bilərik.

Uçot elmində İdarəetmə və istehsalat uçotu anlayışları vardır. İdarəetmə uçotu istehsalat uçotuna əsaslanaraq müxtəlif İdarəetmə qərarları (operativ, taktiki və strateji) qəbul etmək üçün informasiya bazaları hazırlayır. O, operativ və taktiki qərarların qəbul edilməsində müəssisə (idarə) rəhbərlərini zəruri informasiyalarla tam təmin edir. Strateji qərar qəbul etmək üçün isə uçot məlumatları ilə yanaşı, xüsusi tədqiqat nəticəsində əldə edilən məlumatlardan da istifadə etmək zəruridir.

Beləliklə, İdarəetmə uçotu müəssisənin müəssisədaxili idarə olunması sisteminin ayrılmaz hissəsi hesab edilir və istehsalat uçotundan onunla fərqlənir ki, burada əsas diqqət informasiyanın İdarəetmə məqsədi üçün istifadə edilməsinə yönəldilir.

Bu tədqiqatın obyekti kimi təşkilatın məqsədləri və prinsipləri, həmçinin İdarəetmə təhlilinin və nəzarətinin məsələləri çıxış edir. Predmeti isə xidmətlər sahəsinə aid olan müəssisələrdə İdarəetmə qərarlarının qəbul edilməsi üçün yaranan İdarəetmə münasibətləri hesab edilir. İşin məqsədi - xidmətlər sahəsinə aid olan müəssisələrdə İdarəetmə təhlili və nəzarəti təşkilinin əsas prinsiplərinin müəyyən edilməsi hesab edilir.

## Metod

Tədqiqatda aşağıdakı məsələlər nəzərdə tutulur:

– xidmətlər sahəsinin müəssisələrinə məxsus olan və iqtisadi fəaliyyətin bu növünü digər növlərdən fərqləndirən spesifik məqamları aşkar etmək;

– xidmətlər sahəsinin müəssisələrində İdarəetmə təhlili və nəzarəti təşkilinin əsas prinsiplərini müəyyən etmək.

Elmi ədəbiyyatı öyrənərək (Novoselski və Akulova, 2014.) üç proyeksiya kəsimində xidmətləri təsnifatlara ayıra bilərik:

– istehlakçılara təqdim edilmiş xidmətlər (qidalanma xidmətləri, xidmət göstərmə xidmətləri, reklam xidmətləri);

– tədarükçülərə təqdim edilmiş xidmətlər (maliyyə, marketinq);

– təşkilat iqtisadiyyatın digər sahələrinə təqdim edilmiş xidmətlər.

Xidmətlərin inteqrasiya və inkişaf dərəcəsi, onların iqtisadi potensialı əhalinin rifahını və onun həyat səviyyəsini, həmçinin insanların həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsirini xarakterizə edir.

**Analiz**

**Sxem 1. Xidmətlər sahəsinin müəssisələrində təhlilin xüsusiyyətləri**




Xidmətlər sahəsi müəssisələrinin müxtəlif tipləri ilə xarakterizə edilir, onlar öz növbəsində istehlakçıların müxtəlif tələbatlarını təmin edir. Bu cür müəssisələr satılan xidmətlərin müxtəlif növ çeşidləri ilə təsnif edilir. Qeyd etmək lazımdır ki, xidmətlər sahəsinin müəssisələrinə sanitar normaların riayət olunması üzrə tələblər irəli sürülür, çünki bu cür xidmətlər və məhsul bilavasitə insanların həyat fəaliyyəti ilə bağlıdır və bu cür sanitar normalarından sarpma özünə istehlakçı üçün potensial təhlükəni cəlb edə bilərlər. “İnsan amilinin”, əmək ehtiyatlarının “dəyərinin” böyük rolu – ehtiyat potensialının formalaşmayan komponentidir, o müəssisənin ümumi aktivlərin tərkibinə daxil olmur. Xidmətlər sahəsi müəssisələrinin xüsusiyyəti o hesab edilir ki, burada bitməmiş istehsalat – icra prosesində olan xidmət, hazır məhsul isə - artıq müəssisə tərəfindən istehlakçıya göstərilmiş xidmət hesab edilir.

İqtisadiyyatın bir və ən inkişaf etmiş və perspektivli sahələrindən xidmətlər sahəsi hesab edilir, o, ticarəti, nəqliyyatı, sığortalanmanı, maliyyələşdirməni və sair əhatə edir. Təşkilatın idarə olunması zamanı səmərəli və effektiv İdarəetmə qərarlarının qəbul edilməsi sahəsində yüksək nəticələrin əldə edilməsi üçün müasir təhlil, nəzarət, planlaşdırma növlərini istifadə etmək lazımdır. Beləliklə, xidmətlər sahəsinin müəssisələrində İdarəetmə təhlili qəbul edilmiş İdarəetmə həllərinin nəticələrini qısa müddətli proqnozlaşdırma zamanı analitik qiymətləndirmədə şirkət menecmentinin cari tələblərinin yerinə yetirilməsinə yönəldilib. Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, İdarəetmə təhlili İdarəetmə təcrübəsinin cari və perspektiv istehsalatın xidmət göstərilməsidir.

**Sxem 2. İdarəetmə və nəzarət arasında qarşılıqlı münasibət**




Xidmətlər sahəsinə aid olan müəssisələrdə İdarəetmə təhlilinin həyata keçirilməsi prosesində, aşağıda qeyd olunan məsələlər vacibdir (Novoselski, 2016):

– həcm və struktur üzrə xidmətlərin satış planının icra edilməsi dərəcəsini müəyyən etmək;

– dinamikada müəyyən xidmətlər növü üzrə tələbatın dəyişdirilməsinin əsas tendensiyalarını müəyyən etmək;

– faktı plan ilə müqayisə edərək, xidmətlərin reallaşdırılmasının dəyişdirilməsi üzrə qiymət və miqdar amilinin təsirini ölçmək;

– təqdim edilmiş xidmətlərin, həmçinin istehlakçılara xidmət göstərmə formasının effektivlik dərəcəsini müəyyən etmək;

– qiymət siyasətinin effektivliyini müəyyən etmək;

– xidmətlərin göstərilməsi və təqdim edilməsi dərəcəsinin artması üzrə ehtiyatları aşkar etmək.

Maliyyə və İdarəetmə təhlilinin xarakterik

əlamətləri İdarəetmənin əsas funksiyalarından biridir və iqtisadi təhlil əsaslandırılmışİdarəetmə qərarları qəbul edilməsinin əsasını təşkil edir. İdarəetmə təhlilinin başlıca məqsədi – kommersiya təşkilatının istehsal, təsərrüfat və maliyyə fəaliyyətinin səmərəliliyininyüksəldilməsinə və onun rəqabət qabiliyyətinin saxlanmasına kömək etməkdir. İdarəetmə təhlili daxili istehsal və daxili maliyyə təhlillərini əhatə edir. Digər tərəfdən, maliyyə təhlili həm daxili, həm də xarici ola bilər.

Nəzarət – müəssisə tərəfindən nəzərdə tutulmuş planların və təsərrüfat fəaliyyətinin tutuşdurma prosedurudur.

İdarəetmənin müəyyən funksiyası kimi nəzarət məqsədi qismində əvvəlcədən müəssisə tərəfindən planlaşdırılmamış təsərrüfat fəaliyyətinin həyata keçirilməsi zamanı yaranmış sarpmaların müəyyən düzəlişi kimi çıxış edir. Xidmətlər sahəsinin müəssisəsinin idarə olunmasında müəyyən nəzarət funksiyalarının mövcudluğu həm İdarəetmənin təkamül və obyektiv kateqoriyası nəzarətinin mövcudluğu faktının özünü inkar etmir (Novoselski, 2015).

**Sxem 3. Xidmətlər sahəsi müəssisəsinin təhlil alqoritmi**




## Nəticə

Xidmətlər sahəsinə aid olan müəssisələrdə İdarəetmə təhlili təşkilinin vacib xüsusiyyəti bu cür təhlilin operativliyi, vacibliyi hesab edilir. Xidmətlər sahəsinin müəssisələri fəaliyyətin müsbət maliyyə nəticələrini əldə etmələri üçün İdarəetmə təhlilini hər gün aparmaq lazımdır. Bu, ehtiyatları operativ şəkildə doldurmağa və təqdim edilmiş xidmətlərin nomenklaturasını həll etməyə imkan verəcək. Beləliklə, xidmətlər sahəsinə aid olan müəssisələrin fəaliyyət göstərməsinin miqdar və keyfiyyət ibarət olanların artması dərəcəsi üzrə daha çətin orqanizm olur. Ona, o zaman artan məlumat axınının İdarəetmə təhlili və nəzarəti üçün indi təşkilati(ı)-iqtisadi münasibətlərin idarə edilməsinin yeni strukturlaşdırılmış sistemi tələb olunur.

Xidmətlər sahəsinin müəssisələrində İdarəetmə təhlili və nəzarəti təşkilinin tədqiqatı İdarəetmə təhlilinin elastikliyini və xidmətlər sahəsi bazarının baş verən proseslərində onun təsiri sürətini göstərir. Bu cür təsirin nəticəsi kimi müəssisənin rəqabət bacarığının, həmçinin onun iqtisadi dayanıqlığının artması olacaq.

Belə bir nəticəyə gəlmək olar ki, İdarəetmə təhlilinin potensialı bu müəssisənin məqsədəuyğun və effektiv idarə olunmasına imkan verən müəyyən formalarda müəssisə haqqında əldə edilmiş biliklərin akkumulyasiyasına gətirib çıxardır.

**Açar sözlər:** *idarəetmə təhlili, idarəetmə nəzarəti, xidmətlər sahəsi*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Novoselski S.O. Ərazilərin iqtisadi inkişafı: kollektiv monoqrafiya / S.O. Novoselski, M.V.Şatoxin, N.V.Sirokina, O.İ.Rəşidov, L.İ.Kryaçkova, V.A.Levçenko, İ.A.Rəşidova, V.N.Lopin, T.A.Sedıx, A.S.Razumova, M.N.Melentyeva. – Kursk: Nəşriyyat " İşgüzar poliqrafiya ", 2016 – 502 s.*

*2. Novoselski S.O. Regional səviyyədə ərzaq təhlükəsizliyinin idarə olunması: kollektiv monoqrafiya / S.O. Novoselski, M.V.Şatoxin, O.V.Teleqina, N.V.Jaxov, A.A.Zolotaryov– Kursk: Regional açıq sosial in-t, 2015 – 106 s.*

*3. Novoselski S.O. APK idarələrin maliyyə dayanıqlığının ekspress – təhlil metodikası haqqında Məsələyə / Novoselski S.O., O.A.Akulova. – Toplumda: aqrosənaye istehsalatının elmi təminatı: Beynəlxalq elmi- praktiki konfransın materialları. Kursk DKTA. 2014. S. 255 – 258*

*4. Novoselski S.O. APK idarələrin maliyyə dayanıqlığının təmin edilməsi prosesində aktivlərin qiymətləndirilməsi rolu / Novoselski S.O., M.Yevdomikova. Toplumda: aqrosənaye istehsalatının elmi təminatı: Beynəlxalq elmi – praktiki konfransın materialları. Kursk DKTA. 2014. S. 255 – 258*

## РЕЗЮМЕ

**В статье проводиться исследование теоретических и методических основ проведения управленческого анализа на предприятиях сферы услуг**

В настоящее время управленческий учет приобретает ситуационный характер, поскольку он моделирует разные ситуации, связанные с хозяйственной деятельностью предприятия, в виде денежных потоков, изменения собственности, изменения чувствительности к резервной системе. В анализе хозяйственной деятельности, аудите, контроле, прогнозировании разграничивается финансовый и управленческий учет. Управленческий учет, который является непосредственно объектом коммерческой деятельности, представляет собой коммерческую тайну, как в сфере финансового учета, так и в рамках самостоятельного управленческого учета.

В тоже время многие компании утверждают определенные принципы, с помощью которых финансовая отчетность будет использоваться как информационная база для управленческого анализа. Такая ситуация существует из-за стремления компаний к тому, чтобы их внутренняя отчетность соответствовала требованиям к их внешней отчетности. Это позволит сопоставлять показатели деятельности одной компании другой. Вопрос заключается в том, является ли этот довод довольно веским для оправдания одинакового подхода к финансовому и управленческому учету, остается открытым. Данные управленческого учета не должны быть просто побочным продуктом деятельности систем внешней финансовой отчетности. Этот подход достаточно важен, так как он направлен на реализацию идеи создания финансового управленческого учета.


**Ключевые слова:** *управленческий анализ, управленческий контроль, сфера услуг*


## SUMMARY

**The paper presents and researches the theoretical and methodological bases of conducting management analysis in service departments**

Currently, management accounting acquires a situational character, as it models various situations related to the economic activities of the department in the form of cash flows, changes in ownership, changes in the sensitivity of the reserve system. Forecasting in the analysis, audit, control of economic activity is limited to financial and management accounting.Management accounting, which is a direct object of commercial activity, glorifies trade secrets both in the field of financial accounting and in the framework of independent management accounting.

At the same time, many companies approve and adopt certain principles, with their help, the financial statement is intended to be used as a database for management analysis. Such a situation exists at the request of companies to ensure that their internal reporting meets the requirements of their external reporting. This allows one company to align with another company's performance. The question remains as to whether this reason is considered difficult enough to justify the same approach to financial and managementaccounting. Management accounting data should not be the only by-product of the operation of external financial reporting systems. The reason for this is that it was also instructed to implement the idea of creating financial management accounting. This approach is quite important, because it is aimed at implementing the idea of creating financial management accounting.


**Key words:** *management analysis, management control, services department*

UOT: 005-027.21

# DÖVLƏT QULLUĞU SAHƏSİNDƏ KADR SİYASƏTİNİN APARILMASI: KADR SİYASƏTİNİN NÖVLƏRİ, ƏSAS İSTİQAMƏTLƏRİ VƏ VƏZİFƏLƏRİ

**LƏMAN ƏLİBƏYLİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

*E-mail: elibeyli_leman@mail.ru*

Dövlətin ümumi siyasətinin ayrılmaz hissəsi olan kadr siyasəti ümumdövlət səviyyəsində kadrlarla aparılan işin siyasi kursu olub, dövlətin əmək resurslarının formalaşdırılmasına, inkişafına və rasional istifadəsinə, dövlət orqanlarının peşəkar kadrlarla təmin olunmasına və onların qulluq fəaliyyəti üzərində nəzarət mexanizminin formalaşdırılmasına yönələn strategiya kimi çıxış edir.

Dövlətin kadr siyasəti dövlət idarəetməsinin mühüm istiqaməti olub, cəmiyyətin kadrlara olan tələbatının ödənilməsinə yönəlir. Dövlətin kadr siyasətinin məqsədləri, prioritet və prinsipləri dövlətin cəmiyyətdəki rolundan, dövlətin idarə olunması formasından, dövlət mexanizmlərinin demokratikliyindən, dövlət qulluğunun modelindən, üstünlük verilən idarəetmə konsepsiyasından, hakimiyyət qollarının səmərəli qarşılıqlı əlaqəsindən və s. əhəmiyyətli dərəcədə asılıdır. Akademik R.Mehdiyevin yazdığı kimi: “Vətəndaşların öz peşə qabiliyyətlərini sərbəst surətdə inkişaf etdirmək və bundan istifadə sahəsində, insanın imkanlarını üzə çıxarmaq üçün optimal şərait yaradılması sahəsində konstitusiya təminatlarının reallaşdırılmasında dövlətin rolunu gücləndirmək Azərbaycanda kadr siyasətinin strateji istiqamətidir.[3]

Kadr siyasəti ölkənin sosial-iqtisadi inkişafını təmin edən intellektual və peşəkar kadr potensialının yaradılmasına və bu potensialdan səmərəli istifadə olunmasına xidmət edir. O, dövlət aparatında kadrlarla iş proseslərinin və kadrlarla münasibətlərin təşkili və tənzimlənməsi məqsədilə təsbit olunmuş rnəqsəd, vəzifə və prinsiplərin və cəmiyyətin peşəkar potensialının formalaşdırılmasına, inkişaf etdirilməsinə və rasional istifadəsinə yönəlmiş ümummilli strategiyadır. Ədəbiyyatda qeyd olunduğu kimi, dövlətin kadr siyasəti dövlət fəaliyyətinin prioritet istiqamətlərindən biri olub, ölkənin bütün əmək potensialının inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlərin koordinasiyasına yönəlir.

Ümumilikdə yanaşdıqda, dövlət qulluğunda kadr siyasətinin mahiyyətini aşağıdakı müddəalardan ibarət şəkildə təsəvvür etmək olar:

- dövlət orqanlarının kadr tələbatının müəyyənləşdirilməsi və ödənilməsi;
- kadrların səmərəli və şəffaf seçim mexanizminin formalaşdırılması;
- hər bir kadrın öz qabiliyyət və bilik səviyyəsini nümayiş etdirə bilməsi üçün bərabər və səməmli sosial şərtlərin, hüquqi təminatların yaradılması;
- kadr potensialının, kadrların peşəkarlığının inkişaf mexanizminin formalaşdırılması;
- kadr potensialından səmərəli və məqsədəuyğun şəkildə istifadə olunması;
- kadrların səmərəli qiymətləndirmə mexanizminin, obyektiv və şəffaf qiymətləndirmə qaydalarının fomalasdırllması;
- kadrların qulluqda irəliləyiş mexanizminin formalaşdırılması;
- idarəçilik proseslərində və texnolöji proseslərdə yüksək peşəkarlığın təmin olunması və s. [2]

Kadr siyasəti dar praqmatik olmayıb, yalnız dövlət orqanlarını kadrlarla təmin etməyə deyil, həm də onun gələcəkdə yarana biləcək kadr tələbatlarını nəzərə almağa, planlaşdırmağa, kadr potensialını möhkəmləndirməyə, kadrlarla işi səmərəli qurmağa qadir olmalıdır. [5]

## Kadr siyasətinin növləri

Dövlət qulluğunda kadr siyasəti dedikdə, dövlət qulluqçularının, seçilməsi, yerləşdirilməsi, qiymətləndirilməsi və hazırlaşdınlması sahəsində həyata keçirilən siyasi-hüquqi və təşkilati-əməli tədbirlər sistemi başa düşülür. Dövlət qulluğunda kadr siyasəti dövlətin vahid kadr siyasətinin tərkib

hissəsi olub, son nəticədə onun vəzifələrinin yerinə yetirilməsinə istiqamətlənir. [3]

Kadr işi sahəsində həyata keçirilən tədbirlərin əsaslandığı qaydaların və normaların dərk olunma səviyyəsindən və məhz bu səviyyə ilə əlaqədar olaraq idarəetmə aparatının təşkilatdakı kadr işinin vəziyyətinə birbaşa təsirindən asılı olaraq kadr siyasətinin 4 tipi müəyyən olunur:

- passiv kadr siyasəti;
- reaktiv kadr siyasəti;
- önləyici kadr siyasəti;
- fəal kadr siyasəti. [2]

**Passiv kadr siyasəti**

Təşkilatın rəhbərliyi heyətlə əlaqədar heç bir fəaliyyət proqramına malik olmazsa və kadrlarla iş yalnız neqativ nəticələrin aradan qaldırılması üçün həyata keçirilərsə bu cür kadr siyasəti passiv siyasət hesab olunur. Passiv siyasət yürüdülən təşkilatda kadr tələbatının proqnozu, əməyin və heyətin qiymətləndirilməsi vasitələri, ümumilikdə kadr vəziyyətinin diaqnostikası mövcud olmur.

Passiv kadr siyasətinin əsas xüsusiyyətləri bunlardır:

- Təşkilatın strategi fəaliyyət planı, heyətlə əlaqədar fəaliyyət proqramları mövcud olmur;
- Real və səmərəli monitorinq mexanizmi olmur;
- Daxil olan şikayətlər dəyərləndirilmir;
- Yarana biləcək neqativ halların ilkin simptomlarına önəm verilmir;
- Fəaliyyətin qiymətləndirilməsi ya ümumiyyətlə aparılmır, ya da formal, köhnə, səmərəsiz üsullarla aparılır;
- Qiymətləndirmənin nəticələri barədə vaxtında tədbir görülmür və s. [1]

**Reaktiv kadr siyasəti**

Reaktiv kadr siyasəti işdə yarana biləcək xoşagəlməz halların, təhlükələrin, çatışmazlıqların və ya nöqsanların ilkin simptomlarını nəzarətdə saxlamağı və onların yaranma səbəblərinə və inkişaf xüsusiyyətlərinə nəzarət edərək lazımi tədbirlər planını hazırlamağı tələb edir.[1]

Əsas xüsusiyyətləri bunlardır:

- Kadrlarla iş üçün proqramlar və proqnozlar hazırlanır;
- iş yerləri və işçilərin fəaliyyəti müntəzəm qiymətləndirilir;
- motivasiya strukturunun diaqnostikasına əsasən hər əməkdaşa fərdi yanaşmaya əsasın stimul sistemi qurulur;
- iş yerlərində münaqişəli vəziyyətlərə yol verilməməsi üçün doğru texnikalar seçilir, tətbiq olunur və s. [1]

Önləyici kadr siyasəti

Önləyici kadr siyasəti yürüdən təşkilatlar təşkilatdaxili vəziyyətin inkişaf prosesinə təsir vasitələrinə malik olmurlar. Təşkilatın inkişaf proqramlarında kadrların kəmiyyətinə və keyfiyyətinə olan tələbatın qısamüddətli və orta müddətli proqnozları da yer alır. Bu cür təşkilatlar kadrlarla işdə əsas diqqəti məqsədli kadr proqramlarının işlənib hazırlanmasına yönəldirlər.[2]

**Fəal kadr siyasəti**

Əgər təşkilatın rəhbərliyi yalnız proqnozlara deyil, həm də şəraitə təsiretmə vasitələrinə malikdirsə, kadr xidməti isə böhran əleyhinə kadr proqramlarını, vəziyyətin müntəzəm monitorinqini keçirtməyə və daxili və xarici şəraitin parametrlərinə uyğun olaraq proqramların icra vəziyyətini korrektə etməyə qabildirsə, təşkilatda yürüdülən siyasətfəal kadr siyasəti hesab olunur.

Fəal kadr siyasətinin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Təşkilatın vahid strategiyası olur, dəyərlər, prinsiplər, dəqiq strateji hədəflər və görüləcək tədbirlər müəyyən olunur;
- Strategiyaya uygun olaraq təşkilatın tədbirlər planı hazırlanır və planın icra vəziyyəti daimi nəzarətdə saxlanılır;
- Böhranlı vəziyyətlərdə idarəetməyə dair proqramlar hazırlanır və s. [1]

Yönəldiyi subyektlərdən, kadr tərkibinin formalaşdırılması zamanı xarici mühitə münasibətdə açıqlıq dərəcəsindən asılı olaraq kadr siyasətinin iki növünü ayırmaq olar:

- açıq kadr siyasəti;
- qapalı kadr siyasəti. [2]

Açıq kadr siyasəti

Kadr siyasətinin bu növü vəzifəyə qəbulun potensial əməkdaşlar üçün şəffaf olmasını nəzərdə tutur. Bu cür kadr siyasəti yürüdən təşkilatda işə ən aşağı vəzifədən də başlamaq olar, rəhbərlik səviyyəsində olan vəzifələrdən də. Açıq kadr siyasətinə üstünlük verən təşkilat müvafiq ixtisasa malik olan istənilən mütəxəssisi iş təcrübəsini nəzərə almadan işə qəbul edir. [2]

Əsas xüsusiyyətləri aşağıdakılardır:

- işə qəbul şəffaf və hamı üçün bərabər

mexanizmlə aparılır; .

➢ işə ən aşağı səviyyədən də başlamaq olar, ən yuxarı səviyyəli vəzifələrdən də;

➢ rəqabətqabiliyyətli, yüksək ixtisaslı kadrlar axtarılır;

➢ işçilərin peşə təhsilinin, təcrübə və təlimlərinin əsasən xarici, təşkilatdan kənar təlim və təcrübə mərkəzlərində həyata keçirilməsi və s. [1]

**Qapalı kadr siyasəti**

Kadr siyasətinin bu növünə üstünlük verən təşkilatlarda heyətin yenilənməsi yalnız təşkiiat daxilindəki aşağı vəzifələri tutan şəxslərin qulluqda irəliləyişi hesabına aparılır.[1]

Əsas xüsusiyyətləri aşağıdakılardır:

➢ işçi qüvvəsi çatışmadıqda kənardan peşəkar cəkb etmək imkanının olmaması;

➢ vakant vəzifənin əsasən təşkilatın öz əməkdaşları hesabına tutulması;

➢ işçilərin peşə təhsilinin, təcrübə və təlimlərinin əsasən daxili təlim və təcrübə mərkəzlərində həyata keçirilməsi;

➢ işçilərin motivasiyasına önəm verilməsi və s. [1]

Açıq və qapalı kadr siyasətinin müqayisəli təhlilindən aşağıdakı fərqli xüsusiyyətləri müşahidə etmək olar: [2]

| **Kadr prosesi** | **Açıq kadr siyasəti** | **Qapalı kadr siyasəti** |
|---|---|---|
| Heyətin seçilməsi | Təşkilatdakı bütün vəzifələrin kənardan gələn namizədlər üçün açıq olması, əmək bazarında yüksək rəqabətin mövcudluğu. | İşçi qüvvəsinin çatışmazlığı, təşkilata kənar mənbələrdən yeni işçi qüvvəsinin gəlməməsi. |
| Heyətin adaptasiyası | Yeni əməkdaşın təşkilatdaxili rəqabət münasibətlərinə tez daxil olmaq imkanının mövcudluğu, heyətə yeni daxil olan əməkdaşların təklif etdiyi yeni yanaşmaların təşkilatda tətbiqi. | Yeni əməkdaşın "qəyyum" institutunun köməyi ilə səmərəli adaptasiya, yüksək dərəcəli yekdilliklə, həmrəyliklə xarakterizə olunan kollektivin, ənənəvi yanaşmaların mövcudluğu. |
| Heyətin inkişaf etdirilməsi və təhsili | Əməkdaşların əlavə peşə təhsilinin əsasən təşkilatdan kənarda fəaliyyət göstərən mərkəzlərdə, müvafiq sahələrdə mütərəqqi təcrübəyə malik olan xarici dövlətlərdə həyata keçirilməsi. | Əməkdaşların əlavə peşə təhsilinin əsasən daxili təlim mərkəzlərində həyata keçirilməsi. |
| Heyətin irəliləyişi | Heyətin seçilməsi tendensiyasına görə əməkdaşların vəzifədə yüksəliş imkanının mürəkkəb olması. | Yuxarı vəzifələrə təyinat zamanı həmişə təşkilatın öz əməkdaşlarına üstünlük verməsi, əməkdaşların karyerasının planlaşdırılması üçün tədbirlərin həyata keçirilməsi. |
| Motivasiya və stimullaşdırma | Stimullaşdırma məsələlərinə (xarici motivasiyaya) üstünlük verilməsi. | Motivasiya məsələrinə (təhlükəsizliyin, stabilliyin və s. tələbatların ödənilməsi) üstünlük verilməsi. |
| İnnovasiyaların tətbiqi | Yeni əməkdaşlar tərəfindən daima innovasiya xarakterli təsirin mövcudluğu, əsas innovasiya mexanizminin müqavilə və əməkdaşın, müəyyənləşdirilməsindən ibarət olması. | İnnovasiyaların işlənib hazırlanması prosesinə dair xüsusi təşəbbüs göstərilməsinin zəruriliyi, dəyişikliklərə görə aidiyyat və məsuliyyət hissinin yüksək dərəcədə olması. |

**Kadr siyasətinin əsas istiqamətləri və vəzifələri**

Kadr siyasətinin əsas istiqamətləri və vəzifələri kadrlarla aparılan iş prosesində həyata keçirilir. Kadr işi sanki kadr siyasətinin icra mexanizmi funksiyasını yerinə yetirir. Ədəbiyyatda haqlı olaraq kadrlarla iş zamanı idarəetmənin strukturunun, məqsədinin, metodunun, prinsiplərinin, funksiyalarının və s. nəzərə alınmalı olduğu qeyd edilir. [1]

Kadrlarla işin əsas istiqamətləri bunlardır:

➢ kollektivin kadr potensialının inkişafının, kəmiyyət və keyfiyyət parametrlərinin proqnozlaşdırılması;

➢ kadrların peşə karyerasının planlaşdırılması və realizəsi;

➢ kadrların qulluqda irəliləyişinin stimullandmlması;

➢ kadrların peşə hazırlığının elmi-metodiki cəhətdən təminatı;

➢ kadrların hüquqi və sosial müdafiə sisteminin yaradılması;

➢ dövlət qulluqçularının fəaliyyətində səmərənin və peşəkarlığın yüksəldilməsinin stimullandırılması və s. [1]

Kadr siyasətinin vacib amillərindən biri də işçilərin sosial tələbatlarının təmin edilməsidir. Bunun üçün də səmərəli sosial təminat sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edir. [4]

Ümumilikdə yanaşdıqda, kadr siyasətinin əsas vəzifələrinə bunları aid etmək olar:

➢ kadr tələbatının müəyyənləşdirilməsi;

➢ bilikli və bacarıqlı, yüksək şəxsi keyfiyyətlərə malik olan kadrları dövlət qulluğuna cəlb etmək;

➢ kadrların seçilməsi və düzgün yerləşdirilməsi;

➢ kadr potensialının aşkar edilməsi;

➢ kadr potensialının inkişaf etdirilməsi;

➢ kadr potensialından səmərəli və məqsədəuyğun şəkildə istifadə olunması;

➢ kadr heyətinin optimal şəkildə yenilənməsi;

➢ təşkilati-ştat strukturunun optimallaşdırılması;

➢ rəhbər vəzifələrə kadr ehtiyatının formalaşdırılması;

➢ kadr heyətinin səmərəli qulluq fəaliyyətinə istiqamətləndirilməsi;

**Açar sözlər:** *dövlət qulluğu, kadr siyasəti, kadr tələbatı, kadr ehtiyatı, dövlət orqanı, dövlət idarəetməsi*

## ƏDƏBİYYAT SİYAHISI:


1. *“Dövlət qulluğu və idarəetmə”, N.Ş.Hüseynova, Bakı-2017;*
2. *“Dövlət qulluğu və kadr siyasəti”, N.Ş.Hüeynova, Bakı-2013;*
3. *“Dövlət qulluğunun hüquqi əsasları”, Ə.H.Rzayev, Bakı-2011;*
4. *“Heyətin idarə edilməsi”, T.Y.Bazarov, B.L.Yeremin, Bakı-2012;*
5. *“İnsan resurslarının idarə edilməsi”, T.Ə.Quliyev, Bakı-2013.*


**Laman Alibeyli**
**Master, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

### Carrying out human resource policy in the civil service: types of personnel policy, key directions and tasks

### SUMMARY

Personnel policy as an integral part of the general policy of the state has been a political course of work with the staff at the state level, formation of labor resources of the state, development and rational use, staffing of state bodies and serve as a strategy for establishing a control mechanism for their service activities.

Human resources policy contributes to the development of intellectual and professional human resources, ensuring socio-economic development of the country and it helps to make the most of its potential.

**Key words:** *civi service, personnel policy, staffing requirements, human resources, public authority, public administration*

**Ламан Алибейли**
**Магистрантов Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

### Проведение кадровой политики в сфере государственной службы: виды, основные направления и задачи кадровой политики

### РЕЗЮМЕ

Кадровая политика как неотъемлемая часть общей политики государства представляет собой политический курс работы с персоналом на государственном уровне, формирование трудовых ресурсов государства, развитие и рациональное использование, штатное расписание государственных органов и служить в качестве стратегии для создания механизма контроля за их обслуживающей деятельностью.

Кадровая политика способствует развитию интеллектуальных и профессиональных кадровых ресурсов, обеспечивая социально-экономическое развитие страны и это помогает максимально использовать свой потенциал.

**Ключевые слова:** *государственная служба, кадровая политика, кадровые потребности, человеческие ресурсы, государственный орган, государственный контроль*

UOT: 334.012.62/.64;
334.7.012.62/.64

# İNNOVATİV FƏALİYYƏTİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**ÜLVİYYƏ NİFTƏLİYEVA**
*ADİU-nun dissertantı*

*E-mail: ulviyye.nifteliyeva89@gmail.com*

**Giriş**

İnnovasiyaların fasiləsiz tətbiqi bütövükdə dövlətin istənilən sahəsinin başlıca inkişaf sahələrindən biri sayılır. Azərbaycan Respublikası iqtisadiyyatının gələcək perspektivləri innovasiya fəaliyyətinin inkişafı ilə bağlıdır ki, bu da bilavasitə əhalinin həyat səviyyəsinə, sosial-iqtisadi artım tempinə, rəqabətqabiliyyətliliyinə və s. təsir göstərir. Bu zaman inkişafı və istifadəsi ixrac-xammal tipli istehsaldan innovativ, bilik iqtisadiyyatına keçməyə imkan verən bilik və insan kapitalı həlledici əhəmiyyət kəsb edir. Odur ki, rəqabət üstünlüklərinin artırılması, innovasiya fəaliyyətinin inkişafı hesabına iqtisadiyyatın sahələrinin mövcud potensialını genişləndirmək zərurəti yaranır.

Maşınqayırma sahəsi innovasiyalı inkişaf üçün əhəmiyyətli potensiala malikdir. Məlum olduğu kimi, sözügedən sahənin müəssisələri avadanlıq, maşınlar, cihazlar, nəqliyyat vasitələri istehsal edərək, iqtisadiyyatın bütün qalan sahələrinin inkişafı üçün müəyyən bir əsas yaradır. Maşınqayırma müəssisələrinin innovasiyalı inkişaf yoluna keçidi Azərbaycan Respublikasına və onun regionlarına öz dayanıqlı inkişafını, eləcə də əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmək imkanı verir.

Azərbaycanda emal sənayesi məhsulunda maşınqayırma sənayesinin payı çox kiçikdir. Bu sahənin inkişafının daxili bazar hesabına təmin etmək imkanları məh-duddur. Çünki daxili bazarın həcmi maşınqayırma məhsullarının istehsalının mini-mal səmərəli ölçüsünü təmin etmir. 2017-ci ildə maşınqayırma sahəsinin ümumi məhsulunun cəmi həcmi 595,6 mln. manata bərabər olmuşdur. Eyni zamanda, bu məhsulların dəyərinin ölkədə yaradılan hissəsi kiçik olmuş və əsasən xarici ölkələrdən idxal edilən hissələr hesabına istehsal edilmişdir.

Maşınqayırma sahəsinin inkişaf səviyyəsindən ölkənin və onun regionlarının bir çox göstəriciləri, o cümlədən ümumi daxili məhsulu, əmək məhsuldarlığı, maşınqayırmadan asılı digər sahələrin inkişaf səviyyəsi, dövlətin müdafiə qabiliyyəti, əhalinin nəqliyyatla təminliyi, istehsalın ekoloji təhlükəsizlik səviyyəsi, əhalinin həyat səviyyəsi və s. asılıdır.

Bu, Azərbaycan Respublikası iqtisadiyyatının sahələrinin innovativ inkişaf yoluna keçidinin zəruriliyini müəyyən edir. Bununla əlaqədar olaraq, maşınqayırma müəssisələrinin innovasiyalı inkişafının mahiyyəti haqqında elmi mühitdə yaranmış təsəvvürləri nəzərdən keçirmək lazımdır. Tədqiqat çərçivəsində maşınqayırma müəssisələri kimi bütün mümkün maşınlar, əmək alətləri, cihazlar, istehlak predmetləri və Azərbaycan Respublikasının subyektləri çərçivəsində müdafiə təyinatlı məhsul istehsal edən sahə başa düşülür. Yüksək texnologiyalı maşınqayırma müəssisələri ən yeni və mütərəqqi müasir texnologiyalardan istifadə edirlər. Bu zaman müasir mərhələdə elmin inkişafına cavab verən elmi-tədqiqat fəaliyyəti və təcrübi-konstruktor işlərinin nəticələri istifadə olunur.

**1. Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsinin mahiyyəti**

Yüksək texnologiyalı maşınqayırma müəssisəsi – məhsul istehsalında üstün olaraq texnologiyalar, proqramlar istifadə edən, minimal əl əməyinə malik müəssisədir.

İqtisadi lüğətlərdə idarəetmə subyektləri, orqanlar tərəfindən əhaliyə və iqtisadi obyektlərə onların təsirini yönəltmək və arzuolunan nəticələri almaq

məqsədilə həyata keçirilən şüurlu məqsədyönlü təsir kimi şərh olunur [1]. Bundan irəli gələrək, demək olar ki, maşınqayırma müəssisələrinin innovasiyalı inkişafının idarə edilməsi onların innovativ fəallığını yüksəltmək məqsədilə insan kapitalının effektiv istifadəsi əsasında maşınqayırma müəssisələrinin innovativ proseslərinə təsiri üzrə şüurlu fəaliyyətini özündə ehtiva edir.

Müəssisələrdə innovasiyalar səmərəliliyin, məhsuldarlığın, keyfiyyətin və rəqabət mövqeyinin artırılması hesabına fəaliyyət nəticələri ilə bağlıdır. Müəssisələr öz bazar paylarını artırmaq və onların artımını təmin etmək üçün fəal şəkildə innovasiyalar axtarırlar [2, s.441]. Bununla yanaşı, innovasiyalar həmişə arzu olunan nəticələr vermir və mənfi nəticələrə səbəb ola bilər. İnnovasiyaların nəticələrini proqnozlaşdırmaq üçün bir çox müxtəlif üsullardan istifadə olunur: bir sıra iqtisadi nəzəriyyələr, riyazi düsturlar, idarəetmə strategiyaları və kompüterləşdirilmiş biznes modellər.

İnnovasiya fəaliyyəti yeni biliklərə, yeni məhsullara və xidmətlərə, texnologiyalara müraciət edir [3, s. 80]. İnnovasiya fəaliyyəti və idarə olunması məhsul strategiyasının, xərclərin, məhsuldarlığın artırılmasının və nəticədə biznesin artımının yaranması kimi iqtisadi kateqoriyalara təsir göstərir.

Bununla belə, biznesin böyüməsi o qədər də asan deyil: bir çox bazarlar yeni və ya tənzimlənən bazarlarda yeni rəqiblərin ortaya çıxması nəticəsində, yenilikləri daha yaxşı ola bilər. Beləliklə, menecer risk, tədbirlərin yerinə yetirilməsini və yenilikləri tətbiq etməlidir və qəbul etməlidir.

Rəqabət qabiliyətli qalmaq üçün, şirkətlər rəqiblərinə nisbətən daha yaxşı və daha ucuz məhsullar və xidmətlər təqdim etməməlidirlər [4, s.173]. Onlar həmçinin funksiyalar və ya əlaqəli xidmətlər əlavə etməli, məhsuldarlığı artırmalı və xərcləri daha tez azaltmalıdırlar. Onlar daha sürətli olmalı, yeni istehsal xəttləri açmalı, genişlənməli, tamamilə yeni bazarlar yaratmalı və müəssisənin vençur strategiyasını inkişaf etdirməlidirlər.

Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsinin mahiyyətini açıqlamaq üçün tərəfimizdən aşağıdakı xüsusiyyətlər ayrılmışdır:

- innovasiyalı inkişaf prosesi üçün bu məqsədə müxtəlif yollarla çatmaq üsulları mümkündür;
- regional səviyyədə sahənin innovasiyalı inkişaf prosesinin həyata keçirilməsi üçün regional innovasiya sisteminin mövcudluğu lazımdır;
- maşınqayırma müəssisələrinin innovasiyalı inkişafının səmərəliliyi onların innovativ fəallığına daxili motivasiyasından asılıdır;
- innovativ inkişafa maşınqayırma sahəsində dövlətin innovasiya siyasətinin idarəedici təsiri təsir göstərir;
- müəssisənin innovativ inkişaf qabiliyyəti onların innovativ potensial səviyyəsi ilə xarakterizə olunur, innovasiyalı inkişaf isə öz növbəsində nə qədər yuxarıdırsa, mövcud innovativ potensialdan istifadə bir o qədər tam və səmərəli olacaqdır;
- innovasiyalı inkişafın səmərəli idarə edilməsi üçün innovativ imkanları qabaqcadan nəzərdən keçirmək və inkişaf resurslarını lazımi istiqamətdə vaxtında cəmləşdirmək lazımdır;
- innovativ inkişaf prosesində dövlət-özəl tərəfdaşlığına əsaslanan idarəetmə strukturlarının formalaşması baş verir.

İnnovativ inkişaf prosesi təkrarolunmazlığı ilə, nəticə və effektin alınması müddətlərinin müəyyən edilməsinin mümkünsüzlüyü ilə və xərclərin dəqiq qiymətləndirilməsi ilə xarakterizə olunur. Bu zaman eyni məqsədlər müxtəlif üsul və formalarla əldə olunur. Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsi prosesində daha yaxşı müsbət effektli məqsədə nail olmağın daha səmərəli üsulunun müəyyən edilməsi vacib sayılır.

Azərbaycan Respublikasının maşınqayırma kompleksinin innovativ inkişafının əsas məqsədi onun tərkibinə daxil olan müəssisələrin səviyyəsinin yüksəldilməsi, eləcə də maşınqayırma məhsulunun modernləşdirilməsi, onun ixracının genişləndirilməsi sayılır. Buna nalil olmaq intellektual potensialdan effektiv istifadə, rəqabətqabiliyyətli məhsul və xidmətlərin yeni növlərinə biliklərin əmələ gəlməsi, yayılması və reallaşdırılması əsasında mümkündür. Bu, innovasiya sisteminin funksiyalarından biridir.

Bu sistemin başlıca məqsədi resurs-xammal sektorunun payını və əmyəə və xidmətlər istehslının resurs tutumluğunu azltmaqla iqtisadiyyatın intensivləşdirilməsi əsasında həyatın və ətraf mühitin keyfiyyətinin artırılması istiqamətində ölkə iqtisadiyyatının inkişafının təmin edilməsindən ibarətdir.

**2. Maşınqayırma müəssisələrində innovasiya siyasətinin məqsəd və vəzifələri**

Maşınqayırma kompleksinin innovativ inkişafına idarəedici təsir dövlətin innovasiya siyasəti vasitəsilə həyata keçirilir. Dövlət bu siyasətin vasitəsilə innovasiya fəaliyyətinə dəstək verir, onun inkişafının əsas istiqamətlərini müəyyən edir, potensialın effektiv istifadəsinə yönəldilmiş tədbirlər işləyib hazırlayır, Azərbaycan iqtisadiyyatının daha da inkişafına kömək edir.

İqtisadiyyatın sahələrinə münasibətdə innovasiya siyasətinin məqsəd və vəzifələri onların xüsusiyyətləri ilə, inkişaf potensialı, səviyyəsi ilə müəyyən edilir. Maşınqayırma dünya bazarında rəqabətqabiliyyətliliyinə yaxın məhsul istehsal edən sahələrə aiddir. Beynəlxalq səviyyədə maşınqayırma öz əhəmiyyətinə görə digər sahələri üstələdiyinə görə, bu sahənin dünyanın emal bazrında şəriksiz yer tutmağı gerçəkləşmişdir. Həmin sektorun tərkibində ən sürətli inkişafa malik elektronika və elektrik avadanlıqları istehsalını, eləcə də bu avadanlıqlar vasitəsilə istehsalı aparılan məhsulları əlavə dəyərin yaradılmasında əhəmiyyətinə görə ön sıraya aid edirlər. Eyni zamanda, nəqliyyat maşınqayırmasının, cihazqayırmanın və aerokosmik sənayenin də mühüm əhəmiyyətini də vurğulamaq lazımdır. Dünya iqtisadiyyatında maşınqayırmanın yüksək multiplikasiya effektinə malik olması başqa yaxın sahələrə də inkişaf baxımından müsbət təsir göstərir.

Maşınqayırma sənayenin sahələri içərisində yüksək ixtisasa malik əmək tutumluluğu ilə də təmsil olunur. Əmək resurslarını cəlb etmək nöqteyi-nəzərindən daha çox seçilən sahələrə cihazqayırmanı, elektrik avadanlıqları istehsalını, aerokosmik sənaye və nüvə sənayesi maşınqayırmasını aid edirlər. Ona görə də, maşınqayırma mərkəzlərini qurarkən seçilən məkanın yüksək ixtisasa malik əmək qüvvəsinə, sənaye mədəniyyətinə, elmi-tədqiqat mərkəzlərinə malik olub-olmadığı xüsusi diqqət verilməlidir. Dünya təcrübəsi göstərir ki, xammal bazasının yaxınlığı amili bir o qədər əhəmiyyətli deyil və bəzən ağır maşınqayırmaya aid bəzi altsahələrdə bu meyara üstünlük veilir. Bununla yanaşı, xammalın quruluşunda qara metallurgiya həcmində azalma, əlvan metallurgiyanın və neft-kimyanın istehsalı həcmində isə artma trendini müşahidə edirik.

Beləliklə, maşınqayırma müəssisələri sahəsində innovasiya siyasəti sahələrə potensialını yüksəltməyə və inkişaf etmiş ölkələrlə bərabər səviyyədə bazarın tam dəyərli iştirakçısı olmağa imkan verən dünya səviyyəli yerli və xarici elmi və texniki nailiyyətlərin sürətli sənaye mənimsənilməsinə yönəldilmişdir.

16 mart 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndə Azərbaycan iqtisadiyyatının mühüm bir hissəsini təşkil edən 8 prioritet sektor arasında xüsusi diqqət veiriləcək sektorlardan biri də ağır sənaye və maşınqayırma sektorudur.

Bu əsas sektorların hər biri üçün, o cümlədən maşınqayırma kompleksi üçün ayrıca hesabatın (həm diaqnostik hesabat, həm də yol xəritəsi) tərtib olunması nəzərdə tutulur. Hesab edirik ki, maşınqayırma sənayesində innovativ inkişafi təmin etmək məqsədilə 2025-ci ilə qədər olan dövrdə Azərbaycanın maşınqayırma sənayesi üzrə dövlət kompleks inkişaf proqramının işlənib hazırlanmasına ehtiyac vardır. Həmin proqramda innovativ işləmələrin, resursa və enerjiyə qənaət texnologiyalarının, müəssisənin texniki və texnoloji cəhətdən yenidən silahlandırılmasının tətbiqi ilə bağlı layihələrin reallaşdırılmasının stimullaşdırılması; ən mühüm innovasiya layihələrinin işlənib hazırlanması və reallaşdırılması daxil olmaqla, özəl-dövlət tərəfdaşlığı mexanizmlərinin inkişafı kimi məsələlər öz əksini tapmalıdır.

Maşınqayırmanın bir sıra sahələrində iqtisadi artımın müəyyənedici amili dövlət dəstəyi olmalıdır. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini və kompleks inkişafını təmin etmək məqsədilə yüksək texnologiyalı sahələrin, energetika və nəqliyyat infrastrukturun intensiv inkişafı milli maşınqayırma məhsulunun üstün istifadəsi hesabına həyata keçirilməlidir. Bu prinsipin reallaşdırılması milli iqtisadiyyatın sistemli və proporsional inkişafı və ölkənin texnoloji təhlükəsizliyinin təminatı üçün şərait yaradacaqdır.

Fikrimizcə, xüsusi iqtisadi zonaların yaradılması yalnız güzəştlərin verilməsi ilə deyil, ərazidə inkişaf etdiriləcək istehsalların müəyyən olunması, bunun üçün zəruri olan infrastrukturun (yol, elektrik enerjisi, qaz, su təminatı və s.) yaradılması, kadrların hazırlanması və s. məsələləri əhatə etməlidir. Ölkədə ayrı-ayrı regionların inkişafında klaster

yanaşmasının təmin olunması üçün xüsusi sənaye zonalarının yaradılmasının böyük əhəmiyyəti vardır. Belə zonaların yaradılması innovasiyanın diffuziyasına, istehsalın həcminin artması (nisbətən kiçik istehsalların bir ərazidə yerləşməsi hesabına) nəticəsində miqyasdan qənaətə, təchizat və satış müəssisə-lərinin yaranmasına səbəb olar. Bu da, xüsusi sənaye zonalarında istehsal edilən məhsulların keyfiyyətinin artmasına, qiymətinin isə aşağı düşməsinə səbəb olar.

**3. Səmərəli innovasiya siyasətinin işlənib hazırlanması və reallaşdırılması yolları**

Bununla yanaşı, həm də səmərəli innovasiya siyasətinin işlənib hazırlanması və reallaşdırılması və onun vaxtında təshihi məqsədilə innovativ potensial səviyyəsinin daimi monitorinqinin aparılması zəruriliyini qeyd etmək vacibdir.

İnnovativ potensialın mahiyyətinə geniş mənada innovativ proseslərin həyata keçirilməsi üçün şərtlərin, amil və resursların məcmusu kimi baxılır.

Maşınqayırma sahəsinin innovativ potensialına iki mövqedən baxmaq lazımdır. Bir tərəfdən, bu sahənin məcmu potensialının bir hissəsidir, digər tərəfdən, maşınqayırmanın innovativ potensialı özündə iqtisadiyyatın innovativ potensialının bir hissəsini ehtiva edir[5, s.27].

Hər hansı prosesin idarə edilməsi yalnız o vaxt mümkündür ki, onun əsas inkişaf istiqamətləri məlum olsun, xüsusiyyətləri və qanunauyğunluqları dərk edilsin. Odur ki, maşınqayırma müəssisələrinin innovativ inkişafının effektiv idarə edilməsi üçün innovativ imkanlara qabaqcadan baxmaq, resursları vaxtında lazımi istiqamətdə cəmləşdirmək, innovativ prosesləri kompleks və sürətlə idarə etmək, bu zaman meydana çıxan riskləri minimumlaşdırmaq lazımdır.

Hazırda innovativ inkişafın idarə edilməsi zamanı meydana çıxan problemlərdən biri ondan ibarətdir ki, dövlət büdcəsi heç də həmişə maşınqayırma sənayesi və bütövlükdə ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən xüsusilə də iri, uzunmüddətli bir çox innovativ layihələri müstəqil maliyyələşdirmək iqtidarında olmur. Bununla əlaqədar olaraq, dövlət-özəl tərəfdaşlığı prinsipləri əsasında xüsusi investorların maliyyə resurslarının cəlb edilməsi zəruriliyi meydana çıxır. İctimai cəhətdən vacib əhəmiyyət əhəmiyyət kəsb edən innovativ layihələrinin reallaşdırılması prosesində, o cümlədən maşınqayırmada dövlətin, cəmiyyətin, elmin və biznesin qarşılıqlı təsiri nəticəsində bütün iştirakçılar müəyyən nəticələr əldə etmək imkanına malik olurlar. Perspektivdə dövlət-özəl tərəfdaşlığı ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəlməsinə və əhalinin həyat keyfiyyətinin yaxşılaşmasına gətirib çıxaracaqdır.

Maşınqayırmanın innovativ inkişaf mexanizmlərinin öyrənilməsi zəruriliyini vurğulayan amilləri ayıraq:

1. Maşınqayırma emal istehsalı sahəsi olub, digər sahələri maşınlarla, cihazlarla, avadanlıqlarla, nəqliyyat vasitələri ilə, istehlak predmetləri ilə təmin etməklə, onların inkişaf səviyyəsini müəyyən edir.

2. Maşınqayırma sahəsi emal istehsallarının strukturunda nisbətən az xüsusi çəkiyə malikdir. Hazırda bu göstərici 2015-ci ilin məlumatına görə, 5,9 faizə bərabərdir.

Sənaye müəssisələrinin innovativ inkişafının idarə edilməsinin nəzəri əsaslarının öyrənilməsi bu prosesin əsas prinsiplərini ayırmağa imkan vermişdir[6]:

- Elmilik prinsipi. İnnovativ inkişafın idarə edilməsi prosesində metodların tətbiqi bu sahədə elmin müasir nəzəri və praktiki nailiyyətlərinə və idarəetmə təcrübəsinə əsaslanmalıdır.
- Çeviklik və uyğunluq prinsipi. İdarəetmənin metodlarını, texnologiya və üsullarını sahənin fəaliyyətinin daxili və xarici mühitinin dəyişən şəraitinə uyğun olaraq daim təkmilləşdirmək lazımdır.
- Effektivlik prinsipi. Maşınqayırma sahəsi səviyyəsində innovasiyaların tətbiqi iqtisadi, sosial, ekoloji, elmi-texniki və s. effektlərin alınmasına yönəldilməlidir.
- Rəqabətqabiliyyətliliyi prinsipi. Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsinin əsas məqsədi onların rəqabətqabiliyyətliliyi səviyyəsini, o cümlədən dünya bazarında, yüksəltməlidir.
- Qabaqcadan müəyyənetmə prinsipi. İnkişafın proqnozlaşdırılması zamanı iqtisadi proseslərin inkişaf dövrliliyini nəzərə almaq lazımdır ki, bu da idarəedici təsiri gücləndirir.
- Göstəricilərin dəqiqliyi və etibarlılığı prinsipi. Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsi prosesində sahənin

müasir vəziyyətinin etibarlı göstəricilərini və innovasiyaların idarəetmə nəzəriyyəsini istifadə etmək zəruridir.

- İnnovativ potensialın idarə edilməsi prinsipi. İnkişafın istiqamət və nəticələri mövcud potensialdan asılıdır. İnnovativ inkişafın idarə edilməsi innovativ fəallığın yüksəldilməsi üçün əsas sayılan innovativ potensialın artırılmasına istiqamət olmalıdır.

- Nəticəyə yönəlik prinsip. Maşınqayırma müəssisələrinin innovativ inkişafının idarə edilməsi gələcəkdə arzuolunan vəziyyətin əldə olunmasına, yəni onların innovativ fəallığının artırılmasına yönəldilməlidir.

## Nəticə

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, maşınqayırma məhsulu Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinin əsası sayılır. Sahədə innovativ fəaliyyətin inkişafı yeni səviyyədə müəssisələrə çıxmağa imkan verir. Maşınqayırma müəssisələrinin innovativ inkişaf prosesi üçün eyni bir məqsədə nail olmağın müxtəlif üsulları səciyyəvidir. Müəssisənin innovativ inkişaf qabiliyyəti onların innovativ potensialının səviyyəsi ilə xarakterizə olunur. İnnovativ inkişaf səviyyəsi isə öz növbəsində nə qədər yüksək olarsa, mövcud innovativ potensialdan daha tam və səmərəli istifadə ediləcəkdir.

**Açar sözlər:** *maşınqayırma, müəssisə, innovativ inkişaf, idarəetmə, innovasiya siyasəti.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Лозовский Л.Ш., Стародубцева, Е.Б. Современный экономический словарь. М.: ИНФРА-М, 2007. 632 с.*

*2. Нещерет А.К. Особенности повышения конкурентоспособности страны на основе использования кластерной стратегии развития. Международная научно-практическая конференция. – Минск, 22-23 апреля, 2010. – Ч. 1. – Мн.: Акад. упр. при Президенте Респ. Беларусь, 2010. – С. 439 – 443.*

*3. Нещерет А.К. Общие координаты инновационного развития в условиях Евразийской интеграции / А.К. Нещерет // Управленческое консультирование. 2011. № 2 – с. 77 – 86.*

